

Azərbaycanın əməkdar incəsənət
xadimi, Azərbaycan Yazıçılar Birliyinin üzvü
Elman Həbibin (Hacıyev Elman Həbib oğlu)
"Bu, mən görən şəhər deyil" kitabı oxucularla
16-cı görüşüdür. İlk kitabı "Günəş qatarı" "Yazıçı"
nəşriyyatında (1981) çap edilib. Sonrakı illərdə
"Duzlu uşaqlar" ( "Gənclik",1983), "Yoluma çıx"
( "Yazıçı",1985), "Nar və gilənar" ("Gənclik",1988),
"Ömrümün göy qurşağı" ("Qorqud",1998),
"Həqiqət günəşi" ("Qeyrət", 1998), "Ömrüm-günüm
mənim" ( "Elm",1999), "Hərənin öz işi" ("Yurd",1999),
"Sevən ömrü" ( "Elm", 2000), "Sənli-sənsiz günlərim"
("Sabah" 2001) "Allah salamı" ("Sabah" 2002),
"Günəşin vətəni" ( "Əcəmi" 2004), "Məmləkətim,
məhəbbətim" ("Sabah" 2006) kitabları çap olunub.
Onun "Sahilsiz çaylar" dramı Naxçıvan Dövlət
Musiqili Dram Teatrında tamaşaya qoyulub.
Naxçıvan televiziyasında onun
"Ağ ölümün ölümü" dram əsəri əsasında 2 hissəli
tamaşa çəkilib. Sizə təqdim etdiyimiz bu kitaba
şair-dramaturq Elman Həbibin səkkiz
dram əsəri və bir mono-dramı daxil edilmişdir.

ELMAN HƏBİB

# BU, MƏN GÖRƏN ŞƏHƏR DEYİL

Bakı
Şirvannəşr
2006

*Beynəlxalq Qızıl Priz laureatı (Madrid,2004)*
*Şirvannəşr, 125(998) 2006*
*Naşir Qəşəm İsabəyli*

Redaktoru
Muxtar Qasımzadə
şair

ELMAN HƏBİB

**Bu, mən görən şəhər deyil**

*Bakı, Şirvannəşr, 2006*
*392 səh.*

83.3. Аз (2)
E------------------
054

© E.Həbib, 2006

*Bakı-Az 1021. Badamdar şos. 77. Тел: 492-92-27,*
*492-93-72, 402-70-94, (050)316-23-40*

BU KİTAB
AZƏRBAYCANIN
AYRILMAZ
TƏRKİB HİSSƏSİ OLAN
NAXÇIVAN MUXTAR
RESPUBLİKASINDA
APARILAN QURUCULUQ
İŞLƏRİNƏ HƏSR OLUNUR.

Müəllif

# BU, MƏN GÖRƏN ŞƏHƏR DEYİL

(MONO- DRAM)

# BİR AKTYORUN TEATRI

Bu, mən görən küçə deyil,
Bu nə küçə? Nə dalandı?!
Elə bil dünən olmayıb,
Gördüyümüz ağ yalandı.
Əyri-üyrü dalanlarda
İtib-batıb nə qalıbsa.
Bir əzəmət qarşısında
Tarix özü qocalıbsa.
Yaşanmalı bu günümün
Gerçəyini yazaq gərək.
Yalanlardan,riyalardan
Uzaq olaq,uzaq, gərək.

Bir zamanlar bu şəhərin
Ən böyüyü mən olmuşam.
Sonra dənsiz dəyirman tək
Mən də suyu sovulmuşam.
Vaxtım çatıb, vəzifədə
Kim ömürlük qalıb, deyin?!
Deməyin ki,nə mənası
Söz-söhbətin və gileyin.
Bir xaraba görkəmində
Gözlərimin önündədir.

Bir anlığa gəlin ,görün
O günlərim nə gündədir.
Möhrə evlər bu gün də var,
Dünən onlar daha çoxdu.
Çoxlarına dəymək olmaz,
Tariximə o qoruqdu.
Tariximiz yaşadıqca
Gərək yurdum cavanlaşsın.
Haqqı yoxdur bir kimsənin
Öz həddindən çıxıb,aşsın.
Bu mən görən küçə deyil,
Bu nə küçə,nə dalandı?!
Baxdım onun camalına
Gözlərimin qarşısında
Bir gözəllik dalğalandı.

O zamanlar itirdiyim
günlər üçün nələr çəkdim.
O illərdə nə becərdim?
O illərdə nələr əkdim?!
Bu fikirlər toxmaq kimi
döydü məni,əzdi məni.
O illərin bəd xiffəti
Gecə-gündüz üzdü məni.
Bir daşı da daş üstünə
Mən qoymadım o illərdə
Ki, yaşayım könüllərdə
və dillərdə.
Qədir bilən bu ellər də
Ünvanıma xoş söz desin,
Xatırlasın hər an məni.
Qocaltsa da zaman məni.
Xatırlanım, yada düşüm...
Bu şəhərə hər gəlişim
Yada salır ötənləri.

Ömrümüzdən
Kərpic-kərpic itənləri
Bir də, bir də öz cibini,
Öz nəfini güdənləri,
Tayfasını, qohumunu
Tərəfini güdənləri.
Bu şəhərə hər gəlişim
Özümə bir hesabatdır.
Düşünün ki,ötənlər də
qalanlar da bir həyatdır.
Nələr etdim o illərdə,
yerim yoxdur könüllərdə.
Diqtə ilə işləməkdən
Vaxtım yoxdu, həvəsim yox.
Nə gördümsə hayıf onda
Öz nəfəsim, öz səsim yox.
Bu şəhəri qurmaq üçün
Ayrılan nə varıydısa
Son çöpünə qədər yedik.
Küçə-küçə,dalan-dalan
Miz üstündə şəhər yedik.
Kağız üstə şəhər saldıq,
Təmir etdik kağız üstə.
Nə var yığdıq qarmaladıq.
İlk fürsətdə,son fürsətdə
Əl gəzdirdik özümüzə,
Vəzifənin xumarından.
Haram axdı oğlumuzun,
Qızımızın damarında.
Ləl-cəvahir yatağıydı
Bizdən öndə duranların
Ev-eşiyi,bur-bucağı.
Nə yaxşı ki,tez olurdu,
Bu vəzifə duracağı.
Tez düşürdük özgə atdan.

Vəzifə də yad atıdır.
Çox nadan var, elə bilir
Vəzifə qol-qanadıdır.
O yollarda nələr gördüm
Yandırır o günlər məni.
Heç olmasa,heç olmazsa
Yaşadığım məhəlləni
Abad günə salaydım mən.
Bir məhəllə yaddaşında
qalaydım mən.
Neyləməli,gec ayıldım,
O vəzifə xumarından.
Yan-yörəmin ədasından,
Yan-yörəmin tumarından
Gec ayıldım, «Kübar»oldum
Bir naşılıq toranında.
Yalmanlandım,yalaq oldum
Bir vəzifə şoranında
(Gözəllərin ağuşunda
Nələr gördüm,of, ilahi!
Niyə sındı o vəzifə,
Niyə sındı bu sürahi!)
Pulum,param aşdı, daşdı.
Hər tərəfdən göründükcə
Mənim daşım ağırlaşdı,
Vəzifədən tulladılar
Düşdüm evin bir küncünə.
İlişdim mən saymadığım
Baxışların ülgücünə
Nə etmişdim mən onlara?
Mənə belə baxırdılar .
Bu baxışla, bu dönüşlə
Ürəyimi sıxırdılar.
Ona görə bu şəhərdən
Baş alıb getdim uzağa.

Bəlkə də üzüm qalmayıb
Bu şəhərə qayıtmağa.
Neyləyim ki,öldürsünlər
Çağırır bu şəhər məni.
Geci tezi çağıracaq
Qapısına qədər məni.
Bura mənim son məkanım,
Bura mənim son evimdir.
Bu qədrini bilmədiyim
Şəhər mənim taleyimdir.
O günlərin sıxıntısı
Haqlayıbdır indi məni.
Şəhərimin qara suyu
Gözlərimə endi mənim.
Eyni rəngdə görürəm mən
Şəhərimin hər rəngini.
Daha görmək istəmirəm
Adamların cəfəngini.
Biz bu yurdun vəzifədən
Gedənləri bilməliyik,-
Bilməliyik nə etmişdik,
Nə də umaq bu torpaqdan.
Vətəndaşlıq başlayıbdır
Bu torpağın şərəfini,
Namusunu qorumaqdan.
Biz bu yurdun ziynətini
Gələnlərə satmadıqmı?!
Şərəfini, şöhrətini
Ayaq altda atmadıqmı?!
Vəzifənin şirinliyi
Gözümüzü tutudu bizim.
El yolunda gözümüzün
Yaşını qurutdu bizim.
Neylədiksə özümüzə.
Evimizə axdı,getdi.

Xalq malını yedik tamam,
Xalq dalınca baxdı,getdi.
İndi salam gözləyirik
Biz bu eldən,bu elatdan.
Boğma salır onlar bizə,
Boğma salır altdan-altdan.
Vəzifəyə dədəmizin
Malı kimi baxmışıq biz.
Bir möhürə,bir maşına
Əsir düşüb taleyimiz.
Deməmişik bu xalq da var,
Başı üstə bir haqq da var.
Haqqım deyib
Və o xalqın süfrəsini
Qabağından çəkmişik biz.
Bostanına daş atmışıq,
Başında turp əkmişik biz.
İndi, budur, gəlmişəm ki,
Mənə yer ver məzar boyu,
O yer vermir.
Deyir, gəz bax, məmləkəti,
Demirəm ki,gözüm görmür.
Utanıram dünənimdən,
Bir özümçün işləmişəm.
mən xalq nədir, millət nədir
bilməmişəm.
Deyirlər ki, ta gəlmisən
Heç olmazsa çıx şəhərə.
Yaxşı-yaxşı dolan,bir bax
Bağ-bağata, küçələrə.
Gör nə deyir xiyabanlar,
Baxsan, gözün işıqlanar.
Neçə gündür bir zamanlar
İşlədiyim şəhərdəyəm.
Elə bil ki,tamam başqa

Bir ölkədə, bir yerdəyəm.
Uçuq-sökük bir şəhərdən
Nə əsər var, nə əlamət.
Başdan-başa bir gözəllik,
Başdan-başa bir təravət.
Qurub-tikən o əllərə
əhsən-alqış.
Hər gün burda yeniliyə
Bir canatma, bir axtarış.
Tanımadım məmləkəti,
Yerin-göyün məhəbbəti
Bu şəhərə nur çiləyir.
Gül çiçəkli xiyabanlar
İnsanlara gülümsəyir.
Bizdən sonra nə qalmışdı?
Nə tikmişdik, nə qalsın ki?!
İndi üzümə baxmırlar,
Niyə qanım qaralsın ki?!
«Nə salmışdıq aşımıza,
O çıxıbdır qarşımıza».
Nələr olub məmləkətdə,
Saymaq ilə qurtarmaz ki!
Elə bitib-göyəribdir
Onu sel-su aparmaz ki!
Əkilənlər tamam dəndir,
Bir dəni də quş yeməyib.
Dəyirmanı kişi fəndi,
Bir dəni də daş yeməyib.
Əkin-biçin öz yerində,
Qurub -tikmək səxavətdi.
İndi gördüm gözlərimlə
Gözlərim də işıqlandı,
Yurdum nurlu məmləkətdi.
Qurub-tikən o əllərə
O gül açan əməllərə

əhsən,alqış.
Hər gün burda yeniliyə
Bir canatma, bir axtarış.
Fikirin elə yönü yoxdu
Geri qalsın, ya axsasın.
Kim yenilik görmək istər,
Naxçıvanı soraqlasın.
Bu gün qurub-tikilənlər
Sabahlara yadigardır.
Hayıf olsun, deyəmmərəm
Quranların arasında
Mənim də bir adım vardır.
Hər şey gəldi-gedəridi
Vəzifədən sallanmayaq.
Vəzifəni xalqı üçün
İşlədəni alqışlayaq.

# AĞ ÖLÜMÜN ÖLÜMÜ

*(7 şəkildə dram )*

(Müəllif səhnədə)

Sizə danışacağım əhvalat üz-gözündən bəlkə də filimlərdəki həyata daha çox oxşayır. Əslində isə olmuş əhvalatdır. Danışım, siz də qulaq asın.

...Hadisə payız ilə qışın qovuşağında baş vermişdi. İki küçənin kəsişdiyi bir yerdə. Polis maşınları və o maşınları dövrələyən adamlar axşamüstünün bulaşıq havasında bir-birinə qarışmışdı. Hamı narahatlıq hissi ilə aradakı qadın meyidinə baxırdı. Bir azdan təcili yardım maşını gəldi. Meyidi diyircəkli arabanın üstünə qoyub maşına yerləşdirdilər. Təcili yardım maşını getdi. Qalan adamlar da kimliyi naməlum olan bu qadını vuran sürücü barəsində latayır deyə-deyə polis maşınlarından uzaqlaşırdı. Küçələrin kəsişdiyi bir məkan getdikcə qaranlıqlaşırdı. Qonşuluqda yerləşən «Doğum evi»nin pəncərəsindən süzülən güclü işıq seli yolun bir zolağını işıqlandırırdı. Nimdaş alt paltarında bəlkə də, intihar etmiş bu qadının kimliyi müəmmadan başqa hələlik heç nə demirdi.

Polis mayoru hadisə ilə bağlı ətrafdakıları sorğu-suala tutmuşdu. Hamı çiynini çəkirdi. Artıq söhbət də alatoranda idi. Doğum evinin küçəyə açılan pən-

cərələrindən işıq seli süzülməkdə idi. Cinayət edilmişdi. Adam vurulmuşdu. Cavan qadın ölmüşdü, ya öldürülmüşdü. Heç fərqi yox idi. Adam öldürülmüşdü.

...Kişi gecə səhərə kimi yata bilmədi. Qadını onun bu halına dözə bilməyərək deyindi:- Gərək ölünü özün maşına qoyub təcili yardıma aparaydın.

**Kişi səsi:** (Səhnə qaranlıqlaşır. Baş həkimin evi. Gecə ışığı yanır). Əvvəlcə qorxdum. Sonra da qayıtdım ki, lələ köçüb yurdu qalıb boş. Özünü maşının qabağına elə atdı ki, nə qədər çalışdımsa maşını saxlaya bilmədim. O özünü öldürmək istəyirdi. Məni bədbəxt etdi. Bir qarışqanı ayaqlaya bilməyən mən oldum cinayətkar. (Telefon zəng çalır. Qadın götürür.)

-Eşidirəm. Necə? Xəstəxanamızın qarşısında maşın adam vurub? Bizim xəstələrimizdəndir? Bu, ola bilməz!

**Telefondan səs:** Gülçöhrə xanım, elədir. Dünən sizin qəbulunuzda olan qadındır.

**Gülçöhrə:** Məni soruşan olmayıb ki?

**Səs:** Polislər gəlmişdilər. Sizi xəbər aldılar.

**Gülçöhrə:** Gəlirəm, bu dəqiqə gəlirəm (Ayağa qalxıb yan otağa keçir. Üstünü dəyişdirib qayıdır). Tez elə, Etibar, maşını çıxar. Məni xəstəxanaya çatdır. Sən harada adam vurmuşdun.

**Etibar:** Elə sizin xəstəxananın qabağında.

**Gülçöhrə:** Elə şey olmaz. Allah sənin evini tiksin deyim, yıxsın deyim. İndi sən o tərəflərə necə gedə bilərsən.

**Etibar:** Qaçıb gizlənmək də kişilikdən deyil. Düş aşağı, mən də üstümü dəyişdirim, gəlirəm.

**Gülçöhrə:** Yaxşı ki, uşaqlar anamgildədir.

(Səhnə qaranlıqlaşır. Etibarın səsi eşidilir). Gəlirəm, Gülçöhrə, gəlirəm.

(Pauza )

(Xəstəxana. Bütün həkimlər və tibb işçiləri təlaş içindədir. Gülçöhrə səhnəyə daxil olur.Hamı sükut içindədir. Sükutu bayaq zəng edən növbətçi həkim pozur).

**Növbətçi həkim:** Gəlib sizi xəbər aldılar. Telefon nömrəsi qoyub getdilər. (Əlində tutduğu vərəqi Gülçöhrəyə verir). O, kağızı alıb telefonun yanına gəlir və dəstəyi götürüb nömrələri yığır.

**Gülçöhrə:** Alo. Mən doğum evinin baş həkimiyəm. Gülçöhrə xanımam. Siz məni xəbər almısınız. Bəli, yerimdəyəm. İstədiyiniz vaxt gələ bilərsiniz. İstədiyiniz vaxt. Hamılıqla çalışmalıyıq, bəli, hamılıqla çalışmalıyıq. (O telefonun dəstəyini yerinə qoyur. Səhnədə pəcmürdə dayanan həkim və tibb işçilərinə müraciətlə):

**Gülçöhrə:** Dediniz dünən mənim qəbuluma gələn gəlindir?

**Səslər:** Tanıdıq, odur. Körpəsi də qalıb ağlaya-ağlaya.

**Ayrı səs:** Necə də gözəl oğlan doğub. Hayıf ki, anasız böyüyəcək. Hayıf, özü də çox gözəl idi. Hələ iyirmi yaşı tamam olmayıb.

**Gülçöhrə:** Adı nə idi?

**Səs:** Sünbülədir.

**Gülçöhrə:** (Bu adı təkrar edə-edə). Qəzaya bax, e gör adamı harada tutur. Buna deyərlər e, kasıbı dəvənin üstündə ilan vurar. İndi biz neyləyəcəyik.

**Növbətçi həkim:** Gülçöhrə xanım, burda sizlik, ya bizlik nə iş var ki?

**Gülçöhrə:** Yaxşı fikirləşək, bizə də dəxli var bu ölümün. Onu biz nəzarətsiz buraxmışıq.

**Yerdən:** Həkim, indidən günahı boynumuza yükləməyək. Qarşıda istintaq var.

**Gülçöhrə:** Ən böyük istintaqçı adamın vicdanıdır. Gərək biz ona yaxşı nəzarət edəydik. Biz də axı qadınıq, anayıq, onun dərdləri bizə daha yaxşı məlum olmalıdır, daha yaxın olmalıdır...

(Polis işçisinin gəlişi həkimin söhbətini yarımçıq qoyur).

**Polis:** Xoş gördük Gülçöhrə xanım.

**Gülçöhrə:** Xoş gördük.

**Polis:** Olan hadisədən yəqin ki, xəbəriniz var.

**Gülçöhrə:** Eşitdim, çox narahat oldum. Hayıf, çox gözəl qızıydı, həm də çox cavan idi. Çox hayıfsılanıram ona.

**Polis:** Olar ikilikdə söhbət edək?

**Gülçöhrə:** Olar.

**Polis:** (Bir qədər pauzadan sonra). Qadına hayıfsılanırsınız. Amma onu vuran da bədbəxt oldu.

**Gülçöhrə:** Özü gəlib bildirib, yoxsa sizin əməliyyatçılar yaxalayıblar?

**Polis:** (Bir qədər tərəddüddən sonra). Yox, özü gəlib təslim olub. İfallı bir şəxsdir. Elmlər doktorudur.Təcrübəli sürücüdür. Bir xətadır əlindən çıxıb.

**Gülçöhrə:** Nədən bilirsiniz xəta olduğunu? Bəlkə, elə doğrudan da o xəstənin həyatına qəsd edib? Qəsdən onu öldürüb?

**Polis:** Elə adama oxşamır. Bu ölümün nəticəsi intihardan o yana deyil. Sürücünün elə bir günahı olmadığını düşünürəm.

**Gülçöhrə:** Nədən bu qənaətə gəlirsiniz. Hələ hadisə istidir. Cinayətkar da öz ayağı ilə sizin qapınızı döyüb ki, buyurun, məni həbs edin, mən yoldan keçəni vurub öldürmüşəm. Burada nəsə bir müəmma var.

**Polis:** Daha nə müəmma olacaq? Sürücünün dediyinə görə də qadın özünü maşının təkərləri altına atıb.Ya vəlvələdən, ya zəlzələdən insan ölüb, ya öldürülüb. Bunu istintaq bəlli edəcək.

**Gülçöhrə:** Təki istintaq düzgün olsun. Ölən də, elə qalan da insandır. Günahkar kimdirsə, o cəzasını almalıdır. Kimliyindən asılı olmayaraq.

**Polis:** Deməк, kimliyindən asılı olmayaraq. Gülçöhrə xanım, bu işdə siz özünüzü və kollektivinizi günahkar hesab edirsinizmi?

**Gülçöhrə:** Müəyyən mənada biz də günahkarıq. Xəstəni nəzarətsiz buraxmışıq. Gərək belə olmayaydı. Ancaq olub.

**Polis:** Siz hansı məqamda özünüzü günahkar hiss edirsiniz.

**Gülçöhrə:** Bilirsiniz, o qız mənim yanıma iki ay əvvəl gəlmişdi. Onda o yeddi aylıq hamilə idi. Mənə yalvar-yaxar etdi ki, bəs uşağı götürtmək istəyir. Həyatı ilə tanış oldum. Səhv etmişdi, kimə isə inanmışdı. Cavan idi, sevmişdi. Buraxılmış səhvini bu yolla düzəltmək istəyirdi. Adı hələ də qız idi. Ancaq qarnında başqasının uşağını daşıyırdı. O zaman onu bu fikirdən daşındırdım. Allahdan qorxan qız idi. Ana-atasından, qardaşlarından da o qədər qorxurdum. Məsləhət gördüm ki, uşağa qıymasın. Bəlkə onu atan sevgilisi bir gün geri dönər, uşağına görə onu da bağrına basar. O da uşağın doğulmasını istəyirdi. Onun hərəkətləri bunu göstərirdi.

**Polis:** Nə deyirdi ki?

**Gülçöhrə:** Deyirdi ki, istəmirəm uşağım doğulmamış ölsün.

**Polis:** Demək, o belə qənaətə gəlibmiş ki, uşaq doğulsun, sonra o intihar etsin.

**Gülçöhrə:** Nə bilim bəlkə də belə fikirləşirmiş. Mənə hər şeyi dedi. Bibisi oğlunu sevməyini, ona necə vurulduğunu və sonradan bibisi oğlunun narkoman olduğunu bilməsin. Deyirdi ki, onun narkoman olduğunu bilən zaman artıq iş-işdən keçmişdi. Mən onu sevirdim. Bu da sevməyin sonu, deyirdi. O məni

aldatdıqdan sonra bir müddət məndən əl çəkmədi, az qalırdı ki, gecə də bizdə qalsın. Elə ki, boynuma uşaq düşdüyünü bildi, sanki dəli oldu. Qışqırıb bağıra bilməsə də dəfələrlə məni döydü, hökm edirdi ki, uşağı tələf edim. Deyirdi, hələ bizim nə vaxtımızdı uşaq dolandıraq. Mən isə uşağı tələf etmək fikrində deyildim. Deyəsən, anam nəsə hiss etmişdi. Ancaq üzümə vurmurdu. Qardaşlarım bilsə öldürəcəklər deyirdi. Bu da belə, qardaşları bilmədilər!

(Həkim köks ötürdü. Bir qədər pauzadan sonra yenidən sözə başladı. Polis mayoru onu diqqətlə dinləyirdi).

...Hayıf, çox cavan idi. Necə də sağlam uşaq gətirib dünyaya. Bədbəxt uşaq. Nə atası olacaq, nə anası. Hayıf ondan.

**Polis:** Həkim, hayıfsılanmaqdan keçib. Onun haqqında daha nəyi bilirsiniz. O sevdiyi oğlan haqqında sizə heç nə demədi?

**Gülçöhrə:** Dedi. Onu necə çox istədiyini duyduqca məhəbbətin ucalığı məni sevindirirdi. Əfsuslar olsun ki, bu məhəbbət qarşılıqlı deyilmiş. Xəstə mənə nağıl edirdi ki, sevdiyim oğlan gözlərim qarışısında gündəngünə əriyirdi. Bibimgil artıq onun narkoman olduğunu yaxşı bilirdilər. Nə bibimin barmaqlarında bir şey qalmışdı, nə də evlərində. Aradabir məni də məcbur edirdi ki, evdən nəsə pula gedən bir şey çırpışdırıb ona verim. Onu çox sevdiyimdən mən bir neçə dəfə belə hərəkətlərə də yol vermişdim. Özümdən asılı deyildi. Sevdiyim adam əldən gedirdi. O elə bir əsəbi vəziyyət keçirirdi ki, allah göstərməsin. Dava-dərmanı gecikəndə hər şey gözündə cəhənnəmə dönürdü. Elə günlərin birində cinayət törətdi, adam öldürdü. Özünü də həbs etdilər. Bir neçə aydır ki, həbsdədir. Onun halını fikirləşdikcə özümü öldürməyim gəlir. (Həkim bir anlığa

sözünü kəsir. Əlindəki dəsmalla gözlərini qurulayır. Sükut. Sükutu polis mayoru pozur).

**Polis:** Gülçöhrə xanım, bu qədər həyəcanlanmaq lazım deyil. Hadisə olub. Və belə hadisələrlə biz tez-tez rastlaşırıq. Özünüzü ələ alın.

**Gülçöhrə:** Axı, onun nə günahı vardı? Doğulan uşağın nə günahı, bizim nə günahımız? Bu zəhrimar hardan gəlib bizim balalarımızı tapıb. Bir vaxtlar bu narkomaniya barədə yalnız kitablardan oxumaq olardı. İndi isə narkobiznesdən, narkomaniyaya qarşı mübarizə mərkəzlərindən söhbət gedir. Görün bu zəhrimar necə ayaq açıb ki, ondan hər yerdə danışılır.

**Polis:** Gülçöhrə xanım, hələ sizin, elə bizim də bilmədiyimiz çox şeylər var ki, onları bilməsəniz daha yaxşı olar. Rəhmətliyin qızı ölmək istəyirmiş. O böyüklükdə gələcəyi olan bir elm adamını da işə saldı.

**Gülçöhrə:** Kimi deyirsiniz? (Özünü bilməyən kimi göstərərək).

**Polis:** Sizin xəstəni vuranı deyirəm. Yazıq durduğu yerdə işə düşüb. Maşının adam vurduğu yeri ölçüb-biçəcəyik. Mən isə bu başdan təmiz əmin olduğumu bildirirəm ki, bu ölüm intihar hadisəsidir. Elə sizin söylədiklərinizlə də üst-üstə düşür.

**Gülçöhrə:** Mənə də elə gəlir. Mən onun söhbətlərini unuda bilmirəm. Sözünün sonunda da, əvvəlində də deyirdi ki, mənim günahlarımı ancaq ölüm yuya bilər. Və sonunda özünə qəsd etdi. Heç adını da düzəməlli bilmirəm. İcazə verin, xəstəlik tarixçəsini gətizdirdim.

**Polis:** O qədər də lazım deyil. Onsuz da araşdırmalar aparılanda xəstəlik tarixçəsi sizdən alınacaq. Xəstəlik tarixçəsinə qədərki söhbətimiz daha vacibdir. O sevdiyi oğlan haqqında daha nələr söyləyirdi.

**Gülçöhrə:** Hiss edirdim ki, o həmin oğlanı sevməklə yanaşı həm də ondan çox qorxurdu. Deyirdi ki,

iynə vurandan qabaq əlinə kim keçsəydi parçalayardı, həddindən artıq qəddar olurdu. Elə ki, iynəsini vurdu, quzulaşırdı, fağırlaşırdı. Elə bil əvvəlki adam deyildi. Ona elə yazığım gəlirdi ki? Bəlkə də onu dəlicəsinə sevdiyimdən idi. Deyirdi xəstəyəm, bu iynəni vurmasam ölərəm. Onu itirməkdən çox qorxurdum. Axır ki, elə, ya belə itirdi. Özü də əbədilik itirdi. Özünü onun yolunda fəda etdi. Heç bilmirəm körpəsinin vəziyyəti necə olacaq.

**Polis:** Gülçöhrə xanım, onu vuran əlinizə keçsə, neyləyirdiniz. Ona bu cinayət üçün nə cəza verərdiniz.

**Gülçöhrə:** Baxır bu cinayətin şiddətinə.

**Polis:** Daha bundan artıq nə şiddət ola bilər. Piyada vurulub və yerindəcə keçinib.

**Gülçöhrə:** Axı, siz özünüz dediniz ki, xəstəni özmaşını ilə vuran ziyalı bir adamdır. Elmlər doktorudur. O maşını çox sürətlə idarə edən adam deyil. Xəta tutub yazığı. Mənə qalarsa cinayət törədilmişdir, daha doğrusu baş vermişdir. Atılan oxu geri qaytarmaq, axar çayı geri döndərə bilmək olmadığı kimi, bu cinayət işini də geri döndərmək, təmizləmək mümkün deyil. Hər kəs törətdiyi cinayətə görə cəzasını almalıdır. Kimliyindən asılı olmayaraq, hər kəs!

**Polis:** Siz burada daha çox hökm çıxaran hakimə bənzədiniz, nəinki insanların sağlamlığını qoruyan həkimə.

**Gülçöhrə:** Cənab mayor. Siz qanun keşikçisiniz, biz isə həkimik. İkimizin də işi insanlara xidmət etməkdir. Birimiz insanlar üçün yaradılmış qanunların sağlamlığının keşiyində durmalıyıq, birimiz isə onların cansağlığını qorumalıyıq. Hər ikimizin sahəsində bunun adına profilaktika deyirlər. Yəni hadisəni qabaqlamaq. Hadisəni olmamışdan zərərsizləşdirmək və xəstəlik güc gəlməmişdən qabaq görülən tədbirlərdir profilaktika. Biz, yəni deyərik, elə ikimizin peşəmizdə

çalışanlar. Bu işin öhdəsindən gələ bilmirikmi? İndi bu suala mən cavab verim, yoxsa siz cavab verirsiniz.

(Pauza)

**Gülçöhrə:** Neynək, mən cavab verim. Bu gün özünü, deyək ki, maşının altına atan qadının taleyi barədə danışaq. Həmin qadının nə vaxtsa özünü intihar edəcəyi günün ancaq konkret anı məlum deyildi. Qalan nə vardısa, məlum idi. Onun oturub durduğu adamı ata-anasından qabaq ətrafı tanıyırdı. Hamı susurdu. Sizə qədər olan məsafədə dövlət qulluğunda dayanan və çin daşıyan polislər də. Ən azı sahə müvəkkili həmin adamları tanımamış deyil. Ancaq hansı qarşısı alınan tədbir görülüb? Hər il doğulan körpələrin müəyyən qismi ya ölü doğulur, ya doğulub ölür, ya da qüsurla yaşayır. Səbəbi nədir? Müxtəlif səbəbləri var. Başlıca səbəblərdən birincisi gənclərin zərərli vərdişlərlə məşğul olmasıdır. Ya narkomaniya ilə, ya alkoqolizmlə məşğul olan gənclərin sayı çoxalır. Bu çoxalmaya göz yumanların sırasında biz hamımız varıq. Heç kim öz yaxasını kənara çəkə bilməz.

**Polis:** Siz hamını mühakimə edirsiniz. Nə üçün?! Sizin üçün müqəddəs heç nə yoxdurmu?

**Gülçöhrə:** İnsanlar hamısı mənim üçün doğmadır.

**Polis:** Necə ola bilər ki, hamı sizin üçün doğma olsun. Bu ola bilməz. Siz indi öz övladınızla başqasının övladına fərq qoymursunuz?

**Gülçöhrə:** Fərqli orasındadır ki, onları mən dünyaya gətirmişəm. Başqa heç bir fərqi yoxdur. Bu günün mövzusu olmadığı üçün burada həmin mövzuya münasibətimi qapadıram. Məni bu gün düşündürən odur ki, günahsız bir qadın ölmüşdür və ya öldürülmüşdür.

**Polis:** Sizcə bunun hansı baş vermişdir? Ölmüşmü? Öldürülmüşmü?

**Gülçöhrə:** Nə fərqi. Artıq bir körpə yetim, anasız və atasız, böyüyəcək. Doğulan uşağın nə günahı. Bu da onun qisməti imiş. Alın yazısı. Günahkar hökmən cəzasını çəkməlidir.

**Polis:** Əlbəttə. Özünüz dediniz ki, qızı bu günə salan artıq dustaqdır. Adam öldürdüyü üçün həbsdədir. O ki, qaldı onu vuran sürücüyə. O da cəzalandırılacaq. Gülçöhrə xanım, əgər həmin maşının sürücüsü sizə doğma adam olsaydı, ona nə cəza verərdiniz.

**Gülçöhrə:** Qanunun tələb etdiyi cəzanı verərdim. Cinayət Məcəlləsi nə tələb edirsə o cəzanı. Kimliyindən asılı olmayaraq.

**Polis:** Bəlkə, o sizə daha doğma olan bir adamdır? Məsələn, həyat yoldaşınız bu hadisədə günahkardırsa, necə hərəkət edərdiniz.

**Gülçöhrə:** Mən axı dedim, qanunun tələb etdiyi nə varsa elə də hərəkət edərdim.

**Polis:** Bəlkə də bu sözü sizə demək çox çətindir. Amma neyləməli fakt ən böyük qanundur. Və faktın qarşısında at oynatmaq heç kimə baş ucalığı gətirməz.Yaxşı, artıq gecdir. Mən gedim, söhbətimizi sabah iş vaxtı davam etdirərik.

( Səhnənin işıqları sönür )
Pauza

**Səhnə işıqlanır.**
**II şəkil**

( Polis hadisəni törətmiş sürücü ilə söhbətləşir).

**Polis:** Vətəndaş Bəydəmirli hadisə necə oldu? Necə xatırlayırsınız?

**Bəydəmirli:** Dediyim kimi. Şər qarışan vaxtı idi. Orta sürətlə gəlirdim. Həmin qadın qarşıdakı binadan çıxıb maşina tərəf surətlə qaçırdı. Maşını nə qədər kənara çəkmək istədimsə də mümkün olmadı. O özünü maşının qabaq təkərlərinin altına ata bildi. Onun həminki halını görməmək üçün maşını geriyə sürüb hadisə yerindən uzaqlaşdım. İstədim ki, ailəm bu hadisəni mənim özümdən eşitsin. Və elə də etdim. Gəlib dedim və polisə gəlib törədilən hadisə barədə sizə məlumat verdim. İndi nə günahım varsa, cəzasını çəkməyə hazıram.Vəssalam, mənim deyəcəyim bu qədərdi. İndi deyin məni aparsınlar, bu mənim qədərim imiş. Həmin anda həmin yerdən mən keçməyə də bilərdim. Və bu hadisə başqasının başına da gələ bilərdi. Yaxşı ki, mənim başıma gəlib. Mən öz tale payımla razılaşıram. Mənim də gözəl ailəm var, iki oğlum var. Onların gələcəyi ilə anaları məşğul olmaq məcburiyyətində qaldı.

**Polis:** Bəs vurulmuş piyadanı niyə xəstəxanaya çatdırmaq barədə fikirləşmədiniz.

**Bəydəmirli:** Çünkü onun xəstəxanalıq işi qalmamışdı. Elə yerindəcə ölmüşdü. Mənlik iş yox idi. Mənlik iş budur ki,öz ayağımla gəlib suçumu boynuma alıram. Mən günahkaram. Çünkü həmin vaxt onun ölümü mənim idarə etdiyim maşının təkərlərinə yazılmışdı. Bu da baş verdi.

**Polis:** Mənə elə gəlir ki, siz heç də öz fikirləşdiyiniz kimi günahkar olmaya bilərsiniz. Ekspertin rəyini gözləyək. Bu qədər tez qərar verməyə çalışmayaq. Siz

böyük bir universitetin kafedra mudirisiniz. Böyük elm adamısınız. Elmimizin gələcəyi sizdən yeni kəşflər gözləyir. Siz isə təslim olursunuz.

**Bəydəmirli:** Siz buna təslim olmaqmı deyirsiniz? Çox nahaq yerə belə fikirləşirsiniz. Mən iradədən çox möhkəm bir adamam. Həqiqətdən başqa heç nə məni özünə məftun edə bilməz. Onun yolunda hər an ömrümə belə qıymağa hazıram. Günahkar həmin qadın olsa belə onu mənim idarə etdiyim maşın vurub. Yenə də deyirəm cəzam nədirsə çəkməyə hazıram.

**Polis:** Kaş bütün insanlar ölən qız kimi sədaqətli və dönməz, sizin kimi ədalətli olaydı. Onda heç cəmiyyətə polis gərək olmazdı. Əfsuslar olsun ki, hamı nə onun kimidir, nə də sizin kimi. İstintaq başa çatana kimi sizinlə hələ çox danışacağıq. Vətəndaş, Bəydəmirli, sizə bir sual vermək istəyirəm. Bəlkə də, yerinə düşmədi, ancaq bu sual məni çoxdan düşündürür.

**Bəydəmirli:** Buyurun. Nə sualınız olsa cavab verməyə hazıram.

**Polis:** Eşitmişəm ki, genetika üzrə elmlər doktorusunuz. Bir vaxtlar alimlər sosializm çərçivəsindən çıxış edib deyirdilər ki, irsiyyət yoxdur, hər şey həyatda qazanılır. Yəni insan həyata ağ lövhə kimi gəlir, həyat həmin ağ lövhəni özü doldurur, yaxşısını da, pisini də. Sizcə, bu nə dərəcədə düzgündür. Doğrudanmı irsiyyət təkzib olunmalıdır?

**Bəydəmirli:** Bu sualın mənim törətdiyim hadisə ilə elə bir əlaqəsi yoxdur, yəqin ki.

**Polis:** Əlbəttə. O işin bu məsələyə nə dəxli ola bilər. Ümumiyyətlə öyrənmək istəyirəm. Və mən bu qənaətdəyəm ki, hər bir canlı, o cümlədən insan öz genlərinə uyğun doğulur, inkişaf edir, ömür sürür və dünyasını dəyişir.

**Bəydəmirli:** Mən bu fikirlərinizlə tamamilə şərikəm. Və şərik olmadığım bəzi məsələlər də vardır ki, o həyatla, mühitlə genlər arasında gedən mübarizə zamanı aşkara çıxır. Təkcə doğulmaq deyil. Və ya təkcə əkmək və ya genlərə uyğun adaptasiya keçmək, uyğunlaşmaq deyil, həm də hansı mühitdə doğulmaq və yaşamaqdan da çox şey asılıdır. Əslində bu gün həyatın bütün mərhələlərində, yəni ilk qohumluqdan tutmuş digər yaxınlaşmalara qədər testlərdən keçmək məqamı gəlib. Bir az əvvəl sizinlə söhbətimiz zamanı bildirdiniz ki, mən maşınla vurub öldürdüyüm qadın bir narkomanın sevgilisi olub. Kimdir o narkoman? Nə siz tanıyırsınız, nə də mən. Ancaq biz şəxsən onu tanımasaq da onun düşdüyü mühiti tanıyırıq. Bəs biz kimi tanıyırıq? Özümüzü, sadəcə özümüzü. Başımızı salmışıq aşağı, hərə öz işindədir. Şəxsi mənafeini ictimai mənafedən qat-qat üstün tutanlar ki, var onlar da öz genləri üzərində dayanıblar. Onlar da öz dədə-babalarına çəkiblər. Mən bu qənaətdəyəm və sözümü də qətiyyətilə deyirəm ki, insanlar öz genetik təkamülləri vasitəsilə inkişaf edirlər və böyüyürlər. Ancaq bu o demək deyil ki, cinayətkarın uşağı hökmən cinayətkar, aqil adamın uşağı hökmən ağıllıdı. Bu çox böyük bir mövzunun söhbətidir. Özü də bu mövzuda günlərlə, misallarla danışmaq olar. O ki, qaldı mənə atamın heç vaxt maşını olmayıb və günlərin birində adam vurmayıb. Dedim axı, maşını olmayıb.

**Polis:** (gülümsünür). Sizə rəğbətim son dərəcə artdı. İstintaqınız isə bu gündən başlayır.

**Bəydəmirli:** Nə qədər tez başa çatdırsanız o qədər yaxşıdır.

**Polis:** Həbsə girmək üçün niyə belə tələsirsiniz. Bəlkə istintaq sizə bəraət verəcək.

**Bəydəmirli:** Siz nə danışırsınız. Mən adam öldürmüşəm, mənə bəraət verilə bilər? Yox, canım-gözüm, yox!

**Polis:** Bunu istintaq bilər. Biz kimik ki, əvvəlcədən proqnoz verək. Müəllim, sizə bir sual da vermək istəyirəm.

**Bəydəmirli:** Buyurun.

**Polis:** Siz heç indiyə kimi polis şöbəsinə və bölməsinə çağrılmısınız? Maşınınızı yol polisi saxlayıb?

**Bəydəmirli:** İlk kərədir ki, sizin qapınızı açıram. Sözün düzünə qalanda mən sizin mənə qarşı göstərdiyiniz alicənablığı gözləmirdim.

**Polis:** Bəs nə gözləyirdiniz?

**Bəydəmirli:** Gözləyirdim ki, siz məni maşınla adam vurduğumu eşidən kimi hay-qışıqırıq salacaqsınız. Gözləyirdim ki, bəlkə də mənə əl qaldıracaqsınız.

**Polis:** Cənab Bəydəmirli, siz nə üçün polisi bu qədər qəddar hesab edirsiniz. Doğurdanmı biz, yəni dövlət çini gəzdirənlər bu qədər qəddarıq. İnsafsız adamlarıq.

**Bəydəmirli:** Qəddar və insafsız deməzdim. Ancaq eşitdiklərimə istinadən həmişə belə fikriləşmişəm ki, bir qədər kobudluq var sizin sıralarınızda.

**Polis:** Hamını eyni cür qiymətləndirmək istəməzdiniz, yəqin ki? Siz deyirsiniz bəlkə yüksək elmi adı olanların hamısı sizin kimidir. Hamı hər şeyi öz arşını ilə ölçür, müəllim?!

**Bəydəmirli:** Bilmirəm kim nə ilə ölçülür. Bir onu bilirəm ki, ölçü vahidi tamam korlanıb. Nə üçün o qız o günə salınmalıydı ki, özünü öldürmək dərəcəsinə gəlsin? Onun günahı nədir? Bəs mənim kimilərin günahı nədir? Heç nə anlaya biləcək vaxtda deyiləm.

İnanırsınız ki, sizinlə danışıram, sizin kimliyinizi belə unutmuşam. Bayaqdan bəri istəyirəm ki, ayın

tarixini yadıma salım, bacarmıram. Gör bir neçə dəfə saata baxmışam, ayırd edə bilmirəm saatın neçəliyini. Sizi də tanıya bilmirəm. Necə də mülayim adamsınız. Doğrudanmı polis bu qədər mülayimləşib?

**Polis:** Siz nə demək istəyirsiniz, Bəydəmirli. Belə çıxır ki, polis paqonu daşıyanların hamısı kobud olmalıdır. Belə deyil. Siz axı dediniz ki, genetiksiniz. Mən də bu qənaətdəyəm ki, həyata qazandıqlarımızla yanaşı genlərimiz də əsasdır. Artıq biz imperiya milisi deyilik, azad və demokratik bir ölkənin polisiyik. İndi bizdən tələb ayrıdır. Birinci tapşırıq, əgər bilmək istəyirsinizsə, birici tapşırıq insanlara münasibətimizdir. Hər bir şəxsə öz səviyyəsində yanaşmaq tələb olunur. Biz müstəqil Azərbaycanın qanunları ilə işləyirik. Qanunlarımızın aliliyinə qulluq edirik. Onları hər şeydən üstün tuturuq. Siz isə elə fikirləşirsiniz ki, polis işçisiyiksə gərək insanlarla qaba rəftar edək, söyüş söyək, adamları təhqir edək? Xeyir, müəllim bu bizim bu günkü adımıza layiq deyil. Azərbaycan polisi Azərbaycan qanunlarının keşiyindədir. Bu gün siz cinayət törətmisiniz və öz ayağınızla gəlib gördüyünüz iş barəsində xəbər veribsiniz. Və biz də bunu araşdırırıq. Sizi həbs etmək o qədər də çətin iş deyil. Siz ki, heç nədən çəkinmədən özünüzü təslim edibsiniz.

**Bəydəmirli:** Bu təslimçilik deyil. Həqiqətin üzünə şax baxmaqdır. Cinayətimə görə cəzamı çəkməliyəm.

**Polis:** Hələ sizin cinayətiniz tam sübuta yetirilməyib. Sadəcə siz məlumat vermisiniz. Bizim də istintaq qurupumuz işləyir. Lap tutaq ki, siz cinayətkarsınız, hələ bizim tərəfimizdən sübuta yetirilməyibsə, siz azad vətəndaşsınız. Elə ki, sübut olundu, vəssalam.

**Bəydəmirli:** Buna sübut nəyə lazımdır ki, cinayəti törədən mən, etiraf edirəm ki, həmin qadını-filan yerdə, filan saatda mən maşınla vurmuşam. Bu, bəs etmirmi?

**Polis:** Əlbəttə bəs etmir. Siz fikirləşirsiniz ki, sadəcə cinayətkaram deyənlərin hər biri üçün təcridxanada yer saxlamalıyıq. Bəlkə, həmin adamı heç siz vurmamısınız. Bəlkə adam özü ölmək istəyib. Bütün bunlar araşdırılmalıdır, yoldaş Bəydəmirli! Araşdırılmalıdır. Yoxsa, sizə cinayətkar deyib həbs etmək o qədər də çətin məsələ deyil. Tapşırıq vermişəm, sizi evə buraxmaq barədə sənəd tərtib edilib. Ona imza atıb evinizə gedə bilərsiniz, telefonunuzu da qeyd etdirib gedə bilərsiniz. Nə vaxt lazım olsa sizi çağıracağıq.( Telefonun dəstəyini götürüb göstəriş verir). Bəydəmirli ayağa qalxıb polis mayoru ilə görüşüb qapıya doğru gedə-gedə :

**Bəydəmirli:** Zənginizi gözləyirəm. Zəng vuran kimi gələcəyəm.

(Səhnə qaranlıqlaşır, səhnə dönür. Gülçöhrə həkimin kabineti. Həkim çox fikirlidir. Özü-özünə danışırmış kimi).

## III şəkil

**Gülçöhrə:** Doğrudan deyirlər ki, ilan kasıbı dəvənin üstündə vurarmış. Oturduğumuz yerdə işə düşmüşük. Yəqin məni aparmağa gəlibmiş. Axı, ona demişdim ki, xidməti maşınımız nasazlayıb, ona görə də yazıq yolunu buradan salıb. Yoxsa Genetika institutu hara, bura hara?! Dədən öldü ay Gülçöhrə, ya zəlzələdən, ya vəlvələdən. Nə fərqi. (Qapı döyülür).

**Gülçöhrə:** Buyurun. (45-50 yaşlarında bir qadın içəri daxil olur. Gəlib həkimlə üzbəüz dayanır).

**Gülçöhrə:** Eşidirəm sizi, xanım. Əyləşin.

**Qadın:** Çox sağ olun. Bilirsiniz, mən.

(O sözünü tamalaya bilmir. Qəhər onu boğur. Demək istədiklərini deyə bilmir. Bir qədər pauzadan sonra).

**Qadın:** Mən özünü öldürən qadının anasıyam. (Başını aşağı dikir). Onun hamilə olduğunu evdə bircə mən bilirdim. Atası, qardaşları bu gün də həmin işdən xəbərsizdirlər. Nə vaxtsa bilsələr məni qiymə-qiymə edəcəklər. Yalvarıram sənə, həkim. Bu məsələni açıb-ağartmayın.Uşağı da köməkləşib südəmərlər evinə verərik. Bizim ailəni gələcək bədbəxtlikdən ancaq siz qurtara bilərsiniz. Bizim rayonumuzda tamam ayrı rayondur, sizdən heç kim şübhələnməz, qızımızın ölümü üçün də heç kimdən şikayətçi deyilik.

(Telefon zəng çalır. Həkim dəstəyi qaldırır):

**Gülçöhrə:** Etibar,sənsən! Bu necə ola bilir. Axı sən polis idarəsində olmalıydın. Oldun?! Nə dedilər? Heç nə? Bu necə ola bilər. Heç elə də iş olar. Deyirlər sən cinayətkar deyilsən?! Qəribə alicənab olublar. Bəh, bəh! Əcəb keyfdəyik. Adam vur öldür, öz ayağınla polisə gedib təslim ol, sənə desinlər ki, get evinə, lazım olsa çağırtdırarıq. Demək belə bir zaman da

gəlib. Sən də qulaqlarına inanmadın. Yaxşı, yaxşı bir azdan gələrəm danışarıq. İndi yanımda qonağım var.

(Həkim telefonun dəstəyini yerinə qoyduqdan sonra):

**Gülçöhrə:** Hə belə işlər də olurmuş. Allah, allah! Zəmanə də belə çökərmiş. (Gələn qadın, təəccüblə):

**Qadın:** Həkim nə olub belə, çox heyrətli görünürsünüz.

**Həkim:** Necə heyrətlənməyim? Yoldaşım öz maşını ilə bir həftə qabaq adam vurub, özü də gedib polisə ki, mən cinayət törətmişəm. Nə desələr yaxşıdı.

- Gedin, deyiblər, lazım olsa çağırarıq.

**Qadın:** (İstədi ki, soruşsun harda vurub. Vurduğu adam kimdir, nəçidir. Fikirindən vaz keçdi. Sadəcə o da dedi):

- Doğrudan qəribə işlər var. Adam var ki, göz-görəti maşını sürür üstünə, vurub yoldan keçəni şil-küt edir, heç dayandırıb demir ki, vurduğu nədir. Kimdir demirəm ha...Sizin yoldaşınız isə. Hələ beləleri var. Çox şükür, bin-bərəkətimizdə bəlkə hələ buna görə göy aləminə çəkilməyib. Hələ elə adamlar var da.

(Qadın bir qədər susur və sonradan):

-Həkim başına dönüm mənə olan olub, mənə kömək edin. O uşağa yiyəlik edə bilmərik. Evimizə qan düşər, oğlanlarım ana qatili olarlar.

**Gülçöhrə:** Bəs mən nə etməliyəm. Siz yaxşı bilirsiniz ki, bura südəmər uşaqlar evi yox, doğum evidir. Sizin qızınızın oğlu artıq on gündür ki, bizim doğum evindədir. Dünyaya təzə övlad gətirən anaların südü ilə saxlanılır. Bu işin bir sonu olmalıdır, ya yox?!

**Qadın:** Gəlin bu sonluğu birlikdə fikirləşək.

**Gülçöhrə:** Birlikdə nə fikirləşəcəyik. Cavan qadınsan götür uşağı saxla. Qızının yadigarıdı, onun-bunun qapısına atmayacaqsan ki?!

**Qadın:** Mən də çox istəyirdim. Ancaq ərim, nə də oğlanlarım qızımın hamilə olduğunu bilmirdilər. Tək məndən savayı. Baldızımın oğlu evin tək oğlu idi. Qızımı çox istəyirdi. Musiqi məktəbini bitirmişdi, restoranlarda gitara çalırdı. Əli pulla oynayırdı. Çox yaraşıqlı idi. Hiss etdirdim ki, qızıma münasibətində ayrı cürədir. O ayrı curəlik sevgiyə çevrildi. Oğlanlarım, ərim işdə olanda gəlib qızımla xeyli söhbətləşirdi. Mən də istəyirdim ki, qızım bu evin tək oğluna getsin. Hələ üstəlik oğlan qızımı dəlicəsinə sevirdi. Onları görəndə yadıma düşürdü ki, məni istəmədiyim indiki ərimə zorla veriblər. Mən istəyirdim ki, qızım sevdiyi oğlana ərə getsin, xoşbəxt olsun. Ancaq sən deməyəsən yanılmışam. Xoşbəxtlik sevib-evlənməkdə deyil, taleyin qismət payı imiş.

Mən oğlanın narkoman olduğunu biləndə artıq iş-işdən keçmişdi. Qızım mənə hər şeyi açıqlamışdı. Ancaq gec idi, gec. Sonrası da belə oldu. Sizin bildiyiniz kimi. Artıq danışmağa halım da qalmayıb.

**Gülçöhrə:** Xanım, olan olub, daha narahatlıq keçirmək fayda verməz. İndi fikirləşməliyik ki, bu uşağı neyləyək. Bu tifilin nə günahı var. Yoxlamdan keçirmişik, sağlam uşaqdır.

**Qadın:** Bunun bir yolu var oda südəmər uşaqlar evinə verilməsidir.

**Gülçöhrə:** Bu ən sonuncu variantdır. Əgər başda yol tapmasaq onda elə edərik. Aparıb birlikdə uşaq evinə verərik. Bəlkə elə adam tapıldı ki, elə buradanca onu övladlığa verdik. Belə olsa da belə, yenə uşaq evindən keçməlidir. Orada qeydiyyatda olmalıdır. Siz gedin, görək nə eləyirik. Biz öz başına deyilik ki? Doğuşdan sonra qızınızın intihar etməsi, özünü kiminsə maşını altına atması, kiminsə evinə bədbəxtlik gətirməsi və burada kimsəsiz qalan bir yiyəsiz uşağın taleyi. Siz isə təkcə özünüzü düşünürsünüz, bilərlər

biabır olarsınız, sizi kimsə öldürər. Ancaq özünüzün dediyiniz kimi qızınızın sevgisinə, özü də bir narkomanla olan sevgisinə göz yummağınız sonda nə ilə nəticələnib. Buyurun bir yol tapa bilmirik ki, çıxaq bu bəladan. Siz gedin. Qoyun bir yaxşı-yaxşı fikirləşək. Sonra gələrsiniz bir də götür-qoy edərik.

(Qapı zəngi. Gülçöhrə xanımın növbətçi tibb bacısı):

**Tibb bacısı:** Həkim dünənki polis mayoru gəlib. Sizi görmək istəyir.

**Gülçöhrə:** (Qadını yola sala-sala). Gəlsin, gəlsin. (Polis mayoru içəri daxil olur. Həkim ona yer göstərir):

**Gülçöhrə:** Buyurun, buyurun əyləşin.

**Polis:** Təşəkkür edirəm, Gülçöhrə xanım.

**Gülçöhrə:** İşlər necə gedir.

**Polis:** Pis getmir. Bir nəfər gəlib idarəyə deyir ki, mən vurmuşam. Çox abırlı-həyalı adama oxşayır. Bəlkə də indiyə kimi bir qarışqanı öldürməyib. İndi iki ayağını geyib bir başmağa ki, bəs həmin qadını mən öldürmüşəm. Biz də hələlik həbs qəti imkan tədbirini seçmirik. Texnika elmlər doktorudur, genetika institutunun şöbə müdiridir. Cinayəti onun adına yaraşdıra bilmirik. Ona görə də...

**Gülçöhrə:** (Onun sözünü kəsir). Hə ona görə də cinayət törədən azadlıqda gəzir, hə? Qəribə məntiqiniz var, cinayətkar öz ayağı ilə gəlib deyir ki, bu işi mən törətmişəm. Filankəsi filan tində mən vurmuşam, siz isə gözləyirsiniz ki, həmin sürücünün o qadını vuran vaxtında kim görübsə şahid tapasınız. O adam deyir ki, mən, mən vurmuşam. Əlavə şahidə nə ehtiyac, elə deyilmi?

**Polis:** Gülçöhrə xanım, bu insan taleyidi. Biri ölüb, o birisini də biz diri-diri öldürməliyik. O kişi heç bir yerə getmir, işində, evində nə zaman zəng vursaq gələcək.

**Gülçöhrə:** (Hadisəni törədəndən xəbərsiz kimi). Mənim o genetik institutu ilə bir az yaxınlığım var . Kimdir o elmlər doktoru? Bəlkə mən də onu tanıyıram.

**Polis:** Əgər elə yaxından tanışlıq varsa, bəlkə də tanıdınız. Köklü adama oxşayır. Familiyası Bəydəmirlidir. Adı Etibardı. Etibar Bəydəmirli.

**Gülçöhrə:** (Üz gözündən heç bir reaksiya vermədən). Etibar Bəydəmirli. (Guya bu familiyanı birinci kərə eşidirmiş kimi bir neçə dəfə təkrar edir). Ehtibar Bəydəmirli.

**Polis:** Yoxsa tanış şəxsdir.

**Gülçöhrə:** Elə belə. Tanış səsləndi adı.

**Polis:** Çox mədəni oğlandır. Hələ qırx yaşı tamam olmayıb. Çox böyük gələcəyi var. Belə bir adamı intihar etmiş bir şəxsə görə məhv etməkdənsə intiharın törədicilərini tapmaq gərəkdir.

**Gülçöhrə:** Onları necə tapmaq olar. Bu çox çətin məsələdir.

**Polis:** Çətin deyil. İşləmək lazımdır. Bu cinayət indi baş verməyib, Gülçöhrə xanım. Onun çox dərin kökləri var. O kökləri araşdırmaq, cinayətin baş vermə səbəblərini öyrənmək gərəkdir. Sizə bir sualım var.

**Gülçöhrə:** Buyurun!

**Polis:** Siz hansı institutu bitirmisiniz.

**Gülçöhrə:** O vaxtkı tibb universitetini.

**Polis:** Hansı fakultəsini?

**Gülçöhrə:** Müalicə-profilaktika fakultəsini.

**Polis:** Elə bu sözü eşitmək istəyirdim. Demək təkcə müalicə yox, həm də onun profilaktikasını. Profilaktika bizim də sizin də əsas işimizdir. İlk baxışda cinayət həmişə polisi qabaqlayır.Yəni cinayət baş verir. Polis baş vermiş cinayətin ardınca gedir və onu təhqiq etməyə başlayır. Və hamı hayıfsılanır ki, bu hadisə baş verməyə də bilərdi. Sizin sahənizdə də xəstəliyə qarşı

profilaktika tədbirləri elə bizimkindən o qədər də irəli getməz.

**Gülçöhrə:** Bəzən bilərəkdən bu tədbirlər pozulur. Buna nə deyirsiniz. Əvvəlcə öz sahəmizin nöqsanlarını deyim ki, inciməyəsiniz. Bir zamanlar tibb universitetində genekologiya üzrə bir başa ixtisas verilirdi. Sonradan bu ləğv edildi. Genekolok olmaq üçün yeni yol araşdırıldı. Bir neçə il işləyənədən sonra, bir neçə ay xüsusi kurs keçdikdən sonra ixtisas verilir. Özü də danışdığım kimi asan yolla yox. Küllü miqdarda xərc-xərəcat tökdükdən sonra və sonra səhiyyə nazirliyinə, ya da elə bir böyük yerdə işləyənlərdən özünə, yəni puluna yaxın adam tapmalısan ki, sənə canı yansın. Heç olmazsa 0,25 akladla olsa belə sənə iş tapsın. Bir-iki il bundan əvvəl Azərbaycanda 1 ştat vahidi genokolok işi almaq üçün böyük məbləğdə rüşvət tələb olunurdu.

**Polis:** Sonu nə oldu.

**Gülçöhrə:** Ondan da betər olmalıdırlar. Belə bir çətinliklə ixtisas qazanmasan və nəhayətdə rüşvətlə işə girəsən, belə bir vəziyyətdə hansı profilaktikadan danışmaq olar. Mən hər şeyi açıq danışan adamam. Bu şəraitlə profilaktika olmaz. Bax, bu gün mənimlə birlikdə işləyən genekoloqların içərisində uşağın başı ilə ayağını tanımayanlar çoxdur, çünki onlar universiteti güc-bəla ilə bitirmiş imkanlı adamların qızlarıdır və gəlinləridir. Yaxşı qiymətlərlə tibb universitetini bitirənlərin əksəriyyəti isə mətbəxdə canlarını çıxarırlar. Ona görə də etibar etməli həkimimiz yoxdur ki, xəstəni tapşıraq. Qalmışıq naşı əlində.

**Polis:** Elə bizim sahə də sizdən geridə qalmaz. Durub dərdləirimizdən danışsaq, buna nə gün çatar, nə ay. Əməliyyatın nə demək olduğunu bilməyən ali hüquq təhsili alandan başa keçirilir. Nə ad demək fikrindəyəm, nə də ünvan. Danışsaq hər kəsin öz dərdi

özünə bəs edər. Gəlin keçək mətləbə. Uşağı neyləmək fikrindəsiniz?

**Gülçöhrə:** Siz qadın vuranın məsələsini nə yerdə qoydunuz?

**Polis:** Bu məsələ tam qapanıb. Həmin adam boynuna alır ki, mən vurmuşam. Cəzamı da çəkməyə hazıram. Ancaq biz bu məsələni hələlik açıq saxlamağı lazım bilirik. Əlbəttə həmin adamla bağlı yox, digər fikirlərimiz var. Siz axı dediniz ki, həmin qadının sevgilisi həbsdədir. Bəlkə...

**Gülçöhrə:** (Onun sözünü kəsir). Bəlkə deyirsiniz onunla əlaqəli nəsə ola bilər. Mən buna inanmıram. O qadın yaşamaq istəmrdi. Uşağını dünyaya gətirdi və bu istəyini qətiləşdirdi. Vəssalam, bu mənim qəti fikrimdir.

**Polis:** Gülçöhrə xanım, belə bir misal var deyirlər, mal bir yerə gedər, iman min yerə. Sizdə belə qəti fərman verməyin. Biz səhv etsək, bir ailəni də məhv etmiş olarıq.

**Gülçöhrə:** Cinayətkar cəzasını çəkməlidir. Bu da mənim fikirimdir. Lap olsun gözümün işığı.

**Polis:** Doğrudan, bayaq siz dediniz ki, genetika institutu sizə doğmadır. Sirr deyilsə, kiminiz orada işləyir.

**Gülçöhrə:** Nə sirr olacaq. Mənim həyat yoldaşım da orada işləyir, elmlər doktorudur, kafedra müdiridir.

**Polis:** Familyası nədir.

**Gülçöhrə:** Bu sizə çox gərəkdirsə, deyərəm.

**Polis:** Rica edirəm.

**Gülçöhrə:** Familyası Bəydəmirlidir.

**Polis:** Necə, Bəydəmirli?!

**Gülçöhrə:** Niyə belə həyəcanlandınız. Yoxsa bu familiya sizə nəsə deyir.

**Polis:** (susur). Bəli nəsə deyir. Əfsuslar olsun ki, qadını vuran və polisə gəlib təslim olanda Bəydəmirlidir.

**Gülçöhrə:** (Təslim sözündən xoşu gəlmir.) O heç vədə kiməsə təslim olmaz. O vicdanı qarşısında hesabat verən adamdı. O vicdanından başqa kimsəyə təslim olmaz. Bəydəmirli mənim həyat yoldaşım olduğu üçün bunu demirəm. O həqiqətən də göründüyü kimi sadə və səmimidir.

**Polis:** O sizə bu barədə heç nə deməyibmi?

**Gülçöhrə:** Deyib, hər şeyi deyib. Qadının özünü maşının altına necə atdığını və digər işləri.

**Polis:** Digər işlər hansılardır.

**Gülçöhrə:** Nə bilim, hansı hissləri keçirdiyini. Bizim bu hadisədən necə də qorxa biləcəyimizi, polisin ona nə kimi reyaksiya verəcəyini, ona inanıb-inanmayacaqlarını və sair, və ilaxır.

**Polis:** Yenə sual yeri qoydunuz. Və sair və ilaxır.

**Gülçöhrə:** Qadının ölüsünü küçənin ortasında qoyub bir başa evə gəlmişdi. Deyirdi baxdım artıq ölmüşdü. Ona əl vurmadım.

Maşını geriyə verib sənin yanına gəldim. Hər şeyi etiraf etdim. Uşaqları mənə tapşırdı. Evdən çıxdı və bir başa sizin yanınıza gəldi. Suçludur. Gərək özünü yox, uşaqlarını da fikirləşəydi. Ömürü boy deyəcəklər ki, sizin atanız bir qadını qoyub maşının təkərləri altına. Onda uşaqlar nə cavab verəcəklər. Qanadları qırıq quş kimi nə qədər yaşamaq olar. O öz cəzasını çəkməsə içi rahat ola bilməz. Heç mən də rahatlıq tapmaram. Ondan gözlədiyim ancaq yaxşı hərəkətlərdir. Cəzası nədir onu almalıdır ki, gələcəkdə oğlanlarının üzünə şax baxa bilsin. Yoxsa qanunun gücü və digər vasitələrlə biz də çalışarıq ki, o həbs edilməsin. Buna istəsək nail ola bilərik.

**Polis:** Sizin buna haqqınız da çatır, səlahiyyətiniz də. Sadəcə bir arayışla və başçılıq etdiyiniz xəstəxananın kollektivindən bir neçə nəfərinin imzası ilə. Təsdiq edin ki, qadın başı havalı idi. Onda Bəy-

dəmirli də müəyyən şərtlərlə azadlıqda qalar. Sizin ailə də başsız qalmaz. Bəydəmirli məsələsi tədqiq olunur. Bəs, uşaq necə olacaq.

**Gülçöhrə:** Bu barədə fikirləşirik. Elə gözəl uşaqdır ki? Ailələr var ki, gecə-gündüz dua edir, di gəl ki, belələri daha tez tapır.

**Polis:** Tez tapdığı kimi, tez də itirir. Uşağın nə günahı. Günahkar böyüklərdir. Mühitdir. Zamandır, vaxtdır.

**Gülçöhrə:** Cənab mayor, vaxtaşırı qəzetlərdə oxuyuram ki, narkomaniya, narkobiznez və digər belə işlər Azərbaycanımızda da ilbəil artır. Bu qədər hüquq mühafizə orqanları qarşısında bu artım təşviş doğurmurmu? Nə qədər adam bu məsələlərlə məşğul olur. Guya onlar bilmirlər ki, bu psixotrop maddələr hansı yollarla, nə vaxt, kim tərəfindən gətirilir? Guya onlar bilmirlər ki, onlardan istifadə edənlər kimlərdir. Onları satanlar kimlərdir? Bu işlərə kimlərinsə tapşırıqları nəticəsində göz yumulur. Vallah göz yumulur. Bir sahə müvəkkili bir sahədə 5-10 il işlədikdən sonra əvvəllər özünə dam-daş da saldırırdı, «Jiquli» maşını da alırdı. İndi 5-10 il lazım deyil, həmin sahənin narkomanları hesabına cəmi bir-iki ilin içərisində hər şeyin superini əldə edirlər. Bu da olur onların profilaktikası. Hər şeyi öz ölçünüzlə ölçməyin. İndi hərənin öz arşını var. Qanunlarımıza olduğu kimi əməl etsək, onda bu şeylər gərək olmaz. Elə həbsxanalar da.

**Polis:** O olan iş deyil. Necə ki, bəşər övladı var, onun yaxşısı pisi, haqlısı-nadanı, ikiüzlüsü-riyakarı, yalançısı olacaq. Bunlar olan təqdirdə də hüquq mühafizə orqanları işləməlidir. Sadəcə onların yaxşılarını seçməliyik. Adamların hamısına eyni qəlibdən yanaşmaq olmaz. Günahsızla günahkarın fərqini müəyyənləşdirmək vacibdən vacibdir. Ulu öndərimiz Heydər Əliyev Dövlət haqqında danışarkən demişdir ki, onu iki şey-

dən qoruyun. O iki şeydən sarsıla bilər: «Günahkar cəzasız qalanda və günahsıza cəza veriləndə». Biz dövlətimizi bu hallardan qorumalıyıq.

**Gülçöhrə:** Mən də bu fikirdəyəm. Və hərdən belə fikirdəyəm ki, «Fövqəladə hallar nazirliyi» kimi «əhalinin profilaktikası nazirliyi» də yaradılmalıdır. Bir ana və Azərbaycanın qadını kimi bu günlərdə eşitdiyim bir xəbər məni məyus etdi. Avropadan başlamış MDB respublikalarına qədər ən çox boşanma halları Azərbaycanda qeydə alınıb. Hər min nəfərə 5,3 %. Bu böyük rəqəmdir. Deməк, bizim ailə qurşağımız boşalıb. Ailələrin dağılmasında azərbaycançılığa yad nümunələrin böyük təsiri olub. Əvvəllər psixotrop maddə qəbul edənləri barmaqla saymaq olardı. Sonda gör nə qədər çoxalıb ki, onları müalicə etmək üçün mərkəzlər yaradılıb. Dövlət bu işin qarşısını almaq üçün nələr etmir. Ancaq bu işlərin fəsadları ilbəil çoxalır. Elə bil, məni qınamayın bu maddələrə maraq da artıb. Bu hesaba ildə qeyri-normal nə qədər doğuşla üzləşirik. Vaxtsız doğuş, ölü doğulan uşaqlar və sair, və ilaxır.

**Polis:** Gülçöhrə xanım, sizin dedikləriniz mənim fikirlərimlə tamamilə üst-üstə düşür. Mənə elə gəlir ki, cəmiyyətdə baş verən hadisələrin hamısı sadəcə nəzarətsizlikdən başlayır. Mən kənddə böyümüşəm. İstəyirəm bu cəmiyyətlə gözüm qarşısında olan bir arı ailəsini müqayisə edim. Atam 20 arı ailəsi saxlayırdı. Demirəm ha arı saxlayırdı. Deyirəm ki, 20 arı ailəsi saxlayırdı. Və həmin arı ailələri də bizim ailəni saxlayırdı. Qışdan çıxan arıları yaz qabağı çölə çıxaran arıçılar tay-tay qənd dənələri, deyək bizim bu gün işlətdiyimiz kimi pesoku şirəyə çevirib arı pətəklərinin önünə qoyurdular. Qışdan çıxan arılar da darışırdı həmin pesoku sümürməyə. Onda mən atamdan soruşurdum ki, biz niyə arıya şirə vermirik. Atam deyirdi ki, mən arını müftəxor öyrədə bilmərəm. Qoy

özləri işləyib özlərinə ruzi qazansınlar. Atam bizi də eləcə öyrətdi. Oxutdu, halal zəhmətlə çörək sahibi elədi. Halal zəhmətlə böyüməyənlərdi bizim işimizi axsadanlar. Bizə badalaq atanlar, bizi həqiqəti sevdiyimiz üçün danlayanlar. Siz necə, heç arı pətəyinin işləməsini görmüsünüz?

**Gülçöhrə:** Uzaqdan baxmışam, ancaq arılar haqqında sox oxumuşam. Onların işgüzarlığı, halallığı, təmizkarlığı barədə eşitmişəm. İndi bazarda satılan balı görəndə əsil bal olub olmaması barədə fikirləşirəm. Bəzən mən adamlara da elə baxıram, özünə ruzi gətirən və hazır şirə sümürən arılar kimi.

**Polis:** Gülçöhrə xanım, sizin yoldaşınızın həqiqətinə görə hərə öz dölünə çəkməlidir. Bunu genetiklər deyirlər. Siz necə bilirsiniz, təzə doğulan uşaq öz genində bir narkomanın taleyini yaşadacaq, yoxsa...

**Gülçöhrə:** Baxır həyatda qarşılaşdığı həyata. Hindistanın bir kinofilmi var e, «Avara». Görməmiş deyilsiniz. Avara-Caqa əslində yüksək təbəqənin-bir prokurorun oğlunu oğurlayır. Səbəbi də bu idi ki, prokurorun iddiasının səhv olduğunu ona isbat etsin. Prokuror deyir: Oğrunun oğlu oğru, prokurorun oğlu isə prokuror olmalıdır. Caqa bu sözə görə ondan qisas alır. Deməк, mühit də əsas şərtdir. Yeni doğulmuş uşağın gələcəyəi onun tərbiyə alacağı ocaqdan çox asılıdır. Yaxşısı budur ki, Bəydəmirlinin, yəni mənim ərimin gələcək taleyi barədə fikirləşək. Özünüzün dediyiniz kimi.

**Polis:** Bəli, öz dediyim sözün üstündə dayanıram. Əgər bu hadisəni Bəydəmirli törətmişdirsə də deməк o günahkar olmaya bilər. Və mən buna çalışacağam ki, istintaq düzgün getsin.

**Gülçöhrə:** Cənab mayor, gəlin birlikdə biz də günah işlədək.

**Polis:** Bu necə günahdır ki, onu biz ikilikdə işlətməliyik.

**Gülçöhrə:** (Bir qədər susduqdan sonra). Bilirsiz sizin gəlişiniz vaxtı mənim otağımdan çıxan kim idi?!

**Polis:** Xeyir, bilmirəm.

**Gülçöhrə:** Deyərəm, bilərsiniz. O, maşın vuran qadının anasıdır.

**Polis:** Maşın vuran yox, özünü maşının altına atan qadının anası imiş. Bu sözlərin istintaq üçün çox mühüm əhəmiyyəti vardır. O nə istəyir?

**Gülçöhrə:** Sizinlə açıq danışmalıyam. Qadın bununla ikinçi dəfədir ki, gəlir. Xahiş edir ki, uşağı südəmər uşaqlar evinə verək. Qızının hamilə olduğunu nə əri bilirmiş, nə də oğlanları. Əgər bilərlərsə, onu öldürəçəklərindən ehtiyat edir.Yeni bir həngamə çıxar. Onsuz da bu hadisə baş verib. Qız uşağı kimi də onu dəfn ediblər. Yenidən qalmaqal olmasını istəmir və şikayət etmirlər. Təsadüfən olmuş bir iş, taleyin qisməti kimi bu ölümü qarşılamışlar. Nə edəçəyimizi bilmirəm. Hələlik uşaq bizim doğim evindədir. Görək nə çarə tapırıq.

(Telefon zəngi. Həkim dəstəyi qaldırır.)

**Gülçöhrə:** Eşidirəm. Hə, mənəm. Uşaqlar neyniyir, səni incitmirlər. Yaxşı ana, bir azdan zəng vuraram, yanımda qonağım var.

**Polis:** (Ayağa qalxır). Bağışlayın sizi çox yordum.

**Gülçöhrə:** Allah eləməsin, elə danışmayın. Biz vəzifə başındaydıq. Belə görünür ki, bu hadisələr yekunlaşana qədər biz yenə də rastlaşacağıq.

**Polis:** Yəqin ki, (Cib telefonu zəng çalır. O telefonu açır. «Hə, mənəm, gəlirəm, 10-15 dəqiqəyə oradayam. Məni gözləyin»-deyir. Telefonu qapadır). Dönüb həkimlə xudahafizləşir. Salamat qalın.

**Həkim:** Allah amanında.

(Kiçik pauza. Səhnə dönür. Gülçöhrə xanım xəstəxananın başqa bir otağında. Uşağı qucağına götürüb pəncərədən qəza olan yola baxan Gülçöhrə təəssüflə deyir):

**Gülçöhrə:** Dünyanın elə qəribə işləri olur ki? Adam var ki, on illərdir müalicəyə gedib-gəlir qismətində bir şey yoxdur ki, yoxdur. Beləlləri də ki, göydə qapır. Allaha qurban olum. Nə qədər də gözəldir. Elə bil anasının başını kəsiblər qoyublar bunun başına. Heç balasını doyunca görmədi. Ətrini almadı.

(O uşaq qucağında tarnaşaçı zalı ilə üzbəüz dayanır).

Heç bilmirəm sözümü kimə deyim. Ağsaqqallara-ağbirçəklərə deyim, ya tamam bu dünyanın gənclərinə deyim. Neçə gündür gözümə yuxu getmir. Bu uşağın taleyi məni düşündürür. Heç kim yiyəlik etmək istəmir. Atası tərəfin xəbəri yox, anası tərəfin də nənəsi daş atıb başını tutur ki, neyniyirsiniz eləyin bizimlə işiniz olmasın. Hərə öz başını sağlam görmək istəyir. Sözüm gənc qızlaradır. Ehtiyatlı olun. Həyat adama bir dəfə verilir, onu səhv yaşamağa ixtiyarımız yoxdur. Mən özüm də səhv yaşanmış bir həyatın acısını dadmışam. Anam atamın çox alkoqol qəbul etməsi nəticəsində erkən dünyadan getməsini, məni bir üzü qız, bir üzü gəlin ikən, bir qarnı ac, bir qarnı tox böyütməsini xatırladıqca ona nə qədər də yazığım gəlir. Bu dünyada nə görüb ki? Yoldaşımın anası onu dünyaya gətirərkən dünyasını dəyişib, sonra ögey ananın himayəsində yaşayıb. Biz aililəlicə belə rəzalətlərin qurbanı olmuşuq. Həyat bizi sındırdıqca dikəlməyi bacarmışıq. Anam bizim üçün nələr etməyib. Bu da onun üçün yeni bir sürpriz. Sizin qarşınızda bu körpəni övladlığa götürürəm. Onu iki oğlumdan seçməyəcəyəm. Etibar həbsdən gələndə artıq o böyük uşaq olacaq. Bilirəm ki,o mənə elə bir irad tutmaz. İnsan adamdır.

İnsan. Mən onunla fəxr edirəm. Sizin qarşınızda ona ad verirəm. «İqbal». Adını mən verdim, odunu-közünü, ruzisini tanrı versin.

**(Yerlərdən):**

- Amin, amin, amin.

Baxın, bu tifilin nə günahı? Ata narkoman olub, ana həmin narkomanı sevib və onun yolunda özünü həlak edib. Uşaq da doğulub, kimsəsiz. Mən onu böyüdəcəyəm. Öz adımıza, familiyamıza layiq. Bəydəmirli adına xas.

(Pauza. Səhnə dönür.)

## IV şəkil

(16 il sonra. Gülçöhrə xanımın evi. Həyat yoldaşı Etibar Bəydəmirli ilə söhbət edir).

**Gülçöhrə:** Etibar, bu illər nə yaman tez keçdi. Elə bil hər şey dünən olub. Maşallah uşaqlar nə tez böyüdülər. Üçü də bir boyda bir buxunda. Bir-birlərindən cəmi iki yaş fərqlənirlər. Üçü də yaxşı oxuyur. Göz dəyməsin İqbal da bunlara çatıb. Onları bir-birindən ayırmaq olmur. Sən necə fikirləşirsən, Etibar?

**Bəydəmirli:** Bizim fikirlərimiz həmişə üst-üstə düşür. Mən nə deyə bilərəm. Məni bu gün ən çox düşündürən bir məsələdir. Görəsən İqbalın taleyi öz genlərinə çəkməz ki?!

**Gülçöhrə:** Ay Etibar, sənin bu irsiyyət elmin, yəni genetikan, deyəsən bizə baha başa gələcək axı.

**Bəydəmirli:** Nəyə görə belə fikirləşirsən. Yoxsa sən də keçmiş sovet alimləri kimi irsiyyət məsələsini təkzib edirsən. Gülçöhrə, birdəfəlik başa düşmək lazımdır ki, alma ağacı ancaq alma yetişdirə bilər. Ondan feyxua dərmək olmaz. Düzdür alma ağacına çıxıb onun budaqlarına sırmanmış qonşu ağacın meyvəsini dərmək mümkündür. Amma fikirləşməyə haqqımız yoxdur onu alma ağacından dərmişik. Canım-gözüm, sən bu uşaq üçün nə qədər həyacan keçirirsənsə, mən səndən ikiqat artıq bu hissi keçirirəm. O mənim familiyamı daşıyır, səni özünə ana, məni doğma ata bilir. Biz onu öz balamız kimi böyütmüşük. Sənin anandan başqa onun kimliyini bilən yoxdur. Mən də istəyirəm ki, kaş irsiyyət elmi heç olmazsa burada yalan olsun.

**Gülçöhrə:** Bəyim, sən də bu elmini bizim gözümüzə soxma. İqbalı anam böyüdüb o biri oğlanlarımız kimi o da anamın tərbiyəsini götürüb. O başqa cür ola bilməz.

**Bəydəmirli:** Allah eləsin. Kor nə istər, iki göz, biri əyri, biri düz.

**Gülçöhrə:** Bəyim, belə bir sualım var. Sən Bəydəmirli neçə il oturdun?

**Bəydəmirli:** Altı il.

**Gülçöhrə:** Sənin irsiyyət dediyin sözdən belə çıxır ki, quldurun oğlu quldur, ziyalının oğlu ziyalı olmalıdır. Onda elə isə səndən soruşuram. Nə əcəb həbsə girmişdin?! Nəslində-nəcabətində cinayətkar olmuşdu. Yoxsa atan maşını ilə piyadanı vurmuşdu. Hər şey olur. Adamın başına hər cür hadisələr gəlir. Həbsdəki yoldaşlarının hamısı cinayətkardır? Yoxsa təsadüfü düşənlər də vardır.

**Bəydəmirli:** Əlbəttə təsadüfü düşənlər daha çoxdur.

**Gülçöhrə:** Yadındadır iş yerində sənin başına and içirdilər? Hamı sənə quran ayəsi kimi baxırdı. Ancaq səni həbs edəndən sonra bir nəfər qapını açıb örtmədi. Niyə, o qədər cinayət törətmişdin ki, sənin ailənin keyfini belə xəbər almağa qorxurdular? Sayılıb seçilən alimsən, heç sənin həbsə girməyinin qırxını gözləmədilər vəzifəni, yəni sənin tutduğun vəzifəni verdilər sənin əlinin altında işləyən və elmdən xəbəri olmayanın birisinə. Etika xatirinə sənin alim elədiyin o şəxs bircə dəfə vurub demədi ki, həkim, nəyə ehtiyacınız var. Bəydəmirli kimi bir kişinin stolunda otururam. Halal eləsin məni, mənə çörək verib. Belə insanların irsiyyəti haradan gəlir?

**Bəydəmirli:** Gülüm, bu suallar köhnəlib. Artıq onlar haqqında danışmaq belə istəmirəm. O genetiklər ki, var, onlar da həbsdəkilər kimidirlər. Yarısı günahkar, yarısı günahsız. Nə qədər üzlər, acısifətlər gördüm, Gülçöhrə. Qazmat da ayrı bir dünyadır.

Gör neçə illərdir gəlmişəm, həbsxana bir dəqiqə belə yadımdan çıxmır. Elə məsum, günahsız adamlarla

rastlaşdım ki, yazıqlar bu gün də həbsxanadadır. Onlar nə vaxt onlara verilmiş ömrü yaşayacaqlar bəs.

**Gülçöhrə:** Onların da ömrü elə keçir. Yazıya pozu yoxdur.

**Bəydəmirli:** Gül, sənin bu yazıya pozu yoxdur misalın hansı cəhətlərinə görə bizim irsiyyət dediyimiz gözə görünməzdən fərqlənir.

**Gülçöhrə:** Hansı cəhətlərinə görə fərqləndiyini deyə bilmərəm, ancaq onu deyə bilərəm ki, yazıya pozu yoxdur və ola da bilməz. Biz hamımız alın yazımızı yaşayırıq. Və buna inananda yaşamaq da asanlaşır. Elədir, yoxsa elə deyil? Başımıza gələn hadisəni xatırlayanda o qədər də təəssüflənmədim. Niyə, ona görə ki, onu da alın yazısı hesab edirəm. Nə qədər ağır günlərimiz oldu. Üstəlik də bu körpənin taleyi. Sənə onu övladlığa götürdüyümü deyəndə gözlərinə düz baxırdım. Heç kipriklərini belə vurmadın. Həmin gün səni həmişəkindən daha çox istədim. Sən nə qədər böyük idin. Ancaq nədənsə İqbal böyüdükcə sənin narahatlığın da artır. Əslində səbəbi mənə də aydındır. Ancaq öz dilindən eştmək istərdim. Onu da bilirsən ki, mənim İqbaldan ayrılmağım ölüm olar.

**Bəydəmirli:** Bu haradan çıxdı. Ayrılmaq nədir. O bizim ovladımızdır. Onu Elxan və Orxandan daha çox istəyirəm.

**Gülçöhrə:** Bəyim, mən hiss edirəm ki, İqbala məhəbbətin ona rəhmətindən aşağıdır. Yəni ona bir kimsəsiz uşaq kimi yazığın gəlir.

**Bəydəmirli:** Gülçöhrə, sən nə demək istədiyini yaxşı saf-çürük eləyirsən, yoxsa elə belə danışırsan. Sən belə deyildin. İndi hiss edirəm ki, sən həmin adam deyilsən. Yoxsa mənim hələ də işləmədiyimə görə sən beləsən?

**Gülçöhrə:** Bax, bu təzə sözdür. Bəyim, sənin nə danışdığındı. Sən işləsən də, işləməsən də başımızın

tacı, evimizin sütunusan. Bir də elə söz danışsan, məni təhqir etmiş olarsan. Biz indiyə kimi səninlə təkcə ər-arvad yox, həm də dost olmuşuq Etibar! İndi belə çıxır ki, mən nə vaxtsa işləməsəm belə tənəli danışıqlarla səni narahat etməliyəm. Səndən heç gözləməzdim.

**Bəydəmirli:** Adi bir qəza nəticəsində hər şeyimi itirdim. Beş il ailəmin, uşaqlarımın üzünü görmədim. İşimdən uzaqlaşdırıldım. İndi mənim texnika və fizika elmləri doktoru olub-olmamağım bir qəpiyə dəyməz.

(O oturduğu yerdən qalxıb vərgəl edir. Gəlib üzü tamaşaçılara dayanır. Səhnədə tam sakitlikdir).

Heç bilmirəm sözümə haradan başlayım. Bəzən adam elə bilir ki, təkbaşına nə isə edə bilər. Bəzən adam özünə böyük bir həqiqət kimi baxır. Elə bilir ki, yalnız onun düşündükləri və etdikləri düzgündür. Ancaq belə deyilmiş. O qadın, maşınla vurdum. Günahkar özü idi. Mən isə fikirləşdim ki, cəzamı çəkməsəm ömrüm boyu narahat olaram. Cəzamı çəkdim, ancaq narahatlığım da keçmir. O vaxt bütün sübutlar mənim xeyrimə işləmişdi. Qadın intihar etmək üçün özünü mənim maşınımın altına atdı.

Nə isə, köhnə dəyirman daşı kimi zaman məni yenə də əzməkdədir. Gör həbsdən neçə ildir qayıtmışam. Nə öz institumuzda mənə iş verdilər, nə də başqa yerdə iş tapa bilmişəm. İstəyirəm çıxım küçəyə qışqırıb deyim ki, mən oğraşlıq üstə tutulmamışam, narkoman olmamışam, oğurluq etməmişəm, cib kəsməmişəm, rüşvət almamışam. Özünü maşınımın altına atanı vurmuşam və buna görə də cəzamı çəkmişəm. Bütün bunlar azmış kimi son günlər İqbalın gələcək taleyi də məni narahat etməyə başlayıb. İrsiyyət daşıycjılarının nə qədər səhf olduğunu Gülçöhrə o qədər də ayırd edə bilməz. Düzdür, həkimdir. Genetikanı az-çox bilir. Bu haqdakı nəzəriyyələrin müsbət və mənfi tərəfləri barədə məlumatı var. Hər bir hadisəni

təsadüflə bağlamaq olmaz. Uşaqlar sifət quruluşuna, səsinə və digər hərəkətlərinə görə öz valideyinlərinə oxşayırlar. Bəs onda onların daxili aləmi necə, bənzəmirmi? Hər bir uşaq psixoloji xarakrerinə görə öz valideyinlərindən biridir. O ya atasına, ya da anasına bənzəyir. Başqa cür ola da bilməz. Ha biz döşümüzə döyək ki, bizim tərbiyəmizi götürüb. Son vaxtlar sinif rəhbərlərindən gələn mesaj məni narahat edir. İqbal şuluqlaşır. Gülçöhrə də bunu görmək istəmir. Uşaqla mənim aramda bir boşluq yaranmasın deyə nə isə etməliyəm. Elə indi sizin gözləriniz qarşısında sinif rəhbəri ilə danışacağam. Siz də baxın, görün Gülçöhrə haqlıdır, yoxsa mən?

(Səhnə dönür, qaranlıqlaşır).

(Səhnə işıqlaşanda Bəydəmirli sinif rəhbəriylə söhbətləşir):

**Bəydəmirli:** Siz İqbalda nə kimi dəyişiklik hiss edirsiniz.

**Sinif rəhbəri:** Hörmətli valideyin, mən sizi birici dəfədir ki, məktəbdə görürəm, uşaqlar üçün məktəbə həmişə anaları Gülçöhrə xanım gələr, sizdən nə əcəb?

**Bəydəmirli:** Şeytanın qıçını qırıb gəlmişəm. Eşitdirmisiniz ki, bəs İqbal dərslərindən geriləyir. Dərsdən qaçdığı vaxtlar da olur. Onun gündəliyinə yazdığınız qeydləri də oxumuşam. Yəqin ki, olanı yazmısınız. Uşaqla qərəziniz yoxdur ki?

**Sinif rəhbəri:** Nə qərəzim olacaq. Əvvələr niyə yazmırdım. Uşaq böyüdükcə elə bil ləvini dönür. Elə bil həmin uşaq deyil. Yuxarı siniflərdə tamam zəyifləyib. Bəzən günlərlə dərsdə oturmur. Oturanda fikiri özgə yerdə qalır. Elə bil içində nə isə yad fikirlər cücərir. Tərbiyəsinə, səliqə-səhmanına və təliminə söz ola bilməzdi. İndi isə tamamilə başqalaşıb. Fənn müəllimləri də gileylənirlər. Dəqiq fənləri qavramır. O biri fənlərin müəllimlərinə qarşı bir ehtinasızlıq əmələ gəlib

onda. O biri oğlanlarınız haqqında bu fikirlər səslənmir ki? Səslənə də bilməz. Çünki Elxanla, Orxan başladıqları yolla gedirlər. İqbal haqqında belə xoş sözlər deyə bilməyəcəyəm.

**Bəydəmirli:** Bəs biz nə etməliyik?

**Sinif rəhbəri:** Bu barədə ciddi düşünmək, uşaqla ciddi maraqlanmaq lazımdır. İqbal əvvəcjə çox yaxşı uşaq idi. Mənə elə gəlir ki, ona yad olan işlərələ məşğul olmaya başlayıb. Onu nəzarətsiz qoymaq olmaz.

(Bəydəmirli sinif rəhbəriylə xüdhafizləşir).

- Sağ olun, İradə xanım. Sizdən çox razıyıq. Bu iradlarınıza görə sizə ancaq minnətdarlığımızı bildiririk.

**Sinif rəhbəri:** Biz öz vəzifəmizi yerinə yetiririk.

(Bəydəmirli tamaşaçı zalına gəlir, üzünü onlara tutaraq):

**Bəydəmirli:** Baxın, Gülçöhrə mənim sözümü qəribçiliyə salır. İqbalın yaşı həmin yaşdır ki, bu yaşı hansı tərəfə əysən o tərəfə də əyilir. Gərək bundan sonra İqballa şəxsən məşğul olam, onsuz da işləmirəm. Heç olmazsa mən də bir xeyir işin qulpundan yapışım. Mən imkan verməyəm ki, Gülçöhrənin min bir əzabla böyütdüyü övlad naxələf çıxsın. İqbala görə mən də irsiyyətə qarşı çıxacağam. Nədən və harardan başlamalı. Əvvəlcə bir İqballa təkbətək görüşüm.

(Səhnə qaranlıqlaşır, səhnə dönür. İşıqlananda o oğlu İqballa birlikdədir).

**İqbal:** Ata mənə nə isə demək istəyirsiniz. Deyin, biz uşaqlarla sözləşmişik ki, birlikdə gəzintiyə çıxaq.

**Bəydəmirli:** Tələsmə, gedəcəksən tələsmə. İqbal eşitmişəm ki, deyərlər tələsən təndirə düşər. Tələsmə balam, tələsmə. İqbal dərslərin necə gedir. (Bir başa sualdan İqbal tutulan kimi oldu).

**İqbal:** Pis deyil, ata! Orta qiymətlərlə oxuyuram.

**Bəydəmirli:** Niyə bəs orta qiymətlərlə. Sən bilirsən ki, qardaşların necə oxuyurlar? Elxan bu il məktəbi fərqlənmə attestatı ilə bitirəcək. Orxan da onun kimi.

İqbal: Siz niyə onları mənə misal çəkirsiniz? Başqa uşaqlar yoxdur bəyəm. Məndən zəif oxuyanlar da var axı. Mən tamamilə zəif deyiləm axı.

**Bəydəmirli:** Sən nə üçün özünü zəiflərlə müqayisə etmək fikirindəsən. Sənin nümunə götürməli qardaşların var. Məktəbdə hamı onları barmaqla göstərir. Sən niyə dərslərindən geriləyirsən, hə. Niyə. Nəyin çatmır.

**İqbal:** Nə olub axı? Məndən sizə nə deyiblər.

**Bəydəmirli:** Daha nə deyəcəklərsə hamısını yazıblar sənin gündəliyinə.

**İqbal:** Hə nə olsun ki, yazıblar. Dünya dağılacaq? Sinif rəhbəri yazıb ki, bəs İqbal dərslərində geriləyir. Ata, hamı Elxanla Orxan kimi oxumaz ki? Onlar beşləri alırlar, bəs bu dördləri, üçləri kim almalıdır? Elə şeylərdən narahat olma ata, axırını gözlə, gör sənə kim daha yaxşı baxacaq.

**Bəydəmirli:** İqbal, oğlum, sən bilirsən ki, mən sizin üçünüzün də dostuyam. Mən sizi özümə belə yaxın hesab edirəm. Sən isə məndən nəyi isə gizlədirsən. Sənin o yoldaşlıq etdiyin uşaqları görmək istəyirəm. İstəyirəm görüm ki, sən kiminlə oturub-durursan, onlar sənə layiq uşaqlardı, ya yox.

**İqbal:** Demək bu yekəlikdə kişi işini-gücünü başdı-başına buraxıb mənim yoldaşlarımla tanış olacaq?

**Bəydəmirli:** Mənim başqa İşim də yoxdur. Bu gün mənim birinci işim sənsən. Gərək biz elə edək ki, gündəliyindəki o sözləri sinif rəhbərin başqa, xoş sözlərlə əvəz etsin. Nə deyirsən, razısan.

**İqbal:** Ata, siz mənimlə günahı olan adam kimi danışırsınız. Nəyə gücüm çatırsa onu da oxuyuram. Özümü öldürməyəcəyəm ki, nə qavrayıram odur.

**Bəydəmirli:** İqbal, oğlum. Sən bilirsən ki, mən hələlik işləmirəm. Bu gündən başlayaraq ikimiz ata-balalıqdan əlavə oluruq iki dost. Dərsinə gedirsən, vaxtında qayıdırsan, asudə vaxtını birlikdə keçirəcəyik. Gəzintiyə də, idman oyunlarına da, dənizdə çimməyə də, bulvara da, kinoya da, teatra da. Hamısına birlikdə gedəcəyik.

**İqbal:** Ata sözlü adama oxşayırsınız. Bəlkə bir az da dərindən mənə anladasan. Axı, nə olub e...

**Bəydəmirli:** Əlbəttə heç nə olmayıb. Sadəcə istəyirəm ki, sən daha yaxşı oxuyasan. Bütün fənlərdən demirəm ki, sənə əla qiymət versinlər, istəyirəm ki, sən özün bütün fənlərdən əla qiymət alasan. Bütün fənlərdən. Xüsusilə dəqiq fənləri. Bu mənim istəyimdir. Dəqiq fənlər də mənim fənlərim idi.

**İqbal:** Ata, deyirsiniz, mən dəqiq fənləri əla bilsəm, xoşbəxt olaram. Hamıdan yüksəkdə dayanaram.

**Bəydəmirli:** Yox, yox mənim balam. Mən belə demək istəmirəm. Mən deməzdim ki, dəqiq fənləri bilməklə xoşbəxt olmaq olar və ya hamıdan üstün olmaq olar. Bu belə deyil və mən özüm də belə fikirləşmirəm. Sadəcə, səninlə bir qədər artıq məşğul olmaq istəyirəm. İstəyirəm mənim oğlum yaxşı cəhətlərinə görə hamıdan fərqlənsin. Hə, nə deyirsən. Məni özünün yoldaşlığına qəbul edirsənmi? Hə, ya yox ! Bir söz de.

**İqbal:** Qəbul edirəm. Ancaq bu narahatlığının səbəbini bilmirəm. Nəyə görə təkcə mənimlə dostluq etmək istəyirsən, bəs Orxan, bəs Elxan?! Onlarla nə olursan. Sadəcə ata-oğlumu ?

**Bəydəmirli:** Yox, İqbal! Oğlum, sən dəqiq fənlərdən bir az zəifləmisən. Ona görə qərara almışam ki, səninlə ayrıca məşğul olum. Burada nə pis iş var ki? Dəqiq fənləri bilməklə sən çox şey qazanmış olacaqsan.

**İqbal:** Sizin kimi böyük elm adamı ola bilərəmmi?! Ata, bu sözlər, bəlkə də mənim ağzıma layiq deyil, amma gəlib qoyun deyim. Siz ki, bu qədər böyük alimsiniz, sizi niyə həbs etmişdilər.

**Bəydəmirli:** Maşınımla adam vurmuşdum. Səbəbi bu idi. İnsan öldürmüşdüm.

**İqbal:** Bəs, anam deyirdi ki, sənin heç bir günahın yox imiş. Günahsız adamı bəs niyə həbs etmişdilər.

**Bəydəmirli:** Mənim günahım varıydı. Deyirəm ki, bilərəkdən və ya bilməyərəkdən mənim idarə etdiyim maşın adam vurub öldürmüşdü. Buna görə də cəzamı çəkdim. Və mən bu qənaətdəyəm ki, hər bir günahkar öz layiqli cəzasını çəkməlidir.

**İqbal:** Ata, deyirsən sənə qarşı heç bir haqsızlıq olmayıb?

**Bəydəmirli:** Mənə qarşı yox, mənim işimi aparan polis mayoruna qarşı çox böyük haqsızlıq olub. Mənim işimi ləngitdiyi üçün onu tutduğu vəzifədən azad ediblər. Cavan ikən tutduğu yüksək postu mənə görə bada verdi. O mənə deyirdi ki, sizi üstünüzdə cinayət tərkibi yoxdur. Mən deyirdim ki, mən adam vurmuşam. O deyirdi ki, qadın intihar edib, onun özünü asan adamdan heç bir fərqi yoxdur. İntihara görə mən cəza verilməsinin əleyhinəyəm. Mən isə günahkar idim. Adam öldürmüşdüm. Onda sən hələ təzə doğulmuşdun. Mən həbsdən qayıdanda sən artıq böyümüşdün. Elə qardaşların da.

**İqbal:** Ata, niyə işləmirsən? Axı sən böyük bir alimsən. Niyə işsiz qalmısan. Necə də darıxırsan.

**Bəydəmirli:** Sizin kimi övladları olan heç darıxarmı? Sizin hər birinizlə qanadlanıb uçmaq istəyirəm. Düz deyirsən, işləmədiyim üçün çox əzab çəkirəm. Sənə nə deyim axı? -Nə üçün işləmirəm, niyə işləmirəm, səbəbi nədir? İqbalım, gəl bu barədə sonrakı söhbətlərimizdə danışaq. Bu gün əsas mövzu bizim ata-bala ikimizin necə yoldaşlıq edəcəyimizdir. Deməк, belə. Gündəliyimizi sənə deyirəm. Səhər idmanı, səhər yeməyi, məktəb saatı, əlbəttə bu sənin üçün olacaq. Sonra mən səni gözləyə-gözləyə mütaliə edirəm. Sən məktəbdən qayıdacaqsan, nahar yeməyi edirik, bir az asudə vaxtımız olacaq. Sonra birlikdə gəzintiyə və ya digər əyləncə işlərinə vaxt ayırırıq. Sonra yeni dərs gününün proqramı, axşam yeməyi, televizora baxmaq saatı və yatmaq.

**İqbal:** Ata, bu dediklərin hər gün təkrar olunacaq?! Bu məni bezdirər ki, hər gün eyni şey, təkrar, təkrar, təkrar. Bəs mənim yoldaşlarım, digər işlərim.

**Bəydəmirli:** Lap istəsən yoldaşlarını da gəzməyə götürərik.

**İqbal:** Ata, sən nə danışırsan. Sən onların tayı-tuşu deyilsən, elə onlar da sənin. Belə etmə ata, qoy mən sərbəst olum. Bəlkə mənim oxumaqdan başqa işə marağım olacaq. Onda belə çıxır mən daima sizin yanınızda olmalıyam. Ata.

**Bəydəmirli:** İqbal, mən sənin yalnız yaxşı günlərini istəyirəm. İstəyirəm gələcəkdə bizi qınamayasan ki, vaxtında sənə deyilməli nə vardısa hamısını deməmişik.

**İqbal:** Ata, elə danışırsan ki, elə bil nə isə bir cinayət törətmişəm. Axı, mən neyləmişəm?!

**Bəydəmirli:** Sən heç nə etməmisən, sən sadəcə dərslərindən zəifləmisən. Bunun səbəbini öyrənmək istəyirəm. Dərslərini yaxşı hazırlamaq üçün nəyin çatmır.

**İqbal:** (Sakitcə). Hər şeyim çatır.

**Bəydəmirli:** Bəs niyə zəifləmisən. Hə. Niyə? Müəllimlərinin dediyinə görə dərslərdən qaçan günlərin də olur. Dərsdən çıxıb birbaşa evə gəlmək əvəzinə saatlarla sinif-yoldaşlarınla orda-burda oynayırsan. Mənimlə qaba rəftar edirsən.

**İqbal:** Bütün bunları sizə kim deyib, ata?

**Bəydəmirli:** Mən özüm eşitmişəm. Heç kim deməyib. Sənə hayıfım gəlir, İqbal. Dərslərini yaxşı oxu, müəllimlərinin, ananın, nənənin sözlərinə bax.

**İqbal:** Ata, olar bir şeyi xahiş edim?!

**Bəydəmirli:** Olar, əlbəttə olar.

**İqbal:** Ata, mənə maşın sürməyi öyrədərsən?

**Bəydəmirli:** Öyrədərəm. Ancaq hələ tezdir.

**İqbal:** Tez niyə olur. Sinif yoldaşlarımızın ataları onları öyrədirlər. Mən də çox vaxt onlarla birlikdə maşın sürməyi öyrənirəm. Ona görə də evə gec gəlirəm. Dərslərimdən zəifləmişəm.

**Bəydəmirli:** Sən ki, belə kişi kimi neylədiyini etiaf etdinsə, mən sənə maşın sürməyi öyrədəcəyəm. Maşınımız da gör nə vaxtdır qarajdan çıxarılmayıb. Hökmən sənə maşın sürməyi öyrədəcəyəm. Ancaq əvvəlcə gərək məktəbdəki əvvəlki hörmətini özünə qaytarasan, yaxşı oxuyasan, tərbiyədə nümunə olasan, ananı, nənəni incitməyəsən. Ondan sonra isə maşının rolu arxasına keçəsən. Razısan?

**İqbal:** Razıyam.

**Bəydəmirli:** Söz.

**İqbal:** Söz. (Onlar əl-ələ vururlar).

(Səhnə dönür. Gülçöhrənin iş otağı. O telefonla danışır.)

## V şəkil

**Gülçöhrə:** Bəli mənəm. Siz kimsiniz?! Xatırlaya bilmirəm, nə bilim vallah. Nə zaman istəyirsiniz gələ bilərsiniz. Buyurun. (O telefonun dəstəyini yerə qoyur. Ayağa qalxıb gəzişir. Gəlib tamaşaçılarla üz-üzə dayanır):

-Mən bildim kim idi telefondakı. Özümü bilməməzliyə vurdum. «Odur, on altı il əvvəl maşın vurmuş bir xəstəmizin anası. Onun o vaxtkı yalvarışlarını yəqin ki, unutmamısınız. (Pauza). Bir qədər davam edən pauzanı daxili telefonun səsi pozur. Gülçöhrə xanım dəstəyi qaldırır.

**Gülçöhrə:** Gəlsin, gəlsin. (Otağa 50-52 yaşlarında çox səliqə ilə geyinmiş bir qadın daxil olur).

**Qadın:** Salam, Gülçöhrə xanım.

**Gülçöhrə:** Salam buyurun, buyurun əyləşin. (Qadın keçib əyləşir).

Eşidirəm sizi.

**Qadın:** Siz məni tanımadınız?

**Gülçöhrə:** Xeyir tanımadım.

**Qadın:** Bu necə ola bilər?

**Gülçöhrə:** Çox sadəcə mən sizi tanımadım. Kimliyinizi deyərsiniz tanıyarıq. Sizə necə lazımdırsa, tibbi xidmət göstərərik.

**Qadın:** Gülçöhrə xanım, mənim heç bir müayinəyə ehtiyacım yoxdur, sappasağlam adamam. Sizinlə başqa iş üçün danışmağa gəlmişəm.

**Gülçöhrə:** Hansı iş üçün?

**Qadın:** Gülçöhrə xanım, bir hadisə gərək ki, sizin xatirənizdən çıxmıya.

**Gülçöhrə:** Hansı hadisəni deyirsiniz, başımıza o qədər işlər gəlib ki?

**Qadın:** Mən dediyim ayrı hadisədir. Yadınızdadır mənim sizin yanınızda olmağım?

**Gülçöhrə:** Xatırlamıram.

**Qadın:** Bir az yaddaşınızı qurdalayın. Bəlkə də, xatırladınız.

**Gülçöhrə:** Xanım, dedim ki, xatırlamıram. Nə sözünüz varsa buyurun, deyin. Bəlkə xatırladım.

**Qadın:** Sizin xəstəniz olan, bicjə günlük zahı olan qadının bu xəstəxananın qarşısında maşın vurması nəticəsində həlak olması və onun yetim qalan körpəsi, gərək ki, yadınızdan çıxmasın.

**Gülçöhrə:** Ölmüş qadının anasının mənə yalvar-yaxarı da, dedikləri də yəqin sizin yadınızdan çıxmayıb. Elə mi?!

**Qadın:** Xeyir çıxmayıb. Hər şey yadımda.

**Gülçöhrə:** İndi nə istəyirsiniz?

**Qadın:** O uşağın taleyi məni maraqlandırır.

**Gülçöhrə:** O uşaq sizin nəyinizə gərəkdir. O vaxt dediklərinizi yaxşı xatırldasaydınız heç bu fikirə düşməzdiniz. Mən bu qənayətdəyəm ki, unutqansınız. O zaman da sizin adınızı xəbər almamışdım. Heç indi də soruşmuram. Kimliyiniz məni o qədər də maraqlandırmır. O zaman yalvardınız ki, bu hadisəni heç kim bilməsin. Qızınızın qeyri-qanuni uşaq doğmasını ərinizdən, oğlanlarınızdan gizlətdiniz. Qorxdunuz ki, sizi öldürərlər, axırı necə oldu? Uşaq kimsəsiz qaldı. Gedin indi onu on altı ildən sonra bu böyük şəhərlərin küçələrində axtarın. İndi hansı üzlə bura gəlmisiniz.

**Qadın:** Gülçöhrə xanım, o uşağın da, sizin də qarşınızda günahkaram. Sonradan başımıza gələnləri eşitsən mənə nə qədər yazığınız gəlcjək, bunu deyə bilmərəm.

(Qadın susur. Sol əlində tutduğu dəsmalla gözlərinin yaşını qurulayır. Baxışlarını qaldırıb Gülçöhrəyə dönür):

- Başımıza nələr gəldi. Qızımızı o günə salan qızımdan üç ay əvvəl adam öldürdüyü üçün tutulmuşdu. On

il yatıb çıxdı. Bilirsiniz ki, baldızımın oğlu idi. Onun gəlişi üçün süfrə açmışdılar. Qohum qonşular hamısı orada idi. Demiyəsən o gələn kimi qızı xəbər alıb. Anası min bəhanə gətirib, rayona getdiyini bildirib. Oğlan toxtamaq bilməyib. Elə dəlicəsinə qızı xəbər alıb, bizim də onu gec görməyə getməyimiz də onu əsəbləşdirib. Elə məclis günü də başımıza olmazın müsübətləri gəldi. Qızımızı dəlicəsinə sevən bu xəstə ruh əvvəlcədən əldə etdiyi silahla həyat yoldaşımı, oğlanlarımı və öz ata-anasını qətlə yetirdi. Yenidən həbs edildi. Altı ildir ki, yatır. Başımızın bəlası. Evimizi yıxan bizim ailəni şum elədi.

**Gülçöhrə:** Xanım, siz bu işdə özünüzü bir az da olsa günahkar hesab etmisinizmi?

**Qadın:** Edirəm. Qısaca dedim ki, bu cinayətdə mənim də payım var. Qızım əlimdən getdi. Ailəm dağıldı. Oğlanlarım cavan ikən həyatdan getdi, bir narkomanın gülləsinə gəldi. Mən də günahkaram, oğlanın valideyinləri də. Nəvələrim yetim qaldılar. Kaş məni də güllələyəydi, gözlərim o günü görməyəydi. Gəlinlərim də uşaqlarını götürüb evdən getdilər. İndi evdə qalmışam tənha. Ev üstümə gəlir. Həkim, hər kəs istəyir ki, məhv olsun, övladlarının və özünün səhvinə göz yummaq bəs edir.

(Qadın danışdıqca kövrəkliyi keçirdi).

O zaman qızım mənə hər şeyi dedi. Artıq gec idi. Oğlan iynə vurdurmayaydı inan ki, ölərdi. Kişinin, oğlanlarımın pullarından o qədər götürüb qızıma vermişəm ki! Bununla o cinayətkara kömək etmişəm. Qızımı da öz əlimlə güllləmişəm, ailə üzvlərimi də. Budur həmin narkoman, yenə də həbsdədir. Allah bilir nə vaxtsa çıxıb kimləri isə güllələyəcək.

**Gülçöhrə:** Məhəttəl qalmalı işdir. Həbsdən gələn kimi bu silahlı hardan taprılar bu cinayətkarlar.

**Qadın:** Ay həkim, mənə görə bu silah da hazırlanmışdı elə bil. İki ailəni öldürdü, qırdı-çatdı bizi. Onsuz da o düzələsi adam deyil.

**Gülçöhrə:** Axı o qızınızı dəlicəsinə sevib!

**Qadın:** Nə olsun. Hər dəliliyin bir sonu var. Əgər o düzgün yolda olsaydı bu sevgiyə sözüm yox idi. Dəlicəsinə sevmək o demək deyil ki, bir nəsli qırasan. Düzdür o qızımın ölümündə bizi suçlamışdı. Bəlkə məni də ona görə öldürməyib ki, vaxtında ona əl tutmuşam. Kaş əllərim ona uzanan yerdə quruyaydı.

**Gülçöhrə:** Olur, həyatda çox qəribəliklər olur. Ancaq sizin başınıza gələnlərin bünövrəsini fikirləşəndə istər-istəməz deyirsən ki, bu olmaya da bilərdi. Siz necə bilirsiniz?

**Qadın:** (Ona belə bir sualın veriləcəyini gözləyirmiş kimi): Əlbəttə, olmaya bilərdi. Əgər baldızımın oğlu tərəfdən günahkardırsa, digər tərəfdən bütövlükdə ailə günahkardır. Bu necə ola bilər axı? Necə olur ki, uşaq narkoman olsun, ata, ana bilməsin. İlk vaxtlar, bəlkə də olar. Sonradan evlərin içindəkilər satıldı, yatırımlar satıldı, yadigarlar satıldı, qoşa-qoşa evlər satıldı, sonra keçdi bizə. Nə isə (o, ah çəkir) İstər vəlvələdən, istərsə də zəlzələdən məhv oldu. Bir ağıldan kəmin ağlının ucbatından. Məhv olduq. Allah heç kimə göstərməsin.

**Gülçöhrə:** Mən sizi indi daha yaxından tanımağa başlayıram. Başınıza gələnlər sizi necə də dəyişdirib. Sizə qarşı əvvəlki münasibətimə görə məni bağışlayın.

**Qadın:** Allah bağışlasın. Biz kimik ki, bir vaxt biz məhv olmuş iki ailənin gülüşündən məhəllənin qulaqları tutulurdu. İndi isə. Bu da fələyin işdiri. Bir şerdən iki misra yadımda qalır:

«Fələyin yazdığını mən poza bilsəydim həmən,
Onu öz əlimlə, öz məramımla yazardım təzədən».

Hayıflar olsun ki, fələyin yazdığını pozmaq mümkün deyil. Heç kim, heç nə ilə fələyin yazdığını poza bilməz.

**Gülçöhrə:** Tamamilə doğrudur. Mən də sizinlə eyni fikirdəyəm ki, adam öz əli ilə öz məramını yaza bilməz. Amma, bir amması var ki, fələyin yazdığını poza bilməsə də, ona müəyyən qədər düzəliş edə bilər. Sizin başınıza gələnlərin hamısını fələyin üstünə yıxmayın. Bəzən öz günahlarımızı da etiraf etməyi bacarmalıyıq. Xanım, sizə belə bir sualım var. Sizin gələcək kürəkəniniz olacaq həmin oğlanın nəslində belə ziyanlı işlərlə məşğul olan yoxuydu ki?

**Qadın:** Açıq-aşkar, heç nə yox idi. Amma eşitmişdim ki, oğlanın dayılarından biri anaşa çəkərmiş, həş-hiş deyirdilər, nə bilim nə deyirdilər. O da bir gün qonşusunu bıçaqlayıb, həbsə salınıb və orada da ölüb. Vəssalam. Başqa heç nə eşitməmişəm. Gülçöhrə xanım, yanı deyirsiniz ki, onlar da nəsildən-nəsilə keçmədir?

**Gülçöhrə:** Yox, elə demək istəmirdim. Sadəcə bir sual idi. Cavabını aldım. İndi sizi narahat edən əsas məsələyə keçməzdən əvvəl sizin bayaq dediyininz o beyti bir də eşitmək istərdim. Necə də gözəl idi. Bir də deyin, xahiş edirəm.

**Qadın:** (Bir məktəbli kimi özünü yıxışdıraraq).
«Fələyin yazdığını mən poza bilsəydim həmən,
Onu arzumla, məramımla yazardım təzədən».

**Gülçöhrə:** Yazdım! Çox xoşuma gəldi. Əla misralardı. (öz-özünə deyirmiş kimi) «Fələyin yazdığını mən poza bilsəydim həmən, onu öz məramımla, öz əlimlə yazardım təzədən». Bir işi təzədən başlamaq olarmı? Xüsusilə həyatı? Yenidən başlamaq olarmı? Çox çətin məsələdir. Elə deyək ki, sizin bu gün düşündüyünüz və mənə müraciət etdiyiniz o uşaq

məsələsi. Yəni sizin bir vaxt təkidlə öz üzərinizdən atdığınız uşaq, sizin imtina etdiyiniz uşaq. Lap tutaq ki, həmin uşaq tapıldı. O sizə necə yapışacaq, sizə necə müraciət edəcək. Siz axı ona heç nə etməmisiniz. İndi gəlmisiniz ki, 16 yaşında nəvəmi axtarıram və ondan sizin xəbəriniz olmamış deyil. Tutalım ki, həmin uşağın yerini, ünvanını bilirəm. Mən onu sizə necə verə bilərəm. Onun isti ocağını niyə soyudaq? Yaxşı olar ki, bu məsələdən vaz keçəsiniz. Nə özünüzü yorun, nə də.

**Qadın:** Siz nə demək istəyirsiniz. Mən o uşağın bu gündə harada olduğunu yaxşı bilirəm. Onu kimin övladlığa götürdüyünü də yaxşı bilirəm.

**Gülçöhrə:** Elə isə mənim yanıma niyə gəlmisiniz?! Gedin nəvənizi həmin adamdan soruşun.

**Qadın:** Mən elə həmin xeyirxah adamın yanına gəlmişəm.

**Gülçöhrə:** Sizin dediyinizdən belə çıxır ki, sizin nəvənizi mən övladlığa götürmüşəm?

**Qadın:** Mənə elə gəlmir. Bu belədir. Siz çox böyuk ürək sahibi oldunuz. Sonradan mən öyrəndim ki, uşağı siz öz evinizə aparmısınız.

**Gülçöhrə:** Lap tutaq ki, siz dediyiniz doğrudur. O uşaqdan sizə nə?! Siz ki, o vaxt uşaqdan imtina etdiniz. Yalvardınız-yaxardınız ki, bizim adımız olmasın. İndi nə üzlə həmin uşağın dalısınca gəlmisiniz. O vaxt yerimizin pis olması sizi narahat edirdi. İndi də deyirsiniz ki, tək-tənha qalmısınız. Özünüzə qulaq yoldaşı axtarırsınız. Necə deyiblər bizim atalar: «Nə yoğurdum, nə yapdım , hazırca kökə tapdım :

**Qadın:** Demək istəyirsiniz ki, həmin uşaq üçün bizim heç bir haqqımız çatmır? Axı, o mənim qızımın uşağıdır. Axı, o mənim ürəyimin bir parçasıdır.

**Gülçöhrə:** (Tabdan çıxmış kimi). Yox əşi, bəlkə ürəyinizin hamısıdır. Ay xanım, nə özünüzü yorun, nə də mənə əzab verin. Gedin öz işinizlə məşğul olun.

Dediniz ki, uşağı mən götürmüşəm. Düz deyirsiniz. Mən saxlamışam, öz övladlarımdan seçmədən saxlamışam. Artıq onun 16 yaşı var. On altı il, anasız uşağa analıq etmək özü də elə etmək ki, onun bu işdən xəbəri olmasın. Elə bilirsiniz ki, asan məsələdir. Xeyir, asan deyil. Çətindir, çox çətindir. Onu boya-başa çatdırmışam ki, indi kimsə yandan çıxsın ki, bəs uşaq mənimdir. O vaxt uşağı götürəndə mənim ona heç bir ehtiyacım yox idi. Ancaq indi ona çox böyük ehtiyacım var. O mənim yuxusuz qalan gecələrimin hesabına uşaq oldu. Maşallah, indi qardaşlarından seçilmir.

**Qadın:** Gülçöhrə xanım! Bilirsiniz...

**Gülçöhrə:** (Onun sözünü kəsir). Mən heç nə bilmirəm və bilmək də istəmirəm. Həmin mövzuda sizinlə bir kəlmə belə danışmaq istəmirəm. Vəssalam. Başqa sözünüz yoxdursa gedə bilərsiniz.

**Qadın:** Gülçöhrə xanım!

**Gülçöhrə:** Xanım, mən sizə dedim ki, gedə bilərsiniz. İşimiz başımızdan aşır, siz də bir yandan...

**Qadın:** (Ayağa qalxır). Siz məni otağınızdan qovalayırsınız? Neynək. Lazım olsa mən öz nəvəmi qanunun əliylə sizdən alaram. İndi ki, belə oldu, mən sizə göstərərəm. Kimin kim olduğunu onda görərəsən.

**Gülçöhrə:** Mənə xux gəlirsən? Get, əlindən gələni beş qaba çək. Bəlkə biri də özünə çata. Rica edirəm, gedin. Məni hövsələdən çıxarmayın, gedin. Gedin, rica edirəm.

(Qadın otaqdan çıxır. Gülçöhrə tək qalır. Gəlib tamaşaçılarla üzbəüz dayanır):

- Qəribə adamlar var. Bir zaman üzünə belə baxmaq istəmirdi. İndii gəlib ki, tək qalmışam, divarlar üstümə gəlir, uşağı verin mənə. Əcəb işdi. Siz Allah, bu qadının əməlinə baxın. İnanırsınız, bıçaq vursanız qanım çıxmaz. On altı ildə bir dəfə xəbər tutmayasan ki, qızımın uşağı öldü, ya qaldı. İndi gəlib ki, verin

uşağı tək qalmışam. Bir xəbər almır ki, bu uşağı ona verən olacaq, ya yox. Ay sən öləsən, it zülmü ilə uşaq böyütmüşük indi verək sənə? Yazıq anam o üç uşağın əziyyətinə tab gətirə bilməyib dünyasını dəyişdi. Lap məhkəməyə versə də, ondan keçdi yoxdur. İqbalsız yaşaya bilmərəm. Əvvəlcə ona qarşı ürəyimdə bir mərhəmət varıydı, böyüdükcə bu mərhəmət məhəbbətə çevrildi. Onu məndən indi heç bir qüvvə ala bilməz. Onsuz qalmaq barədə düşünmək belə istəmirəm, o mənim hər şeyimdir.

(Səhnə qaranlıqlaşır. Səhnə fırlanır. Yeni şəkil).

## VI şəkil

(Gülçöhrəgilin evi. Bəydəmirli oturub fikirlidir. İqbal qonşu otaqdan səhnəyə daxil olur):

**İqbal:** Ata, nə deyirsən mənə maşın sürməyi öyrədəcəksən, yoxsa qonşu uşaqlarnan gedim onların ataları öyrətsinlər?

**Bəydəmirli:** İqbal, oğlum, səninlə belə danışmadıq axı. Əvvəlcə sən dərslərinə ciddi fikir verəcəksən, müəllimlərinin sözünə qulaq asacaqsan, məktəbə davamiyyətin normal hala düşəcək, ondan sonra qalan vaxtında sənə maşın sürməyi öyrədəcəyəm. Vəssalam. Səninlə belə danışmışdıq. Düzdür, düz deyil.

**İqbal:** Elədir. Nə olar ki, onlarla eyni vaxta maşın sürməyi də öyrənəm. Bunun nəyi pisdir ki?! Hə nəyi pisdir, ata? Bəlkə onda dərslərimdən bir az da möhkəm yapışaram. Ata elə bil bu dünyanın adamı deyilsən e...

**Bəydəmirli:** Niyə. Nə olub ki? Nədən bu qənaətə gəlmisən, oğlum. Niyə mən bu dünyanın adamı deyiləm?

**İqbal:** Belə də. Mənim sinif yoldaşlarımın ataları uşaqlarını sənin kimi danlamırlar ki, hökmən oxu. Hökmən instituta daxil ol mənim fikirimi bilmək istəyirsinizsə, bilin. Mən sürücü olmaq istəyirəm. Özüm də minibus sürücüsü olmaq istəyirəm. Adamlara xidmət etmək istəyirəm. Ata, siz elimlər doktorusunuz. Gör neçə illərdir işləmirsiniz. Anamın, elə müəllimlərimin də dediklərinə görə elmli adamsınız. Nə olsun, neyləmisiniz ki, sizə iş vermirlər?

**Bəydəmirli:** Verirlər, özüm getmirəm. (O İqbaldan bir qədər aralanıb səhnənin küncünə gəlir. Özözünə danışırmış kimi):

-Mən sənə hər şeyi bir-bir necə deyim, oğlum. Necə deyim ki, Gülçöhrə sənin əsil anan deyil. Mən də sənin atan deyiləm. Necə deyim. (Telefon zəng çalır. Bəydəmirli dəstəyi götürmək istərkən oğlu İqbal ondan bir qədər tez dəstəyi götürür):

**İqbal:** Bəli eşidirəm. Mənəm, ana. Atam da yanımdadır. Yaxşıyıq. Bir azdan gedəcəyik maşın sürməyi öyrənməyə. Hə atam söz verib ki, özü mənə maşın sürməyi öyrədəcək. Ana, sən atam kimi o dəqiqə dərslərimi araya salırsan, oxuyacam da, dərslər qaçmır ki? Hə, maşın sürmək qaçır. O gözəllikdə maşınımız gör neçə illərdir ki, qarajda çürüyür-hökmən öyrənəcəm. Atam özü söz verib. Yaxşı, yaxşı dəstəyi atama verirəm.

**Bəydəmirli:** Xoş gördük, Gülçöhrə! Yaxşıyam. Şükürlər olsun. Neyləyim, əlacım yoxdur. Öyrədəcəyəm. Narahat olma. Qətiyyən narahat olma. Nə olub sənə. Səsindən bir az həyəcanlı olduğunu duyuram. Sənə nə olub? Deyirsən, heç nə olmayıb. Yaxşı gələrsən qalanı barədə danışarıq. Mənə sözün var? Deyirsən, durum gəlim. Nə deyirsən? Özündən muğayat ol. Biz İqballa çox mehribanıq. İnan mənə. İqbal çox yaxşı oğlandır. Mənimlə razılaşır. Hər şeyi onunçün etmək istəyirəm. Gəlirsən? Yaxşı, yaxşı gələrsən danışarıq. (O telefonun dəstəyini yerə qoyur üzünü İqbala tutaraq):

-İqbal, anan səni nə qədər də çox istəyir. Sənin maşın sürmək istədiyini eşitcək necə də sevindi. Daha nəyə marağın var. ( İqbal susur. Bəydəmirli davam edir).

- Bəlkə səni komputer kursuna qoyaq. Gələcəyin sənətidir. Öyrənsən pis olmaz.

**İqbal:** Mənim komputerə hövsələm çatmaz. O qədər bir yerdə otura bilmərəm. Gərək onu öyrənmək üçün günlərlə oturasan, gözünü zilləyəsən aparata.

Yox, o mənlik deyil. Elə yaxşısı maşın sürməyi öyrənməkdir. Qarajda maşınımız az qalır çürüsün. Öyrənərəm, orta məktəbi bitirdikdən sonra əsgərliyə gedərəm, orda da sürücü olaram, maşını daha yaxşı idarə etməyi öyrənərəm. Ata, xoşbəxtlik yalnız oxumaqda deyil axı. İcazə verin, bir azda öz düşündüyümüz kimi olaq.

**Bəydəmirli:** İqbal, bala, sən yaşından çox yuxarının sözünü danışırsan. Bir az da öz düşündüyümüz kimi olaraq (ironiya ilə). Bir buna bax. İqbal kişi artıq öz düşündüyü kimi olmaq istəyir. Ay İqbal, hələ sən 9-cu sinfi bitirirsən. Hələ sənin qarşıda iki sinfin durur. Məktəbi bitir sonrasını fikirləşərik. İstəyərsən oxuyarsan, istəməzsən könüllü ordu sıralarına gedərsən. Qayıdandan sonra arzuna görə işləyərsən. Hələ sənin orta məktəb dərslərinə hazırlaşan vaxtındır. Vəssalam. Dur hazırlaş.

**İqbal:** Hara gedirik, ata. Gedək birlikdə bir az gəzişək. (Onlar qalxıb qapıya yaxınlaşmaq istərkən qapı döyülür).

**Bəydəmirli:** Buyurun. (Qapı açılır. Ədliyyə polisi geyimində bir nəfər cavan oğlan səhnəyə daxil olur).

**Gələn adam:** Sizə məktub var. Xahiş edirəm imza atasınız.

**Bəydəmirli:** Nə məktubdur?! Neynək, gətirin qol çəkim.

**Gələn adam:** Məhəkəmədəndir.

**Bəydəmirli:** Məhkəmədən?! (həyəcanla) Ora hara, biz hara.

**Gələn adam:** Nə bilim, vallah. Mən xidməti vəzifəmi yerinə yetirirəm. (Bəydəmirli imza atıb məktubu alır. Gələn adam otaqdan çıxır. Bəydəmirli tələsik məktubu açır. İqbal otaqdan çıxa-çıxa!

**İqbal:** Ata, mən həyətdə gözləyirəm.

**Bəydəmirli:** Gəlirəm. Düş aşağı, gəlirəm. (Məktubu oxuyur):

-Ayın 13-də saat 11.00-da rayon məhkəməsinə dəvət edilirsiniz. Çağırışa səbəb.

-İddiaçı Xanımzər İbadovanın ərizəsi. (Bəydəmirli bir şey anlanırmış kimi çiyinlərini yuxarı çəkib mat-mat açıq qapıya baxır):

-Bu nə işdir görəsən. Bu Xanımzər İbadova kimdir. Onun bizdən nə istəyi ola bilər? (Bir neçə anlığa susub dayanır). Eybi yox, gedərik məhkəməyə iddiaçının məqsədini öyrənərik. Deməli sabah yox, birisi gün. Saat 11-də məhkəmədə. Qəribə sürprizdir. Gülçöhrəyə bu barədə hələlik heç bir söz deməyəcəyəm. (O fikirli halda səhnədə bir qədər gəzişir və səhnədən çıxır).

## VII şəkil

(Gülçöhrənin iş otağı. Telefon zəng çalır. O telefonun dəstəyini qaldırır).

**Gülçöhrə:** Eşidirəm. Bəli, bəli mənəm. Gülçöhrə xanımdır. Mənimlə nə söhbətiniz ola bilər. Siz ki, mənim yanımda idiniz. İstədiklərinizi dediniz, mən də cavabını verdim. Vəssalam. Daha sözü bu qədər uzatmaq lazım deyil. Siz qızınızın oğlunu axtarırsınız. Gedin axtarın. On altı ildir uşaq saxlayan saxlamayıb ki, günün birində kimsə bir tindən çıxıb onu istəsin. Bağrına basıb desin ki, ay sənə nənən qurban, bəs, mən də varıymışam. Ay səni. (Gülçöhrə xanım açıq-aşkar hirsini saxlaya bilmədi). Ay qardaşlar, ay bacılar! Siz bir bu arvadda abıra-həyaya baxın e... Bir vaxtlar daş atıb başını tutan bu Xanımzər xanım indi birdənbirə on altı yaşında oğlan qazanmaq istəyir. Heç qışqırbağır salma, sənin xoxundan qorxan yoxdur. Get, dedim, get, əlindən gələni beş qaba çək: (O yenidən hirslənir). Deyəsən, axı səninlə astadan danışdım. Səndə heç mədəniyyət yox imiş ki? Hə, bizdə var! Özümüzə yetdik varımızdı. Bizi məhkəməyə vermisən? Yaxşı eləmisən. Lap yaxşı. Gələrik. Onda görərsən ki, qanun nə deyir. Görüşərik, məhkəmədə görüşərik. Bəsdir, daha bir də mənə zəng vurmayın. Ayıbdır. O telefonu yerinə qoyur. Tamaşaçılara tərəf addımlaya-addımlaya:

**Gülçöhrə:** Buna bax, elə bil bizi buna satıblar. Uşaq saxlamışıq ki, verək buna? Ay səni öləsən. Adam nə qədər qanacaqsız olarmış. Mən deyiləm, sizsiniz. Əgər siz on altı il bir uşağı saxlayıb böyütsəydiniz və o uşaq sizi öz doğma anası-atası bilsəydi siz necə hərəkət edərdiniz? Həmin uşağı bir vaxtlar bəyənmə-

yib küçəyə belə atmağa razı olan bir nəfərə verərdinizmi? Əsla verməzdiniz, eləmi. (Yerdən səslər):

-Verməzdik, biz də verməzdik.

-Mən də sizin kimi edərək uşağı, canımdan artıq sevdiyim oğlumu kimsəyə vermərəm. Ona ömrümü verdim. Bəydəmirli həbsdə olan vaxt o körpə ilə nəfəs aldım. Gecəmi-gündüzümü ona verdim. Sağlam böyütdüm. İndi Xanımzər hər şeyini itirəndən sonra yadına düşür ki, bəs nə var, nə var. Kimdə isə mənim iki günlük nəvəm var. Bir ondan soruşan yoxdur ki, ay Xanımzər xanım sən hansı ixtiyarla bu sahiblik xülyasına düşmüsən. Onun kimi yüzlərlə arvad ölsün İqbalı heç kimə verməərəm. O, Etibar Bəydəmirlinin tərbiyəsini görüb. İndi öz əlimizlə bir uşağı bədbəxt edəcəyik?

-Görün bir nə deyir. «O mənim qızımın yadigarıdır». Ondan soruşan yoxdur, bəs on altı il bundan əvvəl o, qızının nəyi idi? Bax onda dərisini qoruyub uşağa yiyə durmadı. Yalvardıq-yaxardıq ki, qızınızın yadigarıdır, bu tifilin nə günahı vardır. Heç nə ona təsir etmədi ki, etmədi. İndi də məni məhkəmə ilə qorxudur. Lap uşaq sənin qanından olsa da belə qanun buna yol verməz ki, on altı il min bir əzab-əziyyətlə böyütdüyün bir uşağı sənin əlindən alsınlar. Buna mən dözə bilmərəm.

(Telefon zəng çalır. Gülçöhrə diskinən təhər olur. O dəstəyi qaldırır):

**Gülçöhrə:** Hə mənəm. Sən necəsən? Çox yaxşı. Mənə vacib sözün var? Gələrəm, deyərsən. Sən gəlirsən? Gəl neynək, evə də birlikdə qayıdarıq. (Sağollaşıb dəstəyi yerinə qoyur). Bu kişinin də xiffəti məni birtəhər eləyib. Öz işinə qaytarmadılar. Başqa yerlərdən də nə qədər iş təklif olundu getmədi, indi başı havalı gəzir.

(Pauza)

(Qapı döyülür Gülçöhrənin səsi):

**Gülçöhrə:** Buyurun. (Bəydəmirli içəri daxil olur).

Bəydəmirli : Buyur deyirsən, buyuraq. Xoş gördük səni, həkim xanım.

**Gülçöhrə:** Nə olub a kişi, mənə elə baxırsan elə bil birinci kərədir görürsən. Hə, nə olub. Nə tez gəldin. Nə ilə gəldin.

**Bəydəmirli:** Nə ilə gələcəm, maşınla. Düz on altı il əvvəl sənin arxanla gəldiyim o gilənarı «Ciquli» ilə. Hələ gəl pəncərədən bax, gör maşının rolu arxasında kim oturub. (Həkim pəncərə önünə gəlir. Boylanıb baxır. Həyacanla):

**Gülçöhrə:** Ay kişi, bu ki, bizim İqbaldır.

**Bəydəmirli:** Özüdür ki, var. Gör neçə müddətdir ona maşın sürməyi öyrədirəm. (Bəydəmirli tutulan təhər olur. Bir an susur. On altı il əvvəl bulaşıq bu payız havasında maşınla qadını vurduğu, daha doğrusu qadının özünü maşının qabağına necə atdığı düşdü. Köks ötürdü. Özünü toplayıb sözünə davam etdi).

Bu illər necə də tez ötdü. Elə bil dünən idi. Hər şey gözlərimin qarşısındadır. O qadının həmin an ölməyi. İndi İqballa bura necə gəldiyimi fikirləşirəm. Heç bilmirəm bu uşaq maşını necə idarə edib. Özümdə deyiləm Gülçöhrə, özümdə deyiləm. Elə bilirəm ki, ruhum içmdən çıxıb. Gedirəm elə bil ki, ayaqlarım yerə dəymir. O gün, o qadını maşınla vurduğum gün bir an da olsun yadımdan çıxmır.

**Gülçöhrə:** Sən çox sözlü adama oxşayırsan, bəyim!

**Bəydəmirli:** Bundan artıq daha nə sözüm olacaq. Bir narkoman gör nə qədər evlər dağıtdı. Mən qəza törətdim, həbs olundum, nə az-nə çox düz beş il yatdım. Çıxdım indi canımı qoyduğum institutun kandarından məni içəri buraxmırlar. Cinayətkaram. Bu yandan da İqbalın taleyi məni narahat edir. Dərs-

lərindən tamamilə soyuyub, ona tamam yad adamlara meyillidir. Elə məsələlər barədə danışır ki, mat-məhəttəl qalmaya bilmirsən. Elə bil ki, o biri uşaqlara tərbiyə verən buna tərbiyə verməyib.

**Gülçöhrə:** Cənab irsiyyət alimi, bəlkə doğurdan da irsiyyət dediyin doğrudur.

**Bəydəmirli:** Bəlkə inanmırsan. İrsiyyət doğru məsələdir. Bu elmdir, Gülüm, elmdir. Marksizm-Leninizm nəzəriyyəsi deyil. Həyat çox şeyləri başayaq edə bilir, amma genləri dəyişdirə bilmir. Dünya dağılsa da ilan yumurtasından cücə çıxmaz. Badımcan şitili pomidor yetirməz. Xiyar toxumundan qarpız əmələ gəlməz. Zəncidən «blandinka» olmaz, Gülçöhrə!

**Gülçöhrə:** Sən nə demək istəyirsən bəyim. Deyirsən yanı hərə öz zatına, hərə öz dölünə çəkir, eləmi?

**Bəydəmirli:** Mənə görə elədir, sənə görə necədir onu bilmirəm.

**Gülçöhrə:** Demək, cinayətkarın övladı hökmən cinayətkar olmalıdır? Yaxşıdan ancaq yaxşı, pisdən ancaq pis doğulmalıdır?

**Bəydəmirli:** Gülüm, sən genetikanı məndən pis bilmirsən. Və onu da məndən yaxşı bilirsən ki, sən bu işlərin bilavasitə içərisindəsən. Doğan, doğulan sənin gözlərinin qarşısındadır. Durub sənə təzədən irsiyyət haqqında məruzə oxumaq fikirində deyiləm. O elə bir elmdir ki, qərarı bütün formasiyalarda eynidir. Qısası hər bir toxum öz keçmişindən yaranıb və gələcəyi də ondan yaranacaq. Vəssalam. Gülüm, yüz illər əvvəllərə gedib çıxan irsiyyət elmi təbiətin və cəmiyyətin qaynağıdır. Hər meyvə öz budağından dərilir. Gilas ağacından banan dərmək mümkün deyil. Afrikalıya desən ki, bu gilasdır, başını yelləyib deyər ki, tanımadım. Ancaq ən ucqar kəndlərimizdə belə banan tanınır. Onu fikirləşəndə ki, gilasın banana, bananın gi-

lasa doğru yolu eyni kilometrdir. Onda bir məsələ adamı düşündürür. Demək Afrikalının genində ticarətçilik yoxdur. Bir ondan üstünlüyümüz bu irsiyyətlə doğulmağımızdır. Bizi mənəvi və maddiləşmiş genlərimiz yaşadır, idarə edir. Qısası budur ki, hər kəsin öz ağacı var. Ağac da və gördüklərimiz və görmədiklərimiz nə varsa hamısı öz kökü üstündədir. Hər bir canlı üç dayaqlıdır. Məsələn, götürək ağacı. Kökü var, gövdəsi var, budaqları var. Köksüz gövdə, gövdəsiz budaq ola bilməz. İnsanın ayaqlarının yerə pərçimlənməsinə baxmayın. Onun da kökü var, özündən çox-çox qabaqlar torpağa əkilib o köklər. İndi hər kəs öz kökü üstündədir. Elə sən də, mən də, o da.

**Gülçöhrə:** O kimdir.

**Bəydəmirli:** Kim olacaq uşaqlarımız. Bizimkilər bizim köklərimizin, başqaları da öz köklərinin üzərində dayanıblar.

**Gülçöhrə:** Başqaları kimdir. Yoxsa İqbalı özgə hesab edirsən?

**Bəydəmirli:** Həkim xanım, sən bilirsən ki, mənim söz güləşdirməklə işim yoxdur. Mənim nə dediyimi özüm də yaxşı bilirəm, elə sən də yaxşı bilirsən. Sən və mən, biz birlikdə İqbalı öz qabiliyyətimizə görə tərbiyə etmişik. Elxanla Orxanla birlikdə. Nə etmişiksə hamısına eyni, eyni gözlə baxmışıq hər üçünə. Hələ buna bir az da çox diqqət göstərmişik. Onun yolunda və mənim yolumda saçlarını ağartmısan. Sən bunu biruzə verməsən də mən yaxşı bilirəm. Ancaq son vaxtlar İqbalın hərəkətləri məni tamamilə narahat edir. Tamam ayrı uşaq olub. Bəlkə, bu uşağa kim isə altdan-üstdən deyir.

**Gülçöhrə:** İnanmıram. Bu məsələni kim bilir ki?

**Bəydəmirli:** Niyə, bilən tapılar. Bir neçə gün əvvəl yuxuda sayıqlayıb, Xanımzər, Xanımzər deyirdin. Kimdir bu Xanımzər. Onun adını çəkdikcə yuxuda necə

də narahatlıq keçirirdin. (O təkidlə soruşur). Kimdir o! Nəyin var gülüm, danış mənə, de mənə, az özünü belə gərgin saxla, Gülçöhrə. Nəyi isə məndən gizlədirsən. Danış gülüm, danış, danış yüngülləş. Bu qədər qapalı olmaq sənə heç yaraşmır. Üzündəki daimi təbəssüm yoxdur, bu nədir gülüm!

(Gülçöhrə oturduğu yerdən durub gəzişir. Səhnənin bir səmtinə gəlib üzü tamaşaçılara dayanır).

**Gülçöhrə:** Görəsən Xanımzərin kim olduğunu desəm bəyim neyləyər. Bəlkə heç deməyim. Birdə ki, bunu nə qədər gizlətmək olar. Geci-tezi onsuz da bu məsələnin üstü açılacaq. Yaxşısı budur ki, özümdən eşitsin. Bu qəti qərarımdır. (Ucadan):

-Bilirsən o Xanımzər kimdir ? (İstədi sözünün dalısını gətirməsin. Bəydəmirli suala sualla cavab verdi):

**Bəydəmirli:** Kimdir?

(Gülçöhrə bir az da susdu sonra):

**Gülçöhrə:** Kim olacaq, İqbalın ana nənəsi. Sən maşınla vurduğun qadının anası. Hər gün gəlib yanıma deyir ki, nəvəmi verin, yoxsa sizi.

**Bəydəmirli:** Hə, yoxsa bizə neyləyəcək. Yoxsa bizi məhkəməyə verəcək. İddia qaldıracaq ki, uşaq mənimdir?

**Gülçöhrə:** Elə həmin iddia ilə də Xanımzər məhkəməyə müraciət edib. Bu gün sabah məhkəməyə çağırılacağıq. Ona nə qədər dil tökdümsədə xeyri olmadı. İki ayağını bir başmağa geyib ki, verin nəvəmi, vəssalam. Görək qanun nə deyəcək.

**Bəydəmirli:** Eləmi? Hələ bunun iştahasına baxın! Nə yoğurdum nə yapdım hazırca kökə tapdım.

(İşıqlar sönür. Səhnə dönür. Gülçöhrənin evi! Hamı pəcmürdədir).

**Gülçöhrə:** (Bir qədər yaşlanıb). Ax, başımıza gələnlər. Hər şey film kimi oldu. İqbalı dövlətin əli ilə

bilmirəm sonu necə olacaq. Kişinin də üzünə baxa bilmirəm. Onun elmi burda göyərdi. Nənəsi uşaqla danışanda birinci cümləsi bu olub ki, bəs sən mənim qızımın oğlusan, mənim yanımda qalmağa razılıq versən sənə təzə maşın alacağam. Hər şeyim, varım-dövlətim sənin olacaq. Səni ən yaxşı yerdə oxutduracağam. Əvvəlkilərin hamısını elədi bircə oxutmaqdan başqa. Bizə gəlib-getməyi də yasaq elədi. Dünən eşitdiyim xəbərdən elə sarsılmışam ki, daha mənim qəlbimi heç nə düzəldə bilməz. Maşınla qəza törədib. İçkili imiş, Xanımzər də yanında olub. O qəza yerində keçinib. İqbalı da həbs ediblər. O da əsil atası gedən yolla gedibmiş. Ağ ölüm yolu ilə.

**Bəydəmirli:** (Səhnənin Gülçöhrə dayanan səmtinə gəlir. Əlini Gülçöhrənin çiyninə qoyaraq):-Fkirləşmək artıqdır. Qəza olub. Bu qəza əslində İqbalın bizdən qoparıldığı gün baş verdi. Bəlkə biz onu gözləyən genetik səflərdən nisbətən xilas edə bilərdik.Tərbiyə hər şeyə qadirdir. Neyləyək ki, fələyin yazdığını pozmaq mümkün deyil. Bilirsən, qəza harada baş verib?

**Gülçöhrə:** Xeyir bilmirəm. Bir də ki, nə fərqi? Qəza baş verib, ya fəzadan, ya əzadan.

**Bəydəmirli:** Mən İqbalın anasını vurduğum yerdəcə baş verib qəza. Taleyin qəribə işləri varımış. İqbala 8 il həbs veriblər. Hazırlaş, onu yoluxmağa gedək. Qardaşlarına da de hazırlaşsınlar. Onu biz heç zaman tək buraxmamalıyıq. Nə yolla olursa olsun, İqbal islah olunmalıdır. Nəyin bahasına olursa olsun!

**(Müəllif səhnədə):**

«Fələyin yazdığını mən poza bilsəydim həmən,
Onu arzumla, məramımla yazardım təzədən».

**Aprel-iyun 2006**

# AĞRININ ACISI

(7 şəkildə draм )

**İştirak edirlər:**

*Fazil müəllim* – İdarə müdiri, 40-45 yaşlarında
*Nazənin* – onun həyat yoldaşı, 35-40 yaşlarında
*Mehparə xanım* – Fazil müəllimin qaynanası, 55-60 yaşlarında
*Gülçöhrə* – Fazilin katibəsi, 25 yaşında
*Namiq müəllim* – müdir müavini, 40-45 yaşlarında
*Səxavət* – sex müdiri, 35-40 yaşlarında
*Dəyanət* – rayon prokuroru, Fazil müəllimin dostu, 35- 40 yaş
*Qapıçı kişi* – 60-65 yaşlarında
*Zaur* – gənc mütəxəssis, 25-30 yaşlarında
*Sürücü* – 30-35 yaşlarında
*Gənclər*

## I PƏRDƏ

Hadisə istehsalat kombinatında baş verir. Fazil müəllimin kabineti, qarşıdakı kiçik otaqda katibə Gülçöhrə əyləşib. Fazil müəllim içəri girir, katibə ayağa qalxır. Fazil müəllim otağına daxil olur və katibəni çağıran zəng səslənir.

-Fazil müəllimin səsi: -Bir stəkan su gətir.

(Katibə bir stəkan su tökür və Fazil müəllimin otağına daxil olur):

**Katibə:** Səhər-səhər nə işdir. Fazil müəllim, olmasın azar?

**Fazil müəllim:** Dərman atacam. Təzyiqim yenə şuluq edir. Oynayır. Aşağı-yuxarı.

**Katibə:** Sizə deyəndə ki, hər şeyə əhəmiyyət verməyin, bu qulağınızdan alıb o biri qulağınızdan buraxın, sözə baxmırsınız. İndidən düşdünüz dərmana.

**Fazil müəllim:** Gülçöhrə xanım. (Xüsusi intonasiya ilə).

**Gülçöhrə:** Bəli, Fazil müəllim. (O da həmin intonasiya ilə). Sizi eşidirəm:

**Fazil müəllim:** Hələlik, heç kimi yanıma buraxma. De ki, bu gün beş dəqiqəlik olmayacaq. Hərə öz işi ilə məşğul olsun. Oldu, Gülçöhrə xanım.

**Gülçöhrə:** Oldu, Fazil müəllim, oldu! (Deyib otaqdan çıxır). O müdürün yanından çıxmaqla müavin gözləmə otağına daxil olur. Katibə ilə salamlaşır.

**Müavin:** Sabahınız xeyir, Gülçöhrə.

(Onun bu müraciət forması katibəyə çox xoş gəlir, ona gülümsünür. Təbəssümü müavinə ürək dirək verir): -

**Müavin:** Deyəsən bu adla sənə heç kimi müraciət etməyib axı. (Katibə bir azda qəmzələnir, nazlanır, cilvələnir). Doğrudan da gülsən. Elə bil bu dəqiqə açmısan, bu dəqiqə. Adamın səni qoparmağa hayıfı gəlir, gül, hayıfı gəlir.

**Katibə:** Yaxşı da. Namiq müəllim, adamı lap utandırırsan. Mən belə sözlərə alışmamışam. Bir də mənə gül deməyin, adımı bütöv deyin, sadəcə Gülçöhrə deyin.

**Müavin:** Neynək bundan sonra Gülçöhrə deyərəm. Gülçöhrə xanım.

**Katibə:** Xanımsız da olar, sadəcə Gülçöhrə.

**Müavin:** Mən Fazil müəllimlə görüşməliyəm. Çox vacib işim var.

**Katibə:** Fazil müəllim narahatdır. Tapşırıb ki, yanına adam buraxmayım.

**Müavin:** Mən sadəcə adam deyiləm. Onun müaviniyəm. Siz dəstəyi götürüb deyin, o məni qəbul edəcək.

**Katibə:** Namiq müəllim, axı özü mənə tapşırıb ki, heç kimi yanına buraxmayım. Məni pis vəziyyətdə qoymayın.

**Müavin:** Ay qız, dedim ki, vacib işim var. Elə etmə ki, icazəsiz açıb qapını girim içəri. (Katibə könülsüz əlini dəstəyə uzadır. Müdirin kabineti görünür. Fazil müəllim, (Katibənin səsi): Namiq müəllim gəlmək istəyir. Deyir, çox vacib işim var.

**Müdirin səsi:** Burax gəlsin, görək vacib işi nədən ibarətdir.

Katibə telefonun dəstəyini qoyur. Namiqə:

**Katibə:** Buyurun Namiq müəllim, gedin vacib sözünüzü deyin. Müavin içəri keçir. Bir az keçmiş içəridən müdirin səsi eşidilir.

**Müdir:** Min dəfə demişəm ki, icazəsiz iş görməyin. Sizin isə bildiyiniz biləyinizdədir.
(Katibə qulaqlarını səs gələn qapıya şəkləyir).

**Müdirin səsi:** Ay qardaş, sizə kim deyib ki, o malları göndərəsiniz. Sizə bu mövzuda tapşırıq verən olub. (Müavinin səsi gəlmir.Katibə ayırd edir ki, müavin sadəcə «yox» deyir).

İçəridə səslər bir-birinə qarışır. Namiq müəllim içəridən sanki qalib kimi çıxır. Katibəyə üzünü tutaraq:

**Namiq:** Buna bax, elə bil müəssisə bunun dədəsinindi, gərək hara nə göndəririksə Fazil bəy (informasiya ilə) bilə. Ay sən öləsən. Görəcəksən, sənin başına bir oyun açım ki, dədəvin toyu yadına düşsün. Ay qız, (katibəyə müraciətlə) bir stəkan su apar Fazil

müəllimə. Bəlkə halı bir azda qarışıb. (katibə ayağa qalxır) Əlində bir stəkan su, Fazil müəllimin otağına daxil olur.

**Fazil müəllim:** Nə olub, nə istəyirsən?

**Katibə:** Namiq müəllim dedi ki, sizə bir stəkan su verim.

(Fazil müəllim əli ilə mizin üstünü göstərir).

**Fazil :** Qoy bura get, sənə dedim heç kimi buraxma yanıma. (katibə çıxır) Qəbul otağı. Sex rəisi Səxavət əyləşib katibəni gözləyir. Onunla hal-əhval tutur.

**Səxavət:** Gulya xanım, bizə niyə deməmisən.

**Katibə:** Təəccüblə: Nəyi?

**Səxavət:** Ad günü keçirməyini. Yoxsa elə bilirsən biz o qədər diqqətsizik. Təbrik edirəm, gec də olsa. (O belə deyib, sağ əlini sol döş cibinə salıb oradan bağlı bir zərf çıxırab Gülçöhrənin stolunun üzərinə qoyur).

**Katibə:** A, siz nə edirsiniz, Fazil müəllim bilər, anamı ağladır. Xahiş edirəm belə iş görməyin. O monitorda bizi görə bilər.

**Səxavət:** Manitoru işlədən bu gün işə gəlməyib. Onu işlətmək isə Fazil müəllimin işi deyil. Ondan narahat olma gözəl.

**Katibə:** Səxavət müəllim, zərfi götürün, yoxsa Fazil müəllimə deyərəm. Lazım olsa mən özüm sənin haqqında Fazil müəllimə deyərəm. Səssiz-küysüz zərfi sürməyə qoy və Fazil müəllimə de ki, mənim ona vacib sözüm var. Çalış məni qəbul etsin.

**Katibə:** Səxavət, qadası Fazil müəllim özünü yaxşı hiss etmir. Bəlkə sabah gələsən qəbuluna. Nə olar, məni danlayır axı. Sən qıyarsan ki, məni danlasınlar.

**Səxavət:** Əlbəttə yox. Ancaq belə günündə ona baş çəkməsəm məndən inciyə bilər. Axı biz: (Katibə Səxavətin sözünü kəsir):

**Katibə:** Axı siz can bir şüşədəsiniz, hə. Bəlkə belə deyəcəksən. Ax Səxavət, səni tanımasaydım sənə necə də inanrdım. Sən elə bir ilansan ki, son on ildə bu cavanlığınla nə qədər müdirlər yola salmısan. (Səxavət də onun sözünü kəsir):

**Səxavət:** Heç narahat olma elə bu işdə sən də məndən kənarda qalmazsan. Biz bu müəssisəyə bir ayda gəlmişik. Birimiz bu müəssisəni idarədən sökmüşük, birimiz də sexdən sökmüşük, Gülya.

**Katibə:** Mən sənə nifrət edirəm Səxavət. Cavabını soruşmasanda bilirsən. Sən məni evsiz, eşiksiz qoydun. Sən məni uşaq üzünə həsrət qoydun. İndi yaşım 30-a yaxınlaşır. Nə ailəm var, nə uşağım. Bunların səbəbkarı, daha doğrusu günahkarı sənsən.

**Səxavət:** Yaxşı yenə köhnə palan içi sökmə, olan olub, keçən keçib. Ondan sonra da ərə gedə bilərdin. Özün aslandın məndən. Dəfələrlə sənə dedim ki, get ərə, evin, ailən olsun. Yaxamdan əl çəkmədin, məni sevdiyini dedin. Mən də arvad-uşağımı ötürüb səni alası deyildim ki.

**Katibə:** İndi çox ötkəm danışırsan, Allah sənin cəzanı verəcək. Mən sonra necə ərə gedə bilərdim. Kim məni alardı. Hamı məni sənin saxlaman kimi tanıyırdı. İndi mənim ad günümü təbrik edirsən. Sən nə qədər alçaq adamsan, heç olmazsa gözümə görünmə.

**Səxavət:** Bu gün məni nə qədər təhqir etsən də sənə söz deməyəcəm. Ona görə yox ki, məqamı deyil, ona görə ki, sən hələ mənə lazımsan. Hələ mən sənin bu gül əllərinlə Fazil müəllimin nəyi varsa öyrənməliyəm. O gör neçə illərdir ki, mənə dırnaqarası baxır, elə bilir ki, alçacıq dağları o yaradıb. Axrını gözləyək, görək kim uduzacq, kim qazanacaq.

**Katibə:** Səxavət, sənə bu adı qoyana nə deyim, sənə gərək Səxavət yox, nifrət adı qoyaydılar. Sənin içində adamlara qarşı nə qədər nifrət var. Sənin gözündə hamı səndən aşağıdır. Elə bil hamının sənə borcu var. Sənə dedim ki, get sabah gəl.

**Səxavət:** Gülya xanım.

**Katibə:** Ə, nə tutmusan Gülya xanım, Gülya xanım. Bir vaxt mənə Gülçöhrə deyəndə dodaqların əsirdi. İndi adımı da özgələşdirirsən. Allah sənin bəlanı versin.

**Səxavət:** Mən Fazil müəllimi görməmiş burdan getməyəcəyəm.

**Katibə:** (zərfi Səxavətin sifətinə çırpır.) Al bu kağız parçanı da rədd ol burdan. Beş manat pulu var elə bilir bu da kişidir. Necə ki, mən burdayam sən Fazil müəllimin yanına girə bilməyəcəksən.

Səxavət səs küy qaldırır. Səs-küyə Fazil müəllim qəbul otağına gəlir.

**Fazil müəllim:** Burada nə olub, hə nə səs-küydür.

**Katibə:** Fazil müəllim, siz demisiniz ki, yanıma heç kimi buraxmayım, mən sizin tapşırığınızı yerinə yetirirəm.

**Fazil:** Bəs Səxavət müəllim nə istəyir?

**Katibə:** O da sizi görmək istəyir.

**Fazil:** Burax gəlsin. Onsuz da Namiq müəllim elədiyini elədi. Səxavət dodaqaltı: Hələ o nədir ki, sizi infarkt etməyincə sizdən əl çəkdi yoxdu. Nə vaxta qədər sex müdiri işləyəjəyəm. Bir buna bax, bizim pulumuzla altın-üstün dolduran Fazil müəllim. (O Fazil müəllimlə birlikdə otağa daxil olur, qapı bağlanır.)

**Səslər:** (Katibə öz-özünə,) yəqin Fazil müəllim deyir ki, eşidirəm səni Səxavət.

**Səxavət:** Eşidirəm deyəndə ki, Fazil müəllim, son dəfə göndərdiyimiz məhsulların hamısı zay məhsul

kimi üstümüzə qaytarılıb. Sifarişimiz də müqavilə öhdəliyini pozmaq barədə təklif göndərib və bir ay vaxt qoyub. Müəssisə batır. Bu barədə fikirləşmək vaxtı çatıb. Sizsə qapıya bir katibə qoymusunuz yanınıza da adam buraxmır ki, gəlib sözümüzü deyək.

**Fazil müəllim:** Söz demək vaxtı çatanda özüm sizi çağıracağam. O ki, qaldı qapının arxasındakı qadına onu sən məndən də yaxşı tanıyırsan. Özünü bilməmzliyə vurma, elə bilmə ki, üstündən gecə keçən illərin fəlakəti belə tez unudulur. Manitorda sənin ona qarşı bütün hərəkətlərini izləmişəm. Hələ lentə də köçürmüşəm. Sən sözün həqiqi mənasında günahkarsan. Yoldaş Səxavət müəllim, elə fikirləşmə ki, dünyada hər şeyi bilirsən. Bilmədiyin məsələlər də var. Get, lazım olanda çağıracağam. Hökmən çağıracağam.

(Səxavət suyu süzülmüş halda otaqdan çıxır). Sərt-sərt Gülçöhrəni süzə-süzə qəbul otağının qapısını vurur.

**Gülçöhrə** (arxasınca):-Şərəfsiz. Bir anlığa susur. Sonra pəncərə qarşıına gəlir, öz-özünə:

- Mən onu nə qədərdə çox sevirdim. Mənə ürəyini açanda necə razılaşdığımı indi də xatırlaya bilmirəm. Bir vaxt ayıldım ki, artıq onunam. İş-işdən kemişdi. Nə qədər yalvardım-yaxardım ki, elçi göndərsin, toyumuz olsun. Gündə bir bəhanə gətirdi, sonra atası öldü bəhanəsi bar az da artdı. Yanında bu mövzuda söhbət etmək mümkün deyildi. Sonra eşitdim ki, anası öz qardaşı qızını ona nişanlayıb, atasının vəsiyyəti imiş. Bütün gəncliyimi əlimdən aldı. İndi də alçaq-alçaq mənə deyir ki, ad gününə niyə dəvət etməmisən. Nə isə özü yıxılan ağalamaz. Mən özüm yıxılmışam. Özüm. Ona görə də dözümlü olmalıyam. Namiq müəllim kimi, Səxavət kimi adamlara qarşı mübarizə aparmalıyam. Siz də o biri ifaçılarla tanış deyilsiniz ona görə o birilər haqqında danışmaq istəmirəm.

Mənimki məndən keçib. Heç olmasa Fazil müəllimi qoruya bilsəydim. (Fazil müəllimin zəngi. Bir stəkan su gətir). Onun səsi.

**Gülçöhrə:** (tamaşaçılara) Görün heç Namiq müəllimin, Səxavətin bir yeri ağrıyar? Elə bil bu ağrılarında onlardan zəhləsi qaçır. (Gülçöhrə əlində su Fazil müəllimin otağına daxil olur). (Səhnə dönür. Namiq müəllimin otağı. Otaqda ondan başqa Səxavət, gənc mütəxəssis Zaur da var. Hər üçü ayaq üstədir).

**Namiq müəllim:** Əyləşin, əyləşin. (otururlar) Göydən daş gəlməmiş Fazil müəllim başını tutur. Belə getsə ya o bizimlə işləməyəcək, ya da biz onunla yola gedə bilməyəcəyik. Üstümüzə qaytarılan məhsullarımız onu bərk narahat edir.

**Zaur:** Niyə də narahat etməsin. O vaxt o kişi bizə dedi ki, düzənməlli sifarişçi tapın, sonra bu məhsulu istehsal edək. Nədi bizim məhsulumuz? Qaz sənayesi üçün vintillər. İki borunu bir-birinə birləşdirmək vasitəsi. Əvvəlcə bizim məhsulumuzu MDB ölkələrdən bir neçəsi həvəslə alırdı. Biz də müəssisəmizi saxlayırdıq. Ağa kimi də yaşayırdıq. Nə oldu.

**Namiq:** Hə mən indi sizdən soruşuram ki, nə oldu? Bəlkə bu suala Səxavət yaxşı cavab verə. Çünki bu sualın cavabını Fazil müəllim bizdən soruşacaq.

**Səxavət:** Məndən niyə xəbər alırsan. İstehsalat üzrə müavin sənsən, məndə səndən sonra gəlirəm. Yaxşı olar ki, özünüz bu suala cavab axtarasınız, Namiq müəllim!

**Namiq:** Səxavət söz güləşdirmə. İndi onun məqamı deyil ki, kim birincidir. Əsas məsələ odur ki, internetə daxil olan məktuba düzgün münasibət bildirək. Məhsul istehsal edirik əlimizdə qalır. Bu nə deməkdir. Bu əvvəlki vaxtlar deyil ki, istehsal edib yığaq anbarlara. İndi bizim atamızı yandırarlar. Bilirsiniz?! (Sual edici nəzərlərlə oturanları süzür): Siz elə

bilirsiniz ki, bizim hərəkətlərimizdən Fazil müəllimin xəbəri yoxdur. Var balam, var. O Gülçöhrə xanım ki, var bizə ağ gün yoxdur. İdarənin açar-kilididir. Əvvəlki müdirlər onun sözünə baxmırdılar. Fazil müəllimlə can bir şüşədədir. O nə deyirsə Fazil müəllim baş üstə deyir. Əvvəlcə ona bir rəm atmaq pis olmaz. Hə nə deyirsən Səxavət müəllim? Bəlkə əvvəlki münasibətinizi təzələyəsən. (qıyqacı, sınayıcı nəzərlərlə Səxavətə baxır.)

**Səxavət:** (bir qədər pauza) Namiq müəllim, deyəsən sərhəddini yavaş-yavaş keçirsən axı! Birinci mənim onunla heç bir münasibətim olmayıb, ikincisinə qalanda yaxşı olar ki, qara yaxmanı öz başına salasan. Müdir müavini olmusan ki, camaatın şəxsi işlərinə də qarışasan. Namiq müəllim, bu Gülçöhrə dediyin gözəl xanım bizdən min dəfə kişi adamdır. Haqq sözümdü. Sən elə bilirsən ki, onu nə iləsə ələ almaq olar. Yalnış fikirləşirsən Namiq müəllim! O çox sədaqətli xanımdır. Sadəcə sədaqətsiz olanlar var.

**Namiq:** Məsələn sən. Sən Səxavət. Nə oldu mən bu müəssisəyə gələndə ilkin gördüyümdə Gülçöhrə oldu. Düzünə qalsa ondan çox xoşlandım. Çox mehriban, səmimi rəftarı varıydı. Ona ilk görüşdə, daha doğrusu ilk tanışlıqda məftun oldum. Sonra mənə dedilər ki, o sizinlədir. Sənin adamındır. (Səxavət sənin adamındır sözündən narahat oldu):

-O mənim adamım deyildi Namiq müəllim, mən onu sevirdim. Bu sözü ona bu günə qədər deməmişəm. Mən onu sevirdim, özü də dəli]əsinə. Heç özüm bilmədim ki, niyə belə oldu. ndinin özündə də əfsus deyirəm, hayıfsılanıram. Bir onu hər gün görüm deyə bu müəssisədə qalmışam. Yoxsa burada mənim nə İşim var ki, hələ sənin də sifətini hər gün görüm.

**Namiq:** Ə, ürəyin qəribə açıldı. Mən bilirəm ki, sənin ona məhəbbətin hələ tükənməyib ona görə də

deyirəm ki, bu sevdanı yenidən başla. Bunun həm sənə xeyiri dəyər, həm də bizə.

**Səxavət:** Namiq müəllim, səninlə bir sıra saxtakarlığa getdiyim özümə də bəs edər, nəslimə də. Daha sənin yedəyində getdiyim bəsdir. Get özünə xəndək axtar ki, boyuna-buxununa uyğun gəlsin. Bu gündən bizim yolumuz ayrılır.

**Namiq:** Yox əşi, deyirsən yanı bu gündən sonra məni eşitməyəcəksən. Sən hələ çox uşaqsan, sadəlövhsən Səxavət müəllim. Sən Gülçöhrə kimiləri aldada bilərsən, sonra da qaçarsan meydanda qalar tək, tənha. Ay yazıq bü məhsullar niyə geri qaytarılır. Ona görə ki, sən istehsalat müdiri zay məhsul istehsal etmisən və müəssisəyə milyarlarla manat ziyan vurmusan. Məhsul göndərilən ünvanı tapan kimdir? Müqaviləni imzalayan kimdir? Sən elə bilirsən ki, sifarişçi buraya gəlib müqavilə bağlayanda mən nahaq yerə xəstələnib işə çıxmamışdım. Xeyir, bunlar hamısı bilərəkdən idi. Hər yerdə sənin qolun, sənin imzandır. Get cavab ver. Səxavətini indi göstər. Görsünlər ki, doğrudanda sənin adını düz qoyublar.

**Səxavət:** Yaxşı, tutaq ki, bu dediklərin doğrudur və bu doğru cinayətə görə məndə cəzamı çəkəcəyəm. Bəs bu işlərdə sənin heç günahın yoxdur. Bəlkə doğrudan da aydan-arı, sudan durusan, müavin müəllim. Sən də unudursan ki, istehsalat üzrə müavinsən və işlədiyin bu illərdə müəssisənin hörmətini birə beş qat aşağı salmısan. İstehsalatla məşğul olmaq əvəzinə dedi-qodu yaratmaqla məşğulsan.

**Namiq** (sakitcə dayanıb onlara qulaq asan Zaura): Sən get, çağıranda gələrsən. Ə, Səxavət ürəyin nə yaman dolu imiş. A kişi sənə heç söz demək mümkün deyil ki? Biz ikimizdə istehsalatın ağasıyıq. Birimiz digərimizin işini tamamlayırıq. İndi durub cə-

fəngiyat etsək, vay bizim halımıza. Bizi təkləyib məhv edərlər.

**Səxavət:** Bu şirin sözlərini saxla özünə. Daha məndən sənə yar olmaz. Get özünə tərəfdaş tap.

**Namiq:** Bura bax, Səxavət müəllim. Biz burada nə iş görmüşüksə birlikdə görmüşük. Heç birimiz yaxamızı kənara çəkə bilmərik. O ki, qaldı Fazil müəllimə bizim işlərin başını-ayağını öyrənənə qədər özü bir yanlıq olacaq. Gündə bir ovuc dərman içir. Xəstədir.

**Səxavət:** Əsil xəstə bizik. Fazil müəllim sağala bilər və sağalacaq. Çünki yaxşı adamdı. Onun dərdi elə bir dərd deyil. Dərd bizimkidir Namiq müəllim. Dönüklük, oğurluq, xudpəsəndlik, namərdlik hansını sayım. Özü də hamısı sağalmaz dərddi. Neçə yerə işləyirsən, neçə partiyanın üzvüsən özün də bilmirsən.

**Namiq:** Səxavət həddini aşma. Neçə yerə işləməyimi də, neçə partiyanın üzvü olmağımı da özüm bilirəm. Sən hansı partiyanın üzvüsən sədaqətli oğlan.

**Səxavət:** Hər halda gündə bir neçə dəfə qalstukumu dəyişmirəm. Mən bir partiyanın üzvüyəm. O da iqtidar partiyasıdır.

**Namiq:** Ona görə də sədaqətlisən də. Gül kimi iqtidar nümayəndəsi olan Gülçöhrəni elə günə salmısan ki, olub tamam yararsız. Buraxdığımız məhsullar kimi zay.

**Səxavət:** Sən nə qədər alçaq adamsanmış. Əlacım əlimdə olsa səni bu dəqiqə növbənöv qalstuklarının yanından asaram. Hayıf ki, əlimi sənin kimi nadanın mikrobuna batırmaq istəmirəm. Ə Namiq, hayıfım gəlir ki, o müqəddəs müəllim adını sənin adının yanında işlədim. Ə Namiq, sən həmin alçaq deyilsən ki, Gülçöhrəyə internetlə sevgi məktubu göndərmisən. O da keçib Fazil müəllimin əlinə.

**Namiq:** Bu tamamilə yalandı. Mənə qarşı böhtandır. Gülçöhrə hara, mən hara. Mən nə vaxtan sənin artığına qalmışam.

**Səxavət:** Sən həmişə onun bunun artığına göz dikənsən. Sən həmin Namiq deyilsən ki, öz qardaşının nişanlısını qaçırmısan. Bu gündə qardaşınla danışmırsan. Dünyanın ən pis sözləri sənə layiqdir. Əfsuslar olsun ki, camaat bizi eşidir. Hər şeyi demək olmaz. Sən elə bir nadansan ki,öz bajına da sataşarsan. Sən belə bir nadansan.

**Namiq:** Səxavət öz yoluna qayıt, özündən çıxma. Elə bilmə ki, sənin bu sözlərin məni haldan çıxarır. Xeyir. Sənin sözlərin cibin kimidir, bir az ürəyimi bulandırır. Vəssalam.

**Səxavət:** Sən əslində iqtisadi sapotaja görə məsuliyyətə cəlb edilməlisən.

**Namiq:** Bəs sən kimsən? Bəlkə sən bulaq suyu kimi təmizsən. Hə niyə dillənmirsən. Nəyiksə birlikdəyik. Heç özünü oyan bu yana vurma.

**Səxavət:** Xatırla gördüklərini. Fazil müəllim xəstəxanada yatanda ağlına gəldi ki, istehsaiatı gücləndirmək üçün yardımçı sahə yaradaq. Telefonla danışdıq. O kişi də bizə inandı. Dedi yaradın təki müəssisəyə xeyiri dəysin. Nə yaratdıq hə. Nə?

**Namiq:** Nə yaradacaydıq ta. Bir tikiş sexi yaratdıq. Yataq dəstləri istehsal etdik, dəyər-dəyməzinə bazarlarda satdırdıq, pulu da qoyduq...

**Səxavət:** Hə, pulu hara qoyduq. Qoyduq cibimizə. Fazil müəllimə də barmaq hesabı verdik. Bir gün də mənə dedin ki, bəs narıncı rəngdə parça sifariş vermisən, bir vaqon gəlib tökülüb dəmir yol vağzalındakı dalanlardan birinə. Niyə məhz narıncı? O zaman bu sualı sənə verdim. Ancaq cavabını vermədin. Sonradan anladım ki, narıncı rəngdən sənin niyə xoşun gəlir. Tikib yığdıq. Narıncı tuman köynək, fufaykalar və

nəhayət bayraqlar, qalstuklar. Arzunuz ürəyinizdə qaldı. İndi o narıncı inqilab etmək istəyənlərə de ki, gəlib sifarişlərini aparsınlar. Yüz min dollarlıq məhsullar anbarlarda qalıb. İndi kişilikdən danışırsan. Fazil müəllimin yanına gedəndə qalstukunu başqa rəng eyləyirsən, elə ki, işdən çıxdın qalstukun olur narıncı. Namiq heç bilirisən narıncı sözünə ən gözəl qafiyə nədir.

**Namiq:** Nədir?

**Səxavət:** Zarıncı. Nejə ki, siz qalmısınız narıncı. İnqilab etmək istəyənlərə baxın. Daha sənin boyunduruğuna girdi yoxdur. Get, əlindən nə gəlirsə beş boşqaba çək, tez soyusun yeyəsən. Gördüyün işlərə görə də nə günahım varsa cəzasını çəkməyə hazıram. (Telefon zəngi. Dəstəyi Namiq götürür):

**Namiq:** Eşidirəm. (Telefonda Gülçöhrədir). Hə. İkimizdə gələk. Saat neçədə. 17-də. Oldu. (Dəstəyi yerinə qoyub Səxavətə tərəf dönür):

-Fazil müəllim bizi saat 17-də qəbul edəcək.

**Səxavət:** Olsun.

**Namiq:** Yaxşı hazırlaş.

**Səxavət:** Nə hazırlaşacağam. Nə soruşsa hamısını doğru-düzgün deyəcəym. Bəsdir indiyə kimi oyun oynadım.

**Namiq:** Ağlını başına yığ. Elə etmə ki, Fazilin kabinetindən bir başa dama gedək.

**Səxavət:** Mənim üçün heç fərqi yoxdur. Artıq həqiqəti demək istəyirəm.

**Namiq:** Deyəsən başın bədəninə ağırlıq edir, axı. Elə eləmə ki?!

**Səxavət:** Məni hədələyirsən. Yoxsa məni aradan götürmək niyyətindəsən?

**Namiq:** Sən özün diyəsən yolunu səhv getmək fikrindəsən. Yolunla düz get. Biz ikimiz də eyni yuvanın quşlarıyıq. Elə etmə ki, ikimizi də yoluqlasınlar.

Özü də diri-diri. Ağlını başında saxla. Bir yoxla gör başın var, ya yox.

Səxavət qeyri-ixtiyari əlini başına vurur.

**Səxavət:** Nə olub mənim başıma.

**Namiq:** Heç, heç elə belə dedim yoxlayasan, görəsən başın çiyinlərinin üstündədir, ya yox!

(p a u z a)

## II ş ə k il

(Səhnə dönür. Fazil müəllimin evi. Arvadı və qaynanası çay içə-içə söhbət edirlər).

**Nazənin:** Ana, bu Fazil düzəlmir ki, düzəlmir də.

**Mehbarə xanım:** İnşallah düzələr qızım. Fazil yaxşı insandır. İnşallah düzələr.

**Nazənin:** Ana, mən Fazilin xəstəliyini demirəm e...

**Mehbarə xanım:** Bəs nəyini deyirsən.

**Nazənin:** Özü düzəlmir, ana, özü. Elə bil lap qədimdən qalma adamdır. Səhərdən axşama kimi ancaq haqdan danışır, xalqdan danışır. Elə bil ondan başqa xalq haqqında fikirləşən yoxdur.

**Mehparə xanım:** Bunun nəyi pisdir. Kişi allah adamıdır, içində allah xofu var. Aza qane olandır. Bundan gözəl nə ola bilər. Heç nə.

**Nazənin:** Ana, deyəsən sən də Fazil deyəni deyirsən. A kişinin qızı, camaat qaz vurub qazan doldurur, bu tutub ki, istehsalatı gərək elə səviyyəyə çatdırım ki, hamı yaxşı yaşasın. Demir e, özümə güngüzəran yaradım, oğluma, qızıma gün ağlayım. İşçilərini yaxşı yaşatmaq istəyir. Əhsən belə kişiyə.

**Mehparə xanım:** Nazım, (o qızını həmişə belə çağırır) Fazil müəllim düz eləyir. Yenə deyirəm. Çox şükür nəyimiz çatmır. Hər şeyimiz var. Uşaqlar yaxşı universitetlərdə oxuyular. Hərəsinə indidən ev-eşik almısan, top dağıdmaz evin, bağ evin, növbənöv maşının. Daha nə istəyirsən Nazım sən heç bilirsən camaat necə yaşayır. Mən artıq televizora baxa bilmirəm. Qarabağdan söhbət düşəndə ağlayıram. Qarabağ unudulur. Bir milyondan artıq qaçqınımız, köçkünümüz var. Onların çoxu nə gündə yaşayırlar? Bundan sənin də xəbərin olmamış deyil. Hər gün şagirlərimə ancaq bu mövzuda dərs deyirəm. Bu günkü tariximizdən. Sən də

başlamısan ki, Fazil düzəlmir. Fazil düzdür, sən özün düzəl. Milyonlarından çox yaxşı yaşayırsınız. Allahsız olmayın.

**Nazənin:** Sənə də söz demək olmur ki?

**Mehparə xanım:** Sən nə istəyirsən qızım. Nəyin çatışmır. İstəyirsən Fazil müəllim də başqa məmurlar kimi xalqın cibini kəssin. Pulu, qızılı, daş-qaşı o qədər çox olsun, başqaları kimi o da qudursun, dövlətin əleyhinə çıxsın. Axırda da tutub qatsınlar içəri. Bəsdir, Nazım, bəsdir.

**Nazənin:** Onun taylarının xarici banklarda milyardları var. O nə edib, ana? Onun tayları indi Bakıda göydələnlər tikdirir. Bakının yarısını alanlar var, ana.

**Mehparə xanım:** Sən belə deyildin qızım. Sən tamam korlanmısan. Mən də deyirəm bu yazıq Fazil canını niyə sağ görmür. Belə fikirlərə düşən arvadın əri xəstələnər də.Ax Nazənin, Nazənin. Mən sənə belə tərbiyə verməmişəm. Sən hardan belə tərbiyə götürdün.

**Nazənin:** Əgər sən verən tərbiyə ilə oturub dursaydım indi bir həsir idik, bir də məmmədnəsir.

**Mehparə xanım:** Sən elə bilirsən dünyada ağıllı elə sənsən və sənin kimilərdir. O rüşvət üstə, korrupsiya üstündə tutulan kişilərin özlərini azad etmək, qadındarını damlamaq lazımdır. Sənin kimi qadınları. Mən bilməzdim ki, sən bizim ocağı belə murdarlamısan. Hayıf sənin oğlanlarından. Yəqin onları da belə sözlərinlə zəhərləmisən. Hayıf Fazil müəllim kimi bir oğula ki, səninlə bir yastıqda can çürüdür.

**Nazənin:** Heç yalvarmıram da. İstəyir bu gün şələ-şüləsini götürsün və sürüşsün mehmanxanaya. Nə qədər ev-eşiyim, varidatımız varsa hamısı öz adıma, uşaqlarımın adınadır. Buna bax Fazil müəllim müdir olub, müavini var e, Namiq müəllim özündən yüz dəfə yaxşı yaşayır. Bakının iki məhəlləsində hər biri 17 mərtəbə olan iki yaşayış evi tikdirir. Mənə də söz verib

binadan bir 4 otaqlı mənzili mənə verəcək. Buyur, bu müavin, o da bizim müdir Fazil müəllim.

**Mehparə xanım:** Daha sənə artıq sözüm yoxdur. Belə ki, görürəm sən düzələnə oxşamırsan. Hayıf Fazil müəllimdən, hayıf.

**Nazənin:** Çox da hayıfslanma əgər elə xoşun gəlirsə günü bu gün deyərəm gələr sizinlə birlikdə qalar. Atama qulaq yoldaşı olar. Daha onun hay-huyu gedib, vay-vayı qalıb. O artıq necə deyərlər adnarazıvıy şpris kimidir. İynəni vurdun at getsin. Aptek qoxusu verir. Növbənöv xəstəliyi var. İsinmədik istisinə, kor olduq tüstüsünə. Cavanlıqda səhərdən axşama kimi işlədi. Bir də gördük ki, tamam əldən düşüb.

**Mehparə:** Əvəzində səni yaşadıb. Sənə xəyanət etməyib başqa kişilər kimi.

**Nazənin:** Onun halı varıydı ki, hələ mənə də xəyanət etsin.

**Mehparə:** Latayır danışma qızım. Ayıbdı. O sənin ərindir. Namuslu adamdır.

**Nazənin:** Ay onun namusu başına dəysin. Namussuz olub nə qələt qıracaydı. Gör bir neçə illərdir kürəyini mənə çevirib yatır. Elə bil yanındakı qadın deyil. Əbləh. Deyirəm heç olmazsa qazancı çox olsun, ona başımı qatım. Nəyin bahasına olursa olsun Bakıda bir çox mərtəbəli ev tikdirməliyəm. Ondan sonra istəyir Fazil çatlasın.

**Mehparə:** Sən axırda özün çatlayacaqsan. Görərsən. Sənin bu qədər mənəviyyatsız olduğuna inanmazdım. Bu gün sizin qapınızı axırıncı kərə açıram.Tam əmin oldum ki, sən tamamilə pul aludəsisən. Səndən adam olmaz. Hayıf sənə verdiym südə. Dədənin çörəyi sənə haram olsun. Fazil kimi bir oğulun qədrini bilməyənə ancaq bu sözləri demək olar. (Mehparə xanım qızını nifrətlə süzüb səhnədən çıxır).

(Səhnə dönür)

## III şəkil

(Katibənin otağı. Tam sakitlikdir. Sükutu telefon zəngi pozur. Gülçöhrə telefonun dəstəyini qaldırır):

-Alo. Eşidirəm. A, Nazənin xanım sizsiniz.

**Səsi:** Bəli mənəm.

**Gülçöhrə:** Bu dəqiqə, bu dəqiqə birləşdirirəm. (Telefonun dəstəyini yerinə qoyur.)

İçəridən səslər:

**Fazilin səsi:** Yaxşı, yaxşı. Gələrəm evdə danışarıq. Ay qız səbrin olsun dedim. Hər şey yaxşı olacaq.

**Nazəninin səsi:** Nəyi yaxşı olacaq. Evinlə məşğul olmursan, bilmirsən uşaqların haradadır. Bir tikə çörək atırsan qabağımıza. İndi dul arvad da çörək qazanır. (Səs qəbul otağında aydın eşidilir.)

**Fazil:** Söhbəti uzatma, əlimdə İşim var. İşçiləri gözləyirəm. Müşavirimiz olacaq.

**Nazənin:** Ay yazıq sənin nə vaxt müşavirən olmayıb ki? Danış, səhərdən axşama kimi danış. Görək axırın necə olacaq.

(Saat 17-dir. Müavin, sex rəisi, gəcj mütəxəssis və digərləri qəbul otağına daxil olurlar. Yenə səslər gəlir. Gülçöhrə daxili telefonla müdirə zəng vurur.)

-Çağırdığımız adamlar gəlib.

-Gəlsinlər.

(Səslər kəsilir. Bir müddət tam sakitlik höküm sürür. Səhnə dönür. Fazil müəllimin otağı).

**Fazil müəllim:** Səhər-səhər gəlmişdiniz, sizinlə ətraflı danışa bilmədim. İndi çağırdım ki, ətraflı danışaq, görək istehsalatda nə var, nə yox. Hə, Namiq müəllim səhər dediklərinizin ucundan-qulağından danışın bu yoldaşlar da eşitsinlər.

(Namiq köks ötürür, hardan və nədən başlamağın fərqinə varmadan).

**Namiq:** Əvvala keçmiş olsun deyirəm.Həmişə işinizin üstündə.

**Fazil:** Siz səhərki söhbətinizə birbaşa istehsalatdan başlamışdınız. İndi də elə oradan başlayın. Əsas məqsədimizdən başlayın.

**Namiq:** Siz müəssisədə olmadığınız dövrdə işlər axarı ilə gedib. Boş dayanmamamız olmayıb, xətlərimiz öz gücü ilə işləyib. Əritmə sexində cüzi nasazlıq olmuşdu, onu da tezliklə aradan qaldırdıq. Bu işdə sex müdiri Səxavət müəllimin əməyini xüsusi ilə qeyd etməliyəm. (O Səxavət müəllimin gözlərinin içinə baxdı, yanı ki, səni tərifllədim.Yerində dur, sakit ol.) Sifarişçilərlə elə bir anlaşılmağımız yoxdur. Göndərilən mallara elə bil protenziya almamışıq. Bu qədər. Sualınız varsa cavab verə bilərəm.

**Fazil:** Gəlin kimin nə sözü varsa desin. Sonra müzakirə edərik. Səxavət müəllim, buyurun.

Səxavət ayaq üstə qalxaraq:

-İcazə verin sözümü ayaq üstə deyim.

**Fazil:** Olar.

**Səxavət:** Fazil müəllim! Əslində Namiq müəllimdən sona danışmaq o qədərdə asan deyil. O istehsalatı məndən də yaxşı bilir.

...**Namiq:** (Rəyində, ay sağ ol. Belə ağıllı ol, sənə demişəm axı. Geci-tezi bu müəssisə mənim olacaq. Onda görəcəksən ki, kim kimdi və kim kimindi). (Səxavət də ümumi sözlərlə öz yaxasını kənara çəkir).

**Fazil:** Belə görürəm ki, faktsız ötüşə bilməyəcəyik (Əl uzadıb telefonun dəstəyini götürüb danışır): Gülçöhrə, mən burada olmadığım ərəfədə mənim İnternet sayıtıma gələn məktub və sifarişləri buraya gətir. (Telefonun dəstəyini yerinə qoyur). Pauza. Kimsə danışmır. Elə bir saktilik yaranır ki, sükutdan qulaq tutulur. Qapı açılır Gülçöhrə gəlir. Əlindəki sənədləri Fazil müəllimin qarşısına qoyub çıxır. Fazil müəllim

sənədləri varaqlayır və sükutu o pozur): Hə, deyirsiniz ki, mən burada olmayanda bütün işlərimiz yağ kimi gedib. Ancaq bu sənədlər onu demir. Bu sənədlər onu deyir ki, Fazil müəllim, sən öz işinin başında olmayanda sənə xəyanət olub. (Xəyanət sözünü eşidəndə Namiq istər-istəməz yerində qurcalandı). İşlər heç də yaxşı getməyib. İndi danışanlar da, elə susmağı üstün tutanlar da düz danışmırlar. İndi mən kimə inanım. Sizə yoxsa əlahəzrət fakta. Əlbəttə sizə inanmaq istəyərdim, ancaq faktlar sizdən daha etibarlı olduğu üçün onlara inanmalıyam. Faktlar nə deyir? Namiq müəllim siz deyirsiniz ki, bu faktlardan heç xəbəriniz yoxdur?

**Namiq:** Hansı faktdan danışdığınızı deyə bilmərəm, ancaq mənim fakta çox böyük hörmətim var.

**Fazil:** Madəm ki, fakta belə böyük hörmətiniz var onda belə bir fakt. Bizim məhsullarımızın son üç ayda göndərilənlərinin əksəriyyəti üstümüzə qayıdıbmı?! Hə, ya yox.

**Namiq:** Qayıdanı var.

**Fazil:** Bəs niyə gizlədirsiniz.

**Namiq:** Gizlətmirik. Siz bir az nasazsınız. Dedik bilərsiniz səhətinizə pis təsir edər.

**Fazil:** Diqqətinizə görə təşəkkür edirik. Belə alicənablıq kimin müavinində ola bilər.

**Namiq:** Ciddi sözümdür. Biz Səxavət müəllimlə belə məsləhtləşdik ki, bu işi nəyin bahasına olursa-olsun qaydasına qoyaq. Heç sizi narahat etməyək. Elədir Səxavət?! (Səxavət susur).

**Fazil müəllim:** Kişinin üzünü çox qaşıma, yəqin sən deyəni təsdiqləyər. Ay Namiq müəllim, mən gedəndən sonra aşdığınız o yardımçı istehsalat sahəsi bu müəssisəyə nə verib? Sənəd üstündə heç bir rəqəminiz olmasa da mühasibatlıqdan verilən məlumatlara görə bu sahə sizin üçün xeyirlidir. Nəyin ki, metal əritmək, vintil hazırlamaq və iynə ilə gor qazmaq.

Bunları mən sizin üzünüzə ittihamnamə kimi oxumuram ha. Olanları deyirəm. (O qarşısındakı sənədləri bir-bir aşırır. Və birinin üzərində dayanır). Bəs bu nədir, bir vaqon parça almısınız. İstehsalata verilib və həmin parçanın ondan sonrakı taleyi barəsində heç bir məlumat yoxdur. Bəlkə sən biləsən Zaur. Bu bir vaqon parça haradadır.

**Zaur:** (ayağa qalxır): Biz buyuruq quluyuq Fazil müəllim. Ağa deyir sür dərəyə sür! Biz də sürürük dərəyə.

**Fazil:** Ay uşaq, nə tutmusan dərə, dərə. Səndən xəbər alıram ki, bu sənətdəki bir vaqon parçadan sənin xəbərin varmı? (Tərəddüdlə). Var, Fazil müəllim var. (O yan yörəsinə baxa-baxa danışmağa başladı). Var Fazil müəllim. Siz gedəndən sonra bizim ünvanımıza bir vaqon parça göndərdilər. Biz də daşıyıb tökdük vaqonu sexin bir tərəfinə. Sifariş vermişdilər ki, hamısı eyni rəngdə olan bu parçadan alt paltarları, kalistuklar və birdə bayraqlar tikək.

**Fazil:** Nə rəngdə idi parça?

**Zaur:** Narıncı rəngdə.

**Fazil müəllim:** Belə de. Sifariş kimin idi.

**Zaur:** Bilmirəm. Bizə Namiq müəllim tapşırmışdı. Gecə-gündüzə salıb tikib qurtardıq. Gəlib aparan olmadı. İndi də sexin bir tərəfini tutub durub.

**Fazil müəllim:** Demək belə. Narıncı rəngdə parça və mənim başçılıq etdiyim bir müəssisənin dolu anbarı. Buna nə deyirsən, Namiq müəllim. Sənin narıncı rəngdən doğurdanmı belə xoşun gəlir. Sənin bu qədər dönük olduğuna inanmazdım. Sən hər yerdə döşünə döyüb demirdin ki, mən fəxr edirəm ki, belə bir iqtidarın təmsilçisiyəm. Nə oldu, Namiq müəllim, nə oldu. Allah, allah bu adamlar niyə belə olublar. İndi tap həmin qardaşlarını, de gəlib sifarişlərini aparsınlar. Yoxsa bu işin harada bənd aldığını yaxşı bilirsən.

Mən də deyirəm ki, doğma evimdə mənim üstümə niyə qalxırlar. Mənə deyirlər, a kişi sən müavinindən pis yaşayırsan. Müavinin iki ədəd göydələn tikdirir. Sən də ürəyini tutub durmusan. Hamının dərdini çəkirsən. Artıq bu şəkildə nə yaşamaq olar, nə də işləmək. (Qalxıb vərgər edir. Səxavət müəllimə yaxınlaşır. Əlini onun çiyninə qoyur). Siz necə bilirsiniz bu şəkildə yaşamaq və işləmək mümkündür. (Səxavət çiyinlərini çəkir):

-A kişi çiyinlərini çəkmə səndən soruşuram. Belə yaşamaq və sizin kimilərlə işləmək mümkünmü?!

**Səxavət:** bu çoxdan mümkün deyil. Sadəcə siz bunu indi bilirsiniz. Sizdən qabaq işləyən müdirləri bir-iki ilin içində biz qaçırdıq. Biz çətin adamlarıq Fazil müəllim.

**Fazil:** Xeyir siz çətin adamlar deyilsiniz. Sizi bu günə salanlar var. İndi biz həmin adamları ifşa etməliyik. Elə bil bu adamların hamısı bir ələ işləyirllər. Müavinindən tutmuş dalandarına kimi.

(Dalandarın adını çəkəndə nə isə yadına düşmüş kimi qələmi götürüb ağ vərəqdə nə isə qeyd elədi.)

Gedin, işinizlə ciddi məşğul olun. Nöqsanlar tezliklə aradan qaldırılmalıdır. Yoxsa hamınızın başı ağrıyacaq. Gedə bilərsiniz.

(Onlar çıxırlar. Fazil müəllim otaqda tək qalır. Qapı açılır gələn Gülçöhrədir. Fazil müəllimə):

-Yaxşı çay dəmləmişəm.

-Gətir birini içim.

(Gülçöhrə çıxır, əlində çay qayıdır).

**Fazil müəllim:** Gəzəl dəm alıb. (Çaya baxıb nə isə fikirləşir). Bu adamlar niyə belə olublar. (Sanki bu sualla Gülçöhrəyə müraciət edir).

**Gülçöhrə:** Fazil müəllim adamlar həmişə elədirlər, yəni tanıdıqlarımı deyirəm. Siz hamını öz ürəyinizdən qiymətləndirirsiz. Siz o qədər yaxşı adamsınız

ki, elə bilirsiniz ki, hamı elədir. Yox, Fazil müəllim elə deyil. Hamı yaxşı ola bilməz. Siz deyirsiniz ki, adam gərək xeyirxah olsun, əl tutsun, şərəfini beş qəpiyə satmasın, heç kimin qarşısında gözü kölgəli olmasın. Sizin gördüyünüz bu adamlar ki, var onlar siz deyənlərdən deyil. Ona görə də səhərdən axşama kimi dərman qəbul edirsiniz. Sizin müavininiz ki, var sizinlə yaşıtdır ancaq özünü sizin oğlunuz yerində göstərir. İnternetdən mənə sevgi dolu məktubda gönədrib. O birilərin haqqında isə tamamilə danışmaq istəməzdim. Bəsdir bu gün işlədiyiniz, bu adamlarla belə işləmək lazımdır. Sərt və rəsmi. Sizdən əvvəlki müdirləri onlar necə yola saldılar müdirin heç özünün də xəbəri olmadı. İçərisindən bir iki nəfri təmizləməklə kollektivimiz pis deyil. Hərə öz çörəyinin hayındadır. Çalışın sizin yaxşı adamlığınızdan istifadə etməsinlər.

**Fazil müəllim:** Sağ ol qızım. Çayın çox ləzzətli idi. Elə söhbətin də.

## IV ş ə k il

(Gülçöhrə çıxır. Səhnə dönür. Başqa bir şəkil. Dalandar müəssisədən gedən maşını buraxmır).

-Ay qardaş, bundan sonra Fazil müəllimin imzası olmasa yüklü bir maşını bayıra buraxa bilmərəm. Kim deyir desin, mən dili işə tikmirəm. Sənəd gətirin. Sənəd, bu raxılış, qolu- möhürlü sənəd.

**Sürücü:** A kişi, bizi yolumuzdan eləmə, verilmiş sifarişi yerinə yetiririk.

**Qapıçı:** Onun mənə heç bir dəxli yoxdur. Buraxılışın üstündə Fazil müəllimin qolu və möhürü olmasa heç nə buraxan deyiləm.

**Sürücü:** Sən də deyəsən lap ağ elədin axı. Mən öz başıma deyiləm ki, deyiblər yüklə apar. Məndə yükləmişəm, aparıram. İndi nə sözün var.

**Qapıçı:** Ay qardaş, adama nə qədər demək olar ki, sənə də, yəni maşının buraxılmasına ancaq Fazil müəllim qol çəkməlidir vəssalam.

(Sürücü təbdən çıxır. Kəmərinə bərkitdiyi cib telefonunu çıxarıb hara isə zəng vurur).

-Buraxmırlar?

-Kim olacaq. Qapıçı. Deyir ki, Fazil müəllimin qolu, möhürü olmasa buraxmaram maşını.İndi, nə edim...

(Keçid qapısındakı telefona zəng gəlir. Namiq müəllimdir).

**Namiq:** A kişi o qədər qudurmusan ki, müavinin qol çəkdiyi buraxılışı heç sayırsan.

**Qaroulçu:** Birinci ağzınızı təmiz açın. İikincisinə qalanda mən buyuruq quluyam. Ağa deyir sür dərəyə sür. Mənə tapşırıq belədir. Qapıdan yüklü maşınları ancaq Fazil müəllimin qolu və möhürü ilə

buraxıram. Gedin özündən razılıq alın. Mənə zəng vursun məndə maşını buraxım.

**Namiq:** Dünənə qədər belə demirdin.

**Qarovulçu:** Ona görə ki, dünənə qədər siz Fazil müəllimi əvəz edirdiniz. Siz də razı olmayın ki, mənim bir tikə çörəyim kəsilsin.

(O telefonu yerinə qoyur).

**Namiqin səsi:** Sənə göstərərəm, it oğlu, elə bil bura təzə gəlib. (sürücüyə) Səndə onunla ağız-ağıza vermə, maşını qaytar qaracda saxla, görək nə edirik.

**Sürücü:** Daha nə edəjəyik. Bu elə bir tərs oğludur ki, dədəsinə də güzəşt etməz. Əlacımız qalır yükü boşaldaq. Və fürsət gözləyək.

**Namiq:** Bir çarəsini taparıq, fikir eləmə. Mənə də Namiq deyərlər. Bəlkə qoyacağıq bu qədər mal tökülüb qalsın anbarda sabah da gəlib yandırsınlar. Buna yol verə bilmərik.

**Sürücü:** Sizinlə ətraflı söhbətim var. İcazədi yanınıza gəlim.

**Namiq:** Dediyim kimi maşını qat qaraca sonra gəl.

**Sürücü:** Baş üstə.

(p a u z a)

(Səhnə dönür. Namiq müəllimin otağı. O ayaq üstə gəzişir. Sürücü gəlir. Namiq bərk narahatdırn.)

**Namiq:** De, nə sözün var.

**Sürücü:** Sözüm odur ki, adamlardan heç olmasa biri haqqında birlikdə fikirləşməliyik.Yoxsa onlar bizim haqqımızda düşünməli olacaqlar.

**Namiq:** Nə etmək fikrindəsən.

**Sürücü:** Bilirsən ki, qarolçu sinə xəstəsidir, öskürməyə başlayanda günlərlə öskürür. O hər hansı dəqiqə canını tapşıra bilər. Elə müdirimzdə onun kimi.

Xəstə adamdı. Bu bəladan qurtarmağımız üçün onun postunda ancaq özün oturmalısan. Bizi ancaq bu qurtara bilər.

Namiq: Sən elə danışırsan ki, elə bil bir quş boğazı üzmək barədə danışırsan. Dünya dərəbəylik deyil ki, sən bu işləri görəsən. Qaroulçuya dəymək olmaz. Ona hər hansı bir təzyiq göstərilsə buraya hüquq-mühafizə orqanları gələcək. Onda bizim işimiz daha pis olar. Əlac qalıb gözləməyə. İşlər bir az yat-yüt olsun, bəlkə müdirin dərdini bir az dərinləşdirə bildik. Elə olarsa ona tərəf çıxanlar istər-istəməz bizim tərəfimizi saxlayacaqlar. Bu millləti mənim kimi tanıyan olmaz.

(Sürücü səhnədən çıxır. Namiq səhnədə tək qalır. O çox fikirlidir. Üzü tamaşaçılara yox, yan səhnə divarlarından birinə tutaraq).

**Namiq:** İndi məndə sizin kimi səssizəm. Bilmirəm fikirlərimi kiminlə bölüşdürüm. Sən yenə divarsan özündən yuxarıda neçə mərtəbə saxlayırsan. Bəs mən kiməm hə, mən kiməm. Başımıza ip vurub oynadanların hərəsi son anda bir yana qaçacaqlar. Yenə də ortada mənim kimi axmaqlar qalacaqlar. Fazil müəllim pis kişi deyil. Hə olsun onun yaxşı adam olmasından istifadə edən mənim kimi adamlar nejə? Nə isə özüm haqqında çox fikirləşmək istəmirəm. Bir onu bilirəm ki, indiyə kimi heç bir müdirlə düz yumurta döyüşdürməmişəm. İndi də tutumuşam Fazil müəllimin yaxasından. (Güclə eşidiləcək səslə):-Daha sənin alicənablığın keçib Namiq müəllim. Qart gavurdan müsəlman olmadığı kimi səndən də adam olmaz. Başının çarəsini qıl. O bir vaqon narıncı parçadan tikilmiş məhsullar tezliklə müəssisədən çıxarılmasa Fazil müəllim atanı yandıracaq. Fazil o biri müdirlərə oxşamır. Xəstə olmasına baxmayaraq işini yaxşı bilən adamdı.Ya onunla dil tapmalıyam, ya da onu məhv

etmək barədə fikirləşməliyəm. Allah ya ona verəcək, ya mənə.Əvvəlcə bir arvadı Nazəninin ağlını yoxlayam gərək. (Cib telefonunu açıb Nazəninə zəng vurur).

-Bəli mənəm, Nazənin xanım. Namiqdi. Siz də sağ olun. Həmişə əzizimizsiniz. Fazil müəllimdə şükür üzü bu yanadır. Elə deməyin Nazənin xanım. O bizim başımızın ujalığıdır. O yaxşı adamdır. Əstəfurullah de, Nazənin xanım.

(Pauza.Namiq dinləyir)

-Hə sözünüz bizim üçün qanundur. Bu gün sizinlə bir neçə dəqiqəlik işim var. Hə. Yeni mənzillərin məsələsidir. Çox vacibdir. Görüşsək əlbəttə ki, pis olmaz. Harda deyirsiniz mən hazıram, qulluğunuzda. Mən deyim yerini, nə olar mən deyərəm. Bir dəfə ki, sizinlə sövdələşməyə gəldik ha. Hə,hə! Həmin yerdə bir saatdan sonra sizi gözləyəcəyəm. Yox. «Qara Mersedes» 600-m. Nə mübarəkbazlıq canım, artıq köhnəlib, üç aydır sürürəm. Oldu, oldu görüşənədək.

(Pauza. Səhnə dönür. Nazəninlə Namiq səssiz danışırlar).

**Namiq:** Çoxdan sizi görmürəm. Göz dəyməsin.

**Nazənin:** Bəlkə mənə bir göz muncuğu taxasan.

**Namiq:** Niyə də olmasın.

**Nazənin:** Göz muncuğunu bir qədər sonraya saxla. Sözünün canını de məni maraq boğur. Sən də mənim üçün Fazil deyilsən, sinəsindən bir söz qopa-rana kimi yer göyə qovuşur. İş barəsində bir söz soruşanda üstümə elə çəmkirir ki, elə bil onun qarşısında dayanan heç qadın deyil. Sən də elə onu xatırlatdın mənə. Sən ki, cəsarətli adamsan. Sözünü de.

**Namiq:** Sözünü deyəndə ki, sözüm elə bir şey deyil. İstədim bir sizi görüm. Baş-başa bir söhbət edək.

**Nazənin:** Namiq, mən sənin dabbaqda gönünə bələdəm. Əgər sözün olmasa nə zəng vurarsan, nə də salam verərsən. De sözünü.

**Namiq:** Nazənin xanım məsələ belədir. Vallah heç haradan başlamağı bilmirəm.

**Nazənin:** Namiq, muss-mus deyincə birdəfəlik Mustafa de. Mənzillərdən danışırdın nə məsələdir. Yoxsa mənə verdiyin mənzillərdən vaz keçmək istəyirsən?

**Namiq:** Yox canım, o mənzillər sizə qurbandır. Hələ üstəlik binalar da hamısı.

**Nazənin:** Yaman səxavətli olmusan. Bunun bir səbəbi olmamış deyil. Bəlkə bir az ürəkli olub istəklərini də diyəsən.Hə, nə deyirsən Namiq müəllim?

**Namiq:** Nazənin xanım, siz o qədər cazibədar, o qədər gözəlsiniz ki, deyəcəyim sözlərin hamısı onların qarşısında matdır. Elə mən özüm də.

**Nazənin:** Söhbəti çox uzadırsan. Bu dəqiqə mətləbə keməsən mən çıxıb gedəcəyəm. Özün bil.

**Namiq:** Nazənin xanım, (xüsusi əda ilə) bu qədər kəm hövsələ olma. Sənə deyəcəyim söz o qədər də böyük məsələ deyil ki, bu qədər narahatçılıq keçirirsən. Birinci növbədə sakitləş, sonra mən sözümü deyəcəyəm.

(p a u z a)

-Hə indi necəsən.

**Nazənin:** Sakitləşdim, sözünü de. Səbrim tükəndi.

**Namiq:** Hə, Nazənin xanım Fazilin o katibəsi var e, Gülçöhrə.

**Nazənin:** Nə, olub Gülçöhrəyə?

**Namiq:** Nə olacaq o yaxşı qız deyil. O Fazil müəllimin başını yiyə bilər. Elə edək ki, Fazil müəllimə bir şey olmamış Gülçöhrənin məsələsi həll olunsun. Sən Fazilə desən bəlkə sözünə baxdı. Mən ona heç nə deyə bilmərəm. Heç bizi yanına buraxmır. Deyir nə vaxt çağırsa gələrsiniz. Bütün müəssisəni Fazil müəllimdən incik salan odur. Ona görə də Fazil müəllim işinə nəzarət etmək əvəzinə düşüb dərmana. Gündə bir ovuc dərman atır. Bu məsələni həll etsən sən edərsən.

**Nazənin:** Mənə görə Gülçöhrə pis qız olmamalıdır. Ancaq yenə də yoxlamaq lazımdır.

**Namiq:** Siz yoxlayana kimi gej olar. Bu məsələni təcili həll etmək lazımdır, Nazənin xanım. Onda müəssisəni də qurtarmış olarıq, Fazil müəllimi də. Sənin də oğlanların atalı böyüyərlər. Hələ heç birinin toyunu da etməmisən. Mənim Fazil müəllimə çox canım yanır. O yazıq o qədər yazıq adamdır ki, hamını öz arşını ilə ölçür. Tələsmək lazımdır, Nazənin xanım, tələsmək lazımdır. Sonra gec olacaq. Gülçöhrə getsə təzə binanın üçüncü mərtəbəsini bütövlükdə sizə bəxşiş edərəm. Bilirsən də bu nə deməkdir. Ən azı iki yüz min dollar.

**Nazənin:** Namiq, doğurdanmı sən Fazili belə çox istəyirsən. Demək başqalarının danışıqları dedi-qodu imiş. Ə bu adamların hansına inanasan. Sən nə qədər yaxşı adamsanmış. Elə mən bu gün Fazilə bu barədə danışacam. Nə ağzı var ki, mənim bir sözümü iki eləsin. Katibədi, «o olmasın bu olsun» Məşədi ibad demiş. Ancaq bu söhbətləri yeni mənzillərin orderini alandan sonra edəcəyəm.Sözümüz sözdür.

**Namiq:** Demək siz mənə inanmırsınız.

**Nazənin:** Nəyin ki, sizə, bu gün heç özümə də inanmıram. Fazilə də inanmıram. Elə inamsız olmuşam

ki, yediyimə, içdiyimə, geydiyimə də inanmağım gəlmir. Nəyinki sizə. Ay Namiq müəllim.

**Namiq:** Nazənin xanım, bu qədər inamsız da yaşamaq yaxşı iş deyil. Yəni siz dünyada heç nəyə inanmırsınız?

**Nazənin:** Xeyir heç kimə, heç nəyə inamım yoxdur. İstər inan, istərsə də inanma. Belə daha rahat yaşayıram.

**Namiq:** Söhbətimizdən uzaqlaşmayaq.

**Nazənin:** Evlərin sənədlərini gözləyirəm. (Nazənin tamaşaçılarla üz-üzə dayanır). Sən ol Namiq, mən də olum Nazənin. Görək kim-kimə qalib gələcək. Görün bu Gülçöhrə necə adamdı ki, bütöv bir mərtəbəni mənə vermək istəyir. Hər şeyi öyrənərik. (Dönüb Namiqə tərəf gəlir). Zəngini gözləyəcəyəm.

**Namiq:** Zəng bəlkə bir qədər gec olar. Mən elə indicə sizə çatacaq mənzillərin sənədlərini sizə verəcəm. (O başqa bir otağa keçir. Qayıdana kimi Nazənin səhnədə tək qalır).

**Nazənin:** Görəsən bu Namiq niyə evlənmir. Bu qədər var dövlətin sahibi neçə göz mənzildə tək-tənha yaşayır. Çox bic adamdır, çoxbilmişdir. Bizim Fazili allah bilir gündə neçə kərə aldadır. Neynək, sonrasına baxarıq. Görək sən güclüsən, ya mən güclüyəm.

**Namiq:** (Elə bil Nazəninin dediyi son sözləri eşidirmiş kimi):

-Nazənin xanım doğurdan da siz çox güclü qadınsınız. Siz olmasanız allah bilir Fazil müəllim indi haralardaydı. Nə adı varıydı,nə bəhsi.

**Nazənin:** Səhviniz var.Fazil sizdən də,məndən də çox güclüdür. Güclü olmasaydı ömrünün yarıdan çoxunu vəzifələrdə keçirməzdi. Onun sizin kimi çox müavini olub. Özü də həmişə onun ayağının altını çəkiblər. Həmişə də ona məğlub olublar. Sən elə fikirləşmə ki, doğrudan da Fazildən güclüsən. Onunla

dil tap, o zərif və sərt adamdır. Çalış onun gözündən düşməyəsən. O adamların iqtisadi sapotajını bağışlamağı bacarır, amma vay o gündən ki, vətənin, torpağın, millətin ümumi mənafeyinə zidd bir hərəkət edəsən. Onda batdın. Çalış, çalış, çalış Fazilin gözündən düşmə.

**Namiq:** Fazil müəllimi belə bilməzdim.Əhsən sizin qiymətinizə. (O əlindəki sənədləri Nazəninə verir). Buyurun, bu sizin mənzillərin sənədləri. İndi qaldı sizin öhdəliyiniz.

**Nazənin:** Mənim heç kimin qarşısında öhdəliyim yoxdur. Heç kimin. Gülçöhrə məsələsini deyirsənsə o elə bir çətin iş deyil. Yağın içindən tük necə asan çəkilirsə mən də Gülçöhrəni Fazilin yanından eləcə çəkəcəyəm. Arxayın ol Namiq müəllim! (İntonasiya ilə).

## V şəkil
(Pərdə dəyişilir)

(Səhnə dönür. Katibənin otağı. Telefon zəng çalır. Gülçöhrə dəstəyi qaldırır):

-Alo, eşidirəm. Nazənin xanım sizsiniz. Fazil müəllimi birləşdirim? Mən sizə lazımam. Buyurun, mən sizi eşidirəm. Nə dediniz. Başa düşmədim. Bu sizin xahişinizdir, yoxsa əmriniz. Siz məni işə götürmüsünüz ki, belə danışırsınız. Nazənin xanım mən sizin yox Fazil müəllimin katibəsiyəm. Özü havaxt istəsə mənə deyər, mən də ərizəmi yazıb işdən çıxaram.

(pauza)

Özü də sözünüzə sərhəd qoyun, ərinin katibəsiyəm deyə başımı da kəsməyəcəksən ki? Hayıf o boydan-buxundan səndə. Hayıf Fazil müəllimə ki, sənin kimi adamla ömür çürüdüb.

(pauza)

...Artıq heç nə eşitmək istəmirəm. Telefonu birləşdirirəm nə sözün var ərinə de. Mənim sizinlə danışmağa nə vaxtım var, nə də həvəsim.

(Katibə dəstəyi yerinə qoyub, əsəbi halda otaqda gəzişir).

**İçəridən səslər:**

-Sən kimsən axı mənim işimə qarışırsan. Yaxşı, vaxtımı alma əlimdə işim var. Gələrəm evə danışarıq. Öz işinlə məşğul ol. Məni təbdən çıxarma. Bura gəlmə, gəlsən də səni görmək istəmirəm.

(Səhnə bir anlığa qaranlıqlaşır. İşıqlananda artıq Nazənin katibə ilə əlbə-yaxadır).

**Nazənin:** Ə, ləçər, sən kimsən ki, məni ərimin otağına buraxmırsan. Hə. Sən bir buna bax Fazilə can bir qəlbdə olub, ona məndən çox yanır, sənin yanından

bir Gülçöhrədə çıxararam olarsan Gülpöhrə. Sən həmin katibə deyilsən ki, neçə-neçə evə qan salmısan. İndi qapının ağzında dönüb sən ərəbzəngiyə. Bir buna bax.

(Səsə Fazil müəllim çıxır. Sərt bir səslə):

-Nəzənin. Özünü yaxşı apar. Bura sənin, evin deyil ki, ağzına gələni danışasan. Bura idarədi. Gülçöhrə xanım da vəzifə başındadır. Mən də sənə telefonda sözümü demişəm. Mənim işimə heç kim qarışa bilməz. Necə ki, mən burada idarə müdiriyəm Gülçöhrə də burda işləyəcək. Mən sədaqətli adamları yanımdan kənarlaşdıra bilmərəm. Nazənin səni kim fitilliyib bura göndəribsə o bizim düşmənimizdir.

**Nazənin:** Mən o qədər də uşaq deyiləm ki, məni kimsə fitilləsin. Sadəcə istəmirəm bu Gülçöhrə xanım sənin katibən olsun.

**Fazil:** O, birinci sadəcə katibə deyil, həm də komputerçimizdir. İnternet şəbəkəsini gözəl bilir. Başlıcası isə insandır. Sənin kimi hər sözü qabağına qatib qovan deyil.

**Nazənin:** Deməк onu mənim üzümə vurursan hə. Yaxşı Fazil sənə axrıncı dəfə deyirəm. Ya bu qız burda qalacaq, ya mən sənin evində. Bu gün əmrini verməsən evə gəlmə. Bu mənim son sözümdür. Bu Gülçöhrə xanım olsun, bu da sən. Bir də onun güllü bağçaları. Mən gedirəm. Onun əmrini verib mənə zəng vurarsan.Vəssalam.

(Dönüb səhnədən çıxır).

(Fazil müəllim Gülçöhrəyə tərəf gəlir. Və nəvazişlə): -Narahat olma, qızım. Nazənini kimin fitillədiyini öyrənmək lazımdır. Sən öz sədaqətinlə kimə isə maneçilik edirsən. Ona görə də səni Nazəninin əli ilə buradan uzaqlaşdırmaq istəyirlər ki, mən tamamilə köməksiz qalım. Ancaq yanılırlar. Necə bilirsən, bu Nazəninin tufanı kim tərəfindən ola?

(Gülçöhrə bu sualı gözləmədiyi üçün bir qədər tərəddüddən sonra çiyinlərini çəkdi):

-Nə deyim, Fazil müəllim. Adamın malı bir yerə gedir, imanı min yerə. Ancaq bu məsələ ətrafında bir qədər fikirləşmək gərəkdir. Nazənin xanıma gəlincə heç bilmirəm onun haqqında nə deyim. Bəlkə də heç nə deməyə haqqım çatmır. Getsin qurban olsun ki, sizin evin xanımıdı. Acığınıza gəlməsəydi ona heç xanım da deməzdim. Yenə sizə qurban olsun.

(O Fazil müəllimdən bir qədər aralanıb tamaşaçılara yaxınlaşır. Üzünü onlara tutaraq):

-Bu adamların çoxusu elə bilir ki, kimsə katibədir demək onun ünvanına hər cür sözlər demək mümkündür. Guya bizi nə ana doğub, nə ata əkib. Elə bircə Nazənin xanım kimi adamlar hər cür alqışa layiqdirlər. Guya katibələr namuslu ola bilməzlər. Katibədi deyə üzlərinə hər şey demək mümkündür. Onların şərəfini və ləyaqətini hər vəchlə alçaltmaq olar. Ancaq onu düşünmürlər ki, satqın elə satqındır genlərinə, uzunlarına, enlərinə uyğun. Sədaqətli adamların da sədaqətini heç nə ilə əllərindən almaq mümkün deyil. Bu idarənin başına nə oyun gəlirsə Fazil müəllimin müavini tərəfindən gətirilir. Bu işlərin başında Namiq müəllim durur. Onun min sifəti var. (Katibə çevrilib Fazil müəllimə tərəf gəlir).

**Fazil müəllim:** Gülçöhrə xanım, sənə sevgi məktubu yazanın kimliyini dəqiqləşdirmək mümkün deyil.

**Katibə:** Niyə mümkün deyil. Bu iş Namiq müəllimdən o yana deyil. Onun işidir. Siz burada olmadığınız aylarda bərk fəallaşmışdı. Qəbul otağından çıxmaq bilmirdi. Mənə xoş görünsün deyə dəridən-qabıqdan çıxırdı. İndi internetdəki sözlərin çoxu mənə üzbəsurat dediyi sözlərdi. O çox alçaq adamdır. Min sifəti var. Müxalifətin lap qatı qanadı ilə yaxınlığı var.

Sizin kabinetdən ötəri burnunun ucu göynəyir. Arvad uşağı olsaydı inan vəzifəyə dəyişərdi. Mənə o qədər quş dili oxudu. Əvəzində öz boğazı gəldi. O bütün qadınlara yuxarıdan aşağı baxır. Səviyyəsiz bu adamı neçə illərdir keçiriblər bu kollektivin boğazına. Camaat bilmir dərdini kimə desin. Gənc qızlarla danışmaq lazımdır. Onları dinləmək, Namiq kimilərin eybəcər sifətərini açmaq lazımdır. Onun masqası artıq deşilməlidir. Mənə elə gəlir ki, Nazənin xanımın bu hücumunda Namiqin dəsti xətti var. Mən burdan gedim, öz istədiyi bir adamın xahişini sizdən etsin və sonra başlasın digər əclaflıqlarına. Mən Namiqdən şübhələnirəm.Bəs siz?!

**Fazil müəllim xəstəhal:** Babalını yuya bilmərəm. Onu da bilirəm ki, Nazəninlə onun heç bir əlaqəsi ola bilməz. Nazənin o qədər də axmaq deyil ki, Namiq kimi birisinə sirr versin. Mənimlə belə danışmağına baxma. O ailə sirrini heç kimə verməz.

**Gülçöhrə:** Təki elə olsun. Siz də hələ Namiqi tanımırsınız. Siz bu idarəyə gələn kimi öz komandanızı gətirmədiniz, o biri müdirlər kimi hamıya ürək qızdırdınız.

**Fazil müəllim:** Onda belə çıxır ki, siz işə dəyişməliydim.

**Gülçöhrə:** Belə çıxır. Mən indi də razıyam. Ancaq Nazəninin fitfası ilə yox. Heç olmazsa indi bu yanyörənizə yaxşı-yaxşı baxın. Mən indi hiss etdim ki, gündə qoşa-qoşa atdığınız bu ləblər nədir. Evdə elə, işdə belə. Hansı gününə baxıb sevinəsən.

**Fazil müəllim:** Demək siz də məni qınayırsınız?

**Gülçöhrə:** Mən kiməm ki, sizi qınayam. Sizin yaxşı adam olmağınıza çoxları paxıllıq edir. Onlar hər gün gəlib sizi əsəbləşdirmək istəyəcəklər. Olub olmayanı altdan-üstdən deyəcəklər və bilirlər ki, siz

qəlb adamısınız. Sizi narahat etməkdən zövq alacaqlar.

**Fazil müəllim:** Bilirəm. Belə də fikirləşirdim.

**Gülçöhrə:** Bəs, siz neyləmək fikirindəsiniz. Oturub gözləyəcəksiniz ki, sizi zərrə-zərrə öldürsünlər. Artıq hərəkət etməyin vaxtıdır, Fazil müəllim. Görürsünüz onlar artıq hərəkətdədirlər. Dünən bir, bu gün iki. Nazənin gəldi, müavin, sex rəisi və digər işçilər. Sabah başqaları gələcək. Hərə də bir hava ilə. Bura belə dağılmışdı Fazil müəllim. Mənə nə var deyib mən də qoşulardım onlara. Ancaq qoşula bilmərəm. Niyə? Ona görə ki, sizə xüsusi hörmətim var. Çünki siz yaxşı adamsınız. Siz yeganə istədiyim müdirsiniz ki, məndən heç bir təmənna güdməmisiniz. Ona görə sizə vurğunam. Siz məni təkcə gözəl xanım kimi yox, həm də insani başa düşən bir insan kimi qiymətləndirirsiniz. İnanın ki, Namiq müəllimlə bir gündə işləmərəm. Dünyanı mənə versə yenə işləmərəm.

**Fazil müəllim:** Namiq artıq üçüncü müdirlə işləyir. Əgər lazım bilsəydilər onu qoyardılar. Daha bu hərəkətlər kimə lazımdır. Nazəninin bu hərəkətində Namiq müəllimin dəsti xəttinin olması məsələsinə gəlincə, bu məni bərk narahat etdi. O hara Namiq hara.

**Gülçöhrə:** Siz çox təmiz adamsınız Fazil müəllim. Bu adamları tanımaq üçün isə iki ömür bəs etməz. Bu Namiq dediyimiz ki, var neçə yerə işləyir, özü də səhv salır. Həyatımda bir dəfə səhv etmişəm. İndi kim yetir bu səhvimi başıma vurur. Bir kərə sevdim və məğlub oldum. Elə o vaxtdan öz taleyimlə barışdım. Oturdum sədaqətlə qulluq etməyə. İndi heç kim məni yolumdan çıxara bilməz. Mənim bütün nəfs dişlərimi özüm çəkmişəm. Yoxsa Namiq müəllim kimi adamlar məni bir daha məğlub edərdilər. Bizim hamımıza bir əl gəzdirin Fazil müəllim.Kaş siz burada olmayan günlərin kino-süjetini çəkən olaydı indi adamların hərə-

kətlərinə baxaydınız. Görəydiniz o sifətləri. Bir rəngdən min rəngə çalan o sifətlərə inanmayın.

Fazil müəllim: Sizə də inanmayım?

Gülçöhrə: Elə mənə də inanmayın.

(Pauza)

## VII şəkil

(Səhnə dönür. Sex rəisi Namiq müəllimlə birlikdə gənc mütəxəssis Zaur gəlir. Yanında bir neçə qız gəlir, Namiq müəllim ayağa qalxıb Zaurla görüşür, qızlara yer göstərir.)

**Namiq:** Sizdən nə əcəb. Yoxsa fəhlələr tətil edib.

**Zaur:** Elə bir məsələdir. İşçilər gördükləri işin müqabilində əmək haqqı almadıqları üçün işi dayandırıblar. Əvvəlcə sizin yanınıza gəldik ki, sonra inciklik olmasın.

**Namiq:** Nə inciklik ədə, yoxsa zabostovka edirsiniz. Elə etməyin ki, əmək müqaviləniz başa çatan kimi talağınızı bağlayım. Ağlınızı yığın başınıza qayıdın sexlərə, yatanları oyatmayın. Bu qızlar ki, var onlar mənim səxavətimə yaxşı bələddirlər. Elə sənin özündə Zaur. Sizə zam nəğdi yolla ödənəcək. Arxayın olun. Gedin işinizlə məşğul olun.

**Qızlardan biri:** Biz iki ay gecə-gündüz tikdiyimiz narıncı parçanın pullarını istəyirik. Əgər tikib anbara yığacaydınızsa nə üçün bizə əziyyət verirdiniz.

**Namiq:** Siz ki, haqqınızı artıqlamasıyla almısınız. Qoy heç olmasa başqaları danışsın. Başqaları narahat olsun. Kim ki, az-çox bəhrələnib niyə onlar gəlir.

**Qızlardan digəri:** Neynək o biriləri də gələr. Onda özünüzə yer tapa bilməyəcəksiniz.

**Namiq:** Ay qız mənə xux gəlincə toyuqlarınza gəl ki, iki-iki yumurtlasın. İlin günün bu vaxtında bəlkə şirələnəsən.

**Qızlardan biri:** Ağzıvı düzəmməli aç. Səni elə bir günə salarıq ki, dədəvin toyu yadına düşər. Bir də bizə deyən gərək axı bu Namiq kimdir, dərdini ona-

deyirsən. O bu illər ərzində o qədər qız, gəlin aldadıb. İndi yaşı əlliyə çatıb adı hələ subaydı.

**Digəri:** Beləsinin nəsli kəsilsə daha yaxşı olar.

**Namiq:** Ə, Zaur bəy bunları sən insturuktaj eləyib gətirmisən?!

**Zaur:** Mən heç kimi insturuktaj zad etməmişəm. Hərənin öz ağlı var. Nə qədər biz işləyəjəyik kimsə bizim əməyimizi mənimsiləyəcək. Düz söz deyəndə niyə səni yandırır, Namiq müəllim. Bizim sahənin əmək haqlarını tezliklə verməsəniz Fazil müəllimin qəbuluna gedəcəyik.

**Namiq:** Xox, qorxdum Fazil müəllimdən.

**Zaur:** Özünüz bilərsiniz, qorxarsınız da, qorxmarsınız da. Bir onu bilirəm ki, bu şəkildə işləmək daha mümkün deyil. Səxavət müəllim də ağzına su alıb susur. Gör bir heç qımıldanır.

**Qızlardan biri:** Qımıldanıb nə deyəcək. Namiq müəllimlə baş-başa verib dağıtdılar bu istehsalatı. İndi də fikirləşirlər ki, yediklərini necə ört -basdır etsinlər.

**Zaur:** Daha heç nəyi ört basdır etməki mümkün deyil. Hər şeyi Fazil müəllim bilir.

**Namiq:** Nəyi bilir ə, Fazil müəllim. Fazil müəllim hər şeyi elə biləndirsə birinci evinin içində olanları görsün. Hər şeyi bilir Fazil müəllim! (ironiya ilə deyir).

**Zaur:** Nəyi bilib, nəyi bilmədiyini sən də görəcəksən Namiq müəllim. Müəssisəyə gələn gənclərin hamısnı sən zəhərləmisən. Kimi işə götürürlərsə birinci sən qapazlamısan, onu özünə layiq tərbiyə etməyə çalışmısan. Sənin istəyin bir mənə kar etmədi deyəsən. Namiq müəllim sizinlə bir müdir müavini və adi bir mütəxəssis kimi yox iki mühəndis kimi danışmaq istəyirəm. Niyə siz adamların yaxşı cəhətlərini görmək istəmirsiniz. Sizin yaxşını görmək duyğularınıza nə olub.

**Namiq:** Nə manoloq deyirsən ə, kişi qırığı! Yoxsa səni xüsusi olaraq göndəriblər bura. Özü də insturuktaj olunmuş şəkildə. Zaur, balası bir onu qulağında sırğa et ki, sənin kimilər mənim qayamdan heç nə qopara bilməz. Özünün işin varsa onunla məşğul ol. Mən sən girən kol deyiləm. Mənimlə sənin direktorun vuruşa bilməz. Bu xanımları da işindən avara-gor eləmə. Ağlına dua yazdır, elə eləmə ki, sənin haqqında fikirləşim.

**Zaur:** Özünüz bilən yaxşıdır. Əlinizdən gələni beş qaba çəkin.

**Namiq:** Qulaqların nə çalıb. Yoxsa elə bilirsən mənə dəyib toxunan var. Onu bil ki, mənə dəyib toxunan hələ anasından olmayıb. Heç olmayacaq da.

**Zaur:** Yox, Namiq müəllim. Sənə dəyib toxunan çoxdan anadan olub və ən azı siz yaşdadır. O qədər də qürrələnməyin. Bəsdir bizi adam yerinə qoymadığınız. Siz qurtaran məktəbdən daha yaxşısını və daha yüksək səviyyədə bitirənlər nə vaxta qədər sizin danlağınız altında işləyəcək.

**Namiq:** Oho, oho: Ay eşidənlər. Bu Zaur oğlan nə yaman dil otu yeyib. Ə Zaur, bu cəsarət sən də hardandır bala. Bu sözlər sənin ağzının deyil bala.

**Zaur:** Siz hələ işçiyə necə müraciət etmək formasını bilmirsiniz, desəm yanılmaram. Özünüzdən bir pillə yuxarılara mürajiətinizi çox eşitmişik. Onda quzuya dönürsünüz. Bizimlə danışanda isə fili minirsiniz. Az qalırsınız bizi ayaqlayasınız. O ki, qaldı belə cəsarətli danışmağıma onu da edən sizsiniz. Sizin bu işçilərə qarşı olmağınızdı. Onu heç vədə fikirləşmirsiniz ki, sizdən başqa da adam var və o da yaşamaq istəyir. (Zaur əsəbi halda qızlarla birlikdə Namiqin otağını tərk edir. Namiq yenə də Səxavətlə tək qalır):

**Namiq:** Səxavət, susub dayanmaq vaxtı deyil. Elə susdun ki, dedim bəlkə heç vaxt danışma-

yacaqsan. Sən nə miyanə adamsan. Onu bilki mənə dəyən dəyənəyin bir başı da sənə dəyəcək. Heç özünü yana çəkmə. İstehsalat ikimizindi. Vaqonların qəbulu və yola salınmağı sənin imzanladı. Ona görə də Gülçöhrə ilə dil tapmalıyıq. O da Fazil müəllimi yola gətirə bilər. Müəssisədə bir ona inanır.

**Səxavət:** Namiq müəllim, məni bu işlərə qarışdırma. Mən onsuz da bu dünyada yarı könül yaşayıram. Bir dəfə etdiyim səhfin ucbatından həmişə əzab çəkirəm. Mən Gülçöhrəyə heç nə deyə bilmərəm və demərəm də. Nə üzlə ona söz deyim və kimin xətrinə dəyim.

**Namiq:** işimizin xətrinə.

**Səxavət:** Xətir üçün xəstə yatdığım bəs edər. Mən öz günahlarımı bu gün öz qanımla yumağa hazıram. Fazil müəllimin xəstələnməsindən istifadə edib bu müəssisənin başına gətirdiyimiz oyunlar bəs deyilmi. Metalla işləyən bir müəssisənin profilində dəyişiklik edərək böyük bir tikiş sahəsi yaratmaq ideyası da sənindir. Gör o kişinin xəstə yatdığı yerdə saqqızını necə oğurladınsa sənə inandı. Əvəzində biz neylədik. Qeyri qanuni yolla əldə etdiyimiz tikiş materialları hesabına milyonlar qazandıq. Bu milyonların əksəriyyəti də sənin büdcənə getdi. Bu tikdiyin çox mərtəbəli binaları nəyin hesabına tikirsən. Rəhmətlik dədəvin pudlarla qızıl yatırımı olsaydı bu işləri görmək mümkün deyildi. Bu müəssisə nəyimiş ilahi. Dəryaymış, dərya.

**Namiq:** Səxavət, sənin də ürəyin yaman doluymuş. Ay camaat bu nankorlara baxın. Namiqin hesabına ev-eşik sahibi olublar. Güzəranlarını qurublar, indi də üzümə ağ olurlar.

**Səxavət:** Özün eləmisən. Yoxsa mənim nə işim qalırdı səninlə çənə- boğaz edəm. Sənin nəfsin çoxdur Namiq müəllim, nəfsin çoxdur. Özü də bundan sonra deyək ki, nəfsini bir az az elə, xeyiri yoxdur. Çünki

sənə söz kar eləməz. Nə desək onun qarşısında ondan betərini cütləyirsən, özü də düzünə, əyrisinə baxmadan. Ona görə də hər adamın bir əvvəli olduğu kimi bir sonu da olur. Sənin də, elə mənim də sonumuz çatıb. Artıq bu səhnədən biz də getməliyik. Mən özüm öz xoşumla gedirəm. Sən özün getməsəndə anbardakı narıncı paltarlar, narıncı bayraqlar, narıncı lentlər və digər narıncı nə varsa səni aparacaq. (O səhnədən çıxa-çıxa dodaqaltı mızıldanır):

**Səxavət :**

Ay narıncı, narıncı,
Namiq qalıb zarıncı.
Öldürəcək zalımı,
Öz başın kəsəcək,
Siyirdiyi qılıncı.

(Namiq müəllimin qulağı öz adını çalır.)

**Namiq:** Səxavət, nə dodaqlarının altında mızıldanırsan. Mənə hansı daş dəysə sənə ondan ikisi dəyəcək. Cəhənnəmə gedən özünə yoldaş axtarır. (Özözünə danışır):

-Bu nə iş idi altına girdik. İndi bir vaqon parçanı tikib yığmışıq anbara. Bu yandan da bu rəng moddan düşür. Bir çarə tapmasaq dədəmizi yandıracaqlar. (Artıq qorxduğu hiss edilir). Neynəməli qapıya bir köpək oğlu qoyublar dədəsinə də güzəşt etməz. Bütün kollektiv də mənim əksimə danışır. Çarə nədir. Nazənin xanımdan bir səs çıxmadı. Gülçöhrə məsələsi baş tutan işə oxşamır. Fazil müəllim hamımızdan çox ona etibar edir. İnternetə daxil olan sifarişçi iradlarından ibarət məktublar bizim əleyhimizə işləyir. Bu gün müəssisədə hər şey bizim əleyhimizədir, hər şey. Bu niyə belə oldu.

**Namiqin ikinci səsi:** Bəs nə təhər olmalı idi. Əlimizə fürsət keçən kimi az qalırıq adamların başını arxadan kəsək. Gözümüz heç nə görmür. Anam mənə

kor deyib, gəlib gedəni vur deyib, oynayırıq. Elə bilirik burda bizik, Bağdatda kor xəlifə. Ay Namiq, sən nə vaxt düz yumurta döyüşdürmüsən ki? İndi də öz cəzanı çək. Tikənin yağlısını öz qabağına çəkəndə niyə demirdin ki, başqaları da var qoy heç olmasa yavan tikə də onun olsun. Ay Namiq, bü müəssisədə nə qədər qız-gəlin aldatmısan, subaylığa sultanlıq demisən, indi dörd divarın içində qalmısan quqqulu-qu. Öz cəzandır! İndiyə kimi idarə müdirlərindən üçünü qaçırmısan, haqlarında nə qədər santaj eləmisən. Bilmirdin ki, hər bədin bir sonu olacaq. İndi başına çarə qəl. (Otaq boyu vərgər edir). Hər şeyin bir çarəsi var, inşallah! Biz o çarəni taparıq. Hələ ümüdlər tamam tükənməyib. Bərk dur, Namiq müəllim! Necə olursa olsun tikilmiş məhsullar müəssisədən çıxarılmalıdır. (O səhnədən çıxır. Səhnə dönür. Gülçöhrə telefonla danışır):

## VII şəkil

**Gülçöhrə:** Bəli Dəyanət müəllim, yerindədir. Baş üstə, bu dəqiqə birləşdirərəm. (O daxili telefonun dəstəyini qaldırır Fazil müəllimlə danışır):

**Gülçöhrə:** Sizi Dəyanət müəllim xəbər alır.

**Fazil müəllimin səsi:** Xoş gördük Dəyanət müəllim. Çoxdan səsini eşitmirəm. Sağ olun, diqqətinizə görə minnətdaram. Səhhətim, indi nisbətən yaxşıyam. Neynəyək dava-dərmanla yoldaşlıq edirəm. Havaxt gəlsəniz gözümüz üstə yeriniz var. Gəlin, gəlin. Gözləyirəm. (Telfonun dəstəyini asır və Gülçöhrəni çağıran düyməni sıxır. Gülçöhrə otağa daxil olur).

**Fazil müəllim:** Yaxşı bir çay dəmlə Dəyanət müəllim gəlir bura. Gülçöhrə, Dəyanət bir qədər fikirli danışırdı, səncə səbəb nə ola bilər.

**Gülçöhrə:** Nə deyim Fazil müəllim. Prokurordu yəqin nə iləsə maraqlanır. Bir az dözsək səbəbini bilərik bu gəlişin. Həm də o sizin yaxın dostunuzdur. Bəlkə şəxsi işi var. Axı siz bir neçə aydır işə çıxmırdınız. Şəhərimizdə yox idiniz. Bəlkə bu səbəbdən gəlir.

**Fazil müəllim:** Müavinə, sex nəisinə, digər məsul adamlara tapşır burda olsunlar. Heç kim müəssisədən getməsin. Deyin mənim tapşırığımdır.

**Gülçöhrə:** Baş üstə. Oldu, deyib otaqdan çıxır.

(p a u z a)

(Cəmi bir neçə dəqiqə keçməmiş istehsalat sexindən daxili telefona zənglər gəlir. Zənglər ara vermir. Gülçöhrə dəstəyi qaldırır həyacanla)

**Gülçöhrə:** Siz nə danışırsınız. Necə yanı istehsalat sexindəki hazır mallar anbarına yanğın düşüb? A qardaşlar, əlli ayaqlı olun bu xəbəri mən Fazil mü-

əllimə verə bilmərəm. Xəstə adamdır. Yanğın söndürənlərdən istifadə edin, mən də yanğın söndürmə idarəsinə zəng vururam. (Müəssisədə həyacan siqinalı verilir. Yanğın söndürən maşınların siqinal səsləri eşidilir. Telefonda Gülçöhrədir):

-Təcili Namiq müəllimi, Səxavəti tapın. Necə yəni heç biri yoxdur. Tapın, lap yerin dibində olsa da tapın. (Səsə Fazil müəllim gəlir.Təəccüblə):

-Nə olub Gülçöhrə?!

-Heç elə bir şey yoxdur. Elektirikdən hazır məhsul anbarında bir iki məhsulumuz yanıb. Siz həyəcanlanmayın. Bu dəqiqə yanğın söndürənlər gələr. Siz keçin içəri. Bütün qüvvələr səfərbərliyə alınıb. Yanğın söndürüləcək. (Pəncərədən baxa-baxa): Odur bax, Dəyanət müəllim də gəlir.

-Özünüzü toxtat aparın. (O içəri keçir, prokuror gəlir.Yanında da Səxavət, istehsalat müdiri).

**Dəyanət:** Həmişə ayaq üstə. (Elə bu vaxt yanğın söndürmə maşınlarının siqnalları eşidilir. Onlar müəssisənin həyətinə daxil olur.) Nə məsələdir. (O da həyəcanla).

**Fazil müəllim:** Hazır məhsul anbarında yanğın var.

(Dəyanət yanğın sözünü eşidən kimi istər istəməz Səxavətə tərəf dönür).

**Dəyanət:** Sən bilən bu nədir?

**Səxavət:** Nə olacaq yanğındır. Mən sizə nə demişdim. Demişdim ki, sizin dostunuzdur, Fazil müəllimə çatdırın. Müəssisədə xoşagəlməz hadisələr baş verə bilər. Bu da sözümün cücərməsi.

**Dəyanət:** Bu kimin işi ola bilər. (Telefona yaxınlaşır). Metal emalı zavoduna təcili ekspert qrupu göndərin. (Telefonun dəstəyini yerə qoyur). Fazilə müraciətlə:

-Səxavət müəllim mənə çox həqiqətləri anlatdı. Yəqin yanğında həmin narıncı məhsulların yığıldığı anbarda baş verib. Sən narahat olma, biz bu işə əncam çəkəcəyik. Bəs sizin müavininiz haradadır. Axı, o bildiyimə görə bir başa istehsalatla bağlıdır.

**Fazil müəllim:** Elədir ki, var. Tezdən məndən icazə aldı ki, bəs bu gün xalamın qırxıdı qəbir üstünə gedəcəyik. Sonrasından xəbərim yoxdur. (Telefon zəngi. Dəstəyi Fazil götürür): Yanğın söndürüldü? Çox şükürlər olsun. Bəs Namiq müəllimdən nə xəbər? Ondan xəbər yoxdur. Kimin əli, qolu yanıb. Zaurun əlləri yanıb, təcili yardım gəldi. Onunla birlikdə gərək işçilərdən də gedən olaydı. Lap yaxşı. Namiq müəllim gələn kimi yanıma gəlsin.

**Dəyanət:** Fazilə müraciətlə, siz bura təyin ediləndə dedim ki, öz komandanı yığ. Keçmiş müdirin adamları ilə işləmə. Xüsusilə vurğulamışdım ki, müavinə hökmən bir əl gəzdir. Artıq o üç müdir dəyişib. Zilaflaşıb. Bu da onun son aqibəti. Ataların sözü cücərir: «Gen qaz, dərin qaz özün düşəcəksən» səni hamı yaxşı tanıyır. Hamı bilir ki, zorla hörmət etməsələr özgənin bir tikəsinə göz tikmərsən. Sən heç narahat olma. Bu rəngbazların çanaqları öz başlarında çatlayır. Ona görə deyiblər ki, hər kəs neyləyirsə özünə eləyir. Yaxşı iş görən də, pis iş görən də. Bir neçə aydır ki, sizin müəssisədə gedən bu əməliyyatları izləyirik. Namiq müəllim elə bilir ki, hamıdan ağıllıdır. Ancaq onu bilmir ki, o sexdəki sadəlövh gözəl insanları aldada bilər, dövləti aldada bilmz. Şəhərin iki yerində iki göydələn tikdirir. Nəyin hesabına? Xaricdən aldığı qrantların hesabına. Ad onun, vəsait başqasının. Bütün bunların hesab kitabı var. İndi deyirsən, (Fazilə müraciətlə) Namiq hardadır.

**Fazil:** Vallah məndən icazə aldı ki, xalasının qırxıdı, qəbr üstünə gedəcəklər.

**Dəyanət:** Düzdür, bu gün onun xalasının qırxıdı. Amma Namiq müəllim qırxa yox aeroporta gedib. Moskvaya uçmağa.

**Fazil:** Ora niyə?

**Dəyanət:** Sırağagün bilet alıb. Aradan çıxmaq istəyirmiş. Ancaq çıxa bilmədi.

**Fazil:** Nə oldu bəs?!

**Dəyanət:** Daha nə olacaq. Trapda qulaqlayıblar. Bir azdan sənin görüşünə gələcək.

**Fazil:** Bu dünyada kimə inanasan. Gülçöhrə deyirdi axı! Bəs bu Səxavət sizin yanınıza niyə gəlmişdi.

**Dəyanət:** O bizə kömək etdi.

**Səxavət:** Fazil müəllim, mən özüm də onun qədər olmasam da cinayət də varam. Mənim günahım daha çoxdu. Onun yedəyində getmişəm. Mən prokurorluğa getməklə öz günahlarımı yüngülləşdirmək istəməmişəm. Mən hələ on il əvvəl etdiyim cinayətin cəzasını çəkməliyəm. Sonrada Namiqlə birlikdə bu iş üçün cəza almalıyıq. Sizin yaxşı adam olmağınızdan istifadə etdik. Müxalifətin radikal qanadında vətənə qarşı düşmənçilik mövqeyində dayananlarla birlikdə müəssisəyə vurduğu zərbədə mənim də gücümdən istifadə edib. Mən sizi bilmirəm, özüm-özümü heç vaxt bağışlamaram.İndi seximizdə belə bir bayatı oxuyurlar.

Ay narıncı, narıncı...
Namiq qalıb zarıncı,
Öz başını sivirdi,
Siyirdiyi qılıncı.

**Dəyanət:** Təkcə özünün yox, özü kimilərin hamısının başını kəsdi. Namərdimiş. Namərdin də hər üzü olarmış. Rənglərin müxtəlifliyi kimi. Onun kimi adamlar onu da düşünsünlər ki, rəngindən asılı olma-

yaraq bütün rənglər xalqındır və xalqa məxsus olaraq qalacaq. Bu millət Namiq kimi vələduznaları çox görüb.

(Qapı döyülür. Gülçöhrədir).

**Dəyanət:** Gəlsinlər.

(Qapı açılır. Namiq qolları qandallı, arxasınca qrupun üzvləri içəri girir. Bir anlıq heç kim danışmır. Sükutu Fazil müəllim pozur):

**Fazil:** İlroniya ilə, xoş gəlmisən Namiq müəllim. Qəribə işin varıymış. (Rəngi ağarmış Fazilin təbdən çıxacağını görən Dəyanət onun sözünü kəsir):

**Dəyanət:** Onunla artıq qanun danışacaq. Siz özünüzü gərginləşdirməyin. Aparın onu yandırdığı anbarı göstərin. (Yana), Səxavət müəliim, Namiqə yazılan bayatını bir də deyin. Əgər mümkünsə.

**Səxavət:** (Sinəsini arıtlayaraq):

-Baş üstə deyərəm. (O müəllim qarşısında dayanmış şagird kimi bayatını deyir):

- Ay narıncı, narıncı...
Namiq qaldı zarıncı,
Öz başını sivirdi,
Sıyırdığı qılıncı.

Dəyanət: Yaxşı bayatıdır. Hələ çox Namiq kimilərin başını vuracaq, bu bayatı. Xalqa dirsək göstərənlərin aqibəti həmişə belə olur. Vəssalam.

**S O N**

**18-22 dekabr 2005**

# SAHİLSİZ ÇAYLAR

*(7 şəkildə draм )*

**İştirak edirlər:**

*Mədətoğlu* - el ağsaqqalı 75-80 yaşlarında
*Lətif müəllim* - kəndin icra başçısı, 60-65 yaşlarında
*Araz* - kəndin Bələdiyyə sədri, 35-40 yaşlarında
*Çəməngül* - Arazın həyat yoldaşı, 28-30 yaş larında
*Ana* - Çəməngülün anası
*Sərhəd dəstəsinin komandiri*
*Şaiq müəllim* - kənd müəllimi, şair
*Rauf Qarahəsənli* - rayon icra hakimiyyətinin başçısı.
*İcra hakimiyyətinin işçisi*
*Sərhədçi əsgər*
*Kənd camaatı, mərkəzdən gəlmiş nümayəndə lər.*

Hadisələr bizim günlərdə Arazqırağı kəndlərdən birində baş verir.

## I şəkil

(Musiqi başlayır, musiqinin fonunda külək və yağış səsləri, təcili yardım, yanğınsöndürən maşınların həyəcan siqnalı, camaatın səs-küyü sel daşqını səslərinə qarışır. Səs-küy uzaqlaşır, Mədətoğlu görünür.)

**Mədətoğlu:** Başına dönüm, ay bizi yaradan. Bizim günahımız nədir axı? İldə bir-iki dəfə bizi sınağa çəkirsən. Ev-əşiyimiz qalmadı, malımız, davarımız qalmadı. Gör indiyə kimi nə qədər qız-gəlin aparmısan, nə qədər anaları gözü yaşlı qoymusan. Daha bu şıltaqlığına dözə bilmirik. Ac əcdaha kimi qabağına keçəni udursan. Məhəmməd kişinin gözünü tikdiyi bir koma idi, onu da apardın. Özü də koması ilə birlikdə getdi. Qardaşı oğlu Qiyas da, kürəkəni Eldar müəllim də onu tək qoymadılar. İndi allah bilir onları aparıb hara çıxarmısan. Heç olmasa imkan ver onları tapaq, el adəticən dəfn eliyək.

(Səs-küy yenidən ucalır, Mədətoğlu səs-küyə tərəf gedir, səs-küy azaldıqca Şaiq müəllim görünür)

**Şaiq:** Adına indiyə kimi nə qədər latayırlar demişik. Sənə qılınc demişik, bizi yarıya bölən demişik, milləti parçalayan çay demişik adına. Sənsə öz işində. öz yolundasan. Yazda dəli-dolu, başqa fəsillərdə quzu olan, ipə-sapa yatan Arazım. Sənin yaz gününü daha çox sevirəm. Ona görə ki, sahillərə qulaq burması verirsən, yuyursan, dağıdırsan. Bizə kim nə deyir desin,mən sənin bu vədəni sevirəm. Bu dəli vədəni. Çoxları sənə xan Araz deyir. Mən isə sənin sıravi döyüşçü olmağını istəyirəm. Adam qəzəblənəndə özü olur, düşmənə qarşı yenilməz olur. Səni beləcə görmək istəyirəm. Dəli-dolu çayım. İndi qəzəbini çırpırsan sifətimizə. Neynək yu, yu bu torpaqları, sahillərimizi uzaqlaşdırdıqca biz yaxınlaşacağıq. Sən

bizə ziyan vurduqca səni daha çox sevirəm. Sən öz hikkənlə, qəzəbinlə yada salırsan bizim varlığımızı.

**Mədətoğlu:** Müəllim, deyirsən bu işlərin axırı necə olacaq?

**Şaiq:** Hansı işləri deyirsən ağsaqqal?

**Mədətoğlu:** Hansı işləri deyəcəm. Bu arazı deyirəm. Yenə ipə-sapa yatmır.

**Şaiq:** Özü bilən yaxşıdır.O da bizim kimi oturub o sahilə, bu sahilə baxmayacaq ki! Öz işidir. Düz axar da özü bilər, əyri axar da özü bilər. Ağsaqqal heç bilirsən Arazın o tayında nə qədər qardaş-bacımız yaşayır?

**Mədətoğu:** Müəllim səninlə söz danışmalı deyil. Ağzımızı açan kimi elə şeylər danışırsan ki, adam peşman olur.

**Şaiq:** İşə bax, mən adi bir sual verirəm. Mədətoğlu özündən çıxır. Yəqin bu biri qonşu olan üzdəniraq ermənilər haqqında da bir söz soruşsam yenə hirslənəcəksən. Bizim işimiz belədir. Nə deyiriksə böyüklərimiz ağzımızdan vurur. Uşaqlıqdan bizi belə öyrədiblər. Rusun adını çəkmək olmazdı, o tayın adı yasaq idi. Erməni deyib, bəyənmədiyimizlər dünyada meydan sulayır. Mən-mən deyir.

**Mədətoğlu:** Nə deyir erməni. O kimdir axı?

**Şaiq:** Erməninin kimliyini siz məndən yaxşı bilirsiniz. İyirminci əsirin əvvəllərində türkün başına gətirdikləri və dünyanın gözləri qarşısında bu gündə törətdikləri vəhşiliklər üçün onların gözləri üstə qaşları var deyən yoxdur. Niyə?

**Mədətoğlu:** Şaiq müəllim niyəsini də özün de. Görürəm ki, hirsini bu Araz sahilinə boşaltmasan bir təhər olarsan.

**Şaiq:** Mən burda ikilikdə dərdimi bölüşmək istəyirəm, sən daş atıb başını tutursan ki, Şaiq yenə siyasətə başladı. Mən siyasət adamı deyiləm, dədə.

Sadə bir Azərbaycanlıyam. Erməni qara millət görəndə bircə kəlmə söz soruşur. «Hayes,Türkes». Əgər qarşısındakı bir söz «Hayes» dedisə oldu onun qardaşı. Mədətoğlu bəs biz niyə beləyik. İki qardaş bir-biri ilə yola getmir.

**Mədətoğlu:** Bu bizim köhnə bəlamızdır. Öz qədrimizi bilməməyimizin bəlasıdır ki, neçə illərdir çəkirik.

**Şaiq:** Hələ nə qədər illərdə çəkəcəyik. Başımı qaldırıb o taya baxıram, bundan bir siyasət rəngi çıxarırlar. Bu xırda bir kənddə bir söz deyən kimi döyürsən ağzımıza. Ancaq erməni dünyanın ən böyük şəhərlərində ən böyük dövlətlərin işinə qarışır. Nə katolikasları onların ağzına döyür, nə də ağsaqqalları.

**Mədətoğlu:** Mən inanmıram ki, onların ağsaqqalları olsun. Ağsaqqalları olsaydı bu qələti qırmazdılar.

**Şaiq:** Torpaqlarımız əldən gedir, Mədətoğlu! Burda Arazı on metr torpaq aparıb, bir neçə evi yuyub təmizləyib haray-həşirimiz dünyanı götürüb. Arazın bir ovuç torpağımızı aparmağın xiffətini çəkirik. Xiffətini çəkməli o qədər dərdimiz var ki...

**Mədətoğlu:** Ay uşaq, get dərsini de, taxtanı döy pulunu al külfətini saxla.

**Şaiq:** Hərəmiz başımızı bir tərəfdə girləsək bəs dərdimizə kim yanacaq?! Bağışla Əli kişi. Deyəsən sənin qarşında bir az ucadan danışdım. Neyniyim, aqibətimizi düşünəndə az qalır cızdağım çıxsın, yanıram, qovruluram, nisgilimi, qübarımı bir az əritmək üçün günlərlə Arazla baş-başa qalıram. Çoxları bu nisgilə tarixə taleyimiz deyir və onunla barışır. Baba mən bu nisgili əridə bilmirəm. Bu qocaman çayın kəndimizdə yaratdığı mənzərə, onun sinəsində açdığı yarğanlar mənim içmdəki yarğanlardan qat-qat balacadır. Arazın açdığı yarğanları nə zamansa bərkitmək olar. Mənim içimdəki bu uçurumları isə sağaltmaq çox

çətindir baba, çox çətindir. (Mədətoğlu Şaiq müəllimin nəyə işarə elədiyini tam mənasında qavrasada özünü o yerə qoymadı).

**Mədətoğlu:** Müəllim, sənin içindəki yarğanlar nədəndir, a bala. İçində yarğanları yaratsa-yaratsa ancaq həsrət yarada bilər. Sən də şükür sevdiyinə qovuşmusan. Evin, eşiyin, arvad-uşağın. Şükürlər olsun.

**Şaiq:** Çoxlarına elə gəlir ki, doğurdan da biz tamıq və hər işimiz qaydasında gedir. Heç bir zaman tam olmamışıq və işlərimiz də heç vaxt qaydasında getməyib. Sən bilirsən ki, məni incidən, məni sıxan, məni Arazaın ayağına yıxan nədir.

**Mədətoğlu:** Ay Şaiq müəllim, öz dərdinlə çarpışsan da sənə bəs edər. Elə hamımızın öz dərdi bəsdir.

**Şaiq:** Ağsaqqalım. Mənim, baş bilənim mənim. Yaxşı-yaxşı fikirləşəndə adamın özü-özünə ağlamağı gəlir. Hamımız deyirik ki, öz dərdimiz özümüzə bəsdir. Hərənin öz dərdi öz qarşısına çəkdiyi bir ocağın közüdür. Hərə odu özünə tərəf çəkir. Ocaq da qalır közsüz, külü ağarır, gözünə kül olur bir millətin, bu ocaq sahibinin.

**Mədətoğlu:** Şaiq bala, çox zilə getməsən daha yaxşı olar. Hər çayın öz yatağı, öz sahili olduğu kimi hər insanın da öz yatağı, öz sahili var. Sözünü çox daşırma. Elə bilmə ki, sənin belə eyhamlı danışıqların hamının xoşuna gəlir. Yox elə deyil. Sözün vaxtında deyiləni güclüdür. Ocağın közü olmasa el üçün heç nə bişirməz.

**Şaiq:** Əli baba, sözünü gül üstə kəsirəm. Bir bayatı yadıma düşdü.

Araz üstə, buz üstə,
Kabab yanar köz üstə.
Qoy məni öldürsünlər,
Danışdığım söz üstə.

**Mədətoğlu:** Bu bayatı o vaxt deyilib ki, onda heç Arazın gündöyəninə belə baxa bilmirdik. İndi şükürlər olsun gəlib durmuşuq qırağında. Bir zamanlar quş quşluğu ilə Arazın üstündən səkə bilmirdi. Böyük bir imperiya kəməndə salmışıdı hər şeyi. O, əgər «baxmaqolmaz» desəydi, kimin nə haqqı varıydı ki, gözündən o yanı görsün. İndi hərəniz bir hava çalırsınız.

**Şaiq:** Əli baba, bizim dərdlərimiz ayrıdır. Yaşımızın arasındakı fərqdən də çoxdur. Qohum qəbləəri qarışıq nigahlardan olanlar başınıza nələr gətirmədilər. Ağsaqqal, yeri gəlmişkən bir söz soruşum. Lətif müəllim də deyirlər qarışıq nigahdan yaranmış məhsuldur. Bu doğrumu?

**Mədətoğlu:** Ay Şaiq. Yaşımın bu vaxtında məni bu işlərə qoşma. Gör neçə illərdir bu kəndi Lətif müəllim Araz sökən kimi sökür.

**Şaiq:** Yox Mədətoğlu, Arazla ikisi birlikdə. Bələdiyyə sədri Arazı deyirəm.

## VII şəkil
(İcra hakimiyyətinin iclas zalı)

**Qarahəsənli:** Nəyin bahasına olursa olsun selin qarşısını almalıyıq.

**İH-İşçisi:** Cənab icra başçısı, olar mən bir neçə kəlmə danışım?

Qarahəsənli: Danışıb nə deyəcəksiniz.

**İH-İşçisi:** Bilirsiniz ki, bizim bu kənd selin-suyun burulğan yerində yerləşir. Hər ildə başımıza bu fəlakət gəlir. Yaxşı olmaz ki, buna birdəfəlik əncam çəkək. Sizdən qabaqkı icra başçısının vaxtında bu çayın, lilin qarşısını almaq üçün onun sahilinə yüz min tonlarla daş-çınqıl tökülməsi barədə qalaq-qalaq sənədlərimiz var. Heç nə bu Arazın qarşısını ala bilmir?

**Qarahəsənli:** Yaxşı, sözünüzü qısa edin. Orada neçə sahil bərkitmə işləri aparıldığının hamı şahiddir.

**İH-İşçisi:** Elə mən də onu deyirəm də. Adını qoydular sahilbərkitmə işləri ancaq öz altların bərkidirlər, qarınlarını doydurdular. Ancaq onların gözləri qarşısında kəndlərimizi su yuyub apardı. Evlər getdi, əkin sahələrimiz su altında qaldı, indi Arazqırağı kəndəlrimizin əksəriyyətində vəziyyət bu cürdür.

**Yerdən səs:** Təklifiniz nədir?

**İH-işçisi:** Təklifim odur ki, bu işə bir qədər can yandırmaq gərəkdir ki, kəndlərimizi təhlükənin əlindən, təbii fəlakətin ağzından qurtaraq.

**Qarahəsənli:** Məndə olan məlumata görə o illərin sel-su məsələlrində ələk aparıb xəlbir gətirənlərdən biri də siz olmusuz. Bu doğrudur ?

**İH-işçisi:** Bəli, mən də o vaxt icra hakimiyyətində məsul vəzifədə işləyirdim, elə indiki kimi. O zaman biz nə qədər dediksə də bizi eşidən olmadı.

**Qarahəsənli:** Əyləşin, əyləşin bu gün sahilbərkitmə sənədəlri ilə tanış olduqdan sonra bildim ki, bu dediklərimiz nə qədər həqiqətdir. Bir dəfə açın qulaqlarınızı eşidin. O illərdəki babalarımız çoxdan ölüb, milyardlarla manatımızı Araza axıtdığımız bəs edər. O vaxtlara baxmayın ki, sizdən soruşmadılar ki, ay filan-filan şüdələr bu qədər vəsaiti neynədiniz nə isə, bu söhbətlərə sel-sularının qarşısı alınandan sonra qayıdarıq. Komissiyanın işindən narazıyam. Mərkəzin də komissiya haqqında fikirləri belədi. Biz belə işləsək komissiya öz işini qurana qədər Araz sahil kəndlərimizi aparacaq. Fikiriniz nədir? Bax, bu günkü müzakirəmizdə melorasiya və su təsərrüfatı işləri ilə məşğul olan mütəxəssislər də iştirak edirlər. Onlarla mən təkbətək söhbət etmişəm. Belə bir təklif var ki, Araz ram olunana kimi sahildə qərərgah yaradaq və bütün iş günümüzü orada fəhlələrlə birlikdə keçirək. Daha nə kimi təklif var? Demək təklif qəbul olundu. Hər bir iş yüksək səviyyədə görülməlidir. Bəsdir Vətənin milyonlarını suya axıtdınız. Araz kənarına artıq istənilən qədər maşın-mexanizim gətirilib. Çatışmayan bir şey varsa o da bu sahədə səriştəsiz olmağımızdır. İndi tələb yüksək səviyyədədir. Bəsdir bu xalqın gözünə torpaq üfürdüyümüz. Ya işləməliyik, ya çıxıb getməliyik. Tələb belədir. Sahil bərkitmə işləri elə aparılmalıdır ki, Araz öz yolu ilə getsin və bir daha öz sahilinə ziyan verməsin. Kimin əlavəsi varsa buyura bilər. (Pauza) Əlavə yoxdur, hamı sahilə.

## III şəkil
(Birinci şəkildəki məkan)

**Lətif müəllim:** (Qayğılı, bir qədər əsəbi halda). Ay başınıza dönüm heç belədə iş olar. Kəndi sel aparır. Bu yandan da vergidən, işıq idarəsindən gəliblər ki, bəs borcumuzu verin. Onsuzda biz borcumuzu ödəməliyik. Ancaq bir imkan verin görək bu camaatı selin ağzından qurtara biləcəyik, qurtara bilməyəcəyik. Sel Məhəmməd kişinin evini yerli-köklü, qohumlu qəbləli süpürüb aparıb, indi ona işıq pulu gəlib, vergi istəyirlər. Gedin Arazdan alın. (O iki əli ilə başını tutur və üzünü oturanlardan birinə tutaraq)- Araz, niyə danışmırsan, kəndin bələdiyyə sədrinə. Bir az da sən danış də, nə olar.

**Araz:** Lətif müəllim nə deyim? O ki, qaldı vergi də, işıq pulu da verilməlidir. Sel gəlsə də, daşqın olsa da, yağış yağsa da, lap dədəm ölsə də. (bu məqsəd üçün gələnlər də Araz müəllimin bu söhbətindən məmnunluqlarını başlarını tərpətməklə bildirdilər).

**Lətif:** Araz müəllim, özünü o qədər də şirin salma. Gələn aydan bu işlər bələdiyyə sədri kimi sizə tapşırılacaq.

**Araz:** Yenə nə hədə-qorxu gəlirsən. Sənin 25-30 ildə gördüyündən iki dəfə çox iş görülüb, bu beş ildə. İndi işıq, vergi və digər xidmət haqqlarının yığılmasını elə çətin hesab edirsən ki, guya burda nə var. Lətif müəllim, gəlin bir qədər açıq danışaq.

**Lətif:** Nəyi açıq danışmalıyıq?

**Araz:** Kənd camaatının da fikiri belədir ki, Lətif müəllim daha əvvəlki kimi (xüsusi intonasiya) işləyə bilmir. Doğrudan da bir vəzifədə 25-30 il işləmək çətin işdir. Daha bu iş üçün sənin nə enercin var, nə də həvəsin. Bilirsiniz, Lətif müəllim çoxdandır ki, tək yaşayır. Arvad-uşağı gör neçə illərdir ki, Bakıdadır. Onun

üstünə- başına bir əl gəzdirən lazımdır, ya yox. Ona biş-düş hazırlayan lazımdır, ya yox!

**Lətif:** Elə ürəyin yanır mənə. Onda ömrü boyu vəzifə xumarında yatan qaynanana de ki, mənə bir əl gəzdirsin. Nə deyirsən, razısan!

**Araz:** Sənin onsuz da sonun çatıb. Özün də bilmirsən nə danışırsan.

**Lətif:** Niyə inciyirsən Araz bala, hərçayı sözün, mərçayı da cavab olar. Sən özündən muğayat ol ki, o yaşda təraavətini saxlayan qaynanan sənə, sənin ailənə əl gəzdirməsin. Axı, o öyrəncəlidir.

**Araz:** Lətif müəllim ağzını düz saxla. İndiyə kimi sözünün qarşısında söz deyən olmayıb. Kəndi söküb rayona yedizdirmisən, qalmısan bu vəzifədə. Gör nə qədər öyrəşmisən ki, arvad-uşaqsız tək quqqulu-qu qalmısan on iki göz otaqda. Qapını açan yox, örtən yox. Bəlkə də var, biz bilmirik.

**Lətif:** Araz, səndə bu cəsarət olmaz. Ağzında kiminsə dilini işlədirsən. Sən elə bilirsən ki, belə boş-boş cəfəngiyyatlar məni sarsıda bilər. Yox bala, yox. Sən hələ çox uşaqsan. Özü də savadsız uşaqsan. Sən heç vəzifənin əlifbasını belə bilmirsən. Get, onu qaynanadan öyrən. Necə ki, o uzun illər qaynatana əlifba öyrətdi. Ancaq öyrənə bilmədi, neçə il sovxoz direktoru oldu, bilmədi dünyanın baş ayağı nədir.

**Araz:** Camaat bilir ki, sən bizim bu kəndə gəlməsən heç kim də sənin törəməndən xəbərdar deyil. Özün Lətif olsanda, əslində içində bu adamlara qarşı amansız bir nifrət var. Bu gündə olmasa sabah maskanız açılacaq, hökmən açılacaq.

**Lətif:** Neynək Araz, bizim sənlə haqq-hesabımız qalsın sonraya. Bu günün söhbəti başqa Arazdır. Onda gününə baxarıq. Hələ dilin isti yerdən çıxır.

**Qarahəsənli:** Rayon tökülüb kəndinizə. Siz də burda mübahisə edirsiniz.

**Lətif:** Yoldaş.

**Qarahəsənli:** Kimdir yoldaş?! O dəqiqə bilinir ki, köhnəliyin qalığısan. Sənin kimiləri ilə yeni dildə danışmağın vaxtı çoxdan çatıb. Yoldaş! Sən bunun müraciət formasına bax hələ. Keçmişdən qaldığına görə sənin də imzan o yeyilən milyonların altında olmalıdır. Bu yəqindir. Neçə ildir bu kəndi sökürsən?

**Lətif:** Mən sökmürəm. Araz sökür.

**Araz:** Lətif müəllim ağzını təmiz saxla. Mən heç vaxt bu kəndi sökməmişəm. Kəndi sökən sizsiniz ki, hələ bilmirsiniz ki, zaman dəyişib, artıq komunist partiyası yoxdur, onun katibi çoxdan ölüb. İndi sənin müraciətinə bax, yoldaş katib.

**Lətif:** Soğan yeməmisən için niyə göynəyir. Mən deyirəm, mən sökməmişəm. Araz sökür. Yəni Araz çayı bu kəndi yuyur, dağıdır. Sən elə bilirsən ki, səni deyirəm.

**Qarahəsənli:** Yaxşı burda çənə-boğaz vurmayın. İşinizlə məşğul olun. Burda işləyənlərin yemək-içmək işlərini sizə tapşırıram. Sahələr günbəgün yuyulur. Görün neçə ev artıq yoxa çıxıb. Onların aqibətini fikirləşmək əvəzinə burda söz güləşdirirsiniz. Gedin işinizlə məşğul olun.

(Mədətoğlu səhnəyə daxil olur).

**Mədətoğlu:** Xoş gördük,Rauf müəllim. Kəndimizin xoş günündə sizi buralarda görə bilmirik.

**Qarahəsənli:** Ağsaqqal, iradınızı qəbul edirəm. Söz verirəm ki, kəndinizdə aparacağımız sahilbərkitmə işlərini başa vurduqdan sonra yeni məktəbin bünövrəsini qoyaq. Bu işlərə necə baxırsınız?

**Mədətoğlu:** Necə baxacam, ay oğul. Hələ bir bu Arazla bacaraq. İldə bir kərə bizi imtahana çəkir. Səndən qabaq işləyənlərin saqqalı ağarsın, bir neçə ay

gəldilər-getdilər bir-iki maşın daş-torpaq tökdülər. Arazın qabağına, o da götürüb apardı üzü aşağı. Allah bilir nələr yazdılar, nələr pozdular.

**Qarahəsənli:** Səhhətin necədir?

**Mədətoğlu:** Necə olacaq, qoca kimi. Bu kəndin qayğıları məni çox narahat edir, oğul. Kəndimiz gündən-günə boşalır. Araz bir yandan torpaqlarımızı yeyir, işsizlikdə bir tərəfdən. Əvvəlki mehribançılıq da qalmayır.

**Qarahəsənli:** Sizcə bunun səbəbi nədir, Əli kişi?

**Mədətoğlu:** Birinci, kənddə ağsaqqal sözünün keçməməsi. İkinci məktəbdə dərsin aşağı səviyydə olması. Əvvəlki məktəblərimiz yoxdur. Daha doğrusu müəllimlərimiz yoxdur. Üçüncüsü torpaqlarımızın Araz tərəfdən yuyulması. Hər il əkin sahələrimiz azalır. Adamların bir neçəsi yaxşı yaşayır, qalan kənd isə sürünür. Məni qınamayın. Bilirsiniz ki, mən nə siyasət adamıyam, nə də kiminsə mənim ağzımda dili var. Mən özüməm, müəllim. Gəlmisiniz elə işləyin ki, yadda qalasınız. Ondan böyük xoşbəxtlik yoxdur. Özünüz üçün yaşasanız bu xalq sizi heç vaxt xatırlamayacaq.

**Qarahəsənli:** Mədətoğlu, mənim kökümə bələdsiniz. Sizcə mən nankor ola bilərəmmi?

**Mədətoğlu:** A bala dünyanın işini nə bilmək olar. Adamı bəzən öz başına buraxmırlar. Adam bəzən öz fikirlərində çaş-baş qalır. Bilmirsən kimin dediyinə inanasan. Bayaqdan bəri bu sahildə onlarla adamla qarşılaşmışam. Hərə bir hava çalır. Bilmirsən hansı düzdür, hansı səhvdir. Hakimiyyətə gələnlərin hamısı əvvəlcə sənin dediyini deyir. Anjaq xalq üçün işləyəcəyini, xalqın dediyini deyəcəyini vəd edir. Elə ki, ayağına yer eləyir, hər şey qalır bir qıraqda. Nə vəd yada düşür nədə verilən söz.

**Qarahəsənli:** Kişi siz deyənlər o biri zamanda qaldı. İndi elə bir vaxtdır ki,hər söz nəzarətdədir, görülən hər bir iş üçün məsuliyyət tələb olunur.

**Mədətoğlu:** Lap yaxşı, çox əcəb. Kor nə istəyir ki, iki göz, biri əyri, biri düz. Mən dünən gördüklərimi deyirəm. Gedənlərin arxasınca danışmaq istəmirəm. Bizim bu kəndin bu günə düşməsində günahkar kimdir? Əlbəttə dünənki hakimiyyətin məmurları. Onların cibləri görünür xalqın ümumi cibindən çox böyükdür. Ancaq onlar başa düşsünlər ki, xalqın haqqını yemək olmaz. Xalq heç bir xəyanəti bağışlamır.

**Qarahəsənli:** Doğrudur ağsaqqal, bu xəyanət dünən bağışlansada, bu gün bağışlanmayacaq. Çünki bu günün tələbi başqadır.

## IV ş ə k il
(Bələdiyyə sədri Arazın evi)

**Araz:** Çəmən, günorta yeməyinə adımıza layiq bir şey hazırla bu günkü qonaqlarımız bir də ələ düşməz.

**Çəməngül:** A kişi, kimdir o qonaqlar?

**Araz:** Kim olacaq, rayon icra hakimiyyətinin başçısı. Ondan əziz qonağımız olmayacaq ki.

**Çəməngül:** Onda qoy anamı da çağırım, görək nə hazırlayırıq.

**Araz:** Heç nəyi əsirgəmək olmaz. Arvad, bizim gələcək taleyimizdə bu gün başlanğıc olmalıdır. Onda Lətif müəllimin gününə baxaq.

**Çəməngül:** Nə olub Lətif müəllimə? Onunla nə işin. Onun işi ayrı, səninki ayrı. Yoxsa dalağını sancıb.

**Araz:** O kimdir ki, mənim dalağımı sanca. Milçək bir şey olmasa da ürək bulandırır. İcra başçısının yanında elə danışır ki, elə bil alçaq dağları bu yaradıb. Rauf müəllim soruşur ki, bu kəndi neçə ildir sökürsən? Deyir ki, bəs bu kəndi mən sökmürəm, Araz sökür. A kişinin qızı mən cəmi beş ilidr bələdiyyənin başçısıyam. Lətif müəllim isə iiyirmi beş ildən artıqdır ki, sökür bu kəndin ciyərini. SSRİ-nin mənəm-mənəm vaxtında özünə imarət qaldırdı, uşaqlarını keçmiş dövlətin ən yaxşı ali məktəblərində oxutdurdu, Bakıda qoşa-qoşa ev aldı, qızlarına maşın-maşın cehiz verdi, varlı-karlı kişilərin qızlarını aldı oğlanlarına belini dağa dirədi. İndinin özündə də özünü elə aparır ki,elə bil on beş yaşında oğlandır.Bu çay qabağına qatıb bütün kəndi aparsa inan ki,alnını belə qırışdırmaz.Onun bircə sözü var. Hər şeyi edən Arazdır. Demir Araz çayıdır,elə sadəcə deyir ki,Arazdır. Kim nə təhər başa düşürsə düşsün. Mənim adımı atıb ortaya. Bilmirəm bunun

əlindən hara baş alım gedim. Amma bu dəfə Lətif müəllim getməli olacaq.

**Çəməngül:** Araz,qadan alım. Çox hikkələnmə hirsin cana ziyanı var. Sən hələ çox cavansan. İşinlə məşğul ol, günortaya qonağımız olacaq.Tədarükünü gör. (Bu sözləri deyə-deyə anasına zəng vurur.Telefon zəngi,anası ilə salamlaşdıqdan sonra) : Ana, əlində nə işin var. Onları qoy bir yana bu gün çox hörmətli qonağımız olacaq.Evdə mataf nəyin varsa götür bizə gəl.Tez gəl gözləyirəm. Ax Araz,Araz.Sən nə qədər sadəlövsən.Kim nə deyir inanırsan.

## V şəkil
(Yenə Araz sahili)

**Şaiq müəllim:** Qəribə işlər var e. Araz, bu cansız su axını bizim sərhəd simlərini vurub dağıdır. Biz də deyirik ki,yox biz simsiz yaşaya bilmərik. Gərək hökmən bu tikanlı simlər batsın bizim gözümüzə.Bir də artıq af-uf eləməyin vaxtı deyil. Bu yazıq Arazın adına daha hansı latayırlar deyilməyib. Odur bax,çayın o tayındakı qardaş bacıların da arın-arxayın,həmişəki kimi öz işlərindədir. Arazda o tərəfi yumur artıq.Çünki o tərəfdə nə tikanlı məftillər var,nə də hər yüz addımda bir sərhəd gözətçiləri.Biz öz əvəzimizə də, onların əvəzinə də qoruq çəkirik. (Səhnədə digər tərəf göstərilir.Keşişçi əsgər Şaiq müəllimə doğru gəlir. Yaranmış sükütü Şaiq müəllim pozur):

-Əsgər qardaşım,xidmət necə gedir?

-Vətənə xidmət edirəm.

-Çox gözəl.Bəs biz kimə xidmət edirik. Biz də Vətənə xidmət edirik.Vətənin bütövlüyünü istəyirəm.

**Əsgər:** Bizdə Vətənimizin bütövlüyünü qoruyuruq. Qurd dumanlı gün axtarır. Məhz belə bir vaxtda sərhəddə təxribat törədənlər çoxalır. Müəllim yaxşı olar ki,sərhəd zolağından kəndə tərəf çəkiləsiniz.

**Şaiq:** Sərhəd zolağını Araz çoxdan yuyub aparıb. (Ayaq səsləri gəlir. Gələn sərhəd dəstəsinin komandiridir.O Şaiq müəllimlə əsgərə yaxınlaşır.Əsgər ona hərbi salam verir):

**Komandir:** Azad !

**Əsgər:** Cənab komandir,kənd müəlliminə təklif edirəm ki,qadağa zolağına girməsin. O isə deyir ki,qadağa zolağını sel aparıb.

**Komandir:** Müəllim mübahisə etmək lazım deyil. Əsgər xidməti vəzifəsini yerinə yetirir.Əslində

biz hamılıqla eyni işi görürük. Siz öz sözünüzlə Vətən deyirsiniz,biz də öz gözümüz kimi onu qorumalıyıq.

-Çox qəribə məntiqiniz var siz yazanların. Elə bilirsiniz ki,birjə siz Vətəni istəyirsiniz. Ancaq unudursunuz ki,Vətən sərhəddən başlayır. Sərhəddini qorumayan xalq özünü qoruya bilməz.

**Şaiq:** Bu Araz haqqında,ondan o taydakı qardaş-bacılarımız haqqında o qədər əsərlər yazılıb ki,onları oxumağa nəinki bir ömür, heç iki ömür də bəs etməz. Ancaq bununla iş bitmir?

**Komandir:** Biz vətənimizin keşiyindəyik. Dövlətimizi göz bəbəyimiz kimi qorumalıyıq.Hiss adamları məni bağışlayar,elə Şaiq müəllim də.Ürəklə ağıl arasında sərhəd qədər uzun sərhəd yoxdur. Sizə qalsa deyərsiniz ki,sərhəd boyu heç bir nəzarət məntəqəsi olmasın. Guya qurd quzu ilə otlayır. Şər artıq ölüb, qalanlar təkcə yaxşılardır. Ay müəllim,niyə hər şeyi öz ürəyinizlə ölçürsünüz. Hər can deyənin dilinin altda bir çor yaşayır. Hərə öz işinin qibləsini yaxşı bilir. Bizim məqsədimiz də aydındır,məramımız da.

**Şaiq:** Mən isə bu qənaətdə deyiləm. 70 il rusun boyunduruğunda qaldıq. Axırı nə oldu? İmperiya dağıldı.Onun çürük divarları gör bizi nə qədər sıxdı. Hər şeyin bir sonu,hər tərəqqinin bir tənəzzülü olduğu kimi,hər tənəzzülündə bir tərəqqisi var. Mən də buna inanıram.

**Komandir:** İlk baxışda bu çox gözəldir. Dünyanın qapıları hamının üzünə açıqdır. Kim hara istəyirsə gedir,gəlir. Harda istəyir yaşayır.Amma tarixin bütün mərhələlərindən dönənlərə nəzər saldıqca bunun arzudan başqa bir şey olmadığının şahidi oluruq. Yer həmişə güclülər tərəfindən fət edilib. Belə olmasaydı əgər yer kürəsidə min illərdir ki, sənin mənimə bölünməzdi. Hər xalq bu gün öz taleyinə düşən keçmişlə barışmalıdır. Bu mənim qənaətimdir.

**Şaiq:** Mənim qənaətim isə belə deyil.

Mədətoğlu: Şaiq müəllim,yenə nə olub.

**Şaiq:** Mən Arazı özümə həmsöhbət bilirəm. O məni sözsüz başa düşür,Əli kişi.

**Mədətoğlu:** Ay müəllim,yaxşı olmaz ki,bu çayla susa-susa danışdığını şagirdəlrinlə ucadan danışasan. Məhəbbətini o uşaqlara salasan,bildiklərini o tifillərə öyrədəsən. Odur bax,keçən il qonşu məktəbdən 10-a yaxın uşaq ali məktəblərə qəbul olundu. Bizim kənddən isə bir uşaq belə onun darvazasından keçə bilmədi, niyə? Ona görə ki,məktəbimizdə dərs deyən müəllim azdır. Düzdür kəndimizin məktəbi bir az köhnəlib, ancaq divarların, köhnəliyinin dərsə nə dəxli var. Müəllimlərə də söz deyəndə min bəhanə gətirirlər. Rayonumuzun böyüyü Rauf müəllim də dedi ki,Araz işini qurtarandan sonra təzə məktəb tikəcəklər bizə. Görək ondan sonra hansı bəhanələr gətiriləcək. Bütün adamlar böyüklü-kiçikli tökülüblər Arazın qabağını almağa, onun vurduğu yaraları sağaltmağa. Şaiq müəllim də Araza tost deyir Ona yalvarır ki,yu bu torpaqları.

**Şaiq:** Mədətoğlu,mənim kimilərin öz dərdi özünə bəs edər.Ay dərs deyən yoxdur,məktəb elə gəldi,məktəb belə getdi. Ay dədə, indi dərs oxuyan da yoxdur. Elə bilirsən təkcə biz dərs demirik? Xeyr,indi ümumiyyətlə dərs deyən azalıb. Müəllimə hansı hörmət qoyulur.Bir ay işlədib on kilo ətin pulunu verirlər.Yada iki tay unun pulunu verirlər. Necə ki,müəllim ələ baxır,təhsilin günü belə olacaq. Ay Mədətoğlu,o qəbul olunan uşaqlar da evlərdə deyilən dərslərin hesabınadır. Əgər şagirdlər əlavə məşğələlər üçün müəllim yanına getməsələr institutların qapısını belə açan olmaz, açan olsa da özü açmaz,dədəsi açar. Dədəsinin pulu açar.İndi ay ağsaqqal,qoy məni dərdimlə baş-başa qalım.Hərənin bir xobbisi var. Məsələn, kəndimizin icra başçısı,yəni qlavası Lətif müəllimin xobbisi

kənddə xof yaratmaq,ona-buna qara yaxmaqla öz dərisini qorumaq,kəndin bələdiyyə sədri,keçmiş adla katdası Araz müəllimin xobbisi hər gün ətirlənib kənd meydanına çıxmaq,vergi yığmağa gələnlərlə eyş-işrət keçirməkdirsə,mənim də xobbim Araz çayının sahilində oturub onunla danışmaqdır. Əgər bunu da mənə çox görürsünüzsə onda mənim yaşamağıma dəyməz ki!

**Mədətoğlu:** Şaiq müəllim,sözümü eşələmə, mənim dediyim sözlər təkcə sənə aid deyil.Bu sözlər kəndin ağsaqqalı kimi mənə, kəndin ziyalılarına,elə hamınıza aiddir.

**Şaiq:** Siz nədən narazısınız?

**Mədətoğlu:** Mənə dərs deyən müəllimləri xatırlayanda yenə ayağa qalxıram. Müharibənin ilk illərində mən orta məktəb şagirdi olardım. Bizim kənddə bütün kişiləri müharibəyə apardılar. Təkcə məktəbimizin iki nəfər müəllimindən başqa. O müəllimlər bizə bütün fənləri tədris edirdilər. Hökümət onlara hər cür şərait yaradırdı. Onlar da bütün günü bizimlə məşğul olurdular.İndi buyurun o müəllimlərin dərs dedikləri uşaqlardan dərs alan sizlərin dərs dedikləri uşaqların aqibəti ilə tanış olun.

**Şaiq:** Kimə irad tutursunuz?

**Mədətoğlu:** Sizə bir söz deyəndə elə bilirsiniz ki,sizi istəmiyib deyirik.Yox,Şaiq müəllim yox.Elə deyil.vallah elə deyil.Bu xalqın balalarına yazığınız gəlsin.Mən birdə o fikirdəyəm ki,bu Arazla boş-boşuna danışdıqlarının əvəzində vaxtını o uşaqlara ayır. Onda sən Vətən haqqında daha yaxından düşünmüş olarsan. Vətəni təkcə şairlər,yazıçılar sevmir. Lap sevsələr də belə təkcə bu sevgi Vətənə bəs etməz. Biz hamılıqla Vətəni sevməliyik. Özü də sözlə yox,əməli işlə.

**Şaiq:** Mədətoğlu,lap sinən doluymuş ki.

**Mədətoğlu:** Mənim sinəm həmişə doludur.

**Şaiq:** Elə doludur boşalt bu Arazın dəmir-beton yerinə ki,sel torpaqlarını aparmasın. Elə doludursa bir az da Lətiflə Araz müəllimin o boş ürəklərini doldur ki,bilsinlər bu kəndin qədrini. Lətif 25 ildir sallanıb dövlət qulluğundan. Əl çəkmir ki,çəkmir. Bu üzü üzlər görmüş neçə hökümətlə,neçə başçı ilə işləyib. Səhərdən axşama kimi Lətiflə Araz mübahisə edirlər,kənd də qalıb bu günə.

**Mədətoğlu:** A Şaiq müəllim,onlar nə üstə atışırlar elə.

**Şaiq:** Nə üstə olacaq,yal üstə.Şərikli malları var,bölə bilmirlər.

**Mədətoğlu:** Nədir onların şərikli malı ?

**Şaiq:** Nə təhər deyim axı! Qisası odur ki, kəndimizin pul yığılan sahələri əslində bələdiyyə sədri kimi Araz müəllimə tabedir. Amma gəlir vergisini də, işıq pulunu da,telefon haqqlarını da kəndin icra nümayəndəsi olan Lətif ağa yığdırır. Ona görə hər gün davalarıdır.

**Mədətoğlu:** Lətifdə nə günah yəqin tapşırıq belədir. Hərə öz işini görsə nə var ki ?!

**Rauf:** Bilirsiniz,bu kəndin işi bir allaha qalıb. Bəlkə o bir rəhm edə selini-suyunu az edə.Bu Araz da şıltaqlığından əl çəkə. Yazıqların nə ev-eşikləri qalıb,nə də əkin-biçin yerləri.Elə adam var ki,tamam evsiz, eşiksiz qalıb.Heç bilmirik ki,bunlara necə kömək edək. Gərək siz də bu məsələdə bizə yaxından köməklik edəsiniz.Əhali bir təhər yaşayacaq,onlara lazımı köməklik göstəriləcək. Ancaq yuyulan torpaqları geri qaytara bilməyəcəyik. (kənd icra nümayəndəsi Lətif müəllim,kənd bələdiyyəsinin sədri Araz müəllimlə səhnəyə gəlirlər.İcra başçısı onları görcək) Hə bunlar da kəndin böyükləridir. Bütün Respublika tökülüb sizin kəndinizə,siz Araz sahilində gəzirsiniz. Allah sizi həmişə mehriban etsin.

**Lətif:** Çox sağ olun,Rauf müəllim.Sizin sayənizdə belədir. Siz olmasanız allah bilir nə olardı.

**Rauf:** Lətif müəllim, buraxın bu köhnə sürüşmələri, daha o vaxt deyil. Arazdan yox,o təzədi,sizdən xəbər alıram hər il Araz çayı bir-iki dəfə bu torpaqları yuyub aparır,siz neyləyirsiniz ?

**Lətif:** Bizim əlimizdən nə gəlir ki,Rauf müəllim.

**Rauf :** Sizin əlinizdən hər şey gəlir. Hər şey Lətif müəllim. Hər şey,indiyə kimi bu yazıq Arazın üstünə nə qədər daş torpaq tökülmüş olar ? Susursan. Ona görə ki,bu işlərin hamısı sənin gözlərin önündə baş verib. Yeyilən milyadlara qol çəkənlərdən biri də sənsən. Sabah bu işin üstünü açsaq sən də onlarla birlikdə gedəcəksən içəri. Gör neçə illərdir tutmusan bu kəndin boğazından ötürmürsən ki,ötürmürsən. Sənin hansı xətti xalına,gül camalına aşiq olublar görəsən? Hə,nə isə,bu mövzuda söhbətimiz sonraya qalsın. Onsuz da sizinlə görəcəyimiz işlər hələ qabaqdadır. Hələ Arazın məsələsini həll edək,sonrasına baxarıq. A kişi,sən Arazı demirəm,o dəqiqə özünü gözümüzə soxma. Çay Arazı deyirəm.

**Araz:** Rauf müəllim icazə versəydiniz bir söz deyərdim.

**Rauf:** Buyur görək.

**Araz:** İşinizi qurtardıqdan sonra bir çayımızı içsəniz məmnun olarıq.Qonaqlarınız gözümüz üstə.

**Rauf:** A kişilər,biz nə haydayıq,bu nə haydadır. İndi bizim yadımıza yemək-içmək düşür, ay Araz müəllim,daha o zaman deyil ki, işə başlamazdan qabaq qarnımızın davasına başlayaq.Selin qabağını kəsmək lazımdır. Nəfsimizin qabağını kəsə bilməsək nəfsimizin sel-suyu bizi bütövlükdə aparacaq,inanın mənə. Bu köhnə vərdişlərimizi tərgitməsək vəzifələrimizi tərk etməliyik.İndi hər kəs öz işi ilə məşğul olmalıdır. Ətalətə son qoymağın məqamıdır. Bizdən

tələb belədir və biz də belə tələb edirik. Başqa yolumuz yoxdur. Vəssalam.Sizin vermək istədiyiniz qonaqlığa gəlincə nə hazırlanıbsa verərsiniz bu işlərdə çalışanlara. Biz öz qonaqlarımızı özümüz ötüşdürərik.

## VI şəkil
(Arazın evi)

**Çəməngül:** Ana bu gün imtahan günüdür. Arazın qonağı bu dəfə nə vergi yığanlar,nə də işıq pulu toplayanlardı. Bu gün icra başçısı Rauf müəllim bizə gələcək. O ötən seçkilərdə Araza çox köməklik edib. Onun əvəzində hələ bir tikə çörəyimizi kəsməyib. Ana, bütün gücümüzlə,mərifətimizlə bir süfrə açmalıyıq ki,qonağımızın gözü hələ elə süfrə görməsin.

**Ana:** Ay qızım,sən deyəsən ananı yaxşı tanımırsan axı. Günorta yeməyinə hələ xeylək var,amma bizim süfrəmiz hazırdır. Sən özünə fikir ver, bu geyimləmi qonaq qarşılayacaqsan?! Yeri, yeri özünü abıra sal.

**Çəməngül:** Mənə nə olub, üstüm başım tərtəmiz.

**Ana:** Özünə bir əl gəzdir. Nə gözlərinin sürməsi var, dırnaqların nə abırdadır,dodaqlarının qanı qaçıb. Bu nədir,bu nədi! (O Çəməngülün sinəsinə əlini vurur.)Altdan bir şey geyin elə bil on qarın uşaq doğub.Özünü yığışdır qonağın gələcək.

**Çəməngül:** Ay ana, qonağın mənim üstbaşımla nə işi var. Gəlsin çörəyini yesin getsin.

**Ana:** İstəyirsən Araz irəli getsin,gərək üstünə əl gəzdirəsən. Atanı iki dəfə deputat seçdirmişəm. Rayonun böyükləri kəndimizə gəlməmiş sədaları gələrdi. Onların qulluğunda elə durardım ki, ağızlarının suyu axardı məndən ötəri.

**Çəməngül:** Ay ana bu nə sözdür. Necə yəni ağızlarının suyu axardı məndən yana. Bəlkə bişirdiyin yeməklərdən yana axardı ağızlarının suyu.

**Ana:** Ay qız sözü çevirmə.Yeri üst başına bir də əl gəzdir. Saçlarını elə yığ ki,üz-gözün yaxşı görünsün. Maşallah elə gözlərin var ki,adam baxanda vurulmaya

bilmir. Mən qadınlığımla sənə baxanda köks ötürürəm. Kişi olsaydım səni əldən buraxmazdım. Elə bil ki,öz gəncliyimi görürəm səni görəndə.O kişilər ki,var qadınların quludur.Əlbəttə mən o kişiləri deyirəm ki, onlar eyşin-işrətin,dəmin-duzun, bütövlükdə həyatın nə deməк olduğunu yaxşı bilrlər.Atanın bir baş böyügü varıydı,qanmazın biriydi.Rayonda nədən danışırdılarsa həqiqət tələb edirdi. Bir dəfə bizim qonağımız oldu. Nə bişirdiksə elə pendir çörək istədi. Bir tikə kəsdi və çıxıb getdi,bir də bizim kəndə qayıtmadı.

**Çəməngül:** Nə təhər yanı bizim kəndə qayıtmadı.

**Ana:** Getdi və gəlmədi.Özünü elə aparırdı ki, elə bil allahın bacısı oğlu idi. Əlinə bir qılınc almışdı düşmüşdü bu camaatın üstünə. Sağ-sol bilmirdi qılınclayırdı hamını. Həqiqət axtarırdı. Həqiqət axtara-axtara.çala-çala getdi. Deyirdi ki, mən təmiz adamam.

**Çəməngül:** Ana bəlkə doğurdanda təmiz adam imiş? Biz hamını bir qəlibdə görməyə alışmışıq. Ona görə də təmizə də başqa gözlə baxırıq.

**Ana:** Ay qızım! Sən hələ belə şeyləri bilmərsən. İnsan doğulandan ölənə kimi günahların əhatəsindədir, insan günahla doğulur, günahla da ölür. Təmiz dediyimiz nə varsa hamısı nisbidir. Sənə görə təmiz olan mənə görə kirli, mənə görə təmiz olan sənə görə kirli görünə bilər. A bala,bu həyatın qarmaqarışıq işıqları səni çaşdırmasın. Yeri,yeri özünə bir də əl gəzdir.Hələ sənin anandan öyrənməli çox işlərin var. Allahın altında yaşım sənin yaşın olaydı.Onda bu Arazın başına bir oyun gətirərdim ki,bu bələdiyyə oyunları onun yanında toya getməli olardı. Hayıf məndən. Bir günümü belə boş keçirməsəmdə yenə ötən günlərimə hayıfsılanıram. (Çəməngül gedir. Anası səhnədə tək qalır üzünü tamaşaçılara tutur) Həyatını boş-boşuna keçirənlərə yazığım gəlir.Yaşım əllini

çoxdan keçib.Təravətim əvvəlki kimidir.Hələ bu gün də küçədə arxamca baxıb köks ötürənlər görürəm. Bilirsiniz bu məni necə sevindirir.Çalışıram ömrümü yelə verməyim.

**Ana** (Çəməngülə): Bax,bu başqa məsələ indi oldun gözqaytaran (əli ilə qızını fırladır). Bəh, bəh, bəh. Allah, Allah, bu nədir belə. Adam çiy-çiy yemək istəyir. Səni yaradan xaliqə qurban olum ki,onun da bir tərəfi mən özüməm.

**Çəməngül:** Ay ana,yaxşı də! Məni o qədər tərifləyirsən ki ?

**Ana:** Səni tərifləmirəm.Tərif sənin yanında nədir ki? Tərif sənin kiçiyindir. Sənə baxanda öz cavanlığımı görürəm. Kaş o günlərimi bir anlığa yaşasaydım!

**Çəməngül:** Çox da elə hayıfsılanma.Məndən də gözəlsən, təravətlisən.

**Ana:** Cavan ki, deyiləm. İndi görüm səndən necə xoşlanmırlar.

**Çəməngül:** Ana,asta danış, Araz gəlib eşidər. Ayıbdır.

**Ana:** Nə ayıbdı,ayıbdı salmısan. Ayıb o adama olsun ki, kimsənin xoşuna gəlmir. Baxacaqsan Rauf müəllim səni görəndə əlini yeməyə vursa nə deyirsən de. Düzdür eşitmişəm,deyirlər təmiz adamdır. Heç kimə gözlərinin ucu ilə baxan deyil. Baxarıq,baxacaq ya baxmayacaq.

**Çəməngül:** Ay ana,sən niyə hamıya eyni gözlə baxırsan. Elə kişilər ola bilərki o öz qadınından başqa bir qadına belə gözünün ucu ilə baxmaz. Məsələn, bizim Araz kimi.

**Ana:** Msələn, sənin atan kimi. Atan ömrü boyu işlədi. Səhər, axşam kolxoz-sovxoz işi. Yatdı, durdu, getdi. Bütün işlərini,bax bu anan görürdü. Onu xalq təsərrüfatının nailiyyətləri sərgisinə qədər göndərər-

dim. İstirahət nədir,bilmədi. Rayonun mənəm-mənəm kişiləri Qara dəniz sahillərindəki kurortlarda istirahət edib keyfə baxanda atan fermalardan peyin daşıtdı kolxozun sahələrinə. Onun əvəzində özüm keyfimi sürdüm. Pulu paranı da mən yığdım,daş-qaşı da,gör neçə illərdir oturmuşuq xımır-xımır yeyirik. Kimin hesabına. Ələbəttə ki, ananın hesabına. Atanın vicdanına qalsaydı indi çoxdan it kimi gəbərmişdik.Ağıllı ol qızım,həyat adama bir dəfə verilir. Arazı sənin əlindən alan yoxdur. Sən öz fürsətini əldən vermə.

**Çəməngül:** Ana,ümumiyyətlə belə söhbətlərin heç yeri deyil. Bizim indi qonaqlarımız gələcək. Baxaq,görək nəyimiz var,nəyimiz yoxdur.

( Araz gəlir)

**Araz:** Hə, necədir işlər?

**Ana:** Necə olacaq,hər şey əladır,yüksək səviyyədədir. Bir əziz qonağımızın gəlməyi qalır.Bizim süfrəmiz hazırdır. Kabablıq ət doğranıb,soğana yatırılıb. Şişlər közün üstündə təzələnir. Əti özünə çəkməyə macal axtarır.

**Araz:** Hə,qonaqlarımız gələsi olmadılar.

**Ana:** Nə,qonaqlarımız gələsi olmadılar? Bu nə deməkdir. Biz qan-tər içində tezdəndən hazırlıq görürük. Bu nə deməkdir. Demək onlar səni saymırlar.Bu qədər xərc çəkmisən. Hələ bunlara baxın bir.Özlərini dağın başına qoyurlar. Elə bil alçacıq dağları bunlar yaradıblar.

**Çəməngül:** Ana yaxşı,gəlmirlər də.Durub onlara yalvarası deyilik ki? Öz məsləhətlərinə baxsınlar.

**Ana:** Bəs bişirilən yeməkləri neyləyəcəyik.Hayıf mənim zəhmətimdən.Hayıf !

**Araz:** Heç hayıfsılanmağa dəyməz.Bişirdiyiniz nə varsa hamısı yeyiləcək.

**Ana:** Harda yeyiləcək.Nə təhər yeyiləcək?

**Araz:** Belə siz bişirilən yeməkləri çantalara qoyacaqsınız, mən də onu aparacağam bəndə daşçınqıl tökən sürücülərə. Onlar da yeyib sizə «əlləriniz var olsun»deyəcəklər. Rauf müəllim bizə gəlməyəndə dünya dağılmayacaq ki? O fəhlə babalar bizim bir qırıq çörəyimizi kəsəndə çörəyimiz azalacaq?! Bəlkə belə daha yaxşıdır. Çəməngül, yeri dediklərimi rahla. Günortaya az qalır.

**Ana:** Ay sən öləsən! Bu dəqiqə yığıram hər şeyi götürüb gedəsən.Deyəsən fəhlə qardaş buyur,bu yarpaq dolması,bu dovğa,bu şabalıdlı aş,ye.Araza sağ ol de.(Şəkil dəyişir).

## VII şəkil
(Araz sahili)

**Şaiq** (Bayatı mızıldanır):

Könül verdim Gülbutaya.
Dedim, bir az gül bu taya.
Dedi: Gülsəm nə xeyri var,
Araz düşübdür araya.

**Mədətoğlu:** Müəllim, necə bilirsən bu çayın sel-suyundan yaxamızı qurtara bilməyəcəyikmi?

**Şaiq:** Ağsaqqal bir az fikirli idim. Sualınızı eşidə bilmədim.

**Mədətoğlu:** Deyirəm,bu işin axırı necə olacaq? Araza tökülən min tonlarla daşın-çınqılın bizə bir xeyiri dəyəcəkmi?

**Şaiq:** Ağsaqqal bizə xeyri dəyməsə də başqalarına yəqin ki,xeyri dəyər. Sən də xeyir güdürsən, Mədətoğlu?

**Mədətoğlu:** Mən nə xeyir güdəcəm. Deyirəm, onlar əziyyət çəkirlər. İldə bir-iki dəfə gəlirlər kəndə. Daş-torpağı tökürlər bu çaya və çıxıb gedirlər. Ay müəllim, heç bu adamlardan soruşmurlar ki, ay filan-filan şüdələr dövlətin bu qədər vəsaitini niyə suya axıdırsınız?

**Şaiq:** Əslində bunların mənə heç bir dəxli yoxdur. Mənim öz dərdim özümə bəsdir. Daha dərdimi deməkdən bezikmişəm. Bir onu bilirəm ki,bizə neyləyirlərsə yenə bizə azdı. Dədə,vallah azdı. Ətalət sözü elə bil bizim boyumuza biçilib. Gərək bu Araz bizi yerli-köklü yuyub aparsın, üstümüzə də o qədər lil töksün ki,illərlə onun altından çıxa bilməyək.

**Mədətoğlu:** Müəllim, yenə yaranın qaysağını qopardım diyəsən.

**Şaiq:** Kişi bu yara təkcə mənim yaram deyil. Kim nə qədər yeyir,nə qədər qazanır halal xoşu olsun.Ancaq bir kərə də eli-obası üçün düşünsün. Nə qədər kərki olub ağacı özünə tərəf yonmaq olar. Heç olmasa ildə bircə kərə də mişar olmaq gərəkdir ki,bir dəfə yonqar sənə tərəf gələndə bir kərə də qarşındakına tərəf getsin. Kişi, bu da hələ bizim dərdimizin sağalan tərəfidir. Niyə deyirəm ki, bu elə bir dərd deyil. Ona görə ki, bu dərd lodan işdir. Mən belə ürəyim istəyəni, gözüm görmək istəyəni görə bilmədiyim üçün dəliyəm.

**Mədətoğlu:** Sən niyə dəli olursan. Kəndimizdə səndən ağıllı kim ola biiər.

**Şaiq:** Sizə belə gəlir, Mədətoğlu. Sən mənə Lətif müəllimin, Araz müəllimin, bizim məktəbin direktorunun, rayon təhsil şöbəsinin müdirinin, səhərdən axşama kimi məktəbin çayxanalarında domino oynayan müəllimlərin gözü ilə bax,gör dəliyəm ya ağıllı. Bu il rayonumuzdan ali məktəblərə çox az uşaq qəbul olub. Səbəbi nədir ?

**Mədətoğlu:** Doğurdan nədir bunun səbəbi?

**Şaiq:** Nə olacaq ağsaqqal,kəndimizdə böyük-kiçiyin olmaması. İnsafən danışsaq yetmiş il SSRİ deyilən bir dövlətdə yaşadıq,təhsilə bu qədər fikir verilmədi. Kəndlərimizdə nə müasir məktəblər varıydı, nə növbənöv ali təhsilli müəllimlər. Bəs niyə məktəblərimizdə əvvəlki təhsil yoxdur? Niyəsi çoxdur. Necə ki, Lətif müəllim kimi adamlar on illərdi vəzifədən aslanıblar, bizim günümüz belə olacaq.

**Mədətoğlu:** Sən deyirsən Lətif müəllimi işdən azad etsələr hər şey düzələcək?

**Şaiq:** Tək onu yox,onun kimiləri. Ona oxşarları. Bizim məktəbin direktoru otuz ildir institutu bitirib.

Ondan sonra bəlkə bir səhifə nə yazı yazıb,nə də kitab oxuyub. Zalım oğlunun başı quruyub. Bu gün məmləkətimizdə vəzifədə cavanlaşma gedir bu bir tərfdən çox yaxşıdır.Digər tərfinə də nəzər salınsa daha yaxşı olar. Dədə, bu Araz elə bir çay deyil,onun seli suyu bizim olsa-olsa bir-iki ev-eşiyimizi,bir az da torpaqlarımızı aparacaq. Ancaq bizi başqa şeylər narahat etməlidir. Kəndimizin baş böyüklərindən xəbər alsan ki,bu gün ayın neçəsidir çiyinlərini çəkəcəklər. Ağsaqqal, dərdimiz böyükdür. Millət bir-birinin qədrini bilmək əvəzinə, bir-birinin ayağının altını qazır.Araz kimi çay da baxır ki,biz özümüzün ayağımızın altını qazırıq, deyir daha mən niyə dayanmışam.

**Mədətoğlu:** Şaiq müəllim,deyirsən yanı bu təzə gələn adamlar sahilləri yaxşı bərkidəcəklər? Yanı deyirsən bunlar vicdanlı adamlardır.

**Şaiq:** Onların nə qədər vicdanlı adam olduqlarını deyə bilmərəm. Ancaq onu deyə bilərəm ki, bu ilkilər keçən ildəkilərdən yaxşı işləyirlər. Hər kəsin vicdanı onun gördüyü işlə ölçülür. Bu kişilər işləyirlər. Gecələri, gündüzləri yoxdur.

(Sərhəd komandiri səhnəyə gəlir)

**Komandir:** Bu Araz bizi təzə işə saldı.İndi yenidən sərhəd dirəkləri basdırmalıyıq.

**Şaiq:** Məni bir şey narahat eliyir.Nəyə görə çayın o tayında sərhəd dirəkləri yoxdur.Biz həm onları qoruyuruq, həm də özümüzü?

**Komandir:** Tələb necədirsə elə olmalıdır. Biz qanunun quluyuq. Tikinti işləri az vaxtda başa çatdı. Biz də gərək tədarükümüzü görək ki,dirəkləri basdıraq. Sərhəddin nə demək olduğunu sizin kimi duyğulu adamlar bilməz. Sizə görə hər şey sərhədsizdir.

**Şaiq:** Düz deyirsən komandir. Araz içimdən axır. İçimdə elə bir boşluq var ki, neçə illərdir Araz onu doldura bilmir. Hərə öz işini yerinə yetirir.Araz axır, mən arxasınca baxıram. Siz də fikirləşin ki, nə vaxt bitəcək bu sahil bərkitmə işləri, çəkəsiniz tikanlı məftilləri. Hərə öz işini görür.

**Komandir:** Şaiq müəllim,bu çayın qırağında afuf edincə, günlərlə onun sularına baxınja öz dərsini yaxşı desən vətənə daha çox fayda vermiş olarsan. Mən bir dəfə də sizinlə bu söhbəti etmişəm. Elə bilirsən ki,biz vətənimizi səndən az istəyirik. Ötən il məktəbimizi bitirənlərdən bir nəfər də ali məktəbə qəbul oluna bilmədi. Bu sizi narahat etmir.

**Şaiq:** Əlbəttdə narahat edir. Tək əldən səs çıxmaz. Tək mənim yaxşı dərs deməyimlə iş bitmir. Təhsildə bütövlüklə islahatlar aparmaq lazımdır.Birdə ki,mənim belə düşüncəli görünməyim bir özümə ziyan verə bilər. Başqa heç kəsə ziyanı yoxdur. Mən özümü sərhədsiz hesab edirəm. Bu bir azadlıqdır. Azad olmadan yaşamaq yaşamamaqdır. Mən Arazdan o taya baxıram siz burda qorxu keçirirsiniz. On illərdir qonşu dediyimiz qəvi düşmənimiz başımızı kəsir,yenə ayılmamışıq. Heç ayılmaq fikrində də deyilik. Komandir, məni qınamayın kəndimizin baş bilənləri ilə danışmaqdansa bu dilsiz daşla, torpaqla, suyla danışmaq daha xoşdur mənim üçün. Onlar məni yaxşı başa düşürlər, nəyinki canlı dediyimiz adamlar. İndi bildiniz mən niyə burdayam ,yoldaş komandir.

(Camaatın səs-küyü eşidilir. Dəstə-dəstə adamlar sahilə yaxınlaşır.)

**1-ci adam:** A kişi,gözünüz aydın.

**2-ci adam:** Əlləri,qolları var olsun.

**3-cü adam:** Hələ indiyə kimi belə iş görülməmişdi.

**4-cü adam:** Halal olsun,bu kişilərə!Dilləri də var, dirçəkləri də.İndi Arazın cəsarəti varsa bizə güc gəlsin.

( İcra başçısı səhnədə Mədətoğlu ilə görüşür)

**Rauf:** Ağsaqqal keyfin necədir?

**Mədətoğlu:** Necə olacaq əla.

**Rauf:** Şükürlər olsun.

**Mədətoğlu:** Şükür içində olasan.

Rauf: İşlərin gedişi necə,sizi qane edirmi?

**Mədətoğlu:** Çox gözəldir.İnanıram ki,bundan sonra Araz bizə heç nə edə bilməz. O artıq öz yatağına dönüb.

**Rauf:** Bu bir qədər bizim düşüncələrimiz xaricindədir.

**Mədətoğlu:** Xeyr o daha bizim gücümüzü gördü. Sizin işə belə münasibətinizi görəndən sonra hamı yaxşı işlədi.Məni bu çox sevindirir.İndi kəndimizin camaatı rahat yuxu yata bilər.Hələ itirdiklərimzi bu günə kimi tapa bilməmişik.Allah bizi qada-bəladan qorusun, sizə də can sağlığı versin.

**Rauf:** Kişi, bizə çox dua etmə.Bu bizim borcumuzdu.

**Mədətoğlu:** Belə çıxır ki,sizdən əvvəlkilərin borcu deyilmiş, ona görə həmişə başdan sovdu işləyiblər. Xalaxətrin qalmasın diyə Arazın axarına bir-iki maşın daş-torpaq töküblər. Araz da onları öz sinəsində qərq edib.

**Rauf:** Çətinliklə də olsa biz işin öhdəsindən gələ bildik. Bizdən qabaq işləyənlərin səhvləri ucbatından kəndlərimizə yüz milyon manatlarla ziyan dəyib. Ziyanın yarısından qayıtmağın özü də bir igidlikdi, deyiblər. Ancaq əvvəlki illərdə sahilbərkitmə işlərinin başdan-sovdu görülməsi nəticəsində əhaliyə dəyən ziyanı həmin illərdə işləyənlər ödəməlidir. Bəsdi daha bir-birimizin başına sığal çəkdiyimiz. Bundan sonra

işlər hüquq mühafizə orqanlarının üzərinə düşür.İşimiz təzə başlayır. Bu gün tələb ayrı cürdür. Məndən nə tələb olunursa mən də sizdən eyni cür tələb edirəm.Bu il sizin kənddə yeni məktəb binası tikəcəyik.Bu gün həm də həmin məktəbin təməl atma mərasimi olacaq.Xeyirli olsun.

**Mədətoğlu:** Mən də deyirəm,xeyirli olsun.

**Rauf:** Görülən işlərdən gül qoxsu gəlir. Sizin bu kənddə aparılan işlər bizim ürəyimizjə oldu. Mən kəndin yeni icra nümayəndəsinə tapşırıq vermişəm ki,kənddəki bəzi dedi-qoduları kəssin. Araz artıq öz sahillərini yuya bilməyəcək.Bu ilki daşqınlar özü ilə kəndin icra başçısını və bələdiyyə sədrini də apardı.Bir daha deyirəm ki,sahilsiz çayların sahilinə gəlin.O bizim sahilsiz arzularımızdır.

**SON**

# QARA QUTU
# VƏ
# YEDDİ QAPI

**(Bir şəkilli,yeddi qapılı psixoloji dram)**

(Səhnə açılır. Qoltuğunda qara qutu olan bir nəfər. O, 45-50 yaşlarında arıq bir kişidir. Səhnə boyu düzülmüş yeddi qapı.O qapıları döydükcə iştirakçılarla tamaşaçıları tanış edir)

Qutu gəzdirən kişi: Sizə təqdim edəcəyim bu qutu hər bir qapı arxasında yaşayanların tale qutusudur.Gəlin birlikdə birinci qapını açaq.

(Musiqili pauza.Qapı açılır)

**I şəkil – I qapı**

**Qutu gəzdirən:** Bu şəkildə həyatda hərtərəfli təmin olunmuş bir ailənin həyatından xəbər verilir. İndi isə görək bağlı qapı arxasında qalmış bu ailənin qara qutusu nələr deyir. ( Qapıdan orta yaşlı bir qadın çıxıb tamaşa zalına tərəf gəlir.Üzünü tamaşaçılara tutaraq)

**Qadın:** Bizim kişi qəzaya uğrayanda nə qədər axtardıqsa onun qara qutusunu tapa bilmədik. Gör neçə ildən sonra qapımızı döyüb deyirlər ki,bəs qəza vaxtı itirilmiş qara qutu tapılıb. (Kişi birinci qapıdan çıxıb arvadına tərəf gələ-gələ)

**Kişi:** Arvad,dedin nə tapılıb?

**Qadın:** Nə tapılacaq,ay kişi, belə sənin qəzaya düşdüyün vaxt içindən düşüb itən qara qutu tapılıb.

**Kişi:** Mən havaxt qəzaya düşmüşəm ki ?

**Qadın:** Havaxt olacaq vəzifədən çıxdığın gün.

**Kişi:** Nə təhər yanı,vəzifədən çıxdığım gün. Arvad vəzifədən çıxarılmağın qara qutuya nə dəxli var?. Qara qutu təyyarədə olur ki, o qəzaya uğrayanda onun səbəblərini yazır lentə. Onun mənim vəzifəmə nə dəxli?

**Qadın:** Onun sənin vəzifənə dəxli var, a kişi, dəxli var. Sən də axı vəzifədə olanda çox göynən gedirdin. Elə ki, çıxardılar sən də qəzaya uğradın. Qara qutun da o vaxtdan itmişdi. Ha istəyirdik ki,sənin vəzifədən çıxarılmağının sirrini öyrənək bacarmırdıq. O bir sirr kimi qalırdı. Sağ olsun sənin qara qutunu tapanlar. İndi sənin vəzifədə olduğun illərdə nə etdiyini öz üzünə oxuyacağam.

**Kişi:** Arvad, mənimlə müstəntiq kimi danışırsan. Elə bil göndəriblər ki,mənim barəmdə istintaq işi açasan.

**Qadın:** Bəs nə bilmişdin. Elə bilirdin ki,qara qutun tapılmayacaq. Nəyin vardırsa qara qutunla birlikdə qaranlıqda qalacaq. Xeyir, a kişi, cidanı çuvalda gizlətmək olmaz. Gördüklərin nə varsa hansı qaranlıq küncdə olsa da belə bir gün onun üstünə işıq düşərək görünəcək.

**Kişi:** Belə çıxır ki, 25 ildir birlikdə yaşayırıq səni tanımamışam. Bu nədir,dil-dil ötürsən. Mən neyləmişəmsə onun əsas səbəbkarlarından biri və ən başlıcası sənsən,sənin nəfsindi. Ay filan-filan şüdənin qızı nə ucun alıb ucuzluğa gedirsən. Neyləmişəmsə evimin, uşağımın, elə sənin qohumlarının rahatlığı üçün eləmişəm. İndi elə danışırsan ki, elə bil göydən zənbillə düşmüsən. Əgər mən cinayətkaramsa onun bir tərəfi də sənə çatır. Heç yaxanı kənara çəkmə. Səninlə

keçirdiyim 25 ilin beş ilini,bəlkə də az ilini sanatoriyalarda keçirməmisən. Qara qutuda bu barədə də yazılıbmı? Orda sənin sifarişinlə işə qoyub,işdən çıxardıqlarım barədə necə.Haqlı-haqsız gəlib idarəmdə qan qaralığı salmağını necə.Bir oturuma yarım kilo qara ikra yeməyin necə.

**Qadın:** İkra hardan yadına düşdü ?

**Kişi:** O heç yaddan çıxan şeydi. Hər il Soçiyə, Kislovodskiyə gedərdik, yadında.

**Qadın:** Yadımda.Nə olub ki?

**Kişi:** O da yandadır ki,evində qaldığımız rus qadına deyirdik.Mamaşa,ikranı gətir.O da yağın yanına bir kəsik ikra qoyub gətirdi.Sən ona hirsləndin. Bu nədir !-dedin.Durub özün ikra bankasını bütöv gətirib yemək stoluna qoydun və xörək qaşığı ilə yeməyə başladın.Evin sahibəsi çox təccüblənmişdi. O deyirdi:

-Supu xörək qaşığı ilə yeyərlər.Allah,allah-yadından çıxmayıb ki ?

**Qadın:** Elə bu ?!

**Kişi:** Elə bu niyə olur. Gündə şəhərə on dəfə çıxsaydın on kaplekt,iyirmi dəfə çıxsaydın iyirmi kamplekt briliyyant bəzək əşyaları taxırdın. Haradanıydı onlar. Deyirdin bəlkə dədən kor İboşdan qalıb. Hərdən deyirdim ki,arvad bu qədər əşya bazlıq lazım deyil. Kimə deyirdim. Hər şeydən qoşa-qoşa yox dörd-dörd,beş-beş idi.Şəhərin bütün məhəllələrində ev almışdın. Neçə bağ evi almışdın.Kimlərin adına nələr almamışdın. Az qalmışdın şəhərin küçələrini alasan. Ah bu nəfsin əlindən. Məni məhv edən sənin nəfsin oldu.

**Qadın:** Öz adını mənə qoyma.Mən deyirdim, mən istəyirdim sən eləmiyədim. Hələ sənin nəyini demişəm ki, belə göynəyirsən. Hələ səni göynədənləri deyəcəm.

**Kişi:** Arvad sən mənim ən böyük düşmənimsən ki? Mən də durub qıraqda özümə düşmən axtarıram. Daha demirəm ki, kölgəmi qılınjlayan öz içimdədir. Özü də ocağımın başında. Daha nə deyəcəksən de məni narahat etmə,o qara qutunu tapıb gətirənin də ölüsünü söyərəm,elə sənin də.

**Qadın:** Ağzını düzənməli saxla,ölülərlə işin olmasın. Sözün var sözünü de,al cavabını.

**Kişi:** Lənət sənə gəlsin dəli şeytan. Ay qız səni kim öyrədib salıb bu meydana. Arvadsan get öz arvad işinlə məşğul ol. Allah adamdan alanda alarmış. Biədəb misal olsada deməliyəm.

**Qadın:** Nədir o misal, hansı misaldır?

**Kişi:** Camaata it hürəndə,mənə çaqqal hürür.

**Qadın:** Sən kimə çaqqal deyirsən. Heç utanıb yerə girirsən?

**Kişi:** Sənin danışığının cavabı idi, verdim. Dünənə qədər əlim hər gün bu evə var gətirirdi. Qapının kandarında məni qarşılayırdın, boynuma sarılırdın. Xoş gəlmisən deyirdin, pencəyimi tuturdun, xoş üz göstərirdin. Vəzifədən çıxandan sonra mənə bir üz göstərirsən ki, heç anan dədənə bir dəfə də elə üz göstərməyib. Əgər elə üz göstərsəydi indi bu yaşlarında çoxdan boşanmışdılar.

**Qadın:** Nə eyləmişdilər?!

**Kişi:** Boşanmışdılar.

**Qadın:** Neynək onlar boşanmaışdılar, biz boşanarıq.

**Kişi:** Sənin nə danışdığındı? Bu yaşımızda boşanmaq! Ayıb olsun sənin bu danışığına.

**Qadın:** Mənə ayıb olsun deyirsən?

**Kişi:** Yox sənə ayıb olsun dedmədim,fikirlərinə ayıb olsun dedim.

**Qadın:** Söz güləşdirirsən.Gəl mənimlə düz yumurta döyüşdür. Yoxsa səni bir vəziyyətə salaram ki,qalarsan bir həsir, bir də məmmədnəsir.

**Kişi:** Nə təhər eləyirsən arvad.

**Qadın:** Özün yaxşı bilirsən. Bütün varın dövlətin mənim adımadır,hər şeyin görünən və görünməyən nəyin varsa,hamısı. Sənə bu evdən çatası olsa-olsa bir dəst nimdaş kastiumun çatar. Qalan nə varsa mənimdir.

**Kişi:** Arvad sən bu danışqlarınla nə demək istəyirsən. Deyəsən sənin başına hava gəlib axı.

**Qadın:** Hava-zad gəlməyib.Bu sənin qara qutudan çıxan aqibətinin son qərarıdır.

**Kişi:** Hayıf sənə çəkdiklərimnən və elədiklərimdən. Elə bilirsən ki, (Qadın Kişinin sözünü ağzında qoyur)

**Qadın:** Nəyi elə bilirəm. Hayıfsılanıb eləmə. Sənin hayıfsılanmağında artıq izafi işdir.

**Kişi:** Arvad,mən ona hayıfsılanmıram ki,bu gün mənə dil deyirsən.Yox! Bu sənin dədə –baba adətindir.Ona hayıfsılanıram ki,kimin çörəyini kimə yedirtmişəm.

**Qadın** (hikkə ilə)**:** Kimin çörəyini kimə yedirtmisən, hə.

**Kişi:** Ona hayıfım gəlir ki, xalqın çörəyini sənin kimi qədirbilməzə yedirtmişəm. Hamıdan oğurlayıb daşımışam sənin evinə, sənin bankdakı hesabına. (O qadından aralanıb tamaşaçılarla üzbəüz dayanır)

-Görürsünüz də. Görürsünüz də indi 25 illik ömür-gün yoldaşı dediym bir qadın mənə nə zabıta satır.Məni istintaq eləyir.Ona, onun qohumlarına,elə öz qohumlarıma da nələr etmədim. Bu da onların vəfası. Vəzifədən çıxandan biri qapımı açmayıb. Süfrəmin xırdasını gözlərinə təpənlər indi kişi olublar. Mən də bir telefon zənginə həsrət qalmışam. Vaxt varıydı

kabinetimdə müxtəlif telefonlar varıydı. Heç olmasa birinin xidmətini xalqa etsəydim bu günə düşməzdim. Gözüm heç nə görmədi. Əlimə nə keçdi daşıdım bu qədirbilməzin evinə. Axırını da görürsünüz. Mən sözümü sizə ona görə deyirəm ki, mənim başıma gələnlər sizin başınıza gəlməsin. Haqqa baxın, xalqdan tutun. Xalqın haqqını ev-eşiyinizə yedizdirməyin. Bəlkə də indi çoxunuz mənə gülürsünüz. Neynəyək, gülün. Ancaq bu gün elə gülün ki,sabah sizin halınıza ağlamasınlar. İtmiş qara qutu tapılmasaydı kim bilir bu qapı (O əli ilə qapısını göstərir) hələ nə qədər bağlı qalacaqdı.

**Qadın** (kənardan): Öz-özünə nə danışırsan, yoxsa indi də sənin başına hava gəlib.

**Kişi:** Mənim başıma onda hava gəldi ki,səninlə bir yastığa baş qoydum. O vaxt,səni istəyəndə anam iki ayağını bir başmağa geydi ki,bəs kor İboşun qızından mənə gəlin olmaz. Mən də iki ayağımı geydim bir başmağa ki, kor İboşun qızını hökmən alacağam. Anam mənim bu inadıma dözə bilmədi, heç toyumuz olmamış dünyasını dəyişdi. Bu da tapılmış qara qutumda qeyd edilib ? Özü də günahım kimi. Mən də onu ən böyük günahım sayıram.İndi görürəm ki,səninlə ailə həyatı qurmaqla nə qədər günah işlətmişəm. Allah bizdən olanlara rəhm etsin, heç olmazsa onlar sənə bənzəməsinlər. Elə ağıl da mənə oxşamasınlar. Olub-qalan ağlımı verdim bu mürtəd qızının ağlına gətirib məni çıxardı vağamlanmış arpa zəmisinə.

**Qadın:** Hələ öz-özünə çox danışarsan. Səni müflis görkəmində görəndə necə də ləzzət alacağam.

**Kişi:** Ay qız,sən nədən doğulmusan? Səni ana doğub,ata əkməyib. Sən deyəsən ilan-çayandan əmələ gəlmiyəsən. Hayıflar olsun! Hayıflar olsun.

**Qadın:** Çox af -uf eləmə.Hələ nə yaşın var ki, çalış yenidən işə gir, buraxdığın səhvləri bir də buraxma, can-başla xalqına xidmət et ki, oda sənin qədrini bilsin.

**Kişi:** Hayıf elə səhvlər var ki,onları düzəltmək mümkün deyil.

**Qadın:** Məsələn.

**Kişi:** Məsələn səninlə 25 il bir evdə,bir yerdə yaşamaq.

**Qadın** (həyəcanla)**:** Of, nə qədər də qəddarsanmış.

**Kişi:** O qədər də yox. Əgər qəddar olsaydım, səninlə bağlılığım bu qədər uzun sürməzdi. Ən böyük səhvim sənsən.Düzdür başqaları fikirləşsə bilər ki, bu o qədər də böyük səhv deyil.Yox, ən böyük səhv ailə qurşağının boşalması,qadının o kişinin arxa plana keçməsidir. Kaş xalqın malını çalıb-çapdığım vaxt məni tutub 25 il iş verəydilər. Onda çıxaydım ki, hər yan əmin amanlıqdır.

**Qadın:** Yəni ki, mən yoxuydum,hə.

**Kişi:** Nə təhər düşünürsən, elə. Sənin olub olmadığının o zaman mənə heç bir isti soyuğu dəyməzdi. Necə ki,indi bu varlıq məni nə isidir,nə də soyudur.

**Qadın:** Nə demək istəyirsən? Filosof kimi danışma, adam kimi danış başa düşüm.

**Kişi:** Nə çətin söz dedim ki? Bir də ki,səninlə istər çətin, istərsə də asan dildə danışım,sənə fərq etməz. Səninki puldur. Allahın,tanrın puldur. O sənin and yerindir,and yerin. Elə bil heç o gündəlik çörək puluna işləyən kişinin qızı deyilsən.

**Qadın:** Elə ona görə pula məhəbbətim belə böyükdür də. Sən nə bilmişdin çox korluq çəkdiyimi görüb allah özü səni mənə yetirdi.

**Kişi:** Ona görə də qədrimi belə bildin.

**Qadın:** Sənə qədr ağacı əkimiyəcəydim. Daha neyləyəcəydim ki? Səni ev-eşik, oğul-uşaq sahibi elədim. Nə olar ki, sənin adına olmayanda.

**Kişi:** Nə mənim adıma olmayanda.

**Qadın:** Qorxma, evi deyirəm, uşaqları demirəm. Oğlanlarım da sənə oxşayıblar, mılıx.

**Kişi:** Yanı deyirsən onları da öz arvadları yəhərləyəcəklər.

**Qadın:** Yəhərləyəcəklər yox e,palanlayacaqlar.

**Kişi:** Yəni mən?!

**Qadın:** Mən üstü örtülü dedim.Sən də üstünü vurma. Tamaşaçılardan ayıbdır.

**Kişi:** Sən nə danışırsan ayıb nədir.Çağır səndən tərbiyə alan oğlanların da gəlsin.Görək onlar nə deyəcəklər. Günümü göy əsgiyə bükən analarına nə bəraət qazandıracaqlar.

**Qadın:** (Açıq qapıya yaxınlaşır. Uşaqlarını səsləyir. Əşi ,əşi.)

**Kişi** (tamaşaçılara)**:** Uşaqlarımızın adlarının baş hərifləridir. Hamısın birdəfəlik çağırır. Əli, Şaman, İsmət. Əli onun dədəsinin adıdır, Şaman mənim atamın adı, İsmət də ölmüş bacımın adıdır. Kişinin qızının vaxtı olmadığı üçün həmişə onları elə çağırır. Əşi. (Uşaqlar səhnəyə daxil olurlar. Cücələr toyuğun qanadları altına qaçan kimi onlar da analarına qısılırlar)

**Qadın:** (Oğlanlardan birinə) Bu nə lir-lijimdir ə. (O birilərə təpinir) Görmürsünüz ki, atanızla bir-birimizi qırırıq? Niyə evdən çıxmırsınız ə, qızbibilər.

**Oğlanlardan biri:** Biz kimik ki, danışaq.

**O biri oğlan:** Qardaşım düz deyir. Özünüz bilən yaxşıdır.

**Qızları:** Mama nə deyirsə, düz deyir. O qara qutu haqqında bizə danışıb.

**Uşaqlar hamısı birdən:** Biz gidərik xudafiz! (Onlar açıq qapıdan içəri daxil olurlar)

**Qadın:** (O qapıdan keçib əlində qara yeşik səhnəyə qayıdır. Onu kişiyə verir) Al, bu da sənin 50 il ərzində gördüyün işlərin məjmusu olan qara qutu. Nə etmisənsə hamısı burda yazılıb. Bəzilərini bildin. Qalanları da «dövlət qulluğu» təqaüdü alandan sonra bekar vaxtlarında qurdalayarsan. Özü də çox ürəyini sıxma bu gördüyün altı qapı da açılajaq, onların qəzaya uğradıqdan sonra itən qara qutuları tapılıb. Biz keçək tamaşaçı zalına onlara baxaq. Çox fikir eləmə, yüz fikir bir borju ödəməz.

**Kişi:** Mən daha səninlə eyni sırada otura bilmərəm. Mən evə qayıdram. (O açıq qapıdan içəri keçə-keçə) Mən nə üz yeri qoymuşam ki, hələ bir xalqın içinə qayıdam.Yox, o sırada mənə yer yoxdur.

## I şəkil – II qapı
(Musiqi fasiləsi)

(Qara qutu qoltuğunda həmin kişi görünür. Gəlib II qapını döyür. İçəridən kişi səsi gəlir)

**Qutu gətirən kişi:** Qardaş eşidirsən ?

**Səs:** Eşidirəm.

**Qutu gətirən kişi:** Siz qəzaya uğrayandan sonra qara qutunuz tapılmamışdı eləmi ?

**Səs:** elədir.

**Qutu gətirən kişi:** Qara qutunuz tapılıb.

**Səs:** Hardadır.

**Qutu gətirən kişi:** Sizin qapınızın ağzında. Mən tapıb gətirmişəm.

**Səs:** Bu ola bilməz. Gör neçə illərdir onu axtarıram. Vsesoyuznu rozskada da olub. Demək tapılıb.

**Kişi:** Hə tapılıb, gözün aydın olsun.

**Səs:** Aydınlıqda olasan. Qoy üstümə əl gəzdirim gəlirəm. Sizə şirinlik düşür.

**Kişi:** Nə şirinlik,ay kişi?! Mənə sənin jan sağlığın bəs edər.

**Səs:** Gəlirəm, gözlə, gəlirəm. (İçəridən 55-60 yaşlarında gövdəli bir kişi çıxır)

**Kişi:** Al qardaş,bu sənin qəza vaxtı itirdiyin qara qutudur. Dağ kəndlərinin birində tapılıb.

**II qapıdan çıxan kişi:** Sağ ol qardaşım bu qara qutunu tapıb mənə göndərənlərə dərin hörmət və etiramımı bildirirəm. Gör neçə illərdir qəzanın səbəbinin axtarıram tapa bilmirəm. Bəs bunu nejə oxuyacağam.

**Kişi:** Qaranlıq bir yerdə aç qutu sənə hər şeyi danışajaq. ( O qutunu alıb qapıdan içəri keçir. Bir neçə saniyəlik fasilədən sonra səhnəyə daxil olur)

**II QÇ kişi:** Bu nələr danışır ?

**Qutunu gətirən kişi:** Vallah mən nə bilim.Mənə düşən vəzifəni yerinə yetirdim. Qara qutunu gətirdim sənə çatdırdım, vəssalam. Mənim ki,bura qədərdir. Qalanlarını özün bilərsən.

**II qapıdan çıxan kişi:** Heç bilirsən nə deyir ?

**QÇ kişi:** Mən getdim. Mən getdim. Özün özünü danla,özün-özünü söy.Nə bilirsən elə. Keyf ilə yaşadığın vaxt mənə yoldaş deyildin ki, indi də səni sona kimi dinləyim.

**II Qapıdan çıxan kişi:** Yaxşı,mən sizə nə dedim ki,belə hay-həşir salırsınız. Özünüz bilərsiniz mən dedim yanı bir az istirahət edəsiniz,bir qurtum piyvəmi içəsiniz. (qutu gətirən əllərini yelləyə ylləyə səhnədən çıxır.O səhnədə tək qalır)

**II QÇ kişi:** Ömrü boyu uçmuşam.İçmişəm, çəkmişəm, uçmuşam. Yerə düşəndə də gətirib salıblar dəmir barmaqlıqların arxasına. Ayılanda baxmışam ki,beş ildə yaşlaşmışam. Axırınjı uçuş zamanı nejə qəzaya uğradığımı və nə təhər sağ qaldığımı xatırlaya bilmirəm. Bir onu xatırlayıram ki, beşinji dəfədir öz doğma həbsxanama qayıtmışdım. Bir onu xatırlayıram. Qara qutumda həyatımın bütün anları yazılıb. Durub onların hamısını xatırlasaq onda gərək başqalarının qara qutuları barədə heç nə bilməyək. Mən nələr etməmişəm. Yadıma düşdükjə özümə nifrət edirəm. Mənim tay-tuşlarım ev-uşaq sahibi olanda mən içkiyə, nəşəyə nə bilim daha hansı murdar əməllərə qurşandım. İndi gözümü açmışam ki,bəs ömür gedib və qurtarır. Mənim yaşıdlarımın hamısı indi babadı,mən heç atalıq adı da qazana bilmədim. İndi ötən əməllərim üçün peşimançılıq çəkirəm.Nə xeyiri var,heç nə. Bəlkə də mənim kimi adamların aqibətini görəndən sonra deyiblər ki, «Sonrakı peşimançılıq fayda verməz» Kiminsə sonrakı peşhimançılığından anjaq olsa-olsa ibrət götürmək olar. (O səhnədə gəzişə-gəzişə gəlib bir

qədər aralıda ikinji qapı ilə üçünjü arasında qoyulan kətildə əyləşir. Üzü tamaşaçılara) Təklik indi mənim aqibətimdir. Javanlıqdan hamı öz qızlarını,uşaqlarını məndən qoruyurdu. Bir kimsə mənə salam verib,salam almayıb. Niyə belə olub,əslində mən bu barədə heç fikirləşməmişəm. Çünki fikirləşməyə vaxtım olmayıb. Əslində fikirləşəndə yadıma bir neçə an düşür.O anlar ömrümün müxtəlif anlarında baş verib.Tor kimi yadıma gəlir dağ kəndində bir qoja nənəm varıydı,hər yay kəndə gedərdim. Artıq kənd uşaqları ilə dostlaşmışdıq. Məndən yuxarı siniflərdə oxuyan dostlarım varıydı. Onlar məni evlərinə aparırdılar, mən onları evə dəvət edərdim. Çox yaxınlaşdıq. Bir gün onlardan biri nənəmin həyətinin arxa tərəfində bitmiş bir torpa bitkini mənə göstərib dedi ki,bu çox gözəl bir bitkidi.Adamı duyğulandırır sonrada bildirdi ki,bu bitkinin toxumlarını nənənin həyətinə əmim və onun dostları atıblar. O da jöjərib. Gör neçə illərdir bu çətənə kolları bizi də hallandırır.

Həmin an yadımdadır. Çətənə kolundan başlanan bu yol sonradan gedib haralara çıxmadı. Nənəm dünyasını dəyişəndən sonra kəndə getmədim.Ancaq çətənə adətimdən artıq əl çəkə bilmirdim. Ağıllı başlı həşişə öyrəşmişdim. Şəhərdə öz doğma ata-anamın qarşısında nələr etmirdim. Orta məktəbi qurtara bilmədim. Sinif yoldaşlarımdan biri ilə zarafatlaşanda bıçağı onun qarnına soxdum. Əslində onun heç bir günahı yox idi. Mən nəyisə çəkmək istəyirdim tapa bilmirdim. Eşitmişdim ki, onu əldə etmək həbsxanada daha asandır. Məni tutdular heç peşiman deyildim. Anam ağlayırdı,atam susurdu. Mən heç nə demirdim. Peşiman olub olmadığımı xəbər aldılar, çiynimi çəkdim. Ata-anamdan ayrıldığıma peşiman idim,amma törətdiyim işə peşiman deyildim. İstədiyimi tapmaq istəyirdim, tapa bilmirdim,son nəticəsidə belə oldu. Üst-

üstə 25 il iş almışam. Ora elə bir murdar həyatdır ki, adamı diriykən məhv edir. Uşaq koloniyasında jinayət etdim,yaşım çatdığı üçün məni əsil həbsxanaya köçrüdülər. Burada istədjiyimi tapdım. Elə ilk günlərdə mənə yanaşıb ona münasibətimi soruşdular. Açıq dedim ki, bir ona görə jinayət etmişəm. İlk xoş gəldinimə damarıma ilk iynə vuruldu.Göydə uçurdum, hər şey mənə nejə də gözəl görünürdü. Evdən tez-tez yanıma gəlirdilər. Ata-anamın tək oğul övladı olduğumdan nə deyirdimsə gətiridilər. Onlar elə fikirləşirdilər ki, türmə deyilən bu qaranlıq dünya məni islah edə bilər. Çünki onun adı da islah-əmək koloniyası idi. Anjaq heç nə məni o düşmənin əlindən qurtara bilməzdi. Biz, yəni bu işin sahibləri nejə də mehriban idik.Siqaretimizi hamılıqla çəkirdik. Nəyimiz varidisə hamımızın idi. Beləliklə ömür gedirdi. Çox vədə neçə yaşım olduğunu özümdən xəbər alırdım. Yadıma sala bilmirdim ki, neçə yaşım var.Anjaq bir məsələ ətrafında düşünürdüm. İynəmin vaxtı gələndə neynəyəjəm. Bəzən elə ağrılarım oldurdu ki, bar-bar bağırırdım.Həbs olunandan və ondan sonrakı vaxtda bəlkə ilk kərədir ki,bu qədər danışıram. Ancaq sizinlə danışdıqca elə bil yüngülləşirəm.Bu qara qtu məsələsi olmasaydı bəlkə heç sizinlə də bu qədər danışmazdım. Mən hər şeyimi itirmişəm. Ata-anamı, gənjliyimi, hər şeyimi, hər şeyimi... İndi nə qədər af-uf eləsəm belə xeyiri yoxdur. Sadəjə durmuşam ölümümü gözləyirəm. (O durub gəzişir.Xeyli sükut içində qalır.Üz-gözündə əzab və əziyyət hisləri, sanki tamaşaçılara şikayət edir. Yenə tamaşaçılara):

-Mənim kimi adamlara yazığınız gəlməsin. Biz çox qəddarıq. Ümumiyyətlə hər şeyini itirənlər qəddar olur. 25 il ərzində bircə dəfə türmədən çıxdım. Dedim şəhərdə daha qala bilmərəm. Getdim nənəmgilin kəndinə. Məni köhnə dostlarımdan qalanları pis qar-

şılamadılar. Köhnə dostalırımızın çoxu dünyasını dəyişmişdi. Niyəliyini deməsəm də bildiniz ki,niyə dünyalarını dəyişiblər. Nənəm qalan evə əl gəzdirdik, o evdə qalmağa başladım. Qohum-qəblədə tez-tez mənə yoluxurdu. Yazın ilk aylarıydı. Kəndimizdə tərəvəz əkininə daha çox fikir verirdilər. Bütün sahələr xələmlik idi. Bir gün dostlarımdan biri mənə dedi ki, o zəhrimarla neyniyirsən, dedim ki, daha o işlərə baxmıram. Dedilər ki, axmaqlama,o elə bir işdir ki,ondan yaxa qurtarmaq mümükün deyil. Onsuzda sən neyləsən də sənə inanan olmayajaq. Ona görə də işin bir ujundan tut. Onun dediklərinin həqiqət olduğunu bildiyim üçün onunla razılaşdım. Bir axşam həmin kələm əkən dostumla birlikdə bizə qonaq gəldi. Dostumun əlində bir bağlama vardı.Onu mənə Verdi. Əyləşdilər. Söhbətə qonaq başladı. Dedi ki,kələmlərin iç bağlamağa başladığı vaxdı.Bu gün bu məhsulu su keçirməyən kağızlara büküb kələmin ortasına qoyajağıq. Kələm artıq bükülməyə başlayıb və bir –iki aydan sonra məhsul faraş kələmlə birlikdə sahibinə çatdırılajaq. Mən kənardan baxırdım. Onların bu işlərinə mat qalmışdım.Dediklərinə görə üç kilo olan eroinin kələmin bükməkdə olan yarpaqları arasında gizlətmək gejə səhərə kimi davam etdi.Və bizə tapşırıq belə oldu ki,sahələrdən göz-qulaq olaq. Elə gözəl kələm yetişmişdi ki,kimsə deyə bilməzdi onun içərisində nəsə ola bilər. Ağappaq qar kimi kələmiydi. Anjaq heç kim düşünə bilməzdi ki, bu ağappaq qar kimi kələmin içərisində ondan da ağ, ağ ölüm,eroin gizlədilib. Bax, belə. Kələm yığımı başlandı. Dostumun sifarişi ilə xüsusi maşın gəldi. Kələmləri kəsib səliqə ilə maşina yığdıq. Apardılar. Gecənin yarısı qapımızı döydülər, açdım. Məni həbs etdilər. Səbəbini soruşmadım. Çünki səbəbi mənə məlum idi. Özü yıxılan ağlamadığı kimi mən də ağlamadım. Bu mənim

axırınjı qəzam idi. Həmin vaxt içimdən çıxan və illərjə tapılmayan quru qutu mənim qara taleyimin qara lentini indi özümə göstərdi.

Mənim bu taleyimdən sizə nə deməyin. Mən sizin içərinizdə ola bilərdim. Evim-eşiyim, arvad-uşağım olardı, xeyirə-şərə yarayardım. Əfsuslar olsun ki,bunların olması üçün mənim qolumdan yapışanlar çox həvəssiz yapışdıqları üçün mən onların əlindən çıxdım və taleyimi qara notlar üzərində çalıb qurtardım. Ona görə başıma gələnləri sizə nəql etdim ki,belə hallara qarşı sərt, amansız və dözülməz olun. Mənə nə var deməyən,deməyin ki,mənim övladım deyil. Biz hamımız eyni adamlarıq. Rastlaşdığımız belə adamları, uçurum qarşısında olanları məhv olmağa qoymayın. Mənim qapım çoxdan bağlanıb,başqalarının qapısını bağlanmağa qoymayın. Bu sizdən də çox asılıdır.

Səhnə qaranlıqlaşır. Sakitlik. Ağır və qaranlıq bir pauza. Səhnə yavaş-yavaş işıqlanır.

## I şəkil – III qapı

(III qapı açılır. Qapının açılmağı ilə qara qutu gətirənin səhnəyə tullanmağı bir olur. O deyinə-deyinə ayağa qalxır. Üzünü tamaşaçılara tutaraq) :

Ə, bunlar tamam zırramaymışlar ki! Deyirəm, qara qutunuzu tapıblar,verdilər ki, sizə çatdırım,məni bir günə saldılar ki, əllərindən bir təhər qaçdım. (Qapı açılır orta yaşı bir qadın səhnəyə çıxar-çıxmaz)

**Qadın:** Nə təhər qaçdın ə,yerdən güjlə qalxırsan. Səni bu günə kim salıb ə,kişi qırığı.

**QQGK:** Mən kişi qırığı deyiləm,mən sizin məhəllənin poçtalyonuyam.

**Qadın:** Ay səni poçtolyon yerə girəsən. Səni bu məhəllədə birinci kərə görürəm. İndi nə poçtalyon ə. İndi qəzet oxuyan var, ya məktub yazan var. Ədə bu telefonla, televizor sənin işini o söz eləyib. Bildin, hansı sözü deyirəm?!

**QQGK:** Bilmədim, deyərsən, bilərik. Qəzet oxuyan da var, hələ üstəlik kitab oxuyanda. Hamını öz arşınızla ölçməyin, xala qızı.

**Qadın:** Ə, kəs səsini, bunun xalaqızısına baxın bir. Xalaqızı. (Xüsusi əda ilə) Ə, mən hardan oldum sənin xala qızın. Ə, xalavı da tünbətün olsun, səni də tünbətün olasan.

**QQGK:** Bu adamlara da söz demək olmur ki? Deyirəm qəza vaxtı içinizdən düşən qara qutu tapılıb, sizin ünvanınıza göndəribəlr ujuz alıb ujuzluğa gedir. A kişilər,belə də adamlar olar. Birində əsəb qalmayıb ki ? Kimi danışdırırsan səni təhqir etmək dərəjəsinə qədər hirslənir. Canları cəhənnəmə. Elə bu arvadında canı cəhənnəmə. Mənə nə var,mən getdim. (O səhnədən çıxır. Qadın səhnədə tək qalır)

**Qadın:** Əsəblərimin tarıma çəkilib dağılan vaxtında bu da gəlib ki, qara qutunuzu tapmışam. Elə mənə çox lazımıydı o qutu. Zəhləm keçmişimdən gedir. Hələ bir onu da gətiriblər bax qəzaya qədər ki, günüvə,dirriyivə. Mən artıq danışığımı da yadırğamışam. Nə dediyimin fərqində deyiləm. Ağzımdan çıxan sözün dalısı gəlməmiş əvvəlini unuduram. Əcəb günə düşmüşəm. Bu tərəfdən də poçtalyon deyilən.

(Üçüncü qapıdan gələn qadın səsi):

-Ana kiminlə danışırsan ? (Sükut)

-Ana, səninləyəm e,kiminlə danışırsan. (Qadın hirslə içəriyə tərəf çevrilərək)

-Sən nə deyirsən axı,sus görüm, başıma haranın daşını tökürəm. (içəridən səs)

-Bizim başımıza onda daş düşdü ki,sənin kimi bir anadan doğulduq.

Qadın: Kəs,kəs ləçər.Hamıya it hürəndə,mən də çaqqal hürür. kəs,kəs ağzını özündə saxla,yoxsa səni də o biri bacılarının yanına göndərərəm. (İçəridən səs):

-Yaxşı-yaxşı,daha səni qəddəmləmədik,dünya dağılmadı,nə bilirsən onu da elə.Mən onsuz da bədbəxtəm.

**Qadın:** Mən xoşbəxtəm,gəl ondan bir az da sənə verim.

(İçəridən səs): Sən əgər o qurumsağa ərə getməsəydin bizim də başımıza bu hadisələr gəlməzdi.

**Qadın:** Hansı hadisələri deyirsən ?

**İçəridən səs:** Daha hansı hadisələri deyəcəm. Atalığımızın bizə qarşı münasibətlərini deyirəm. Məndən əvvəl iki bacımı öldürdünüz. Mən də öz növbəmi gözləyirəm. Evdən eşiyə də buraxmırsan ki,sözümüzü eşidən olsun. Ana!

**Qadın:** Nə deyirsən qız.

**İçəridən səs:** Ana, Allah sənin bəlanı versin. Sən ki, öz balalarına düşmən kəsildin. Allah sənin cəzavı versin.

**Qadın:** Allah mənə bundan artıq hansı cəzanı verəcək. Məndə olan nəfs ki, var, bu mənim üçün ən böyük bəladır.Qara qutudan üzümə oxunanlar məni dəlixanaya salacaq.

**İçəridən səs:** Buranın dəlixanadan nə fərqi. Anam olsan da deməliyəm ki,sənin tamam ipləmə dəlidən elə bir fərqin yoxdur. Bir ana ki, öz balalarına qıya,ona nə ad vermək olar. Ancaq sənin adını. Niyə meydanda tək qalmısan, ana. Niyə o kəlpeysərini yanına çağırmırsan. Peşəsi yeyib-içmək və bir də oğraşlıq. Belə getsə mən sənin əlindən intihar edəcəyəm.

**Qadın:** Cəhənnəmə elə,bir də gorun dibinə elə. Sən olmasan dünya qara geyinəcək. Səndən sonra da növbə o dəyyusa çatacaq. Bəlkə sizdən sonra bir rahat nəfəs ala bildim.

**İçəridən səs:** Yenə bilidik deyirsən,yoxsa təzə gözaltın var.

**Qadın:** Niyə də olmasın.Yoxsa ömrümü o boyat kişiylə keçirəcəm.Artıq ondan iyrənirəm.Üfünət iyi verir.Mən nə qədər də axmağımışam. Qara qutumda da bu barədə ətraflı danışılır. (İçəriyə tərəf) Yaxşı, sən ağzını mumla, özümə bəzi suallarım var. Mən onsuz da günahkaram. Özüm özümü mühakimə edəcəyəm.

...Lap bərk gedən vaxtım idi. Elə gün olurdu ki, bir gündə 4-5 kişiylə görüşürdüm. Qananı da olurdu, qanmayanı da.Pul sel kimi tökülürdü başıma. Bu işi şahidsiz, filansız gördüyümdən şərikim də yox idi. O qədər dərilər soymuşam ki! Çalışırdım ki,bir kişi ilə iki dəfə görüşməyim. Ancaq məndən doymaqmı olardı. Bir gələn bir də gəlirdi. Çox evləri kişisiz, çox evləri qadınsız, çox uşaqları ac-susuz qoydum. Doydum deyə

bilmirdim. Dünyanın ən böyük seks ulduzları ilə yarışmağa belə hazır idim.Kişilərə qarşı vəhşiləşirdim. Elə etmək istəyirdim ki, onların ciblərində çörək pulları belə qalmasın. Bundan zövq alırdım.Varidatım artırdı,dost-tanışım çoxalırdı. Şəhərin müxtəlif məhəllələrində onlarla ev almışdım. Nə ərimdən,nə də uşaqlarımdan xəbərim varıydı. Hərdən onlara baş çəkirdim. Pianiska ərimin qabağına yal yerinə beş-on manat atırdım.O da bu qapının arxasındakı evdə üç qız uşağını saxlayırdı. Mən də öz işimdəydim. Şəhərin bütün qütbülərini öz üzərimdə birləşdirmişdim.Telefonum aramsız zəng çalırdı. Məni istəyənlərin sayı günbəgün artırdı. Bir azdan içəridə görəcəyiniz o pezəvənglə də günlərin birində tanış olduq. Adi bir müştəri kimi. Ancaq sonradan onu sevməyə başladım.O da məni sevirdi.Bir neçə dəfə görüşəndən sonra mənə təklif etdi ki,bu işdən əl çəkim. O necə istəsə yaşada bilər. Həqiqətən də imkanlı adam idi. Cavanıydı çox yaraşıqlı və qüvvətli idi. Onun dediklərinə heç bir əhəmiyyət verməyəndə məni güdməyə başladı. Görüşdüyüm neçə kişini çox ustalıqla aradan götürdü. Artıq ondan çəkinir və açıqca qorxurdum,dedikləri ilə razılaşmağa başladım. Bir gün eşidim ki,ərim vəfat edib. Qızlarımı tək qoya bilməzdim mən onların yanına döndüm. Qızlarım artıq yetişmək üzrə idilər. Bir müddət məni saxlayan kişi ilə ayrılıqda yaşadım. Hər gün məni yüzdəfələrlə cib telefonu ilə arayırdı. Ona yalvarırdım ki,məndən əl çəksin. Lap cavan oğlandır başqası ilə ailə həyatı qursun. O əvvəlcə mənə yalvarırdı,sonra isə qəti sözünü dedi:- Elə etmə ki, başını bədənindən ayırım.Qızlarını da, özünü də məhv edim. O artıq qadın manyakı idi,məni dəlicəsinə sevirdi və mənim kim olduğumu billə-bilə məni hamıya qısqanırdı və deyirəm dəlicəsinə sevirdi. O məndən elə zövq alırdı ki, bəzən ölmək dərəcəsinə gəlirdi. Açığını deyim ki, mən də ondan elə zövq

alırdım,heç kimdən almadığım zövqü ondan alırdım. Yaşamağın nə demək olduğunu onu tanıyandan sonra bildim. Mən də onu sevirdim. Ona görə də istər istəməz qəbul elədim. Bir gün o mənim bu evimə köçdü. Əvvəllər mehriban yaşadıq. Sonra hiss elədim ki, qızlarıma pis gözlə baxır. Ona irad bildirdim, əhəmiyyət vermədi. Bir gün biz evdə olmayanda böyük qızıma sataşdı,ondan bir neçə gün sonra ortancıl qızını da öz qadını elədi. Bu qadın manyakının gözləri artıq o biri qızı axtarırdı.Artıq onu öldürmək dərəcəsində ona nifrət edirdim. Bir gün qızlarımla qarışıq evə yanğın salıb xırda qızımı götürüb aradan çıxdım. Qızlar yanıb öldülər,o alçaq isə yenə də qurtardı. Müəmmalı bir yanğın idi,heç kim heç nədən şübhələnmədi.Mənə ancaq başsalığı verən oldu. Boş təskinlik idi, o yanıb ölsəydi bəlkə də sevincimi gizlədə bilmədiyim üçün məni həbs edə bilərdilər. Ancaq hayıf ki,sevinə bilmədim. Allah onun cəzasını versin,daha işi – peşəsi yoxdur.Ancaq içib yatır. Həyətdə bəlkə də bir maşın boş şüşə yığılıb. Mən elə bilirəm ki, bir gün həmin o şüşə tığının içərisində öləcək. Ürəyimə belə damıb. Bayaq bir fikirimdən keçdi ki, onu sizinlə tanış edim,ancaq bu fikirimdən vaz keçirəm.İstəmərəm ki,onun murdar sifətini siz də görəsiniz. (İçəridən gələn kişi səsinə qadın qapıya yaxınlaşır): Odur,o mürdəşir sifətini yumuşdur. Görün, pislik heç ölərmi. Ölməz. Heç mən özüm də ölmərəm. Ancaq onu necə də arzulayıram. Bircə sonuncu qızım olmasaydı çoxdan özümü öldürmüşdüm. Bu qız mənim qabağımı kəsir, kaş heç onu da yanğından qurtarmayaydım. Məni qınamayın, həyatın mənə yaxşı heç nə vəd etmədiyini bildiyimdə belə danışıram. Kaş heç özüm də yanğından qaçmayaydım. Birdəfəlik bu qapı açılmayaydı. Kaş bu qara qutu da tapılmayaydı. Bir də ötən günlərimi gördüm keçmişimdən xəcalət çəkdim. Sınıq, sökük,

tamam yararsız bir keçmişin üzərində sabahlar heç vaxt qurula bilməz. Necə ki, bizimki qurula bilmədi. Bütün ailəni məhv etdik. Çünki himsiz,bünövrəsiz, uçuq-sökük bir ailəmiz varıydı. Həyatın bütün pislikləri ilə əhatə olunmuş və pislikləri bir kökü tam qəbul edən o,yəni mənim məğmun həyat yoldaşım ayaq üstə durası halda deyildi. O içkinin butulkasını görəndə ölüb-dirilirdi. Elə əsirdi ki,elə bil payızla qış arası dərə küləyi idi. O bizim ailəmizi məhv etdi, bədbəxtin kişi qətiyəti yox idi. Özünü də qurtardı, bizi də. Bədbəxt oğlu bilmədi ki, mənim o gözəllikdə gəncliyimi kim vurub aradan götürdü. Hayıf ondan. (O bir qədər duruxur. Bilmir ki,hayıf nəyə dedi, ona, yoxsa kim tərəfindənsə çalınan gənjliyinə) Həqiqətən nəyə hayıfsılandığımı belə aşıra bilmirəm. Heç olmasa axrıncı qızımı bu kəlpeysərin əlindən qurtarmalıyam.

**İçəridən səs:** Ana mən darıxıram. (Qadının səsində nəvaziş hiss olunur)

**Qadın:** Darıxma qızım.Sənin o qaranlıqdan çıxmağına az aqlır.

**İçəridən səs:** Məni bu qaranlıqdan necə çıxaracaqsan,ana.

**Qadın:** Çıxaracam bala,çıxaracam. Vaxtında o qədər günahlar işlətmişəm ki, tanrını çağırmağa gücüm çatmır. Çünki onun qarşısında üzüm yoxdur.

**İçəridən səs:** Ana, məni bu əclafın əlindən qurtar.

**Qadın:** Gözlə, bu günlük,sabahlıqdır.Sonra hər şey yaxşı olacaq. (Pauza, içəridən gələn səs kəsilir. Qadın səhnəni boş qoyub içəri keçir. Və bir müddətdən sonra başı havalı səhnəyə qayıdır)

**Qadın:** Yaramaz, murdar. Daha mənə qadın kimi baxmırdı. Böyük qızlarım onun ucbatından məhv oldular, indi də ilişib bu körpənin yaxasına. Bu da onun

canı. (O arxasında gizlədiyi qanlı pıçağı tamaşaçılara göstərə-göstərə):

-Bu da mənim sonum.Gedirəm polisə təslim olum,qızımı axır ki,qurtara bildim.Qoy heç olmasa qara qutunun künc-bucağında qalan xoş günlərimdən ona pay düşsün.O yaşasın gələn günlərimi.

(O səhnədən qapıya doğru gedir, qapıdan içəri keçir və onu arxasınca bağlayır)

## I şəkil – IV qapı

(Musiqi fasiləsi. Səhnə musiqidən sonra tam sakitliyə qərq olur. 4-cü qapıdan iki nəfər ardıcıl çıxaraq tamaşa zalı ilə üzbəüz dayanırlar.)

**I nəfər:** Dedilər ki, qəzaya uğrayan vaxt içimdən düşüb itən qara qutu tapılıb,gözlərim yaşardı.Mən adamlara deyəndə ki,bu qəzada mənim heç bir günahım yoxdur, inanmırdılar.Şükürlər olsun tapıldı.

**II nəfər:** Qara qutun nə deyir? Günahın nədir? Nə oğurlamısan, nə satmısan,kimi öldürmüsən ?

**I nəfər:** Nə oğurlamışam, nə satmışam,nə də öldürmüşəm. Oğrulara,satqınlara və cinayətkarlara qarşı mübarizə aparmışam.

**II nəfər:** Deyirsən yanı heç bir günahın yoxdur ?

**I nəfər:** Niyə,günahsız adam olmaz. Mənim ən böyük günahım qabalığımdır. Güzəştə getməməyimdir. Bağışlamamağımdır. Bu bağlı qapı arxasında qalmağımın başlıca səbəbi də budur.

**II nəfər:** Sizi nə məcbur edir ki,cəmiyyətdən bu qədər aralı düşəsiniz.Eşitməmisiniz deyirlər ki,palaza bürün elnən sürün.

**I nəfər:** Palaza bürünə bilmirəm,elnən sürünə bilmirəm. Nə palaz mən diyəni deyir,nə el mən dediyimi deyir.

**II nəfər:** (istehza ilə) Deyirsən yəni sən hamıdan ağıllısan.

**I nəfər:** Yox,elə demək istəmirəm.

**II nəfər:** Axı, elə çıxır. Siz həm də özünüzdən razısınız. Güzəştə getməyən,bağışlamayan olduğunuz kimi həm də özünüzdən müstəbehsiniz.

**I nəfər:** Mən öz günahlarımı özüm yaxşı bilirəm. Sizin də bir tərəfdən məni ittiham etməyinzə yol verə bilmərəm. Mən özüm ittihamçıyam, mən çox böyük bir hüquqi vəzifədə olmuşam. Qanun nə deyibsə onu

eşitmişəm.Qanunsuz bir vərəq kağızıda əzməmişəm. Qanun icazə verəndən sonra işlətdiyi cinayətə görə çox qulaqlar kəsmişəm. Heç uf da deməmişəm.

**II nəfər:** Nə qazanmısan ?

**I nəfər:** Nə qazanacam. Qanunlarımıza hörmət etmişəm.

**II nəfər:** Sən cinayət məcəlləsini məndən yaxşı bilirsən. Niyə o maddələr sabit olaraq niyə,nədən bir deyil,1-dən 5-ə,1-dən 8-ə qədər aralanır. Ay yazıq qanun yazanlar da bu başlığı yaratmışlar ki, sənə də bir ağa payı yeri qalsın.

**I nəfər:** Mənə nə ağa payı lazımdır nə də nökər payı. Mən həmişə öz payım uğrunda vuruşub öz payımı istəmişəm. Özgənin payında gözüm olmayıb.

**II nəfər:** Ona görə də bu gündəsən də. Bir həsirsən,bir məmməd nəsir.

**I nəfər:** Nə olsun.Heç kim gedəndə özü ilə heç nə apara bilməyəcək. Kəfənin cibi yoxdur.

**II nəfər:** Yaxşı ki,yoxdur.Yoxsa o bizim tərəfdən olmayanlar o dünyada rüşvət vermək üçün cibləri dolu gedərdilər torpağın altına.

**I nəfər** (Gözləri yaşarınca gülür)**:** Bilirsən nə yadıma düşdü. Deyirəm o dünyaya bir şey aparmaq mümkün olsaydı bilirsən qəbristanlıq nə gündə olardı. Varlı karlını axşam dəfn edərdilər səhər qəbri sökülərdi. Mal-pul hərisləri ölünü də rahat qoymazlar. Yaxşı ki,beş arşın kəfənə bükülürük. Özü də adi ağ sətinə. Yaxşı ki, o da çox baha deyil.Yoxsa ona da nəfsi düşən olardı.

**II nəfər:** Sən indi fikirləşirsən ki, heç kimdən rüşvət götürməmisən o dünyada yerin cənnətlikdir. Onsuz da sən bu dünyada həm özünə, həm uşaqlarına cəhənnəm əzabı vermisən də. Hüquq mühafizə-orqanlarında uzun illər böyük vəzifədə işləyən sən sonda nə qazandın. Təmiz, müqəddəs bir ad qazanmaq üçün hər

şeydən vaz keçdin. Sonunda nə oldu? Gətirib səni gör hara qoydular? Niyə,ağlının ucbatından. Təmiz oldun, nə qazandın? Heç nə. Sən deməsəndə,heç nə. Uşaqların ehtiyacdan başqa heç nə görmədilər. Səndən aşağı vəzifələrdə işləyənlərin hər şeyi qat-qat oldu. Sənin isə ehtiyacın üst-üstə qalandı.

**I nəfər:** Demək mənim keçmişimi başıma vurursan. Düz adam olmağımı çırpırsan kəlləmə. Düz eliyirsən. Düzlük adamı həmişə düzdə qoyarmış. Bu yaxşı misaldır. Ancaq hərdən ona qarşı da vuruşuram .Düzlük...(II nəfər onun sözünü ağzında qoyur)

**II nəfər:** A kişi nə tutmusan bu düzlükdən.Özün dedin axı «Düzlük adamı düzdə qoyar».Nə təhər oldu hamı əyri oldu, bircə sən düz oldun,hə: Nə təhər oldu? O düz demədiyin adamların hər şeyi səndən artıq oldu. Elə hörmətləri də səndən çox. Sən elə düzgün idinsə heç olmasa düzgün,vicdanlı adam kimi xatırlanaydın.

**I nəfər:** Düzgün adam kimi yox,bəs məni necə xatırlayırlar.

**II nəfər:** Necə xatırlayacaqlar, maymaq. Bir adm kimi. İş bacarmayan bir hüquqçu kimi xatırlayırlar. Bəs sən nə bilmişdin heç kimin sözünü eşitməyəni necə xatırlayarlar.

**I nəfər:** Mən qanunun səsini və sözünü eşitmişəm.

**II nəfər:** Əslində heç kim qanunu pozmur. Sadəcə qanunu insaniləşdirir.

**I nəfər:** Bu nə deməkdir,qanunu insaniləşdirir.

**II nəfər:** Bəli görünənlər və görünməyənlər, yazılanlar və yazılmayanlar hamısı insan üçündür. Onun firavanlığı və yaxşı günləri üçündür. Mən axı söhbətimizin əvvəlində xatırlatdım ki, hər maddənin bir neçə bəndi olur və həmin bəndlərdə aşağıdan yuxarı qalxdıqca insanların nəfinə dəyişir. Sən isə həmişə qanunun xatirinə işləmisən,insanların xeyirinə yox.

**I nəfər:** Mən qanun adamıyam.Qanunun tərəfindəyəm.

**II nəfər:** Bax,sən həmişə elə demisən ki,mən qanun adamıyam, qanunun tərəfindəyəm. Ancaq onu unudmusan ki, qanun insanlanra xidmət edir.

**I nəfər:** Bu mənim qanunpərəstliymdəndir. Niyə mənim başqa keyfiyyətlərimdən danışmaq istəmirsiniz. Niyə. Niyə demirsiniz ki, kollegiya iclaslarında nə od yağdırırdı o rüşvətxor ünsürlərin başına. Niyə demirsən ki,onlar həmişə mənim kölgəmi qılınclayırdılar.Niyə demirsən ki, adamlar məni düz danışan kimi tanıyırdılar.

**II nəfər:** Bunlar hamısı düzdür. Ancaq səni əhalinin aşağı təbəqəsi, yəni əlində heç bir səlahiyyəti olmayan hissəsi səni müdafiyə edirdi, yuxarı eşalonda yol gedənlər isə sənin adını belə çəkmək isətmirdilər. Yəqin ki, Bakı--Noraşen qatarındakı SV, kupe, plaskart və opşi vaqonları xatırlayırsan.Səni obşi vaqonda gedənlər kimsəsizlər, yersizlər alqışlaya bilərdilər. İki nəfərlik SV-də gedənlərin opşi vaqonlardan nə xəbəri. Çünki hamını öz dilinlə incitmişdir. Belə bilirdin ki, hamının sənin dədənə borcu var.

**I nəfər:** Mənim dədəmə yox,hamının qanuna hörmət borcu var.Hamı qanuna hörmət etməlidir.

**II nəfər:** Siz çox qəribə danışırsınız. Belə çıxır ki, sizin sistemdə işləyənlərin hamısı qanuna hörmətsizlik edib, sizdən başqa. Axı, bu necə olur? Qanun kitablarını allah-təala göy aləmindən sizin adınıza yendirib? Ay qardaş, vallahi-billahi belə olmaz. Bu da sənin son aqibətin, son iş yerin, qapıların hamısı sənin üzünə bağlıdır. Qanuni,ya qanunsuz.Bir ömür yaşadın, nə qazandın, heç nə. Bütün günü oturub-durub deyirsən ki, qanunlar pozulur. Səndən bir xəbər alan yoxdur ki,sənə nə qanunlar pozulur ? Sən ki, qanun idarəsində deyil adi bir idarədə qaroulçu işləyirsən. O vaxt sən

ipə-sapa yatmayanda sənin yanına gəldim həmin günü xatırlayırsan?

**I nəfər:** Xatırlayıram.

**II nəfər:** Sənə nə dedim.

**I nəfər:** Dedin ki,adam ol,adamlara qoşul.Az bu qanunun yaxasından tut.

**II nəfər:** Sən nə etdin.

**I nəfər:** Onun yaxasından daha bərk tutdum.

**II nəfər:** Sonunda nə oldu.

**I nəfər:** Nə olmalıydı. Görmürsən nə oldu. Daha bundan artıq nə olacaq. İt də getdi,ip də getdi.

**II nəfər:** Bəs sən nə gözləyirdin,deyirdin bəlkə it gedəndə ipi özü ilə aparmayacaq. Heç bu gün fikirləşəndə o vaxtkı səhvlərin üçün təəssüflənmirsən?!

**I nəfər:** Mən heç o günləri xatırlamıram. Və mən bu gündə iş başındayam, qanunun keşiyindəyəm.

**II nəfər:** Sən qanunun yox,indi bir idarə binasının keşiyindəsən.

**I nəfər:** Qardaşım,sən də mənim bu işimi az başıma vur. Mən bu işimdə də özümü əsil qanun adamı kimi aparıram.Quş quşluğu ilə bu binaya yaxın düşə bilməz.

**II nəfər:** Çünki səndən qorxurlar.

**I nəfər:** Söz güləşdirmə. Mən nəyin,nə vaxt kimin yanında danışacağıma cavabdehəm. Sən elə dünənki kimisən. Kim nə deyirsə onu təsdiqləyirsən. Öz sözün yoxdur.

**II nəfər:** Bircə elə sənin öz sözün var. Qalan hamı onun-bunun sözünü danışır.Ağzında onun-bunun dilini gəzdirir. Sən düzəlmirsən ki, düzəlmirsən də. Doğru deyiblər ki, qozbeli qəbir düzəldər. Bəs sən nə vaxt düzələcəksən, ayə, nə vaxt ?!

**I nəfər:** Mənim düzəlib düzəlməmyimin sənə nə dəxli. Ay qardaş, get düzələnlərin yanına də. Get, onlarla otur-dur. Məndən sənə xətər gələr,mən qanun

tərəfindəyəm, qanun. Sən mənim tərəfimdə dura bilmərsən.

**II nəfər:** Hayıf sənə,o diplomdan.Sənə o diplomu verənlərin barmaqları quruyardı.

**I nəfər:** Sizinkindən deyil ona görə hə. Sən və səninkimilər Bakının pivə barlarını, küçələrini veyilləndə mən kitab oxuyurdum.

**II nəfər:** Hə, nə olsun.Oxudun,oxudun və qaldın kitabın içərisində. Elə bildin hər şey kitabdakı kimidir. Ancaq fikirləşmədin ki, həyat kitabı ayrıdır balası, ayrıdır. Ha eşələn o kitabın içində. Sənin yaşıdların və tələbə yoldaşiarın nələr etmədilər. Sənsə tutudun ki,qanundan kənar bir maddəyə nə düşdü var, nə çıxdı. İndi qal bu dörd divarın və bağlı qapının arxasında. Gördün qara qutunda nələr yazılıb:. «Həqiqət və düzlük axtaranda qəzaya uğrayıb».Vəssalam,başqa heç nə yazılmayıb.

**I nəfər:** Bu mənim üçün bəs edər.Daha nə var ki,nə də yazılsın.

**II nəfər:** Köçünü çəkib gedirsən.Bu yol hamı kimi sənin də yolundur.Övladlarına nə miras qoyub gedirsən?

**I nəfər:** Nə qoyub gedəcəm. Əlləri var,ayaqları var. Getsinlər özlərinə gün ağlasınlar. Onlara gün-güzəran qoymaq üçün gərək kiminsə başını kəsəydim. Eləyə bilmərəm,qardaş,eləyə bilmərəm. Canları çıxsın özləri özlərinə çörək qazansınlar. Mən başqalarının cibini kəsib onlara yatırım toplaya bilmərəm. Qoy öz-işləri ilə özləri məşğul olsunlar.

**II nəfər:** Sən desən də,deməsən də artıq onlar öz işləri ilə məşğuldurlar.Onlar yaxşı bilirlər ki,səndən onlar kar aşmaz.

**I nəfər:** Sən öz uşaqlarının fikrini eləsən daha yaxşı olar.Səninkilər də hələ bir yanlıq deyillər.

**II nəfər:** Niyə,bizdə hər şey yerbəyerindədir.Bu gün sabah toylarını eliyəcəm.Ev-eşikləri hazır,ali təhsilləri var.İş yerləri də hazır.Daha nə qaldı.

**I nəfər:** Elə isə başqa qayğıları ilə maraqlan.

**II nəfər:** Digər tərəflərini mən yox,qudalarım fikirləşirlər. Yaxşı yerlərin qızlarını almışam oğlanlarıma, kürəyimi dağa söykəmişəm. Bu zamanın tələbidir. "İndiki zamanda afrist olmalı".

**I nəfər:** Kim qoymur ki,afrist olasan. Ol də. Onsuzda kökdən sən bunu bacarırsan. Sənin güc-bəla ilə oxuduğunu, semestrdən semestrə sürünə-sürünə keçdiyini heç vaxt unuda bilmirəm.Çox istəyərdim ki,o günlərin olub-keçənini unudum. Neyləyim ki, unuda bilmirəm. Sən və sənin kimilər həmişə mənə və mənimkimilərə başçılıq ediblər.

**II nəfər:** Eşitmişəm ki,bütün günü yazı-pozu ilə məşğul olursan.Nə məsələdir.

**I nəfər:** Nə məsələ olacaq.Yarımçıq qalmış işlərimdir.Onlarla bütün gün ərzində məşğul oluram. Gecə məhkəmə eləyirəm,onlara iş kəsirəm,hökmünü bildirirəm.Sonra işimdən kassasiya şikayət verirlər.O biri məhkəmələrin işlərini hazırlayıb keçirirəm.İşlərim ləğv olunanda narahatçılıq keçirirəm. Axı, indi bir hakimin bir neçə işi ləğv olunanda onun özünə də minusdur.

**II nəfər:** Yaxşı olmaz ki,sən indi öz işinlə məşğul olasan. Bəsdir keçmişinlə oynadığın. Artıq sən hüquqşunas deyilsən.İndi tələblər ayrı cürdür. Hələ asıb-kəsdiyin o illərin havası başından getməyib? Bir ayıl,gör ətrafında nələr baş verir. "Həqiqət və düzgünlük" axtardığın bəsdir.Tapılan qara qutun da sənə elə bir şey demir. Həyatını başdan-başa boş-boşuna keçirmisən.

**I nəfər:** Olsun, öldü var, döndü yoxdur. Mənim yolum düzgün yoldur. Mənə sizin aranızda yer yoxdur. Mən gedirəm.

**II nəfər:** Get. Get düzgünlüyünü axtarmağa.(O gedir,açıq qapıdan içəri keçir və arxasınca qapını örtür.Səhnə qaranlıqlaşır.)

## I şəkil – V qapı

(Ağır bir süküt. Səhnə yavaş-yavaş işıqlanır. V qapı aramla açılır. Poçtalyon qoltuğunda qara qutu səhnəyə daxil olur. O, tamaşaçılara tərəf gələ-gələ)

**Poçtalyon:** Heç kim qara qutuya niyə durmaq istəmir.Bu evdə ağız deyəni qulaq eşitmir.Burda hamı danışır.Heç nə başa düşmək olmur.Burda ikicə söz başa düşülür.Onlar da iqtidar, müxalifət sözləridir.Bu qutu da qəzaya uğramış müxalifətin qara qutusudur. Mənə belə də tapşırıq verilib ki,apar qutunu ver müxalifət liderlərinə.Oxusunlar qəzanın səbələrini bilsinlər.Bəlkə bir də səfərə çıxmaq istədilər onda heç olmazsa səhv buraxmasınlar.Mənə nə kim səhv buraxır,kim düz buraxır.Mənə deyiblər ki,qutunu apar ver bu evə,mən də gətirmişəm.Qutunu qoyub Evin qapısına gedirəm.(O elə də edir,dönüb səhnədən çıxır.Tam sakitlik.Bir azdan qapı cırıltı ilə açılır.Üzü tüklü,orta yaşlı bir adam səhnəyə gəlir.Qapının ağzında qara qutunu görüb ona diqqət yetirir.Onu götürüb o tərəf-bu tərəfinə baxandan sonra):

**Saqallı kişi:** Qara qutudur.Bizim qəzanın qara qutusudur.Əslində biz qəzamızın səbəbini bilirik.Bizim heç qara qutuya ehtiyajımız yoxdur.Anjaq yenə də baxmaq lazımdır,qeyri,bizim bilmədiyimiz işlər də ola bilər.Bizim qəzamızın əsas səbəbi özümüzü dərk etməməyimiz,kimə gəldi güvənməyimizdir.Sıralarımızı xatırlayın.Kim daha çox söyüş söyə bilirdisə o irəli çıxırdı. Biz də yuxarı vəzifə postlarına eləcə gəldik. Sözün həqiqi mənasında ziyalı adamlara bizim aramızda yer yox idi,heç indii də yer yoxdur. Bizim işimiz riyakar və məkrli adamlarla daha axşı tutur. Demblok yaratmışdıq. Heç bir razılığa gələ bilmədik. Niyə? Ona görə ki,hamımız vəzifə üçün iddialıyıq. İndi

sizin gözünüzün qarşısında çağıracam hamısı gəlsin meydana, özünüz öz gözünüzlə görün ki,kim kimdir. Və kimin iddiası özündən höyükdür. Bu beşinci qapının arxasındakıların hamısı vəzifə üçün qan-qan deyənlərdir, vəzifə üçün sinov gedənlərdir. Bizim partiyaların bu günə düşməsində onların heç bir sıra nəfərinin günahı yoxdur. Bütün günahlar liderlərin üzərinə düşür. Qəzadan sonra tapılan qara qutu da mən dediklərimi təsdiqləyir. Özü də bu qəza vaxtı liderlərdən birinin də burnu qanamayıb, irəli verib arxalarında başlarını gizləyən özlərindən sonra gələnlərin əksəriyyətini güdaza verib. Mən öz səhvimizi də etiraf etməyi bacaranam. Ona görə də mənim də onların yanında heç bir hörmətim yoxdur. (Tamaşaçılara) Yaxşısı budur onları da çağırım səhnəyə sonra söhbətimizi eləyək. Onsuz da onların sonda bir ayaqları qaçaqdadır. (O qapıdan içəri keçir,səsi eşidilir)

-Gəlin birlikdə çıxaq meydana. O qədər meydan, meydan dediniz ki, bizi hörmətdən saldınız. Arxamızca heç kim gəlmədi. Qəzamızın qara qutusu tapılıb. Gəlin birlikdə ona baxaq qəzamızın səbəblərini saf-çürük eləyək. (Səs kəsilir,qapı açılır. 4 kişi bir qadın səhnəyə daxil olurlar.Gələnlərdən orta yaşlı və orta boylu, çalsaçlı eynəkli bir kişi saqqalını çəpəki süzərək):

-Nə deyirsən indi bizim qəzaya düşməyimizin səbəbləri qara qutuda düzgün göstərilir. Mən ona inanmıram. Beynəlxalq təşkilatlara və xarici ölkələrin Azərbaycandakı səfirliklərinə gedəcəyəm. Bu qara qutu bizim qara qutu deyil. Bunlar hamısı yalandır, böhtandır, məkirdir, riyakarlıqdır. (Saqqalı onu sakitləşdirir):

- Axı siz qara qutu ilə tanış deyilsiniz.Bilmirsiniz ki,orada bizim xeyirimizə ya şərimizə yazılıb.(Eynəkli adam)

-A kişilər,mən bilirəm ki,burada bizim xeyirimizə heç nə yazıla bilməz. Axı bizim xeyirimizə nə yazıla bilər ki? Bu qara qutudur, bizim qəzanın qara qutusudur. Sən dediyin adamlar heç bizim bu qara qutunu görməyiblər. Əvvəlcə onunla tanış olmalıyıq, sonra danışarıq.

**Eynəkli adam:** Onlar bu qutunu görüb-görməyiblər deyə bilmərəm,ancaq onu bilirəm ki, bu işdə onların hökmən barmaqları var. Siz onları o qədər də elə-belə bilməyin.

**Saqqalı:** Onlar doğrudan da elə güclüdülərsə onda çəkilək o kişilərin yolundan,qoyaq bu milləti rahat yaşatsınlar. Bu gün sənin gözlərinin qarşısında göydən gəlsəydi bu qutu yenə onun təmizliyinə inamazdın. Çünki öz için o qədər boğazına kimin doludur ki, heç kimə inanmırsan. Sən heç öz doğma balana da inanmırsan, nəinki məsləkdaşlarına. Nədən danışırsansa yalnız öz xeyirini düşünürsən. Hökmən sən birinci olmalısan, ağlın özünü idarə elədi,ya eləmədi. Biz əvvəl bir partiya idik. Sonra bizi nə günə saldın,allah evini tikisin deyim,ya yıxsın deyim. Onsuz da mənim deməyimlə deyil ki. Elə bil tək partiyalıqdır. Qoy bunlar da danışsınlar. Axı biz blok şəkilində qəzaya uğramışıq.

**Eynəkli:** Biz qəzaya blok şəkilində uğrasaq da hərəmizin öz adımız,öz ünvanımız var. Bizi qaynatsalar da qarışmarıq.

**Eynəkli qadın:** Əgər doğurdan da elədirsə, nə üçün bizi bir blokda seçkilərə təhlik edirdiniz. Bu sizə doğrudanmı vacib idi ?!

**Eynəkli kişi:** Vacib olmasaydı etməzdik.

**Eynəkli qadın:** Mənə sizin haqqınızda çox demişdilər, mən az eşitdim.

**Eynəkli kişi:** Nə demişdilər.

**Eynəkli qadın:** Daha nə deyəcəydilər.Hər şey. Demişdilər onun boyunduruğuna girmə,onun əli yağlı olsa öz başına çəkər ki, heç olmasa daz başına bir-iki tük gələr.

**Eynəkli kişi:** Daha nə demişdilər.

**Eynəkli qadın:** Demişdilər ki, şantajçıdır. Hiyləgərdir. Danışığının başı da, ayağı da özünə xidmətdir. Onun nə ətrafındakılara, nə də xalqına bir kor abbası qədər xeyiri yoxdur.

**Eynəkli kişi:** Belə çıxır ki,sizin hamınızı qəzaya mən uğratmışam.

**Eynəkli qadın:** Belə çıxır yox,belədir. Nə qədər ki, biz ayrı-ayrılıqda fəaliyyət göstərirdik onda bizim ağıllı-başlı hörmətimiz varıydı. Müxalifət partiyası kimi sayılıb seçilirdik. Siz hakimiyyətdə olan müxalifət partiyaları elə fikirləşirlər ki, həmin vaxtdır və onlar istədikləri vaxt hakimiyyətə güclə gələ bilərlər. Səhv fikirdir. Və səhvinizi düzəltmək belə isttəmirsiniz.

**Eynəkli kişi:** Siz nə haqla bizi ittiham edirsiniz. Bizim hakimiyyətdə olan cütlüyümüzün əvəzini heç bir partiya-nə təklikdə,nə də cütlükdə verə bilməz.

**Saqqalı kişi:** Doğrudanmı siz bu fikirdəsiniz ki,sizdən yoxdur.

**Eynəkli kişi:** Təkcə bizdən yox,elə sizdən də yoxdur. Birdə ki,səni tanıya bilmirəm. Sən tamam iqtidar nümayəndəsi kimi danışırsan.

**Saqqalı kişi:** Partiya mənsubiyyətindən asılı olmayaraq mən düz danışmağın tərəfdarıyam. Bir partiyanı neçə yerə bölmüşük. Hələ allah bilir ki,neçə dəfə bölünəcək.

**Eynəkli kişi:** Bu da sizin və mənsub olduğunuz partiyanın liderlərinin işi yetərincə bitməməsinin ucbatındandır.

**Saqqalı kişi:** Deməyindən belə çıxır ki,sizin heç bir günahınız yoxdur.

**Eynəkli kişi** (təmkinlə): Sizin partiyanın parça-parça olmasında mənim nə günahım ola bilər ki?

**Saqqallı kişi:** Bir az ətraflı düşünsəniz öz günahlarınızın ən azı toxumunu görə bilərsisniz. Çünki sizin barmağınız dəyməyən yer xarabalığa çevrilməz. Siz başdan-başa nifaq toxumusunuz. Budur qara qutunun əsası sizin əməllərinizdən danışır.

**Eynəkli kişi:** Mən ona görə də deyirdim ki, o qutunu açmayın. Ona görə yox ki,onlar mənim əleyhimə nə isə deyəcəklər, ona görə ki, bizim aramızı vuracaq. Çünki biz ölkənin ana müxalifətiyik.

**Saqqalı kişi:** Əslində bizim ana partiya olmağımız bu xalqa heç nə vermir. Biz dalbadal neçə seçkilərdə iştirak etmişik. Hamısında da məğlub olmuşuq. Bir eynəyinizi çıxarıb bu tamaşaçılara açıq gözlə baxın. Onların bizə hörməti qalmayıb. Həmişə vəd vermişik, yerinə yetirməmişik. Həmişə yalan danışmışıq, öz yalanlarımıza don geyindirmək üçün yeni yalanlar uydurmuşuq. Heç kim bizə inanmır. Dünənki tərəfdarlaımızı da itirmişik. Qalmışıq biz özümüz, bir də bizdən bəhrələnən qohum-qəbiləmiz.

**Eynəkli kişi:** Belə görürəm ki,sən tamamilə yanıqlısanmış ki ?

**Saqqalı kişi:** Yanıqlı niyə oluram. Düz danışanda da belə deyirsiniz. Sən bizim hamımızın gücünü bir yerə cəmləyərək blok yaratmısan, əvvəlcə «Dem-blok» deyirdin, indi adını qoymuşuq «Azadlıq» bloku. Kimdən azad olmaq istəyirsən. Bizi də salmısan cənginə ki,nə var,nə var biz ana müxalifətik. Biz ana müxalifət deyilik. Biz heç bir təsir güjünə malik deyilik.

İstər başa düşə-düşə bu həqiqəti qəbul edək, iəstərsə də hərəmiz bir çaylaq daşı götürüb başımıza vuraq. Daha nə «dar blokdan» bizə xeyir gələr,nə də «gen blokdan».Xalq bizə inanmır. Gəlin özümüzü aldatmayaq. İqtidarla aramızdakı uçurumları bərpa etməsək, yaranmış yeni körpülərdən məhəbbətlə keçməsək bizə inam bir az da öləcək. Onda lap yazıq günə qalacağıq.
(Eynəkli qadın söhbətə qarışı):

-Mən sizinlə tamamilə razıyam. Bizə inam yoxdur.Çünki biz özümüz bu inamı qırmışıq.
(Bayaqdan danışanlara fikir verə-verə topa bığlarının bir tərəfini ağzında çeynəyən,saçları gur olsada çalanan partiya lideri):

-Xalqın bizə təkcə inamı yox,həm də etibarı ölüb. Topunan, tüfəngnən hakimiyyətə gəldik bir il duruş gətirə bilmədik. Çünki zorla hakimiyyəti yiyələnmişdik.İndi o vaxtdan keçən on-on beş il ərzində neçə prezident və parlament seçkilərində iştirak etmişik. Xalqın etimadını qazana bilməmişik. Bu kişi düz deyir. (O əli ilə saqqalı kişini göstərir) Xalqın bizə inamı yoxdur.

**Eynəkli kişi:** Xalqın bizə inamı var. Özü də əvvəlki illərdən də yaxşı. Biz öyrənmişik ki,həmişə özümüzü alicənab göstərmək üçün özümüzü tənqid edək. A kişilər boynunuzdakı o narıncı rəngdən utanın.O doğan günəşin rəngidir. Ona baxın, içərinizdə bir səhər təravəti olsun. Çıxın bu bədbinliyin çirkabından. Üç dəfə məğlub olmuşuq, dördüncü dəfə qalib çıxarıq. İnşallah...

**Saqqalı kişi:** Mənim mənsub olduğum partiya sizin bu nikbinliyinizə qətiyyən inanmır.

**Eynəkli kişi:** Niyə bizim nikbinliyimiz sizi belə bədbinləşdirir. Ay qardaş,sabaha ümüdlə baxmasaq yaşaya bilmərik ki? Hələ bizim arxamızca gələnlər.

Onların bütün ümüdləri bizdədir. Biz də başlamışıq ki,biz daha tükənmişik.

**Saqqalı kişi:** Biz heç vaxt deməmişik ki,biz tükənmişik.Bu sözdə sənin ağzından çıxdı.Bilirsiniz nə var,bizim ideyalarımız sizin ideyalarınızla heç vaxt üst-üstə düşməyib.

**Eynəkli kişi:** Necə üst-üstə düşmür ki,biz on bir ay hakimiyyəti birgə idarə etdik.

**Saqqalı kişi:** Necə idarə etdiyimizi,torpaqları nə günə saldığımız hamının yadındadır.Məmləkəti də bir günə saldıq ki, hələ də düzəldib qurtarmayıblar.

**Eynəkli kişi :** Sən tamam iqtidar kimi danışırsan ki!

**Saqqalı kişi:** Nə tutmusan bu iqtidar müxalifətdən. Biz tamamilə unuduruq ki,biz də bu Vətənin oğluyuq. Qəribə işdir əgər hakimiyyətdə təmsil olunmamışıqsa demək bu iqtidara düşmən kəsilməliyik.On bir ay hakimiyyətdə olduq respublikanı damadağın etdik. Qardaşı qardaşla düşmən elədik. Bir tikili qoymadıq, Azərbaycanı xarabazara çevirdik. Dövlətin xəzinəsinədək taladıq,bir evdə adamları bir-birinə düşmən etdik.

**Eynəkli kişi:** Mən indi belə fikirləşirəm ki,sənin kimiləri o zaman bizim içərimizə soxuşdurmuşdular.

**Saqqalı kişi:** Bunu həmişə sənin adınla qoşa çəkirdilər.

**Eynəkli kişi:** Nəyi mənim adımla qoşa çəkirdilər.

**Saqqalı kişi:** Nəyi olacaq, o soxulmaq sözünü. Sənin ünvanına bu söz daha çox yaraşır. Hansı qüvvələrin gücü ilə bizim içərimizə pərçimlənməyin də məlumdur. Ona görə də neçə dəfələrlə uduzduğuna, partiyanı hörmətdən salmağına baxmayaraq, partiya sədrliyindən qopmaq istəmirsən ki,istəmirsən.

**Eynəkli kişi:** Bu dediklərin hamısı öz partiyanıza aiddir. Əgər bizim partiyada da parçalanma getsəydi biz də sizin kimi üç yerə bölünərdik. Ancaq bölünən sizsiniz.

**Saqqalı kişi:** Bölünməyimizə rəvac verənlərdən biri də sizsiniz.

**Eynəkli kişi:** Ağlınız var bölünməyin. Hələ siz tamam yox olacaqsınız.Ona görə ki, mövqeyiniz bilinmir. İçərinizdəki liderlərin hamısı iki tərəfə işləyir. İndi mənimlə elə danışırsan ki, elə bil iqtidar partiyasının lideri ilə teledebatdayam.

**Eynəkli qadın** (Saqalı kişiyə): Bizi çağırdınız ki,burda sizin dalaşınıza şahidlik edək. Onsuz da sizin əlinizdən zara gəlmişik. Belə getsə biz sizin təşkil etdiyiniz blokdan çıxacayıq.

**Eynəkli kişi:** Siz yalvarın ki,bizimlə bir blokda qalın.Bu sizə ancaq sərf gətirə bilər.

**Eynəkli qadın:** Siz özünüzü nə hesab edirsiniz. Siz özünüzü elə aparırsınız ki,elə bil Azərbaycandakı alçaq təpələrin hamısın sən dağ eləmisən ! Çox da belə hay-qışqırıq salma. Sənin 11 ay hakimiyyətdə olduğun vaxt nələr etdiyin sənin taleyində qara xətlə yazılıb. Sən əslində həmin vaxt qəzaya uğramısan və bu qara qutuda da sənin həmin əməllərin qeyd edilib. Sən özün məşhər ayağında ola-ola bizi məhşərə çəkirsən. Sənin də sonluğundu. Qara qutuda yazılanların 90 faizi sənin adınla bağlıdır. Müxalifətin qəzaya uğramasında əsas səbəbkar sənsən, sən. Sən müxalifət adında nə varsa hamısına ləkə vurmusan. İndi hay-qışqırıqla üzdə qalmağına baxma,sənin partiyadaşların yanında belə hörmətin qalmayıb. Nöqsanlarını boynuna al, keç dur adilər sırasında,bəlkə birdə özündə güc tapa bildin,yazıqsan.Bu adamlara yazığın gəlsin, onsuz da özünə yazığın gəlməyəcək. Görürsən (o biriləri göstərir) , biz danışırıq, onlar qulaq

asırlar. Bu ağzına su alıb susanlar fürsət gözləyirlər ki,nə vaxsa biz qalib gələcəyik,bunlara da pay düşəcək. Ə,niyə susursunuz. Bu üç yerə parçalanmışların aqibəti sizi də gözləyir.

**Susanlardan biri:** Danışıb nə deyək. Ağsaqqalımız sənsən səndə danışırsan. Sizin qələbənizi də məğlubiyyətinizi də özümüzünkü hesab edirik. Qara qutuda bizim ünvanımıza heç nə yoxdur. Nə olsun ki, sizin ünvanınıza deyilənləri özümüzünkü kimi qiymətləndiririk.

**Eynəkli kişi:** Yaxşı,yaxşı! Üç cümlə dedin ikisi təkrardı,düz deyirsən, danışmağınızdan danışmamağımız daha yaxşıdı. Məntiqiniz yox,platformamız yox. Müxtəlif fikirləri eyni müştəriyə gətirmək üçün günlərlə vaxt sərf edirsiniz. Ona görə də tutun ətəyimdən hara gedirəmsə sizi də aparım.

**Saqqalı kişi:** (Saçları tamam seyrəlmiş, boyu iki aşıq bir saqa boyda olan partiya liderinə müraciətlə) Siz niyə susursunuz. Sizin ki,danışıq qabiliyyətiniz var. Televizorda danışanda bir adama imkan vermirsən ki,ağzını açsın. Nə olub, yoxsa elə bilirsən ki, susub durmağın hikməti burada da sənə köməklik edəcək. Danış, qara qutunun sənə nə dəxli var.

**Bəstəboy lider:** Mənə nə dəxli var. Mənim partiyam neyləyib ki? Heç özümdə bilmirəm ki, mənim partiyamın nə qədər üzvü var.Biz kimə neyləmişik.Biz od olsaq olsa-olsa yeni blokun ayaqlarını qarsaya bilərik. O ki,qaldı şəxsən özümə.Özüm...

**Saqqalı kişi** (onun sözünü kəsir): Elə sənin özün və əməllərin barədə yazılıb qara qutuda. Blokun qəzaya uğramasında şəxsən sizdə yaxından iştirak etmisiniz. Siz 11 aylıq hakimiyyətin ən böyük vəzifəlilərindən sayılırsınız. Siz o vəzifədə necə də yazıq görünürdünüz. Amma bu yazıq gökəmlə nələr etmədiniz.

**Bəstəboy lider:** Boy,boy. Buna baxın ə. Bizi istintaq edir. Bəs siz neyləyirdiniz. Biz ölkəni dağırıdıq, siz onu qururdunuz?! Yox, siz də sökürdünüz bir tərəfindən.Sadəcə kim hardan və necə sökürdü,bu ayrı iş idi.

**Saqqalı kişi:** Bir az səmimi olaq. Biz burda hamılıqla müxalifətik. Biz o zaman hakimiyyətə gəlməyə hazır idik, ya yox ?

(Pauza.Kimsə bu suala cavab vermək istəmir.Sükutu eynəkli kişi pozur).

**Eynəkli kişi:** Nəyə görə belə fikirləşirsiniz ki,biz hakimiyyətə gələndə hakimiyyəti idarəetmə səriştəmiz olmayıb. Bunu sizə kim deyib.Bir az təcrübəmiz azlıq edirdi.

**Saqqalı kişi:** Və öz bəhrəsini verdi.

**Eynəkii kişi:** Əlbəttə,dedim ki, təcrübəsizlik. Çoxlu səhvlər və güzəştlər etdik. Kimlərisə bağışladıq.

**Saqqalı kişi:** Bağışlamaq! Bu sizin boyunuza necə də yaraşmır.

**Eynəkli kişi:** Niyə ?

**Saqqalı kişi:** Niyəsi yoxdur ki? Siz heç kimi və heç nəyi bağışlamırsınız. Siz Respublikaya başçılıq etdiyiniz bir neçə həftədə məhkəmələr tərəfindən ölüm cəzasına məhkum olunmuş 7 nəfər vətəndaşımızın cəzasını yüngülləşdirmək əvəzinə onların güllələmək cəzasını təsdiq etdiniz. Ona görə də deyirəm ki,siz heç kimi bağışlamarsınız.

**Eynəkli kişi:** Bura bax,başından yekə danışma. Bildiyin şeydən danış. Mən heç kimin güllələnməsi cəzasını təsdiq etməmişəm. Bunlar sənin kimi adamların şantacıdır. Məni hörmətdən salmağın bir yoludur. Bala mən sən girən kol deyil. Get özünə kol axtar ki, başını soxanda dalın açıqda qalmasın.

**Saqqalı kişi:** Ağzını düzənməli aç o dəqiqə bilinir ki,deyilənlər düzdür. Bu xalqın başına gətirdiyin oyunların çoxu da elə bizim adımıza yazılıb.İndi qara qutunun lentini oxuyuram.Günahkarın kim olduğunu bir daha təsdiqləyirəm.

**Eynəkli kişi:** Kimdir günahkar.

**Saqqalı kişi:** Kim olacaq,kim deyən.

**Eynəkli kişi:** Bura bax,kiminlə danışdığını bil. Bu saqqalını köhnə britva ilə elə qırxdıraram ki, gözlərinin yaşı gildir-gildir axar. Ağlını başına yığ. Əlbəttə əgər varındısa. Məni təbimdən çıxarma (O yanındakılara) Elə bil iqtidar partiyası mənim haqqımda danışır.

**Saqqalı kişi:** Ağzını təmiz saxla və onu da bil ki, sənin bu siyasət aləmində heç bir hörmətin qalmıyıb. Ya da səlahiyyətini başqa birisinə tapşır və get gizli biznesinlə məşğul olmağa.

**Eynəkli qadın** (Hər ikisinə): Yaxşı. Siz allah daha sizə nə deyim. Elə danışırsınız ki,kənardan baxan eşitsə sizin partiyalara inamı kökündən ölər.

**Eynəkli kişi:** Cəhənnəmə ölsün, bir də gorun dibinə ölsün. İndi deyirsiniz bu məni təhqir etsin. Mən də oturub baxım. Canım çıxıb siyasət meydanında, deyirsiniz yanı yerimi bu dünənki velmoclara verim. A bala, sənin kimilər gərək illər boyu bu dərəni üzü yuxarı,üzü aşağı otlaya ki, mənim qırpdığım can dərmanını və siyasət otunu tapa. İllər boyu kövşəyə udum-udmayım, deyə və bir qəti qərara gələ. Get öz işinlə məşğul ol, səndən siyasət adamı olmaz. (Səhnədə olanlar bir-bir ona müraciət edirlər).

-Bəs bizdən necə siyasətçi olarmı ?

**Eynəkli kişi:** Heç sizdən də siyasətçi olmaz. Ona görə olmaz ki, sizin ürəyiniz yumuşaqdır, bir az da kövrəkliyiniz var. Siyasət adamı anadan doğulmur, o həyatın xoş və bəd üzündən yaranır.

**Səhnədəkilər** (birlikdə): Bizə indi nə desən haqqın çatır. Ona görə ki,sənin o şirin və qır saqqızlı dilinə aldanmışıq. Hərəmiz öz partiyamızın işi ilə məşğul olsaydıq indi biz də sayılıb seçilərdik. Yoxsa,sən hara biz də ora,deyə-deyə özümüzü yaman günə qoyduq.

**Eynəkli kişi:** Ağlınız varıydı qoymayaydınız. Bu da bir siyasətdir. Ağılsızları öz tərəfinə çək, ağıllıların başında turp ək. Necə ki,mən sizin başınızda soğan-sarımsaq əkmişəm. Əksəriyyətinizin beyni sarımsaq iyi verir. Bir də ki,sizin arxanızca düşüb yalvaran yoxdur ki, gəlin mənim partiyamla müttəfiq olun. İndi siz qara qutudakılara baxıb bütün günahları mənim boynuma yıxırsınız. Bəs,görəsən bu iqtidardakıların heç günahları yoxdur.

**Saqqalı kişi:** Sənə nə dəxli kimin günahə nə dərəcədədir. Hər qoyun öz qıçından asılır,deyiblər.Hər kəs öz günahına görə özü cavab verir. Bizim qəzaya uğramağımızın əsas səbəbi də bizə aiddir. Başqa heç kimdə günah axtarmayaq. Biz xalqa hörmət qoymadıq, xalq da bizi murdar bir zad kimi atdı tarixin arxivinə. Düzdür sənin həyatının elə yerləri var ki,bir onlar məhv olsun deyə bütövlükdə Azərbaycan dövlətinin arxivini yandırarsan. Sən belə birisən.Özün fikirləş,daha mən açıqlamaq belə istəmirəm ki, sən nə təhər birisən. Tək öz kürsünü əlində saxlamaq üçün bu millətin başını belə kəsməyə hazırsan.

**Eynəkli kişi:** Mən də deyirəm ki, bizim sirrimizi kim ölkədə car eləyir. Daha demiyəsən ki,içimizdə belələri var. Hərdən də onun adına tostlar deyirik. Demiyəsən bunun boynu kəndirliymiş. Axır ki,sənin iç üzünü gördük. Deməк bizim blokun agenti bu imiş. Nadürüst.

**Saqqalı kişi:** Öz adını mənə qoyma. Hamı bilir ki,dürüst kimdir, nadürüst kimdir. Bütün ölkə səni yaxşı

tanıyır. Xaricdən aldığın satqınlıq əvəzi pulların arxasında başını gizləməyinən deyil,başını koldan çıxar,gör adına nə deyirlər. Sənin zəhərin gözlüklü ilanın zəhərindən betərdir.

**Eynəkli qadın:** Bəsdir, sizin bu eybəcərliklərinizə qulaq asdıq. Bu gündən sizin bloku tərk edirik. Sizinlə bizimki tutmaz.

**Çalsaqqal lider:** Bizimki də sizinlə tutmaz.

**O biri:** Elə bizimkidə.(Onlar üçü də səhnədən aşağı düşüb tamaşaçılara qarışırlar.)

**Eynəkli kişi** (Saqqallıya): Sən niyə dayanmısan sən də qop bizim blokdan. Sonra burnunuzun ucu göynəyəcək bizdən yana. Gedin, bu meydanda hər oğul tikiş tuta bilməz.

**Saqqallı:** Hələ səninlə döyüşümüz öndədir. Sənin qabağından qaçmaq döyüşdə düşmən qabağından qaçmaq qədər təhlükəlidir.

**Eynəkli kişi:** Deməl mən düşmənəm, he?!

**Saqqallı:** Özün fikirləş sən kimsən. Özün hamıdan yaxşı bilirsən sən kimsən. Hələ bizim döyüşümüz öndədir.

**Saqqallı:** Sənin məkrinlə döyüşmək düşmənlə döyüşməkdən çətindir.Sən və sənin kimilər.

**Eynəkli kişi:** Həm də sənin kimilər.

**Saqqallı:** Sən və sənin kimilər 90-cı ilin yanvar qırğınından elə çıxdılar ki,bir müxalifət liderinin burnu belə qanamadı.Düzdür,düz deyil.

**Eynəkli kişi:** Əşi söz güləşdirmə, (yana) bir mənə deyən yoxdur ki,buna niyə baş qoşursan. Axı bunun nə siyasətdə, nə də mədəniyyətdə yeri var.

**Saqqallı:** Bircə sənin yerin var. Qal bu meydanda tək. (O 5-ci qapını açıb içəri girir və arxasına örtür)

**Eynəkli kişi:** Hamısı əsəbdən xəstədir.Birinin əlində durumu yoxdur. Bunları beləcə məhv edəcəyəm. İndi görsünlər kim-kimə işləyir.

(İşıq sönür. Qaranlıq bir pauza. Qapı çırpılır. Eynəkli kişinin səsi gəlir).

Adlarını siyasətçi qoyublar, əldə durumları yox-dur. Bu da onların qara qutuları (acı-acı gülür).

Səhnə işıqlanır

## I şəkil – VI qapı

(Qapı açılır. Səhnəyə orta yaşlarında bir qadın çıxır. Onun arxasınca 45-50 yaşlarında kişi,onun arxasınca yaşlı qadın və əlindən tutuduğu 13-14 yaşlarında oğlan uşağı. Qadın çox diribaş qadına oxşayır. Onun iki sözündən biri «ay kişi, bu işlər niyə belə oldu» sözləridir)

**Qadın:** Ay kişi, bu işlər niyə belə oldu ?

**Kişi:** Nə təhər oldu, arvad. Bundan yaxşı nə ola bilər ki?!

**Qadın:** Daha harası yaxşı oldu bu qonşularımız ki,var lap ağ eləyiblər. A kişi, belə də qonşuluq olar? Gör neçə illərdir bu binadayıq hələ birinin adını bilmirik. Birdə ki, lap yaxşı ki,bilmirik. Belə qonşulardansa olmasa yaxşıdır.

**Kişi:** Nolub bu qonşulara.

**Qadın:** Deyirlər, hərəsi bir şeydən qəzaya uğrayıblar. Onların qara qutusunu tapıb gətirən paçtolyon deyirdi.

**Kişi:** Bəs biz nədən qəzaya uğramışıq,arvad.

**Qadın:** Öz ağlımızın ucbatından.

**Kişi:** Nə təhər yəni ağlımızın ucbatından.Ağılın bu qəzaya nə dəxli var.

**Qadın:** Dəxli var kişi,dəxli var.Bir vaxt sənə deyirdim.

**Kişi:** Nə deyirdin,arvad.

**Qadın:** Deyirdim ki, a kişi bu dünyaya içimizi düzəldək. Yoxsa basıb gözümüzü çıxaracaqlar.

**Kişi:** Kim basıb gözümüzü çıxaracaq.

**Qadın:** Kim olacaq, o yeri bilinməz,gözə görünməz. Sən də deyirdin.

**Kişi:** Nə deyirdim.

**Qadın:** Deyirdim ki, indiyə kimi o kimin gözlərini basıb çıxarıb. İndi mən sual verirəm. O kimin haqqını başqasına yedizdirib.

**Kişi:** Hamının haqqını, öz haqqı bilənlərin hamısının.

**Qadın:** Çox qəliz danışdın. Bir az xırdala bu haqları.

**Kişi:** Mənim buna nə vaxtım var, nə də həvəsim. Elə maraqlanırsan o cümləni düz qarşına təhlil et, başından tutmuş budağına qədər, saf-çürük elə.

**Qadın:** Bəlkə demək istəyirsən ki, haram yeyənlərin.

**Kişi:** Arvad, bu halal-haram dediyin ki,var hamısı nisbi məsələdir. Sənə və mənə haram görünənləri halal bilib elə sümürənlər var ki?

**Qadın:** Harda qulaqlanacaqlar bir onu o yeri bilinməz, gözə görünməz bilir.

**Kişi** (bir qədər hövsələsiz): Yaxşı, sən Allah, bu halal-haram elə bircə bizim üçündür. Gör neçə illərdir sənin bu ideyan bizi xəstə eləyib.

**Qadın:** Niyə, nə olub.

**Kişi:** Heç nə,daha nə olacaq. 20 ilə yaxın vəzifədə işlədim, hər gün mənim yadıma saldın ki, kişi yer üzündə halal-haram var. Deyəndə ki, bilirəm. Deyirdin bil.Amma tələb edirdin ki, hamıdan yaxşı yaşamalıyıq. Hər gün bir hava çalırdın. Gah nala döyürdün, gah mıxa. Hamıdan yaxşı dolanmaq istəyirdin, nəfsini də əldən buraxmırdın, ancaq hər dəqiqə haram və halal kəlmələrini domokl qılıncı kimi asmısan başımın üstündən, indi də deyirsən ki,bəs biz niyə qəzaya uğradıq. Dilimizdə halal-harama qarşı cihad etsək də içimizdə harama yol daha geniş açılmışdı. Son vaxtlar qohum-qonşuya qarsı bir paxıllıq da varıydı. Bir zamanlar onlarla can, deyib can

eşidirdik. Elə ki, halal-haram arası yolda ikincisinə daha çox yaxınlaşdıq onda bizim qəzaya uğramaq anlarımız yaxınlaşdı. Bunları görürsən (o anasını və 13-14 yaşlarında oğlan uşağını arvadına göstərərək).

**Qadın:** Niyə görmürəm.

**Kişi:** Anam artıq 30 ilə yaxındır ki, danışmır. Uşaqda onun kimi. Hər gün onlar əl-ələ tutub gəzişirlər. Gözlər baxır, dil danışmır. Ağır dərdir.

**Qadın:** Bu təkcə sənin dərdin deyil, bu həm də mənim dərdimdir, kişi. Biz bu dərdi gör neçə illərdir birlikdə çəkirik. Neynək...

**Kişi:** (Qadının sözünü kəsir) Əlbəttə, daha neynəməliyik. Bu da bizim ailənin gözmuncuğudur.

**Qadın** (ah çəkir): Haramla, halalı qarışdıran təkcə bizik?!

**Kişi:** Əlbəttə yox. Bir bəlkə o göylər sakini haramı halala qarışdırmaya. Yoxsa yer üzündə bunlar çoxdan bir-birinə qarışıb.

**Qadın:** Bəlkə də Adəmlə Həvva yer üzünə gələndən.

**Kişi:** Nə bilim,bəlkə də.

**Qadın:** Bəs onda niyə təkcə biz bu qarışığa görə qəzaya uğramışıq. Və tapılan qara qutumuzda bir başa yazılıb ki, qəzanın səbəbi halala haramın qatılmasıdır.

**Kişi:** Elə təkcə bizik onları bir-birinə qarışdıran? Xeyir, təkcə biz deyilik.

**Qadın:** Bəs onda niyə təkcə biz bu adla qəzaya uğramışıq. Gündəlik xəstəliyə çevrilib. İkiüzlülük, riyakarlıq, məkirli olmaq həyatımızın əsas aparıcı xətləridir. Hərə bəlkə bir yolla qəzaya düşür hə.

**Kişi:** Arvad, o baxır uçuşa. Elə uçuş var ki, onun qəzasını aradan qaldırmaq mümkündür. Görünür biz çox hündürdən və qüsurlu uçuş keçirmişik. Ona görə də qəzaya uğramışıq. Mən də bu qəzanın əsas

səbəbini halala haramın qatılmasında görürəm. Eləleri var ki, onlar ona haram düşür, bizə düşmədi, indi vurub özümüzü öldürməliyik?! Bu da bizim qismətimiz. İndi qalmışıq qapı daldalasında. Elə deyirik ki, təkcə biz halalı harama qatmışıq? Birinə düşür,birinə yox. Bu qarının nəyi, mənim anamın, bu uşağın – bizim oğlumuzun nə günahı varıydı ki.

**Qadın:** Kişi, onlar da ojağımızın başına gələn haramın hesabına olublar. Mənim ürəyimə belə gəlir. Bizim günahlarımıza görə onlar jəzalandırılıblar.

**Kişi:** Olmazdı ki, özümüzə veriləydi o cəza.

**Qadın:** Bizə verilən cəzalardı,kişi. İki əziz adamımız gözlərimizin qarşısında əzab çəkir, biz də onlarla birlikdə. Özüm olsaydım bəlkədə bu qədər əzab çəkməzdim. Sən necə.

**Kişi:** Mən istəməzdim ki, onları dirigözlü görüm. Arvad indi biz neyləyə bilərik ki, qara qutudakı günahlarımızı yuya bilək.

**Qadın:** Bu o göylərin işidir. Bağışlayan odur.

**Kişi:** Görəsən, bağışla desək bizi bağışlayar.

**Qadın:** Gəl birlikdə dua edək,bəlkə bağışladı.

(Onlar birlikdə həzn səmavi musiqi altında dua edirlər. 6-cı qapı açılır. Birlikdə qapıdan içəri daxil olurlar, musiqi davam edir.Səhnə qaranlıqlaşır. Musiqi dəyişilir. Səhnə işıqlanır.

## I şəkil – VII qapı

(Poçtalyon səhnəyə gəlir, onun əlində qırmızı qutu var.O çox şəndir.Gəlib tamaşaçılarla üzbəüz dayanır):

**Paçtalyon:** Axır ki,bu bağlı qapıların qara qutuları ilə tanış oldunuz. Hər kəs öz günahına görə qəzaya uğrayıb. (Əlindəki qırmızı qutunu göstərərək) :

- Bu da 7-ci qapının qırmızı qutusu. (sevincək) Baxın üzərində nə yazılıb. «Səyyar seçki qutusu» (Baxın deyərək bütün səhnə boyu hərəkət edir) Bu gün ölkəmizdə parlament seçkiləridir. Ölkə əhalisi öz layiqli oğul və qızlarına səs verir. Tapşırıq belədir ki,bir nəfər də olsun səs verməFdən kənarda qala bilməz. Bu bağlı qapı arxasındakılar da hansı sifətin və ideyanın sahibi olursa-olsun bizim məmləkətin üzvüdürlər. Onlar hansı dinə xidmət etmələrindən asılı olmayaraq səs vermədə iştirak etməlidirlər. Kimə səs verəcəklər bu onların öz işidir. (O bir-bir qapıları döyür. Qapilar açılır. Bütün qapı sakinləri səhnəyə çıxır).

**Poçtalyon:** Parlament seçkiləridir. Namizədlərdən hansına istəyirsiniz səs verin. Hər birinizin qapısının arxası da bir şirmayıdır. (İştirakçılar bir-bir bülleten alır. Qapının arxasına keçirlər. Qısa fasilədən sonra səhnəyə qırmızı qutunu qucağında saxlayan paktalyonun yanına gəlirlər. Onlar qatlanmış bülletenləri qutuya salırlar. Paçtalyon yarıgerçək, yarızarafat onlardan xəbər alır.)

**Poçtalyon:** Əgər sirr deyilsə bilmək olar ki,kimə səs verdiniz.

**Hamı bir nəfər kimi:** Haqqa,ədalətə və gələjək daha xoş günlərimizə səs veririk. Səhv etdiyimiz,odu həmişə öz tərəfimizə çəkdiyimiz bəs edər. Biz ha-

mılıqla, bölünmədən xalqımıza xidmət etməliyik. Ancaq xalqımıza,vətənimizə səs verməliyik.Və belə də etdik.

**Musiqi:** Bütün iştirakçılar səhnəyə çıxırlar.

**S O N**

**28.08.2006-04.09.2006**
**Naxçıvan şəhəri**

# YAXŞI QONŞU, HARDASAN

*Kamran kişi* - 55-60 yaşlarında 1 qonşu,yükünü özüboşaldan maşınının sürücüsü.
*Qönçəbəyim*- Kamran kişinin arvadı. 45-50 yaşlarında
*Vüqar* - Kamran kişinin oğlu, 25-30 yaşla rında
*Qoçəli* - II qonşu, kommersiya ilə məşğul olan, 45-50 yaşlarında.
*Elgün* - Qoçəlinin arvadı-35-40 yaşlarında, həkim pediatr. Məhəllə həkimi.
*Məmiş kişi*- Məhəllə çayxanasının müdiri.
*Məhəllə sakinləri.*
*Qadınlar.*
*Ziyalı görünənlər və başqaları.*

## I PƏRDƏ

### I şəkil

Əhvalat bir əyalət şəhərində baş verir. Qışdan çıxıb üzü yaza gedən bir zamandı. Kamran kişinin həyəti.O fikirli görünür.Bəlkə də bir qədər yorğun. Vərgər edib tut ağajının dibində qoyulmuş kətilə əyləşir. Həyat yoldaşı Qonçəbəyimin gəlməyi sükutu pozur.

**Qönçəbəyim:** Nə var, a kişi, elə susub dayanmısan ki, elə bil dilin-ağzın yoxdur.

**Kamran kişi:** Danışıb nə deyəcəm.

**Qönçəbəyim:** Bəs susmağınla nə demək istəyirsən? Bəlkə kiminsə borcunu sən ödəyirsən. Ya sənə tapşırıq verilib ki, Gürcüstanın Azərbaycana olan borcunu sən ödəyəsən, hə?! Sözünün canını de,mən də bilim ki,ürəyində nələr yatır.

**Kamran kişi:** Yaxşı ay arvad bu sükutun içərisindən bir tufan qoparma.Sadəcə hövsələm yoxdur, vəssalam.

**Qönçə:** Səbəbi. Səbəbini bilmək olmaz. Qohumlar gəlir bizə burnun o qədər yernən gedir ki,onlar da bir tikə kəsməmiş çıxıb gedirlər. Olmaz ki,mussmus deyincə bir dəfə Mustafa deyəsən. Sənin də canın dincəlsin, mənim də.

**Kamran:** Ay Qönçəbəyim, ucun alıb ucuzluğa getmə. Sadəcə bir az yorğunam. Hər şey keçib gedər, bir çay gətir. Çay içə-içə dərtləşərik. Fikirlərim də dağılar. (Pauza)

(Kamran üzü tamaşa zalına): -Bu Qönçənin gözündən heç nəyi yayındırmaq olmur. Bir az qanı qara oldunmu başlayır, nə başlayır. Qanqaralığını çıxarmayana qədər danışır. Danışdıqcada əsəbləşir. Bir qədər deyingən olsada pis ömür-gün yoldaşı deyil. 20 ildir bir yerdəyik hələ ondan bir incikliyim olmayıb.

(Qönçəbəyim əlində iki finjan çay səhnəyə daxil olur. Kamrana müraciətlə):

**Qönçəbəyim:** Gəl, ay kişi, gəl. Gəl gör sənin Qönçən necə çay dəmləyib.

**Kamran** (ona yaxınlaşa-yaxınlaşa): Sən nə vaxt pis çay dəmləmisən ki ?

**Qönçəbəyim** (üzü tamaşaçılara): Evlərdə çox vədə söz-sov xırda-xuruş işlərdən baş verir. Kişi deyingən olsa çətindir. Hələ bu günə kimi pişirdiyim xörəyə əlavə duz səpməz. Lap duzsuz olsa belə. Azdan çoxdan yeyər, yedikcə tərif edər bişmişlərimi.

Hələ kiminsə haqqında xoşagəlməz söz dediyini eşitməmişəm. Xobbisi boş vaxtlarında qəzet oxumaq, birdə televizora baxmaqdır. Bir nöqsanı odur ki, burnu yerlə gedəndə onu qaldırana kimi saatlar keçir.Kimsə ilə işi olmaz, susar birdən danışar.

**Kamran kişi:** Ay Qönçə, kiminlə danışırsan?

**Qönçə:** Burda kim var ki, kiminlə danışam. Mənim ki, sənsən, ancaq sən Kamran. Sən susanda qulaqlarım tutulur. Gəl,gəl bu çaydan iç,dadına,tamına bax.

**Kamran kişi:** Bu çayın öz rəngidi? Yoxsa, fiktivinidi. Axı deyirlər çaylara rəng vururlar.

**Qönçə:** İç, bilərsən hansındandır İç,canım-gözüm iç. Bəlkə yorğunluğun çıxa. Qonşumuz çay fabrikinin müştərəyidi, gətirib məhəllədə açdırdığı dükanda satdırır, bütün məhəllə ondan alır çayı. Babalı onun boynuna, a kişi.

**Kamran:** Qönçə başqasının boynuna babal qoyma. İndi onsuzda əsil çay tapmaq müşkül işdir. Otur! Otur, canım gözüm... Otur bir dərtləşək. Elə sən də sözlü adama oxşayırsan. (Qönçə əyləşir):

**Qönçə:** Kamran, o günləri xatırlayıram.

**Kamran:** Hansı günləri deyirsən.

**Qönçə:** Hansı günləri deyəcəm. Günlərlə yolumu gözlədiyin günləri deyirəm. Kamran həmin günləri bircə anlığa qaytarsalar neyləyərsən?

**Kamran:** Neynəyəcəm, Qönçə. Muştuluğa ayağımın altındakı «Kamaz»ı, qaracdakı «Mersedes»i verəcəm. Əfsuslar olsun ki, o günləri qaytarmaq mümükün deyil. Birdə o günləri düşünmə,onsuz da gecdir. Gəl görək bu oğlanın işini nə təhər qaydaya salacağıq.

**Qönçə:** Ay Kamran, Vüqarı deyirsənsə o çətin ki, boyunduruğa gələ. Heç kimi bəyəndirmək olmur.

**Kamran:** Ona qalsa boyunduruğa gəlməz. Bəs onda biz nəçiyik.

**Qönçə:** Ay kişi,deyirsən yanı biz qolundan tutub evləndirək. Yox,indi hansı zəmanədir. Akademiya bitirib,neft mühəndisidir, məktəbini qırmızı diplomla qurtarıb. İndi gəlib bu kişiyə deyək ki, sən otur sənin əvəzinə biz fikirləşək. Bu yaramaz. Belə hal nə bizə yaraşar,nə də oğlumuza.

**Kamran:** Qönçə söz güləşdirmə. (Bir qurtum çay içir) Bəh,bəh ətrinə bax e. Elə bil məcnundur, məcnun. Elə şirin içməyim gəlir. İstəyirəm bir halal süd ənmişin qapısını döyüm,deyim ki... yox, əvvəlcə heç nə deyə bilməyim. Bir az susum. Qız atası gəlişimizin məqsədini özü duysun. Elə istəyirəm ki, Vüqar ev-eşik sahibi olsun.Bizim də nəvələrimiz bizi yorsun. Çox istiyirəm.

**Qönçə:** O da olacaq a kişi,o da olacaq. Hələlik ipə-sapa yatmaq bilmir. Qonşunun qızını ona göstərdim,təriflədim. Nə desə yaxşıdır.

**Kamran:** Nə deyir ?

**Qönçə:** Deyir ki,bu ki,uşaqdır. Onun doğulduğu gün mənim yadımdadır.

**Kamran:** Lap yaxşı də.

**Qönçə:** Səndə lap yaxşı demişdin.Hə! Məni alanda məndən neçə yaş böyük idin.

**Kamran:** Elə bir fərqimiz yox idi. Cəmi on yaş. Bu yaş məsələsi problem deyil. Vüqarı yola gətirmək lazımdı.

**Qönçə:** Qonşu da qonşu ola!

**Kamran:** Hansı qoqnşunun qızıdı? Biznesnən məşğul olanın, ya o birinin ?

**Qönçə:** O birini deyirəm. Akademiyada işləyir atası. Anasıda gözəl bir xanımdır. Xanımlar xanımı.

**Kamran:** ( O çaydan bir qurtum içir) Qönçə deyirsən ki, yaxşı ailədi?

**Qönçə:** Çox yaxşı ailədir. Kamran,çox yaxşı. Salamlı sabahlı sözsüz-sovsuz bir ailənin qızıdır. Özü də «Qafaqaz» universitetində oxuyur, dördüncü kursda. Başı aşağı, namuslu bir uşaqdır.

**Kamran:** Tanımıram.

**Qönçə:** Sən hardan tanıyacaqsan. Tezdən işə gedib, axşam evə dönürsən. Bəlkə də görsən heç qonşumuz olduğunu bilməzsən. Çayını iç soyudu. ( O özü də bir qurtum çay içir).

**Kamran:** Soyuyar təzələyərsən.Əsas məsələ Vüqarın məsələsidir. Nəyi çatmır. Hər şeyi var.

**Qönçə:** Elədir, qızın bir dənəsi də bizə lazım deyil. Evimiz-eşiyimiz çox şükürlər olsun Vüqarın özünün də hər şeyi var. Onun bizə ehtiyajı belə yoxdur.

**Kamran:** Onun bizə çox ehtiyacı var,arvad.

**Qönçə:** Yaxşı a kişi de görüm niyə pəjmürdəsən. Şükürlər elə bir dərdimiz yoxdur. Şükürlər olsun. Nə olub hə de bəlkə mənim bir sözüm sovum var.

**Kamran:** Qısası odur ki,qoyub gəldiyimiz yerlər yadıma düşəndə özümdə olmuram. Qönçə,daha ondan böyük nə dərd olacaq. Doğmalarımızın qəbirlərini qoyub gəldik. Nəyimiz vardırsa hər şeyimiz qaldı o gavırlara.Malımızı dövlətimizi demirəm. Dağlarımızı bütün gözəlliyi ilə yağılara qoyub canımızı götürüb qaşdıq.

**Qönçə:** Sən elə danışırsan ki, elə bilərlər sən də qaçaqaç vaxtı gəlmisən.

Kamran: Nə fərqi. Onlarla,ya onlardan əvvəl. Dədə-baba torpaqlarımızı itirmişik. İndi də həyasızcasına iki ayaqlarını bir başmağa geyiblər ki,heç qərbi Azərbaycan torpaqları deyilən məmləkət olmayıb,bura köklü köməçli Ermənistandır.

**Qönçə:** Kişi deyəsən Vüqarın məsələsini unutdun axı.

**Kamran:** Yox,niyə unuduram. İndi biz subaylarımızı daha tez, vaxtında evləndirib,ərə verməliyik. Axı,bizə oğul indi həmişəkindən daha çox gərəkdir. Nə qədər oğul itirmişik.
(Qönçə yenə tez söhbətin yönünü dəyişdirmək üçün Vüqardan söz açdı):

**Qönçə:** Kişi bir vaxt tapıb Vüqarın iş yerinə get. Müdiri ilə tanış ol. Bəlkə onun da səninlə bir işi var.

**Kamran:** Arvad mən bilirm ki,sən mənim sözümü niyə Vüqarın üstünə gətirirsən. Bu dərd ki,var bayaqdan mən çözələmək istəyirdim. Bu mənim daimilik yol yoldaşımdır. O torpaqları görmüyüncə mənə rahatlıq yoxdur.

## II şəkil

Kommersiya ilə məşğul olan qonşu Qoçəlinin eyvanı. O çox şıx görünür. Arvadı evdə olsa belə geyimi ilə göz oxşayır.

**Elgün:** (Müraciətsiz) Eşitmirsən ki,çadır şəhərciklərinizdən birini də təzə salınmış şəhərciyə köçürüblər.

**Qoçəli:** Baxdım. Azad Azərbaycan televiziyasında göstərdilər.

**Elgün:** A kişi,deyirsən yanı bu qaçqınlar birdə öz yerlərinə qayıdacaqlar.

**Qoçəli:** Nə blim mən. Məndən elə şey soruşursan ki? Mən hardan bilim qayıdacaqlar,ya qayıtmayacaqlar. (Bir az əsəbi halda)

**Elgün:** Səndən də söz soruşmaq olmur ki ? Nə soruşuramsa ağzımın üstündən vurursan.

**Qoçəli:** Allah eləməsin.Elim bilirsən nə var ?!

**Elgün:** Nə var ?

**Qoçəli:** O var ki,mənə elə gəlir ki,bu qaçqınlar Bakı da elə kök salıblar ki,çətin onlar bir də yerlərinə qayıtsınlar.

**Elgün:** Ancaq mənə elə gəlmir. Onların yaşayış şəraiti yaxşılaşdırılır. Nə qədər o yazıqlar çadıra yaşayacaq. Çadırda doğulan uşaqlar artıq orta məktəbləri bitiriblər. Bu gün sabah orduya gedəcəklər. Bizsə onları düşünmək əvəzinə ayrı işlərlə məşğul oluruq.

**Qoçəli:** Arvad deyəsən sən də siyasətlə məşğulsan?

**Elgün:** Mənim siyasətlə nə İşim sadəcə gördüklərim məni ağrıdır. Bir iş düzəltmisən ki, bu məhəllədəki mənzillərə istər-istəməz girib çıxmalıyam. Məhəllədəki uşaqlar necə yaşayırlar, hamısı gözlərim önündədir. Onların içində qaçqın uşaqları da var. Ya

mənə elə bir iş düzəl ki, onları görməyim,ya da səhər, axşam onları fikirləşmək məcburiyyətindəyəm.

**Qoçəli:** Sən niyə bu məcburiyyətdəsən ki? Adam var iş bir başa onlarla bağlıdır,heç onlar düşünmürlər. Belə yerdə deyiblər ki,anası duran yerdə xalasının ürəyi gedir.

**Elgün:** Qoçəli,bağışla sənin adını birinci kərə belə intonasiya ilə çağırıram. Sən elə bilirsən ki, dünyada hər şey puldur, türklər demiş paradır ?

**Qoçəli:** Əsasən belədir. Canım Elgünün indi pulsuz-parasız nə iş görmək olar, hə?! Heç nə canım-gözüm,heç nə! Ətrafına bir nəzəl sal. Hamıdan yaxşı yaşarsan.Nəyin hesabına,pulun hesabına.Pulun,varsa qulun var,pulun yoxsa çalın var. Çulda bilirsən də nə deməkdir,elim günüm. İndi səni vətəndaşlıq qeyrəti bürüyüb.Özünü bircə saatlığa o kasıb qonşularının yerinə qoy. Gör sənə salam verən tapılacaq. Tapılmayacaq inan mənə tapılmayacaq. Yadındadır təzə evliliyimin ilk illəri. Doğma anam da pulu qardaşımı mənim üzümə vururdu,onu məndən çox istəyirdi. Elə ki,o tünbətün ölkə dağıldı,baxan olmadı ki,bu adamın təhsili və ya qanacağı var,ya yoxdu. Bircə ilin içində qaz vurub qazan doldurduq. Adi kamaz sürücüsü idim. Atdım bu sürücülük peşəsini tutdum biznesin yaxasından. Üzümün həyasız tərəfinə salıb qazandım qat-qat pulları. Nə yalan deməkdən qorxub çəkindim,nə oğurluqdan nə riyakarlıqdan,nə də məkirdən. Buyur,bu da sonu. Var dövlət içindəyik.Deyəsən yadından çıxıb axı,gündəlik çörəyədə möhtac idik. Ali təhsilli idim, unversitet bitirmişdim. Kim idi mənim təhsilimlə, unversitetimə baxan. Lüt idim,l üt.Lütdən lüt olmaz Elgün. Elə ki, varlandım anamın da mənə münasibəti dəyişdi,elə sənin də.

**Elgün:** Yalan danışma. Mənim münasibətim əvvəlki kimidi.

**Qoçəli:** Yox Elgün,yox indi sən yalan danışırsan. Bir həsir,bir məmmədnəsir olan zaman gözünə heç kim görünmürdü,indi az qala bir məmləkətin fikirini çəkmək istəyirsən.Dünəninə bax,dünəninə. Başqasının bu günü ilə işin olmasın. Bu gün bizimdi,bizim,daha doğrusu mənim kimilərindir.Vaxtında kef çəkənlər varıydı, indi yediklərini gövşəsinlər,bir azda biz yeyək.Yoxsa nə tutmusan bu qaçqınlardan. Onu bil ki,bu qaçqınlar daha öz yurdu yuvalarına dönən deyirlər.

**Elgün:** Niyə axı.Niyə biz o qədər əldə ölən millətik ki,öz torpaqlarımızı azad edə bilməyək ?!

**Qoçəli:** Elgün,Elgün.Sən nə qədər sadəlövsən. Çünki sən kitabdan və çox varlı-karlı bir ailədən gəlmisən həyata. Sən bu dünyanın ağrı-acısını duymamısan. Bir-iki il bizdə korluq çəkmisən. İndi də başlamısan ki, ay kişi bu qaçqınlar öz yerərinə qayıdacaqlar, ya yox? Mənim fikirimə görə qayıdana oxşamırlar. Soruş niyə ?!

**Elgün:** Niyə ?

**Qoçəli:** Ona görə ki,həmin yerlər işğal olunub, torpaqlar düşmən əilndədir. İkincisi ev-eşiklərini o yerlərdə qoyub gələnlərin çoxu elə burada,mərkəzdə böyük işlər qurublar. O işləri qoyub hansı dəli təzdən ermənimin içinə qayıdar. Üçüncüsü sadəcə getməzlər. Niyə, ona görə ki,yerləri rahatdır,qazları,işıqları var. Bir də heç kədər görmədən yaşayırlar. Bunlar azdırsa yenə sadalayım. Elgün öz işinlə məşğul ol. Sənin bir yanında gedib o yana çıxır ona görə belə nrahatsan.

**Elgün:** A kişi,sənin nə danışdığındı? Deməк, belə çıxır ki, kimin torpağı əlindən gedibsə o barədə fikirləşməlidi. Qəribə məntiqin var. Heç inana bilməzdim eit, sənin bu hadisələrə münasibətin belədir. Demək, sən Qərbi Azərbaycanda və ya Qarabağda, onun ətrafındakı işğal edilmiş rayonlarda doğulmu-

sansa o yerlərin təsibi sənə çatmır. Səndən bunu heç gözləməzdim.

**Qoçəli:** İstər gözlə,istər gözləmə. Mənim fikirim belədir ki, artıq Dağlıq Qarabağ əldən gedib və şəxsən siz, Elgün xanım o cənnət yerləri bir də görə bilməzsiniz. Baban necə həsrətlə öldüsə,dədən də elə gedəcək. Özünə fikirləşməli iş tap. Elə mövzu üstündə əlləş ki,sənə bir xeyri dəysin,əzizim. (Əzizim sözünü intonasiya ilə deyən Qoçəli qalxıb gəzişir)

**Elgün:** Sən doğrudanmı bu fikirdəsən ki, Qarabağı qaytara bilməyəcəyik. Sən nə təhər adamsan Qoçəli. Sən ki, torpaqldarımızdan belə asanlıqla əl çəkirsən demək qonşuların sənin haqqında dedikləri düzgündür.

Qoçəli: Qonşular nə deyirlər ki?

Elgün: Heç. Elə bir şey demirdilər, sadəcə deyirdilər ki, Qoçəli müəllimin ata nənəsi Hadruddan olan ermənilərdəndir.

**Qoçəli:** Bəs,elə idisə mənə niyə gəldin. Əgər zatımda erməni qanının olduğunu bilirdinsə niyə mənə ərə gəldin.

**Elgün:** Bu hadisələrdən sonra bilmişəm. Qonşular sən varlanandan sonra dedilər bu sözləri. Hələ onu da deyirdtlər ki, sən kommersiya adı ilə tez Şimali Qafqaza və Rusiyanın digər yerlərinə gedib erməni qohum-əqrabanla görüşürsən. Onlar sənə pul buraxırlar.

**Qoçəli:** Sonra nə deyirdilər.

**Elgün:** Sonra nə deyəcəklər.Çox vaxt mənə salam da vermirdilər. İndi bildim ik,sənin məhəllədəki kommersiya dükanların niyə işləmir ?!

**Qoçəli:** Bunları indi niyə deyirsən.

**Elgün:** Gözləyirdim sözün məqamı gəlsin.Gəldi dedim. İndi başa düşürəm ki,Qarabağı niyə geri ala bilmirik. Çünki Azərbaycan da olan qarışıq nigahlar

buna imkan vermək istəmirlər. Çünki bu hadisələr yat-yut olandan sonra onların üzünə belə tüpürən olmayacaq.

**Qoçəli:** Elgün,deyəsən ucun alıb ucuzduğa gedirsən axı. Hələ heç kim isbat edə bilməz ki,mənim zatımda,südümdə qarışıqlıq var. Bunu sübuta yetirmək üçün gərək Avropa məhkəməsinə müraciət ola. Mənə növbə çatana kimi bir yetmiş il də keçər ömürdən. Biz də çıxıb gedərik gedər gəlməzə. Özünü çox yorma indi sən deyirsən yəni mən erməniyəm. Elədirsə niyə çıxıb getmirsən evimdən,uşağın yox,zadın yox.

**Elgün:** Getmək lazım gəlsə sən gedəcəksən,ev mənim adımadır. Daha bəsdir.

**Qoçəli:** Nə bəsdir,Elgün.

**Elgün:** O bəsdir ki,yatdığımız qarışıq nigahlara uyduğumuz bəsdir. İndi utanmaz-utanmaz deyirik ki,bəs Azərbaycanda otuz mindən artıq erməni yaşayır. Sual verən yoxdur ki, ay bəylər, ağalar və nəhayət cənablar bəs Ermənistanda neçə nəfər azərbaycanlı var. Əgər cavab versələr bilirsən də nə göstərərlər.

**Qoçəli:** Səsi isti yerdən çıxır,danış. Gərək sənin xidmətini kort ülgüclə kəsərdim,onda görəydin ki,mən nə millətiyəm.İndi mənim üzümə ağ olursan. Yaxşı deyirsən ki, Ermənistandan azərbaycanlılar bir nəfər kimi qovulub, Dağlıq Qarabağ işğal edilib. Bir milyondan artıq qaçqın və köçkün var. Və bunların hamısını biz etmişik, yəni ermənilər və onların təəssübkeşləri. Bəs,xanım qız bu yekəlikdə şəhərimizdə adamların bir-birinə düşmən kəsilməyini kim eləyib. Məsələn, bizim qonşular. Bunları da biz etmişik. Hamı bir-birinə güllə atır. İki adam bir-binrini istəmir.

**Elgün:** Sən özündən danış Qoçəli. Sən kimi istəiyrsən. Barmağını yum ki,bir adamın xeyirinə danışmısan. Yuma bilmərsən barmağını.Sən bayaq mənə sonsuz dedin. Guya mənim uşağım olmur,ona

görə də evi tərk etməliyəm. Sən ki,elə başladın qulaq as ardına. Onda ki,təsdiqlədim ki,sənin zatın kökün ermənidir səndən uşaq doğmağımı unutdum. Bir buna görə bu yaşımda uşaqsız qalmışam. Qoçəli bizim aramızda daha pərdə qalmayıb. Ona görə də birimiz bu evdən getməliyik. Ev mənim adıma olduğu üçün sən getməlisən. Buyura bilərsən. Məndə sənin heç nəyin omayıb.Qəlbimdə deyirəm.Əyin-başı,ev-eşiyi demirəm,onları sən almısan get,bilirəm ki,sən bir günün içində mənzil ala bilərsən. Sən axı arxalısan. Get,arxanda dayanan pul sənə kömək olsun.

**Qoçəli:** Elgün, sən bilirsən ki,mən səni sevib almışam. Səni mənə vermirdilər özün gəldin. İndi mənim nə günahım vardır ki,sən aərbaycanlısan. Ağlını yığ başına, neçə illik yuvanı dağıtma. Mən azərbaycanlıyam. Mən neyləyim ki,iki nəsil əvvəlin ədavəti bizimkilərin arasında yaşayıb. Elgün Azərbaycanın bu aqibəti haradan başlanıb,bilirsənmi.Bəlkə də bilmirsən. Sən humanitar yox,dəqiq fənlər carçısısan. Məni də bilirsən ki,tarixçiyəm. Özü də tarixi bir az qanıram. Sənə bu kəskin anında dərs demək fikirində deyiləm və əslində sənin mənə dediklərindən sonra bir yerdə yaşamağımızıda lüzum görmürəm. Ancaq onu sənə deməliyəm. Bir gün sən də kiməsə deyərsən,o da kiməsə də deyər ki, biz niyə içimizdən,çölümüzdən belə sökülürük. Və hələ nə qədər sökülücəyik. Bu millətin nəfsi çoxdur, Elgün.

**Elgün:** Guya o millətin nəfsi azdır.

**Qoçəli:** Gəl söz güləşdirməyək. Bir neçə misal çəkmək istərdim.

**Elgün:** Çək.

**Qoçəli:** Mən onları tərifləmək istəirəm.Amma elə məsələlər var ki,onlar bizdən çox irəlidədirlər. Məsələn, təsilləri. Erməni pis oxuyan uşağını zorla institutlara yerləşdirməz. Onların seçməzdin kilsələri

kimsəsiz uşaqları tapır,onları oxudur və müəyyən bir səmtə yönəldir.

**Elgün:** Niyə utanırsan deyəsən ki,türklərə və bizə qarşı qoymağa hazırlayırlar.

**Qoçəli:** Bəs, bizim məscidlər nə edir. Bunu sən de mən danışsam yenə deyəcəksən ki,mən o tərəfə çəkirəm.

**Elgün:** Dinin bizim işimizə nə dəxli var.

**Qoçəli:** Var, Elgün var! Dünyaya səpələnmiş ağıllı və millətçilərin əksəriyyəti bu kilsə yetişdirib.İndi gör səsləri sədaları hardan gəlir. Bir vaxt Sov.İKR MK-da 33 erməni işləyirdi. Azərbaycandan isə Moskvaya mərkəzi komitəyə 2 telefon xətti varıydı. Biri Heydər Əliyevin evindən digəri isə Kərim Kərimxanovun evindən. Sən deyirsən bəlkə azırbaycanlılar ermənilərdən ağılsızdılar. Onları EMK-ya yerləşdirən yerləşdirmişdir. Biz bir-birimizin ayaqlarının altını qazmağa yaranmışıq. Bir vaxtlar Mikoyan Ermənistandan yüzlərlə seçmə oğlan və qız aparmış Moskvaya, onları yaxşı yerlərdə yerləşdirmiş sonradan oğlanları yaxşı,varlı-karlı slavyanlarla evləndirmiş,qızları da elələrinə ərə vermişdir. Bax budur neçə illər qabağı görmək. Rəhmətlik Heydər Əlirza oğlu 70-ci illərdən minlərlə yüksək səviyyəli oğul və qızlarımızı keçmiş SSRİ-nin ən yaxşı ali təhsil müəssisələrində oxutdu, nadir ixtisaslara yiyələtdi. O hakimiyyətdən gedəndən sonra onun oxutduğu kadrları burunladılar,onlara iş verilmədi. Bu da bizimkilərin ali cənablığı. Bu da onlara bəs etmirmiş kimi 90-cı ilin yanvar hadisələrindən sonra daha başqa məmləkətdə qalmağın mümkünsüzlüyünü hiss edən Heydər Əliyevin Bakıya gəlməsinə və burada yaşamağına maneçilik törədirdi. Elgün,bunu da ermənilər etmədilər ki!

**Elgün:** Ermənilər etməsələr də erməni yoxsullu azırbaycanlılar etdilər. Anası,dayısı və digər tayfa-

tobunu erməni olanlar etdilər. Yaxşı ki, o zaman Naxçıvan varıydı.Yoxsa bir gör biz kimi itirə bilərdik. Heydər Əliyevin o zaman aradan götürülməsi ilə bütün Azərbaycanı aradan götürmək eyni olardı. İndi bax, sən lüt oğlu lüt,indi özünü bəy oğlu bəy kimi aparırsan.

**Qoçəli:** Bilirsən, Elgün hər şey sənin gözlərin qarşısında olub.Kasıbçılığımda elə bu günüm də mən nə qazandımsa 1988-ci ildən 93-cü ilə qədər qazandım.Məmləkət başsız idi,kim nə istəyirdi onu da edirdi.Bu canımla 2-3 müəssisənin metalını xarici ölkələrə satdım.Vaqonları dolu getdi boş gəldi,pulu sayıb qurtarana kimi həmi gözüm ağrıyırdı həm də barmaqlarım mazol olurdu. Sən ki,buna şahidsən. İndi məni bəyənmirsən. Bir palton varıydı artıq moddan düşmüşdü,yarı yun,yarı qəzil. İndi məni evdən qovalayırsan, adıma erməni deyirsən, zatı-südümə görə uşaq doğmadığını söyləyirsən.Sağ ol bütün bunlara görə. Mən səni sevmişdim, həm də çox sevmişdim. Mən bu gündən öz doğma evimi tərk edib gedirəm. Cib telefonum həmin nömrə olacaq. İstənilən vaxt məni axtara öilərsən,əgər istəsən. O ki,qaldı mənim erməni olmağıma,buy alanı istədiyin kimi yaya bilərsən. O qədər də əziyyət çəkməyəcəksən. Bircə kərə qonşulara de ki,sizin dediyini düzdür,Qoçəlini erməni törəməsi olduğu üçün evdən qovmuşam. Onda yəqin ki,mehribanlaşacaqsınız. ATƏT-də DQ məsələsini mənim gedişimdən sonra asanlıqla həll edəcək. Elgün,Elgün. Sən nə qədər avamsanmış,o boyda universitet qurtarmısan,bir texniki peşə məktəbin bitirənin ağlına dəyməz. Qarabağ məsələsi siyasətdir, Elgün. Kiminsə maraqlarına xidmət edir bu məsələ, Elgün.Sən elə bilirsən özlərinə yazıq deyən ermənilər çox istəyirlər ki,bu məsələ acı bağırsaq kimi uzansın. Yox,Elgün yox. Nə bunlar istəyir, nə də biz istəyirik,

bəs onda kimi istəyir bu sonsuz münaqişəni. Bu bir murdar siyasətdir.

**Elgün:** Ən böyük siyasətçi elə sənsənmiş,özün də elə düşünmə ki,sən danışdıqca mənim yönüm sənə tərəf dönür, xeyir. Sən özün də boynuna aldın ki,südün qarışıqdır. Bəsdir daha artistlik edib birlikdə yaşadıq. Bizim yolumuz bu gündən ayrılıb. Biz tamamilə ayrı-ayrı adamlarıq.Sən get bu siyasi dolanbacları xoven dayına göstər.

**Qoçəli:** O kimdir elə.

**Elgün:** Tuğ kəndindəndir. Sənin cəddi baban, yüz il bundan qabaq 1905-ci ildə əsərində göstərilən Allahverdinin nəvəsidir.

**Qoçəli:** Onda sən də İmamverdinin nəvəsisən.

**Elgün:** Söz güləşdirmə biz ayrılmalıyıq. Daha səninlə bir evdə yaşamaq mümkün deyil. Sən bizim döyüşə gedən oğullarımızı arxadan güllələyərsən. Necə ki, Daşaltıda sənin kimilər onlarla oğlumuzu kürəyindən güllələdi. Vəssalam e,səninlə qurtardıq. (Elgün sərt hərəkətlə səhnədən çıxır,Qoçəli səhnədə tək qalır)

**Qoçəli:** Elgün çox sərt ittiham sürür mənim haqqımda. Bu qədər illər aramızdan bir sərin külək əsmədi. Birdən birə buna nə oldu ?! (tamaşaçılarla üzbəüz dayandı):Qarışıq nigahların son aqibəti budur. Mən əslində özümü qarışıq nigahdan yaranan hesab etmirəm. Hansı zatıqırıqsa Elgünü fitilləyib. Mən özüm də eşitmişəm ki,yeddi arxa dönənlərindən kimsə uzaqdan gəlmədi indi bunun günahı məndə deyil ki,nə isə allah bu qarışıqlığı törədənlərin evini yıxsın. Bu millətlər qonşuluq da necə də mehriban yaşayırdılar.(O da səhnədən çıxır)

## III şəkil

Məhəllə çayxanası. Bir misin arxasında dörd nəfər əyləşib. Çayxanada səs küydür. O turanlardan nisbətən yaşlı kişi nə isə danışır,oturanlar ona qulaq kəsiliblər.

**Kişilərdən biri:** Vallah mən siyasət adamı deyiləm. Amma bu siyasət nədirsə bizim evimizi yıxacaq.

**O biri:** Siyasət ev yıxmır,ev tikir.Özü də çoxmərtəbəli ev tikir.

**O biri kişi:** Necə yəni çox mərtəbəli.

**O biri kişi:** Ayə,sən siyasətçisən,ya inşaatçı.

**O biri:** İndii gərək hər bir «Çi»dən başın çıxsın.Yoxsa bizim bu məmiş kimi. Gör neçə ildir «Çayçı»-dır.Bu «Çi»çi», «Çü»çü» şəkilçiləri elə belə yaradılmayıb ki ? Hərəsinin öz yeri var.

**O biri:** Məmiş,biz indyə kimi neçə samovar çay içmiş olarıq?!

**Məmiş:** (Çiynini çəkir)

**O biri:** Yenə olsun.

**Məmiş:** Vallah,nə deyim.Yaxşı olar ki,nə qədər çay içdiyimizi yox,nə qədər pul verdiyinizi soruşun. Onu deyə bilərəm.

**O biri kişi:** Hə,nə qədər pul vermiş olarıq ?

**Məmiş:** Özünüzdən xəbər alın. Özünüz daha yaxşı bilərsiniz.

**Hamısı bir yerdə:** Hə,nə qədər pul vermiş olarıq.Nə bilək, nə bilək.Biz müftə güllə üçün qabırğamızı verərik.

**Məmiş:** A kişilər,bu çayxanamın axıdan samovarından tutmuş sınıq-salxaq stol-sutuluna qədər hamısı sizə qurbandır. Sizin hər biriniz bir televiziya qədər bilirsiniz. Çayxanam sizə qurbandır. Gəlin çayımı için,bu adamları məlumatlandırın. Qoy hamı

dünyadan xəbərdar olsun. Özünüz də yaxşı bilirsiniz ki,siyasət mənim canımdı.

**Kişilərdən biri:** Məmiş (Xüsusi vurğu ilə)

**Məmiş:** (Ucadan) Can məmiş !

**Kişilərdən həminki:** Məmiş sənin ki,siyasətdən xoşun gəlir.Dahaçayçı niyə işləyirsən.Get bir az xərc çək oxu,gir siyasətlə məşğul olan partiyalardan birinə,televizorda çıxış et, qəzetlərə məqalə yaz, yaxşı-yaxşı tanın.Yoxsa nə tutmusan çayxandan.

**Məmiş:** Yox,dədə yox. Məmiş o qədər də axmaq deyil.Olmaz ki,həm pulum qazanım, həm televizora baxmaya-baxmaya sizin dilinizdən siyasiləşim. Mən o qədər də hərif zad deyiləm ki, televizor baxıb gözümü xarab edim.Yaxşı necə bilirsiniz. Bu Qarabağ məsələsi nə vaxt qurtaracaq? Siz nə vaxt dədə torpaqlarınıza dönəcəksiniz. Bu iş ümumiyyətlə baş tutacaq ya yox.

**Kişilərdən biri:** Çay soyudu.Ay Məmiş.

**Məmiş:**
Nə var, nə var, ay qəmiş,
Görməmişsən,görməmiş.
İnşallah çay gələr.
Nə tələsik iş var ki,
Qış ötüşər yay gələr.

**Kişilərdən həminki:**
Bir gün Məmiş kişiyə
Alma armud pay gələr.

**O biri kişi:**
Bizim də içimizdə
İlahi bir hay gələr.

**O biri kişi:**
Batar qulaqlarımız,
Bir dəli haray gələr.

**O biri kişi:**
Gözü yolda Şuşamız
Dayanıb əli yalın,
Ağlayır gecə-gündüz,
Ağlayır, məni alın.

**O biri:**
Sənin dərdinə bax bir,
Fikirin çayda qalıb.

Məmiş: Yaxşı ki, demirsən
Büllur sarayda qalıb.
O biri: Qulağının dalını
Görərsən bəlkə onda.
Sənin canın gizlənib,
Qəfədanda,çaydanda.
Məmiş: Elə bilmə çayçıyam
Savadsızam,kütəm mən.
Vətənimə carçıyam
Bir ağlağan güləm mən.
O biri: Xarı bülbülsən bəlkə
Sinən yaralı,dağlı.
Bu dərdi çəkə-çəkə
Olmusan Qarabağlı.
Məmiş: Mənə görə Vətənin
Daşı da bir Vətəndir.
Həsrətli gözlərində.
Yaşı da bir Vətəndir.
O biri: Bəlkə getsə deyəsən
Bizi ağladacaqsan.
Məmiş: Ağlamaq niyə axı,?-
Nabalıqsan, uşaqsan?!
İndi başqa zamandı
Düşmənimiz yamandı.
Başım üstü dumandı.
O biri: İndi birlikdə gərək
Vətən üçün düşünək.
Yoxsa sənin ya dəmli
Ya dəmsiz çayını
İçib laqqırtı vuraq,
Ya da susub oturaq.
O biri: Çay soyudu ay Məmiş.
Qoy soyusun Qəmiş.
Məmiş: İndi mənim ürəyim
Şuşanı dolaşmaqda.

Qarnının davasını
Edirsən sən axmaq da
Gedibdir əlimizdən
Cənnətim Qarabağım.
Sınıb bakirəliyim
Parçalanıb duvağım.

**O biri:** Bir dəfəlik söylə ki,
dağıdlıbdır tufağım.

**Məmiş** (Çayları dəyişdirə-dəyişdirə):
Günlərimiz boş keçir
Küncündə bu dükanın.
Xiffətindən ölürük
Cənnət məkan Şuşanın.

**O biri:** Gəlin bir azca susaq,
Susa-susa danışaq.
Bir az nisgilimizi
Şuşa,Şuşa danışaq.

Məmiş : Döyüş səngərlərinə
Dönməlidir mizimiz.
Bəsdir Vətən yanında
Kömür kimi üzümüz.

**O biri:** Boş söhbətdən bezmişik
ATƏT-lərdən bezmişik.

**O biri:** Kişi öz torpağını
Gərək özü qorusun.
Əgər günahı varsa
Öz qanı ilə yusun.

**O biri:** Bizim də günahımız
Az deyildir düşünsək.

**Məmiş:** Çayxana künclərindən
Ayağa qalxaq gərək.

(Ayağa qalxırlar.Səhnə dəyişilir)

## IV şəkil

Məhəllə qadınları. Söhbət yerində toplaşıblar. Hamısının üzündə bir qəribəlik var.Qadınlardan bir az daha gözünə görünəni əli-qolu ilə danışa-danışa qadınlara nəsə deyir:

**Qadınlardan biri:** Hə bu da Qoçəli. Yan tütəyini çala-çala getdi. Elgün onu bir günə saldı ki,islahatı belə qalmayıb. Guya Qoçəlinin zatı-südündə qaışıqlıq var. Əslinə qalanda burda nə var ki? Yazıq Qoçəlinin nə günahı ?

**O biri qadın:** Bir az əvvəl belə demirdin.

**O biri:** Nə təhər deyirdim.

**O biri qadın:** Deyirdin ki,bu qarışıq nigahlardan törəmələr yıxıb sürüyür bu milləti. İndi də deyirsən yazıq Qoçəlinin nə günahı?

**O biri:** Ay qız bunlar hamısı köhnə palan içidir ki,sən sökürsən. O palan da qalıb erməni işğal eləyən kəndinizdə. Bir də o palanı görə bilməyəcəyin üçün onu çək çevir eləmə. İndi durub deyəsən ki,qarışıq nigahlardan olan oğul qızlarımızı çıxdaş eləyək,onda gərək Bakının çoxu boşalsın və boşansın.

**O biri qadın:** Yanı deyirsən ki,bizdən olanların çoxu başqa millətlərin qızları ilə nigahlanıblar. Yəni deyirsən ki,bizim çoxumuz ona görə ki,qız qarımışıq.

**O biri qadın:** Bəs sən nə bilmişdin. O keçmiş dövlətiniz varıydı ki ha, sovet hökümətini deyirəm. Arvadı ya rus,ya erməni və ya digər millətlərin qızları olmayan azərbaycanlı oğulları vəzifəyə qoymurdular. İsətyirsən səni doydurana qədər misal çəkim. Hə nə bilmisən. İndi də deyirsən ki, Qoçəli yazıqda günah yoxdur.

**O biri qadın:** Deyirlər bir pencəyini atıb çiyninə gedib. Heç qarajdakı maşınına da dəyməyib.

**O biri:** Ay qız onun maşına,evə ehtiyacı var bəyəm.Altını üstünü o qədər doldurub ki,daha deyiləsi deyil.

**O biri:** Görəsən Bakıda tikilən çox mərtəbəli binadan neçəsi onundur.

**O biri:** A bala, qoy tidirsin də! Gedəndə özü ilə aparmayacaq ki. O günü oxuyuram ki,bəs Rusiya Ermənistana ona yaxın su - 29-du nədi, qırıcı təyyarə verib.Özü də pulsuz-parasiz. Bəs bizə niyə vermirlər.

**O biri:** Niyə verməlidir. Nə Qanı qanımızdandı, nə də dini dinimizdəndir.Niyə görə verməlidir.

**O biri:** Bizim öz pulumuza nə gəlib ki?! Bakıdakı bu yeni tikilən binalar qoyulan vəsaitlə yüzlərlə belə qırıcı təyyarə almaq olar.

**O biri:** Söhbətimizi Qoçəlidən başlamışdıq gör gəlib hara çıxdıq.Gəlib çıxdıq su -29 təyyarəsinə. Qəribə söhbəti yüyrəyik lap «Su-29» qırıjı təyyarəsindən də surətli gedirik.

**O biri:** İndi Elgün neyləyəcək.

**O biri:** Necə yəni neyləyəcək.Həkim adamdı, işləyəcək, yaşayacaq.

**O biri:** Vallah, bu Elgün deyəsən xəstələnib. İlin-günün bu vədəsində evə maşın-maşın var-dövlət gətirən bir kişidən belə asanlıqla qopmaq kimsənin ağlına gəlməz.Gör neçə ildir ki, bir məhəllədə yaşayırıq,hələ onların səsini eşitməmişik. Düzdür biz aradabir qarışdırırdıq. Ancaq hər şey Elgün üçün yaxşı qurtarırdı. İndi o da oldu bizim birimiz.

**O biri:** Deyirsən yəni Elgün də işini-gücünü ötürüb bizimlə birlikdə .axşama kimi ordan-burdan danışacaq.

**O biri:** Onu deyə bilərəm. Və inanıram ki, Elgünün vaxt da.

**O biri:** Neyləyək, onun vaxtı olmaz,bizim vaxtımız tapılar.

**Qadınlardan biri:** Siz bəlkə də ayrı millətin içində yaşamağın nə demək olduğunu bilmərsiniz. Otuz yaşıma qədər erməni ilə qonşu olmuşuq. Ermənistan deyilən o yerlər ki, var bizim öz doğma torpaqldarımızıdr. İndi o yerlər yadıma düşəndə burnumun ucu göynəyir.Biz o yerlərdən didərgin düşən illərə yaxın onlar tamam vəhşiləşmişdilər. Kəndimizin nə qədər oğlu və qızlarını gözlərimizin qarşısında güllələdilər. 1988-ci ilin qışağzı günlərdən birində Arazqırağı sərhəd dirəklərinin arsı ilə,əsgərlərin köməyi ilə Naxçıvana gəldik. Həmin gün naxçıvanlıların bizi qarşılamalarını xatırladıqca minnətdarlıq hissi keçirirəm.

**O biri qadın:** Bir neçə söhbətimiz də sən Naxçıvanı və naxçıvanlıları elə qaldırırsan ki,elə bir onlar müstəsna adamlardı.

**Həmin qadın:** Əslində mənə və mənim kimilərinə qarşı göstərdikləri adamçılıq üçün onlara baş əyməliyik. Görün bir neçə illərdir onlar blokada şəraitində yaşayırlar. Biz isə bu azadlıqda onların paxıllığını çəkirik.

**Başqa biri:** Yaxşı milləti bir-birinə qoymayın. Hamısı bizimdi Söhbət Qoçəlidən və Elgündən gedir. Qonşularımızın birinin ailəsi dağılır. Biz nə isə edə bilərik ki,bu ailə dağılmasın. Ancaq başlamışıq ki,kim ordan gəldi, kim burdan getdi. Ağıllı adam Qönçəbəyimdir ki,başını bizim başımıza qoşmur. (Səhnənin başqa bir tərəfi.Qönçəbəyim pəncərənin önündə xəyala dalıb):

**Qönçəbəyim:** Görəsən bu qadınların evdə heç işləri yoxdur. Havaxt baxıram ki, oturublar besetkada dediyimiz o xarabada. Allah bilir kimin ipini kəsirlər. Gör neçə illərdir qonşuyuq hələ çoxunun adını bilmirəm. Mənim ev işindən başımı qaşımağa vaxtım yoxdur. Özü də cəmi üç nəfərik. Bunların hərəsinin bir

çətən külfəti var haradan vaxt tapırlar bu qədər.İşləri də onun bunun haqqında altdan-üstdən danışmaqdır.Hələ eşitdiyimə görə siyasətdən də danışırlar. Kül olsun siyasətin başına ki,onunla arvadlarda məşğul olurlar. (Ayaq səsləri gəlir. Gələn Kamrandır. Yenə əvvəlki geyimdə və həmin hövsələsində.Səsə Qönçəbəyim dönür və ona müraciətlə):

**Qönçəbəyim:** Xoş gəldin a kişi! Nə əcəb səndən, belə tez gəlməyindən sözlü adama oxşayırsan.

**Kamran:** Nə sözüm olacaq.Sadəcə işimi özüm bir qısaltdım. Bir yandan sən bilən fikirlərin,digər tərəfdən sən bilməyənlər.

**Qönçəbəyim:** Yanı sənin elə bir işin var ki,mən onu bilməyim.

**Kamran:** Var arvad,var. Elə məsələlər var ki, onlar yalnız kişilərə məxsusdur.

**Qönçəbəyim:** Oxu atıb,yayı gizlətmə, Kamran. O hansı məsələdir ki, yalnız sənə və sənin cinsindən olanalara məxsusdur.

**Kamran:** Bu neçə illərin ailəlik təcrübəsindən gərək biləydin ki, mən çölün sözünü evə, evin sözünü çölə daşıyanlardan deyiləm. O günü hirsləndiyimi hiss etdin və onun səbəbini öyrənməmiş məndən əl çəkmədin. İndi də deyəsən qır-saqqız olmaq fikirindəsən. Qönçə belə bir zərb məsəl var e,deyirlər «Arvadını tərifləyən qurumsaqdır» lətifəsinə zərbi dəsti bizdən uzaq, mən ürəyimdən keçənlərin hamısını həmişə sənə demişəm. İndi də deyirəm. Mənim hövsələsiz olmağımı heç vaxt ayrı yerə yozma.

**Qönçəbəyim:** Kamran, mən istəyirəm ki,əvvəlki kimi şən olasan.

**Kamran:** O da havaxtsa olacaq, Qönçə. Ancaq hələlik buna vaxt var. Üstümü unlu görənlər elə bilirlər dəyirmançıyam. Ancaq bilmirlər ki, mən də dən sahibiyəm. Bu «Kamaz»ı özəlləşdirəndən sonra hamı mə-

nə bir sürücü kimi müraciət edir. Bu məni narahat etmir,əksinə. Amma bu məhəllədə bilən belə yoxdur ki,mən bir qaracın baş mühəndisi olmuşam.Elə üzlər varıydı ki, onları bir daha görməmək üçün daş-torpaq daşımağı üstün tutdum. Beş il gecə-gündüz oxumağım özümə qaldı.Görürsənmi, Qönçə qonşu arvadlarına qoşula bilmirsən. Niyə. Bu niyələrin çox cavabları var. Məni də qonşular bir yovuşmaz adam kimi tanıyırlar.Nə olar,qoy elə bilsinlər.

**Qönçəbəyim:** Yaxşı qonşu şahlıq quşudur kişi.

**Kamran:** Elədir Qönçəm,elədir.O bizə qismət olmadı.Gör qonşularımız elə naxələf çıxdılar.Bunlar da ki,hərə öz işində.Elə biz özümüz də onlar kimi.

**Qönçəbəyim:** Elə istəyirdim ki,yaxşı qonşumuz olsun.Elə istəyirəm ki,adamlar bir-birinə can deyib can eşitsinlər.Elə istəyirəm ki,adamların içində bir-birinə nifrət olmasın. Mən bu məhəllənin qadınları ilə niyə ayaqlaşa bilmirəm.Bilirsən Kamran dünyada hamıdan və hər şeydən çox nifrət etdiyim bir məsələ varsa oda qiybət etməkdir. Məhs ona görə də bu məhəllə qadınları ilə mənimki tutmur.

**Kamran:** Sən elə bilirsən ki,qiybət eləyən təkcə qadınlardır? Yox,Qönçə təkcə qadınlar deyil. Elə kişilərin də əksəriyyəti bu azara tutulub.Üç-beş adam bir yerə yığılanda,lap süfrə qırağında olsalar da belə. Yemək süfrəsinin bu başında olanlar o biri başda olanların, o biri başda olanlar da bu biri başda olanların qeybətini eləyirlər. Hələ görməmişəm ki,iki nəfər oturub bu Vətənin xeyirinə nəsə desin. İndi məmləkətimizin baş şəhərində əsas söhbət nədən ibarətdir. Necə edək ki,çox qazanaq,necə edək ki,çox oğurlayaq. Özümüzə yaxşı güzəran yaradaq,yalnız özümüzə. Xalqımıza yox özümüzə. Ancaq özümüzə. Qönçə, bir məsələ məni daha çox düşündürür. Görəsən başqa millətlər də bizim kimi nəfsini hər şeydən üstün tutur-

lar. İnanmıram.. Bizim nəfsimiz,necə deyərlər məhəlli nəfsidir.

**Qönçə:** Bu nə deməkdir,a kişi.Nəfsində məhəlləsi olur.

**Kamran:** Olur, Qönçə olur. Məsələn, bizim gorbagor qonşularımız əla nəfsi sıyıqdırlar.Ancaq onların nəfsi bizim daşımıza-torpağımıza, bizim başımızadır. Ona görə də gör bir neçə ildir ağızlarının suyu Azərbaycanın var-dövləti üçün axır. Onların nəfsi dövlət səviyyəsindədir. Birinin istədiyini hamısı istəyir.Biz neynəyirik. Bizim nəfsimiz qonşuluqdan başlayır. Qonşu evini təmiz edib,gərək sən də ona uyğun hərəkət edəsən. Qonşu arvadın donu qırmızıdır, ona uyğun paltar tikdirəsən,maşını təzədi səndə öz işinə baxasan. Məişətimizə nə daxilsə hamısına nəfsimiz düşür. Bu da olur məhəlli nəfsimiz. Məhəllədən kənara çıxmayan nəfs.Biz də rüşvət veririk, ya işə düzəlmək üçün ya da kiminsə işini əlindən almaq üçün.Qonşularımız isə rüşvət verir ki,bizim torpaqlarımızı əlimizdən alsınlar.Onlar rüşvət verir haqqı nahaqqa çevirməyəi bacarırlar.Gör neçə illərdir DQ deyilən torpağımızı və onun ətrafındakı yeddi rayonumuzu işğaldan qurtara bildmirik. Niyə? Ona görə ki,düşmən nəfsinin hər iki tərəfi bizi kəsir. Az qala deyirlər ki, bu torpaqlar heç Azərbaycanın deyil.İndi neçə illərdir sübut edə bilmirik ki, bu torpaqlar bizimdir və ermənilər buraya 150 il əvvəl İrandan köçürülmüşlər. Azərbaycanın neftinin adı gələndə ağızlarından su dabbaq malın ağzından necə su axır elə axır.

**Qönçə:** Hələ çox axacaq.Kişi elə bilmə ki,heç bir yerdə işləmirəm,dünyadan xəbərim yoxdur. Bu Bakı-Tbilisi-Ceyhan neft kəməri reallaşdıqca ermənilərin cığallığı daha da artır.

**Kamran:** Günah özlərindədir.Vaxtında sülhə gəlsəydilər bu kəmərin xeyiri onlara da dəyə bilərdi.

İndi canları çıxsın.Elə bilirlər ki,qapı bir qonşu ilə münaqişədə olmaq onlara xeyir gətirəcək. Bu düşmənçiliyin sonu yoxdur. Onlar bir dəfəlik başa düşməlidilər ki,biz qonşuyuq. Özü də divar qonşusu, bağ qonşusu yox,torpaq qonşusuyuq.Heç birimiz öz torpağımızı kəsib özymyzlə aparmayacağıq.

**Qönçə:** Ay Kamran bu ermənilər də bu torpağa və pula hərislik hayandandı,bəlkə sən də bir şey bilirsən bu barədə?

**Kamran:** Erməni deyir ki,yer mənimdi. Deyəsən, bu yazıqlar yer kürrəsini tamamilə özəlləşdirmək fikirindədirlər.Ancaq ac toyuq yuxusunda darı görən kimi onlarda bunu yuxuda görə bilərlər. Qönçə, məhəllədə nə var,nə yox.

**Qönçə:** Nə olacaq! Ən son məlumatı qonşu arvadlar verdilər. Elgün Qoçəlini evdən qovub.

**Kamran:** Bu nə deməkdir. Necə yəni evdən qovub.

**Qönçə:** Daha necəliyi yoxdur ki,qovub də.

**Kamran:** Səbəbi nədir ? Bu nə demək.Neçə illik bir ailəni bir göz qırpımındı ləğv etmək. Elə bir mühüm hadisə olmalıdır ki,birdən-birə bu qənaətə gələsən.

**Qönçə:** Azad arvadlar agentliyinin, yəni qısa şəkildə desəm «AAA»verdiyi məlumata görə Elgün deyib ki,daha səninlə eyni evdə yaşaya bilmərəm, sənin zatında erməni qanı var.

**Kamran:** Elə bu?! Bu nə məsələdir ki,ondan ötəri ailəni dağıdasan.Ona qalsa onda gərək Azərbaycanda hər 5-10 ailədən biri dağıla o qədər Azərbaycan oğlu erməni,rus alıb ki,hələ dəgər qarışıqları demirəm. O dövrün xarekterik cəhətlərindən biri də bu idi. Beynəlmiləl ailə. Kim ki, belə ailə qururdu o çox hörmətli ailə sayılırdı.İndi-indi mod salmısınız ki,gərək oğlumuz hökmən öz millətindən olan qızlarla evlənsin.

**Qönçə:** Kamran,heç eşitmisən ki, bir azərbaycanlı qızı erməniyə,yaxud da rusa ərə getsin. Ölər, evdə qalar qarıyar,ancaq onlara getməz. Bəs siz kişilər necə? Bu fədakarlığa baş əyirsinizmi. İnanmıram.

**Kamran:** Deməк inanmırsan mənə ! Neylək sən də inanma,qoy bir-birinə inanmayanların bir cütüdə artsın. Şəxsən mənə elə gəlir ki,Elgün düzgün hərəkət etməyib.

**Qönçə:** Kişi,axı mən bayaq dedim ki, azırbaycanlı qadınlar başqa millətin oğlanları ilə evlənmirlər. Elgün yəqin bu qənaətə indi gəlməyib.Çoxdan bu fikirdəymiş ki,indi bu qərarını qətiləşdirir.

**Kamran:** Əslində bu ayrılığın bizim ailə üçün heç bir isti-soyuğu yoxdur.Ancaq fikirləşəndə adam dəli olmaq dərəcəsinə gəlir ki,bu xırda yer üzündə nə olur.Bir də onu fikirləşirəm ki,gərək bizim qonşumuz ermənilər olaydı? Başqa millət yoxuydu qonşu olmağa.

**Qönçə:** Onlar ta qədimdən qonşumuz olmayıb ki,özün dəfələrlə demisən ki,onlar bura gəlmədilər.Bir şey ki,onların dövləti 1920-ci ildən sonra rus tərəfindən yaradılıb. Allah pis adama lənət eləsin.A kişi,onları başqa yerdə məsgunlaşdırmaq olmazdı.Gərək elə bizim torpaqlarımızı verərdilər erməniyə.

**Kamran:** Bu da bir siyasətdir,arvad.İki türk dövlətinin arasına bir xiristiyan dövləti soxmaq,özünə mövqe yaratmaq.Elə bilirsən onlar az bilir.Yevreylərin muxtar vilayəti kimi aparıb uzaq şərqdə də yarada bilərdi.Onlara, yəni Şimal qonşularımıza səhv edəni budu.Qonşumuza bax, qonşumuza. Bütün sifətlərdən varıdır. Ermənistanda olanda az qalırlar bir-birlərinin ətini yesinlər,elə ki,kənara çıxırlar olurlar can bir şüşədə.

(Pauza.Qapı döyülür.Gələn Kamran kişinin oğlu Vüqardır. Qönçəbəyim onu görən kimi ayağa qalxır)

**Qönçə:** Gəldiyin yollara qurban a bala.(Onu qucaqlayıb üz-gözündən öpür)

**Kamran:** Xoş gördük oğlum.

**Vüqar:** Xoş gördük, ata. (Bir-birlərini öpürlər)

**Kamran:** Hə,nə var, nə yox.Çoxdandır Respublikamızdan kənara çıxmıram. Oralarda işlər necədir?

**Vüqar:** Necə olacaq,əvvəlki kimi.

Kamran: Nə təhər, yəni əvvəlki kimi.Yəni deyirsən Moskvada heç nə dəyişməyib.Hər şey əvvəlki kimidir.

**Vüqar:** Hər şey əvvəlki kimidir.Əvvəlcə bizə qarşı münasibət necəydisə indi də elədir.

**Kamran:** (Onun nə dediyini anladı və daha o mövzuda heç nə soruşmadı) İşin necədi,alındı sözünüz tutdumu?!

**Vüqar:** Başlanğıc üçün pis deyil. Supsa neft kəmərinin həcmini artırmaq istəyirlər,bir də Azərbaycana verilən təbii qazın qiyməti barədə söhbətlərimiz oldu. Bu qədər. (Kamran kişi başı ilə oğlunun dediklərini təsdiqləyir. Vüqar söhbətinə davam edir).

**Vüqar:** Ata,bir qəribə hadisə ilə də qarşılaşdım. (Bu sözdən anası həyəcanlanır)

**Qönçə:** Nə dedin.Nə olub,başına nə gəlib.

**Vüqar:** Ana, həyəcanlanma. Danışıram. Gedən günü «Rasiyya» mehmanxanasında özümə yer aldım. Bir gündən sonra, iş gününün sonunda ötelə dönəndə. Açar saxlayandan nömrənin açarını istədim. Dedi ki, yanına yoldaş vermişik.Mərtəbəyə çıxıb qapını döydüm. İçəridən «Zaxaditi» dedilər.İçəri keçdim 35-40 yaşlarında bir kişi ilə qarşılaşdım.Özünü təqdim etdi. Özü də Azərbaycan dilində. Əlimi ötürmədən adını dedi: «Sokrat», mən də öz adımı dedim. Əyləşdik. Söhbət Azərbaycan dilində gedirdi.İşdən qayıtdığım üçün bərk ac idim.Mən onu restorana dəvət etdim.O bildirdi ki,restorana sifariş verib.Bir neçə dəqiqədə

sonra qapının zəngi basıldı.Yenə də o dilləndi «zaxaditi»dedi.Qapı açıldı,ağappaq qar kimi xalat geyinmiş ağappaq bir rus qızından qabaq otağa bir dörd təkərli əl arabasında yemək daxil oldu.Sokratla qız köməkləşib stulu bəzədilər.Süfrədə hər şey varıydı.Bircə içkidən başqa.Müxtəlif sular,şirələr və hər şey.Qız boş arabası ilə birlikdə otağı tərk edəndən sonra Sokrat dilləndi:

Hə nə içək? Tut arağı,üzüm arağı,yoxsa konyak. Mən çiynimi çəkdim.Çünki heç birinə meylim yox idi.Fərq etməz dedim,onsuz da mən o qədər içən deyiləm.O mətbəxə keçməklə qayıtmağı bir oldu.Bir əlində tut arağı,o biri əlində erevanın konyakı.Bu konyakı bir vaxt Bakıda çox istəyirdilər.Elə bildim ki,Moskvadan alıb.Badələrə konyak süzdü.Təmiz bizim dildə dedi.Qaldıraq badələrimizi valideynlərimizin sağlığına.Bir qurtum içib yerə qoydum.O içən idi.Bir neçə badəni vurduqdan sonra məndən Bakını xəbər aldı.Dedim yəqin MDV-hər hansı bir Respublikasında yaşayır.Çoxdan Bakıda olmur xəbər aldım.

Sən harda yaşayırsan ki? O başını qaldırmadan dedi. Erevanda.Bu sözü eşidən kimi narahat oldum.O bu narahatlığı duydu.Narahat olma dedi,biz hər ikimiz burda qonağıq. Mən də əslən Bakılıyam. »Muğam» mehmanxanasının yanında qalırdıq.Çox ünvanı xəbər aldı.Xeyli söhbət etdik,bəlkə də ürəyində mənə qarşı heç bir fikiri yox idi.Ancaq mənim ruhum ürpəşdi.Elə həmin vaxt da mehmanxananı tərk etdim.Başqa oteldə yerləşdim.Bax,budur başıma gələn qəribə hadisə.

**Kamran kişi:** Ehtiyatlı oğulun anası ağlamaz, düz eləmisən. (Qönçəbəyim sarfasını udmuş kimi dayanıb o oğluna tərəf çevrilərək):

**Qönçə:** Vüqar, deyirsən yəni həqiqi erməni idi?

**Kamran:** (Vüqar dillənməmiş)-ay qız necə yəni həqiqi erməni idi.onun da həqiqisi,donqilisi var:

**Qönçə:** Var,a kişi var.Ermənilərin özləri də bu tərəflərdən gedənləri həqiqi erməni saymırlar.

**Vüqar:** Yaxşı,ay ana !

**Kamran:** Biz keçirik mətbəxə,Vüqarın bəxtində bir şey var,gətir görək sifarişini. Qurutlu xingəl,özü də sarımsaqla. (Onlar səhnəni tərk edirlər.Qönçə üzü tamaşaçılarla): Günah bizdədir, yaxşı beynəlmiləl ruhda böyütmüşük. Özü də rus təhsili vermişik. O yazıq uşaq hardan bilsin ki,hansı millətin həqiqisi hansıdır,donqilisi hansı.(O da səhnədən çıxır.Səhnə dönür).

## V şəkil

(Məmişin çayxanası,küncələrin digərində qoyulmuş mizin arxasında iki nəfər əyləşib.Biri orta yaşlı,digəri nisbətən cavan.Nisbətən kişi:)

**Yaşlı kişi:** Bir çay gətir, ay Məmiş

**Məmiş** (üzü tamaşaçılara): Yenə gəldi gəlməmiş.

**Yaşlı kişi:** Yenə dodağın altda
Nə doğrayıb tökürsən,
Verdiyin quru çaydır.
Elə üz göstərirsən
Sanki dolma bükürsən.

**O biri kişi:** Gülburnu sənin olsun
Boyat çayından gətir.
Dəsmalına bükdüyün
Boyat payından gətir.

**O biri kişi:** Ta gizlədə bilmərsən
Gəlir iyi küftənin.

**Məmiş:** Qabırğaların sınar
Güllesindən müftənin.
Ay filan-filan şüdə
Sən gətir bir dəfə də
Görək nə təhər bişir
Bilək ki,zəhər bişir.

**O biri kişi:** Danışıb afsanatdan
Çıxarma gəl küftəni
Səndə siyasət acı,
Həzm edirsən müftəni.

**O biri kişi:** Pul vermirsən qəzetə
Para sayıram ona.
Oxuyub öyrənirəm
Bir küftə sağlığına.

**O biri kişi:** İndi onu sən bizə
Çox görürsən ay Məmiş.
Sənki belə deyildin
Hardan oldun görməmiş.

**Məmiş:** Kimdir o dediyin zad
Hayıfı ay dadi-bidad.
Qurban ol əlimdəki
Dolu istəkanlara.
Elə sən də qurban ol
Elə sən də onlara.
(Hər ikisinə müraciətlə):

**Məmiş:** O nədir danışmısan
Lap həddini aşmısan
Köhnə qəzetlərdəki
Xəbərə yarayırsan
Çayçıyam deyib onu
Sən mənə sırıyırsan.

**O biri:** Onu kim dedi Məmiş.

**Məmiş:** Sənin kimi bir qəmiş.
Nə var,nə yox dünyada,
Kim yatıb,kim oyadıb.

**O biri:** Biz yatmışıq hamımız
Bar vermir ilhamımız.

**Məmiş:** Televizor nə deyir?

**O biri:** Nə deyəcək gövşəyir.
Dünən yediklərini.

**O biri:** Bu gün yalandır deyib,
Dünən dediklərini

**Məmiş:** Sən nə siyasətçisən
Zaman səndən qabaqda
Mən gönünə balədəm.
Naxır qıran dabbaqda
Boş-boş çərənləməkdir
Peşəniz yoxdur daha
Məni aldatmısınız

Batmısınız günaha.
O biri: Ay Məmiş, bu nə sözdür,
Nə söyləyiriksə düzdür.
Məmiş: Harası düzdü axı.
Deyirdin Qarabağı
Erməni tay istəmir
Bax,bu çəkic,bu dəmir
Bu da altında zindan
O qədər səf döymüsən
Oraq çıxıb yadından
Ona görə əlimdə
Korşalıb qılıncımız.
Ona görə azalmır
Gündən-günə sancımız
Hər addımda yalanıq
Utanmırıq heç nədən
Gərək ələyə dönək
Düşmən atan güllədən.
O biri: Yenə hirslənmə Məmiş
Biz əsil siyasətçi,
Sən yalançı çayçısan
Hər sözü söz edənsən
Yalançı harayçısan.
Məmiş: Ədə,gəl öz adını
Sən mənə bənd eləmə.
Mənim çayçılığımı
Yalanla gülləmə
Əlindən nə iş gəlir
Səhərdən axşamadək,
Sən yalan üyüdürsən
Boş çayxana külüsən.
O biri: Bu siyasət dediyin
Mənasız boş bir zaddır.
Məmiş: Boş sənin o başındı.
Siyasət də həyatdır.

Kimə xeyiriniz dəyib
Nə yumruğa yumaqsan,
Nə bir gözə çıraqsan.
Xeyirin yoxdur kimsəyə
Bu zəmiyə alaqsan.
Keçəl başa daraqsan,
Tətiyi yox yaraqsan,
Bir yalana yamaqsan.
Yenə söyləyim nəsən?
Bir əldə dəyənəksən.

O biriləri gülüşürlər

**O biri:** Nə yaman hirslənmmisən,
Hər gün bir təzə xəbər
Hardan tapıb gətirək.
Bəlkə səni hər axşam
Əlimizin üstündə
Biz evinə götürək
Az bilirsən,ay Məmiş.
Bir çay gətir dəyməmiş
Kal olsun dəmlənməmiş.

**Məmiş :** Sən nə duzsuz adamsan
Ha üstünə duz səpək.
Danışanda hər sözü
Danışasan düz gərək.
Qarabağım inləyir
Düşmən tapdağı altda.
Bu qəmiş də dinləyir
Gözü qalıb saatda.
Təkcə lodanı üçün
Yaşayana baxın siz
Vətənin təsibini
Daşıyana baxın siz.
Bir stəkan ağ suya
Satar qalan vətəni
Nadanlıq öldürəcək

Qınamayın siz məni
İndi mən bu yaşımda
Vurub öldürüm bunu.
Yoxsa çayla dolduraq
Siyasət tuluğunu.

O biri: Acıqlanma bu qədər
Çayını süz,ay Məmiş
Doyunca bir çay içək
O birilər gəlməmiş.

Məmiş: Qarnını güdənləri
Sayı çoxalır hər gün.
Samavar boşaldıqca
Məmiş qocalır hər gün
(Üzü tamaşaçılara tərəf):
Gördüyünüz bu zadlar
Məhəllə adamları
İtirsəniz harada
Burda,mənim yanımda
Taparsınız onları.
Nə tüsdüdən qorxurlar
Nə bürküdən qaçırlar.
Bir-iki söz öyrənib
Qucağıma uçurlar
İndi onların yeri
Öndə,səngər olmalı
İndi hamı Vətənə
Yurda əsgər olmalı

Qıraqdan o biri: Hayıf sənə ay Məmiş
Qocaldın gün görməmiş

Məmiş: Qalın öz dərdinizə,
Yazığım gəlir sizə

O biri: Əgər gəlsə yazığın
Tutmaz bizə acığın
Elə çay dəmləyərsən
Ətiri tutar hər yanı

Çay deyil,Məmiş canı
O min dərdin dərmanı.

Məmiş: Yenə şirin dilini
Çoxda işə salma gəl
Səngər adı gələndə
Sən belə qaralma gəl.
Bəsdir əsir düşdüyün,
Bu küncə bu mizə sən.
Quş dili oxuma gəl
Bundan sonra bizə sən.

O biri: Quş qripi olandan
Nə quş var nə yumurta
Daha həsrət qalmışıq
Həm bana həm də qırta

Məmiş: Qarnın üçün vuruşdun
Daha bəsdir bu dava.
Nəfsinə tət deyən ta,
Nəfsini çək qırağa.
Belə getsə sabahdan
Bağlayıram dükanı
Mən özümdə deyiləm
İtirmişəm sükanı.
Daha sığmır ürəyim
Bir çayxana küncünə
İstəyirəm inanım
Mən bu xalqın gücünə.
Gəlin birlikdə gedək
Biz düşmənin üstünə.
Haydı dükan bağldır,
Bu Məmişin ağlıdır.
(Səhnə dönür, pauza)

## VI şəkil

(Qoçəlinin mənzili. Elgün pəncərə qarşısında dayanıb fikirlidir. Qanrılıb tamaşaçılarla üzbəüz dayanır)

**Elgün:** Bilmirsən kimə inanasan. Kimə bel bağlayasan. Elə bil heç Qoçəli adlı adam yoxumuş bu evdə. Ömrümü çürütdüm onunla.Allahı da pul idi,var-dövlət idi. Necə də rahatam. Bundan söz xəbər alıram.Deyirəm,bu qaçqınlarımız dədə-baba yurdlarına qayıda biləcəklər ya yox.İçindəki zirzibili tökür çölə, erməni xislətini gizlədə bilmir.İndi get özünə bab birini tap və çürüt canıvı onunla. Mənə deyir ki,sən də o torpaqlardansan ona görə belə atılıb düşürsən. İndi sən atıl düş.Görək kim qazanıb,kim itirəcək. (Telefon zəng çalır.Elgün gedib dəstəyi qaldırır): Alo bəli mənəm. Onun evi idi.Artıq onun evi deyil. Nə təhər yoxdur ki,artıq Qoçəli adlı bir adam bu mənzildə yaşamır və bu telefon artıq onun deyil. Dünənə qədər...Nə dünənə qədər ola bilərdi. İndi artıq yoxdur. Ay qardaş nə qər saqqız olmusan. O bu evdə yaşamır və bu evdə yaşamayacaq.Kimdir danışan? Kim? Müştərəyi. Mən nə onu tanıyıram nə də sizi. Biz onunla ayrılmışıq. Tikintinin maliyyə sənədləri lazımdır,axtarın tapın Qoçəlini ondan alın.Daha mənim vaxtımı niyə alırsınız. Sağ olun.Siz də. (Telefon dəstəyini yerinə qoyduqdan sonra səhnədə gəzişir): -Bir adam olsaydı dərdimi onunla bölüşərdim. Kimə ürək qızdırasan. Bu məhəllədə ağzı bütöv,əsil qadınlığa xas xəsiyyətləri ilə məni özünə cəlb edən biri varsa o da Qönçəbəyim xanımdır. Məndən yaş fərqimiz çox olsada ona çox böyük simpatiyam var. Evlərində körpə uşaqları olsaydı onu bəhanə edib qapılarını döyərdim. Neyləyim ki,elə deyil. (Elgün bu fikirlərlə pəncərə qarşısına gəlir. Pəncərədən bayıra baxır. Qonşu qadınlar gözünə sataşır)

**Elgün:** Nə xoşbəxt adamlardır nə bir məktəb bitiriblər, nə də bir səriştələri var,doğub töküblər həyətə, bacaya bir də görürlər ki,artıq böyüyüb.Onların bu həyətə gəldikləri günü indiki kimi xatırlayıram. Çoxları əli qundaqlı idi. İndi o uşaqlar orduya getməyə hazırlaşırlar. Çoxu da bir qarnı ac,bir qarnı tox böyüyüb,özü də buzbaltası kimi sappasağlam. Mən indi sahədəki uşaqlara fikir verirəm.Hansı ailənin ki,imkanı yoxdur uşağı şükürlər olsun yarmaça kimidir. Nə yeyirsə canına sinir.Varlı-karlıların balaları isə əksinə.Mənim özümünkü isə tamamilə başqa cür.İndi ha özümü qınayım artıq son peşimançılıq fayda verməz.Bir neçə uşağımı öz əllərimlə tələf etdim. İndi fikirləşirəm süni mayalanma ilə uşağı olub onu saxlayan andan mənim nəyim artıqdır. Özüm öz əlimlə başıma kül ələdim. Nə var,nə yox Qoçəlinin cəddi babası ermənidir. Onda gərək 10 minlərlə ailə öz uşağından imtina edə.Nə isə daha gecdir. Eh, cəhənnəmə ki,əslində heç peşmanda deyiləm. (Pauza. Elgün bir yerdə qərar tuta bilmir)-Anam da ölməyə vaxt tapdı. Onu da xiffət öldürdü. Neçə gün can verdi, canını tapşıra bilmirdi.Axırda gedib Aztv-dən Şuşa televiziya filimini alıb gətirdik.Bir neçə dəqiqə baxdı və keçindi.

**Qeyibdən səs:** Allah rəhmət eləsin !

**Elgün:** (Dikisnir.O tərəf-bu tərəfə boylanır) Allah bizə rəhmət eləsin. Əslində deyirlər rəhmət dirilərə çatır. Ölənə kim rəhm edəcək. Öldü qurtardı.Əsil rəhm qalana düşür.(O səhnə boyu gəzişir,və gəzə-gəzə) Əsil rəhm bizə düşür, bizə. (Bir neçə dəfə təkrar edir). Niyə deyirsən bizə düşür. Ona görə ki, əhlət yuxusundan ayılmırıq. Yaşdan-yaşa bir azca mehribanlaşırıq. Elə bil özümüzə qənim yaranmışıq. Bu nədəndir? Hər şeydən əvvəl beynəlmiləlçi olmağımızdan. Biri də sən demə bizim ailə imiş. Biri azaldı bu beynəlmiləlçilərin. Özümüzə inamımızı əlimizdən alıblar.Mən inanıram ki, nə

zamansa biz qərbi Azərbaycana qayıdacağıq. Odur Qönçəbəyimgil də o torpaqlarımızdandır. Və yüzlərlə, minlərlə onlar kimilər. Onlar da inanırlar ki, bu dönüş olacaq.O adamlar inanmırlar ki,onların ya zatında,ya da südündə qarışıqlıq var. Məsələn Qoçəli kimi.Yenə adını çəkdim. Elə bil o mənim üçün çoxdan ölüb,lap çoxdan. Təklikdən lap darıxdım, çıxım qonşularla bir az dərdləşim.

(O üstünü dəyişib həyətə çıxır.Səhnə dönür)

**Qadınlar:** Ay Elgün doxtur üzünü görək.Ay qız,ətə yağa dönmüsən. Haralarda olursan. Sənsiz necə darıxmışdıq. Gəl,gəl otur. Görək nə var,nə yox.

**Elgün:** Nə var,nə yox,yəqin ki,siz məndən yaxşı bilirsiniz. Siz yenə bir yerdə toplaşıb bir çay içirsiniz, söhbətləşirisniz. Kişilər də yəqin şəhərin təzə xəbərlərini gətirirlər.

**Başqa qadın:** Sizdən nə əcəb Elgün xanım. Nə əcəb vaxt tapıb bizim dəstəyə qoşuldunuz.

**Elgün:** Sizin dəstəyə qoşuldum deyəndə siz bəyəm dəstə yaratmısınız. Bəlkə bir dəfəlik deyəsiniz ki, bizim komandaya qoşuldunuz. Ay bacılar bu sənmlik, mənəmlik nə deməkdir. Biz hamımız qonşuyuq,özü də gor qonşusu.Yaxşı qonşu da cənnət quşu kimi bir şeydir.Yəni qiymətsizidr.Mən sizi belə hesab edirəm.

**Başqa birisi:** (Yana) Hamımızı eyni adam hesab edən bu doxtur deyəsən Qoçəlini qovalayandan sonra bu qənaətə gəlib. (O Elgünə tərəf çevrilərək) Doxtur Qoçəli qardaşdan nə xəbər. Neçə gündür qarajı açılmır. (Elgün bu sualı gözləmirmiş kimi çox könülsüz halda):

**Elgün:** Sizə nə lazımdır.Qoçəli lazımdır yoxsa mən. Ay xanım, ona görə gəldim bura ki,nə sözünüz var deyin və bizim haqqımızda bilmək istədiyinizi birinci ağızdan eşidəsiniz. Yəni ANS «İç xəbər» kimi. Qoçəli qardaşınız bu məhəlləyə gəlməyəcək.Niyəsini

bilmək istəyirsinizsə onu da deyim.Qoçəli Qarabağın düşmən tapdağından qurtarmasını istəmir. Qoçəlinin cəddi babası ermənidir.Vəssalam. Başqa sualınız yoxsa mən gedim. Qoçəli bu məhəllədən və mənim həyatımdan əbədilik getdi. (Elgün bu sözləri deyib dönür öz mənzilinə.Telefon zəng çalır: O dəstəyi götürür): -Alo. Bəli mənəm. Ay qardaş mən sizə dedim ki,o daha bu mənzildə yaşamır,onu bu nömrədən axtarmayın. Nə deyirlər. Deyirlər Şimali Qafqaza,Krasnadar vilayətinə qaçıb. Hesabındakı pulları da əvvəlcədən çıxarıb? Cəhənnəmə çıxarıb, gora çıxarıb. Onun mənə bir qəpiyi də lazım deyil. Sizə lazımdır? Onda siz onu axtarıb tapın. Sizi aldadıb.Neçə ildir. Beş ildir? O məni 15 ildir aldadırdı.Axır ki,onun maskasını cırıqladım. Xahiş edirəm məni əziyyətə salıb rabitə evinə aparmayın. Yoxsa nömrəni dəyişdirərəm. Sağ olun. Siz də.( Bir qədər məmnun halda) Bilirdim axırı belə olacaq. Axır ki, getdi dayılarının yanına.O elə belə var-dövlət sahibi deyildi ki? Onun kimi o qədər erməni dayısı hesabına var-dövlət sahibi olan var ki? Nə isə, nə isə. Özü yıxılan ağlamaz. Axır ki,biz özümüzə hörmət qoymağı bacarmalıyıq. Bax, onda işğal edilmiş torpaşqlarımızı azad edə biləcəyik.Özü də hökmən azad edə biləcəyik. Hökmən !...

(Pauza)

(Səhnə yarımçıq dönür. Qonşu arvadlar yenə də söhbət üstündədirlər)

**Qadınlardan nisbətən az danışanı:** O namərdlərin sifətini görməyənlər xoşbəxt adamdır.

**O biri:** Ay onların üzünü mürdəşinr yusun. Onların üzünü bizim tərəflərdə görməyəni vardır. Gəlib tutmuşdular şəhərin ən yaxşı yerlərini,dağlarımızın ən yaxşı sərin bulaqları haradaydı onlar da oralarda məskunlaşmışdılar.Onların üzünü kim görməyib ki. Onlar Bakıda ağa kimi yaşayırdılar,xırda sənətkarlığın

hamısı onların əlində idi. Qızları da kişilərimizin katibəsi idi. Axırda nə oldu, qudurdular.

**O biri:** Qudurdular da sözdür. A kişinin qızları axrıncı gün xalisədən çıxdığım günü allah bir də düşmənimə də göstərməsin.O gün ərimi,iki oğlumu güllələdilər. Qucağımdakı körpəni döşümə saldım ki, ağlamasın. Həyətimizdəki sıxmaş arxında gizləndim. O dəyyuslar həyətdən çıxandan sonra baxdım ki, nə olub.

**O biri:** Hə nə olub?

**O biri:** Nə olacaq daha. Həyat mənim üçün qurtarıb körpəni ağlamasın deyə sinəmə elə sıxmışam ki,qucağımdaca boğulub. Dəli olub Araz çayına tərəf qaçdım. Ölmüş uşağımla birlikdə sərhədi qoruyan ruslar məni yaxaladılar. Onları bir təhər başa saldım. Məni zastava rəisinin yanına gətirdilər və oradan məni sərhəd dirəklərinin arsı ilə Arazdöyəndən keçirib Sədərək kəndinə gətirdilər. Qucağımda ölmüş oğlumun qundağı ilə birlikdə orada dəfn etdilər.İndi hər gecə o hadisəni xatırlayıram. Dəli olmaq dərəcəsinə çatana qədər.Bu mənim başıma gələnlər.

**O biri:** Hayıf qalsaydı indi orduya gedəcəkdir.

**O biri:** Dərdimi təzələdin. İspitaq zəlzələsindən sonra eşitdim ki,dəmir su borusunu yığılıb o baş bu başı qaynaq olunan uşaqların içində bacımın bir oğlu,bir qızı da olub. Bacım bu hadisədən sonra dağlara varmış,o da donub ölmüşdür.

**O biri:** Hərənin bir dərdi var bacım. Hamımız dərdliyik. Deyirlər dərdli-dərdlini tapar. Mən danışsam sizin dərdinizdən də böyüyü var mənim. Görürsünüz Elgün doxtur da bir az dərdlənən kimi gəldi bizim cərgəmizə.

**O biri:** Cərgəmizə gəlmədi,gəldi bizə ultimatum verdi qayıtdı. Hələ bilməz biz çəkənləri. Dərd adamları biləşdirir.

**O biri:** Bundan artıq dərd olar,bəs biz niyə birləşə bilmirik. İşimiz gücümüz bir-birimizdən deməkdir. Deyirlər yenə o Avropa şurasından Azərbaycana bərkidilmiş Andreylər bu gün sabaha Bakıya gələcək.Yenə siyasi məhbus axtarırlar. Ay qızlar, yəqin o namus üstə tutulmuş qonşumuz vardı e, o da siyasi dustaq olacaq hə.(Qadınlar dillənirlər)

Belə bir söhbət eşitmişəm ki, bu Andreylərdən soruşublar ki, ay Andreylər, siz niyə Ermənistanın Azərbaycana qarşı təcavüzünə siyasi rəng vermirsiniz. Elə tutmusunuz bizim yaxamızdan ki,Azərbaycanın həbsxanalarındakı dustaqlardan əksəriyyəti siyasi məhbuslardır. Bunu biz demirik ki, özünüz deyirsiniz, yazırsınız bizi də göndərirlər ki, gedin yoxlayın o öhdəlik götürənləri. Biz də buyuruq quluyuq. Gəlmişik. Bəs onlar? Onlardan AŞ-na bu mövzuda bir məktubda daxil olmur. Günahkar özünüzsünüz. Özünüz.Bu da bizimkilər. Düşmən bir tərəfdən, özümüzünkülər də o biri tərəfdən sökürlər bu vətənin qabırğalarını.

**O biri qadın:** Ay qızlar, bu Elgün doxtur qəribə iş görüb e. Əgər erməni qızı olan kişilərimiz öz axçiklərini dədələri gilə qovalasalar onda Azərbaycanda ərsiz arvad qalmaz. Bizim də əlimiz bi isti suya dəyər. Biz də bir xanımlıq edərik. Deyirlər Azərbaycanda 30 min nəfərdən çox erməni yaşayır.İnanın mənə onların içərisində bəlkə də bir nəfər belə kişi xeylağı adında erməni yoxdur, hamısı qadıniardır. Qadınlar isə çox güclüdür. Neynəməli bu barədə dövlət səviyyəsində yox, Elgün doxtur kimi fikirləşmək lazımdır.

**Qadınlar** (bir azdan)**:** Elgün xanımın bu hərəkətini alqışlayıram.

(Pauza. Şəkil dəyişir)

## VII ş ə k i l

Kamran kişinin mənzili.

**Qönçəbəyim** (çox mülayim bir sifətdə səhnəyə daxil olur): Kamranın gəlməyinə çox az qalır. Evə bir əl gəzdirim. Çayı hazırdır. O çox dəqiq adamdır. Verdiyi vədə heç vaxt xilaf çıxmaz. Sözünün sahibi kişidir. Əfsuslar olsun ki, onun kimilər çox azdır. Kamran da həmişə adamların naxələfliyindən sınır. Ona görə də adamlarla çox yoldaşlıq edə bilmir. Qonşular da elə bilir Kamran adamayovuşmazdı, yox, elə deyil, adamları çox istəyir. İstəyir hamı xohbəxt yaşasın, özünə arzuladıqlarını hamıya arzulayır. Belə bir söz var e, deyirlər uşaq dədəsindən böyük kişi tanımaz. Zər məsəlin sözü bizə uyğun gəlməsə də doğrudan da Kamran belə adamdı. (Qapının zəngi səslənir. Qönçəbəyim qapını açır. Kamran əlində bir dəstə gül içəri girir. Qönçəbəyim həyəcanla): -Bu nə sürprizdi, a kişi. Yoxsa...

**Kamran:** Nə yoxsa arvad,sən unudmusan ki,bu gün bizim toy günümüzdür.Mən əslində əhd etmişdim ki,evlilik günümüzə sənə çiçəkləri cıdır düzündən gətirim.Bu il də qismət olmadı.Dedim bu gün heç olmasa Vüqarı da çağıraq,bir az işdən tez gəlsin gedək Şuşanın adını daşıyan restorana.Şuşanı da bir az yad edək.

**Qönçəbəyim:** (Çox qısa və konkret) Mən Şuşa restoranına heç vaxt getmərəm. Görmürsən ki,orda keçirilən toylara mən getmirəm. Bir dəfə bacım qızının toyunda oldum və özümə tövbələtmə verdim. Kamran yadındadır o restoranın qarşısında dayanan maşınlar. Allah, Allah son mod xarici maşınlardan başqa maşina rast gəlmədim.Əgər o maşın sahibləri bir dəfə ürəklə desələr o dığaları Şuşa qalasından bir saata qovmaq olar.Hələ utanmaz-utanmaz o Şuşada qol götürüb oynayırıq da. Biz beləyik, Kamran. Deyirəm elə Zaur da

gəlsin,şeyimiz var mən durub süfrəmizi düzəldirəm. Sən də işdən yorğun gəlmisən dur paltarlarını dəyiş. Təbrik edirəm sənin toy gününü.

**Kamran:** Qönçə,yadındadır.Bu sözü ilk dəfə toy gecəsi mən sənə dedim.

**Qönçə:** Yadımda Kamran,yadımda. Necə də xoşbəxt idim.

**Kamran:** Bəs indi ?

**Qönçə:** Elə indi də xoşbəxtəm.Nə yaxşı sən varsan Kamran. Qohum-qəbləmi tamam itirmişəm.

**Kamran:** Bəs məni ?

**Qönçə:** Səni tapmışam.Və çox əziz bir xəzinə kimi səni gözlərim üstündə saxlamaqdayam.

**Kamran:** Gözlərinə qurban. Heç bilirsən sənin gözlərin nədir?

**Qönçə:** Nədir Kamran,nədir !

**Kamran:** Qönçə inan gözlərinin rəngini soruşsan deyə bilmərəm. Bir onu bilirəm ki, onda bütün dünyanın işığı var, və işıq həmişə mənim yollarıma nur salır. Bəlkə də həyatda elədiklərim və etmək istədiklərimin hamısında bir yalnışlıq var.Yalnış olmayan bir şey varsa,o da sənin varlığındır.Dünyada bir birini başa düşməkdən yaxşı və qiymətli heç bir xəzinə ola bilməz.

**Qönçə:** Kamran! (Səsində bir qədər titrəyiş hiss olunur) Kamran,sən o qədər gözəl bir insansan ki, səninlə fəxr edirəm.

**Kamran:** Əslində bu gün başqa söhbət etmək istəməzdim. Ancaq yadıma bilirsən nə düşdü. Bizim nəqliyyat müəssisəisndə müdirin bir müavini var idi. Müdirin ondan zəndi-zəhləsi gedirdi. Ancaq mənə qarşı çox yaxşı münasibətdə idi. Müdiri deyirəm. Elə işçilərin də o müavindən xoşu gəlmirdi.Bir gün mənə dedi ki, mən sənə nifrət edirəm. Mat-məəttəl qaldım. Səbəbini soruşdum. Dedi ki, sən niyə bu qədər yaxşı adamsan. Onun bu sözünə o qədər gülmüşdüm bütün qaraj

tökülmüşdü kontorun qabağına.İndi onu xatırladım. Bağışla Qönçə, bəlkə də yerinə düşmədi. Ancaq bir onu bilirəm ki,yaxşı adamdan da çoxlarının xoşu gəlmir.

**Qönçə:** İndi harda olsa Vüqar da özünü yetirəcək. Kamran, biz evlilik günümüzü də ad günlərimizi də saxlayacağıq Qarabağ işğaldan azad olunan vaxta. Olsun.

**Kamran:** Olsun.Bəs Vüqarın evlənmək məsələsi necə olsun?!

**Qönçə:** Onu təxirə sala bilmərik.Vüqarın yaşı ötür.Sonra ona qız bəyəndirmək olmaz ki,gəlsin o məsələni konkretləşdirək. Artıq 27 yaşın içindədir. (Telefon zəng çalır.Telefona yaxın olan Kamran dəstəyi qaldırır):

**Kamran:** Alo.Hə mənəm. Sən hardasan? Evə gəlirsən? (Qönçəyə sarı) Vüqardı evə gəlir,soruşur ki, nəyəsə ehtiyac yoxdur. Yox, yox. Anan deyir. Anan. Bir özünü gətir. Başqa heç nə istəmirik. (Telefonun dəstəyini yerinə qoyur) Qönçə, gəl bu evlənmək məsələsini Vüqarın özünə həvalə edək. Hər şey bizdən qız seçmək Vüqarın özündən. Nə deyirsən.

**Qönçə:** Nə deyəcəyəm a kişi. Kor nə istər, iki göz,biri əyri biri düz. Ancaq qorxuram bizi bu gün sabaha sala. Bizim artıq nəvə görmək vaxtımızdır. (Pauza. Qapı döyülür.Gələn Vüqardır.O içəri girən kimi anası onu bağrına basır).

**Kamran:** Bu nədir, Qönçə, elə bil illərlə görüşmürsünüz!

**Qönçə:** Mə onu hər dəfə görəndə elə fikirləşirəm. Allah pis nəzərdən saxlasın.

**Kamran:** Amin. Gəl,gəl otur görək.Vüqar bilirsənmi anan niyə belə şəndir.

**Vüqar:** Yəqin bir səbəbi var.

**Kamran:** Heç nə səbəbsiz deyil. Bu gün toyumuzun il dönümüdür.

**Vüqar:** (Gözləri yaşarana kimi gülür,sonradan): Deyirəm axı niyə yadımda qalmayıb. Çünki həmin gün mən toyda iştirak etməmişəm. Etsəydim indi bir hədiyə ilə gələrdim sizin görüşünüzə.

**Kamran:** Neynək,sən bizim toyda iştirak et-məmisən biz sənin toyunda iştirak edərik.

**Vüqar:** Yenə sözlü adama oxşayırsınız.Yoxsa məni evləndirmək istəyirsiniz.

**Kamran:** Elə bir fikirmiz var.Sən buna nə deyirsən?!

**Vüqar:** Nə deyəcəm. Bilirəm ki, gec, ya tez bu işi mənim boynuma qoyacaqsınız. Buyurun mən sizi dinləyirəm və sona kimi, həmişəki tək.

**Qönçə:** Ay sağ ol, oğlum.

**Kamran:** Biz belə qərara gəldik ki,qızı sən özün tapasan. Başqa hər şey yerində.Bizim işimizdir qalanı. Mən hələ 30 il əvvəl özüm sevib-seçmişəm.Bu daha gözəl olur.

**Vüqar:** Ata,belə bir söhbətimiz iki il əvvəl də oldu. Mən öz fikrimi dedim. Anam da dedi ki, mən gərək qızın kimliyi ilə ətraflı maraqlanım.Görüm kimdir, nəçidir,şəcərəsi hara, hansı millətə gedib çıxır, milliyətində qarışıqlıq olmasın. Cəddi babasına qədər öyrənmək istədi. Mən də razı oldum. Və anam sonra məsləhət bilmədi. Sonra birini anam dedi. Onu da mən bəyənmədim. Ümumi hesabda oldu heç-heçə,bir-bir.İndi söz yenə də sizindir. Vallah mənim vaxtım yoxdur ki, evlənmək barədə fikirləşim. Əgər siz fikirləşirsinizsə bu başqa məsələ. Sizə toylar üçün iki gün vaxt ayıra bilərəm. Anam demişkən evlənək,sonra bir-birimizə isinişərik. Yaz var, qış var, nə tələsik iş var.

**Qönçə:** Oğlum neyləyim gözümüz qorxub. Şəhərimiz böyük. Qız da sənin dediyin kimi «Naval». Ancaq o «Naval»ın içindən özünə babını seçənə kimi illər ötəcək.Bir də görəcəksən ki,hər şeyin var, varın-

dövlətin,vəzifən bir şeydən başqa,övladdan başqa. Deyirsən,bu işin babalını bizim boynumuza qoydun,hə.

**Vüqar:** Bəli,gözəl anam. Sən səhv etmərsən.

**Kamran:** Biz səhv etmərik.Allah sənə öz bəxtini yetirsin.

**Qönçə:** Amin, ya rəbilaləmin.

(Pauza)

**Qönçə** (Vüqara müraciətlə): Qoçəlini tanıyırdın?

**Vüqar:** Hansı Qoçəlini deyirsən.

**Qönçə:** O gündə bir maşını dəyişən məhəllədə ona milyader deyirlər.

**Vüqar:** Tanıdım,ona nə olub ki ?

**Qönçə:** Daha nə olacaq,arvadı salıb küçəyə, evdən qovub. Niyəsi.

**Vüqar:** Niyəsi.

**Qönçə:** Ona görə ki,qonşu arvadlara arvadı Elgünün dediyinə görə Qoçəlinin cəddi babası erməni imiş.Tuğ ermənilərindəndir. Bir vaxt ki,babaları 1905-ci ildə bizim babalara güllə atıb,indi də bu biri qohum əqrabası. Getdi Qoçəli,əhsən Elgün xanıma. Heç olmazsa indi səhv etməyək. Bu qarşıq nigahlardan təmizlənək. Sovet hökümətinin mənəm mənəm vaxtında erməni, rus almaq moda idi.Hansı axmaqsa camaatı aldatmışdır ki, bəs qarışıq nigahlardan doğluan uşaqlar həm sağlam həm də ağıllı olurlar. Millət də daraşmışdı başqa millətlərə, öz qızlarımız evdə qalmışdı. Guya bizdə nə böyük alim adamlar ola bilərdi, nə görkəmli sərkərdə, nə də qüdrətli dövlət başçısı. Axrıncı fakt kimi onu deyim ki, başqalarının dedikləri bu uydurmalar bizim genefondumuzu zəhərləməkdən ibarət olub.

**Kamran:** Təmiz Azərbaycanlı ailəsində dünyaya gəlmiş Heydər Əliyevin parlaq həyatı və qüdrətli siması bizim bu sahədə qarşılışdığımız çətinliklərə son qoydu. Onun dediyi «Mən fəxr edirəm azərbaycanlıyam» kəlamı yalnız təmiz qandan doğlumuş azırbaycanlıya xas-

dır. Biz istəyirik sənin yolun bu müqəddəs yoldan keçsin. Ad çəkmək istəmirəm. Çünki bu mənim xasiyyətimə uyğun deyil.Qarışıq nigahlardan törəyənlər necə ürəklə bu sözü deyə bilərlər.Deyə bilməzlər,heç deməzlər də. Vallah deməzlər.

**Vüqar:** Ata,bu çox oyaq məntiqdir. Ürəklə danışmaq və ürəklə Vətəni,eli sevmək üçün gərək ürəyin olsun. Ona adi ət parçası kimi baxmaq olmaz. Ötən əsirin əvvəllərində və ondan bir qədər sonra quraşdırılan nağıllarımız,yazılan səhnə əsərlərimiz və digər bədii nümunələrimiz xalqlar dostluğunu nə qədər təbliğ etsələr də sonda gördük ki,türkün türkdən başqa dostu yoxdur və olmayacaq da. Bir vaxt İrəvan çuxurunun bəylər bəyi Rəvənqulu xan Azərbaycanı bir Milli dövlət və Azərbaycan dilini dövlət dili kimi bərqərar etmək üçün ömrü boyu döyüşən Şah İsmayıl Xətaiyə yazdığı məktubunda deyirdi. Sözü olduğu kimi çatdırıram. «Qarışıq nigahlar məni yaman qorxudur, şahım!» Hələ onda İrəvan çuxurunda bir erməni də yox idi. Ancaq Rəvənqulu xan bu təhlükəni hiss edirmiş kimi dahiyanə şəkildə bunu demişdir. Əslində mən çox danışdım, deyəsən.

**Kamran:** Yox, oğlum. Ağıl ağlıdan üstündür deyirlər. Bu dediklrini birinci kərədir eşidirəm.Allah lənət eləsin bunları bizə calayana. Ataların bir məsəli var e... Deyir diş ağrıyır çək qurtar,qonşun pisdir köç qurtar. Gördün neylədilər. İndi Ermənistan deyilən qondarma respublikada bizim dədə baba yurdumuzdan necə deyərlər diş qurtarmadı bir azərbaycanlı qalmayıb. Dərdimiz çəkiləsi deyil. Torpaqlarımızı geci tezi qaytaracağıq hələlik bu şansı gözləyirik.

**Vüqar:** Və bu şansı özümüz qazanmalıyıq. Heç kim Qarabağı əlləri üstündə gətirib bizə verən deyil. Biz hamılıqla bu iş üçün səfərbər olmalıyıq. Bir dövlət məmuru kimi onu bilirəm ki,həmin işin sülh yolu il əvə

bizim tələblərimiz səviyyəsində başa çatdırılması üçün çox mühüm işlər görülür.Xalqımız görülən işlərin bərpasını hökmən görəcək.

**Kamran:** (Qönçəyə müraciətlə) Arvad sən nə fikirləşirsən.

**Qönçə:** Sən mənim fikirimi yaxşı bilirsən. Mənim ancaq bir fikirim var. Bu tarixə salınmaz iş Vüqarı evləndirməkdir. Tək övladımın toyunu görmək istəyirəm.

**Kamran:** Mən də onu çox istəyirəm.

**Qönçə:** Səndən də bəlkə çox.

(Vüqarın cib telefonu zəng çalır)

**Vüqar:** Bəli. Köməkçi. Hə eşidirəm.Bu gün saat 20-də. Baş üstə. (Telefonu söndürüb atasına tərəf). İşdəndir.Nazirin köməkçisidir.Məni saat 20-də qəbul edəcək. Amerikadan qonaqlar gəlib onları qarşılayacağıq. Mən lazımam.

**Qönçə:** Çox dil bilməyin də xeyiri budur bax. Qoymurlar uşağı bir saat rahat nəfəs alsın. Bu qədər xarici dil bilincə bir sevginin dilini bilsəydin bəlkə də bir ömürlük xoşbəxtliyə bəs edərdi.

**Vüqar:** Neyliyim ay ana. Hamı o ilahi qüvvənin dilini bilməz ki?! Nə yaxşı ki, atam bilib.Mən də xoşbəxtəm ona görə ki, mən o böyük ilahi qüvvənin məhsuluyam.

**Qönçə:** Bu Amerikadı,Avropadı elə hey gedib gəlirlər.Barı bunların bu millətə xeyiri dəyəcək,ya yox.

**Kamran:** Qönçə,sən də başqaları kimi danışma. Gəlirlər, gedirlər bizi tanıyırlar, biz tanıyırıq. Bunun nəyi pisdir. Axır ki, bir gün həqiqəti danışacaqlar. Dünya da biləcək ki,onlar kimdi, biz kimik.

**Qönçə:** Deyirsən, bəlkə dünya bilmir ki, günahkar kimdir. Onlar bu məsələni bizdən də yaxşı bilirlər. Sadəcə dil demək onlara hələlik sərf etmir.Bəlkə bir gün sərf edəcək.

**Vüqar:** Mən sizin hər ikinizlə tam razıyam. Maşallah olsun bu gün hər bir ailə bir siyasət idarəsi qədər bu işlərə öz münasibətini bildirməyi bacarır. Bu çox yaxşıdır. Ana siyasətdən sonra sözümüz sözdür. Gəlinini tapmağı sizə həvalə edirəm. Məni isə gözləyirlər, mən getdim.

(Pauza)

(Vüqar otaqdan çıxır. Səhnə əvvəlki şəkillərini göstərə göstərə fırlanır və nəhayət, yenə də Kamran kişinin otağı)

**Kamran:** (Otaqda vər-gər edə edə) Ay Qönçə-bəyim, indi bu tapşırığı necə yerinə yetirmək səndən asılıdır.

**Qönçə:** Kamran,yenə də mən sözümün üstündə dayanıram. Bizdən bir tin o yana,sənə dediyim qonşunun qızı mənim yaman ürəyimə yatır. O mənim qismətimdir. Gör neçə yerdən istəyəni var, heç birinə getmək istəmir. Ya allah deyib özüm onu Vüqara istəyəcəyəm.

**Kamran:** Xeyirli olsun!

**Qönçə:** Amin. A kişi. Sən də heç olmasa ayda bir dəfə çıx bu məhəllə kişilərinin içinə. İndi onları toya dəvət edəndə birdən sifətləri,adları sənin yadından çıxar.

**Kamran:** İnşallah çıxmaz. Hamısını dəvət edəcəyəm. Gəlsinlər yesinlər,içsinlər və xeyir-dua verib getsinlər.Mən əhd etmişəm ki, Vüqarın toyunu edəndə bir kimsədən bir manat yığmayım.

**Qönçə:** Birdən qonşular inciyər.

**Kamran:** İnciməzlər.

**Qönçə:** Axı,biz qonşuların toylarında necə lazımsa iştirak etmişik.

**Kamran:** Nə olsun.Yenə də iştirak edəcəyik. Bu bizim arzumuzdur.

**Qönçə:** Allah arzuna çatdırsın.Söhbətimiz xeyirə calansın.

**Kamran:** Arvad deyirlər Məmişin çayxanasında kişilərin əksəriyyəti siyasətdən özü də şerlə danışır.

**Qönçə:** Yox əşi. Sən heç o çayxanaya getmirsən. Sən də bir get. Bəlkə sən də ilhama gəldin. Cavanlıqda mənə yazdığın şerlərdən birini də yazdın.

**Kamran:** Elə bir fikirim var ki,bir Məmişin çayını içim.Tərifləyirlər.

**Qönçə:** Deyirsən yanı mənim çayımdan yaxşı olar.

**Kamran:** Çayxana çayının dadı-duzu onun söhbətində və qeybətindədir. Hərə bir hava çalır Məmiş də onların boğazını yaşlayır. Gərək hamını dəvət edək. Sən qadınları mən də kişiləri. Özü də dəvətnaməni xüsusi mətinlə dərc etdirək.

**Qönçə:** Nə təhər yanı xüsüssi mətin ilə.

**Kamran:** Nə təhəri yoxdur ki.Gərək bilinsin ki,biz toya gələnlərdən heç bir təmənna güdmürük.

**Qönçə:** Məsələn necə yazaq.

**Kamran:** Bu barədə bir az fikirləşmək lazımdır. Sən öz elçiliyində ol mən də dəvətnamə mətni fikişləşməyində.

(Pauza)

(Yenə səhnə bütün şəkillərdəki pozaları göstərə-göstərə dönür. Yenə Kamran kişinin evi)

**Kamran:** Şükür olsun, Vüqarın evlənmək məsələsini bu gün sabah qurtaracağıq.

**Qönçə:** Mən dediyimi elədim. Bəs sən necə? Dəvətnamə mətnini tapa bildinmi?

**Kamran:** Bir neçə variant seçmişəm.

**Qönçə:** Məsələn.

**Kamran:** Məsələn belə;

*Hörmətli Məmiş kişi. Sizi oğlum Vüqarın toy ziyafətinə dəvət edirik. Yeyin, için, şənlənin və əlinizi cibinizə salmadan gedin. Hörmətlə Kamran.*

Başqa bir variant;

*Hörmətli Məmiş. Oğlumuz Vüqar axır ki, bizi sevindirdi. Gəlin bizim sevincimizə şərik olun. Sevincimizi istəyirik. Başqa heç nə. Hörmətlə Kamran.*

**Qönçə:** ikisi də yaxşıdır. Kişi, bilirsən nə deyirəm.

**Kamran:** Nə deyirsən.

**Qönçə:** Deyirəm toyu restoranda yox elə məhəllədə keçirək. Dədə-baba qaydasında bir toy çadırı qurduraq, qonşularla birlikdə. Bizim öz toyumuz kimi. Hamı necə də bir-birinə can deyib can eşidirdi. Elə istəyirəm hamı toya özü kimi gəlsin.Ütülü paltar kimi yox. Dədə-baba toyu istəyirəm,zurnalı, qavallı, aşıqlı, sazlı-sözlü. Qoy hər şeyi özümüz alaq, qonşu arvadları ilə bişirək, düşürək, cavanlar da ortada gəzsin. Oynasınlar, oxusunlar. Bizim öz toyumuz kimi. Ay kişi, qara zurnanın səsini eşidirsən. Gəl məhəlləyə çıxaq. Vüqarın toyu başlayır.

(Səhnəyə hər tərəfdən məhəllə adamları daxil olur. Musiqiçilər gəlir).

**Kamran** (zurnaçıya müraciətlə): Qardaş, bu adamların içərisində nə fars motivləri-göbək rəqisləri oynayan var, nə də iəzginka,tərəkəmə oynayanlar. Bizim havamızı sən bilirsən, Balay. Çal bizim havamızı. Hərənin bir havaya oynadığı bəs edər. İndi biz birlikdə eyni havanı oynayacağıq. Vətən havasını. Balay, yallı çal. Yallı çal. (Musiqi) Yallı tuturlar.

(Səhnədəkilər səhnəyə qalxan tamaşaçılarda onlara qoşulurlar)

SON

12-21 yanvar 2006

# QIZ ÜSTƏ DAVA

(dram)

*Kişi-* 50-55 yaşlarında
*Qadın-* 45-50 yaşlarında
*I oğul-* 30 yaşında
*II oğul-* 28 yaşında
*Qız atası-* 45-50 yaşlarında
*Qız anası-* 40-45 yaşlarında
*Və əlavə iştirakçılar.*

(Əhvalat vaqe olur 2050-ci illərdə bir əyalət şəhərində. Səliqə ilə bəzədilmiş mənzil. Evin xanımı fikirli halda mizin üstünü yığışdırır. Ərinin evə daxil olması ilə onun pəjmürdəliyi bir qədər aradan qalxsa da əri onun kefinin yerində olmadığını hiss edir. Ona müraciətlə):

**Kişi:** Arvad yenə nə olub ? Elə bil bütün şəhərin vergilərini səndən alıblar.

**Qadın:** Yox,ay kişi. Heç nəyim deyil.Vergi dedin yadıma vergi yığanlar düşdü.

**Kişi:** Nə olub vergi yığanlara.

**Qadın:** Heç, gəlmişdilər torpaq vergisinə ödədim.

**Kişi:** Lap yaxşı eləmisən. Vergini vaxtında verməliyik. O qızılca kimi bir şeydir. Qızılcanı hökmən çıxarmalısan, vergini də hökmən verməlisən. Bunlar hökümdür.Yerinə yetirməliyik. Ancaq sənin fikirli olmağının vergiyə heç bir dəxli olmadığını da əlimin içi kimi bilirəm. De görüm, nə olub.Yoxsa məndən söz gizlədəcəksən?!

**Qadın:** Allah eləməsin ki,mənim səndən bir gizlin İşim olsun. Sadəcə bir az narahatam.

**Kişi:** Nədir narahatlığın. Səbəbini de,birlikdə çarəsini tapaq. Biz ikilikdə daha güclü olarıq,elə deyil?

**Qadın:** Elədir,həqiqətdir.

**Kişi:** Əgəl elədirsə, məni nigarançılıqda çox saxlama. De,de ürəyindəkilərini. Ürəyini boşald.Özünə bu qədər yük eləmə. Axı, biz...

**Qadın:** Düzdür axı biz həm də yaxın dostuq, sırdaşıq, təkcə ər-arvad deyilik.Bunu demək istəyirdin.

**Kişi:** Bəli onu demək istəyirdim. Biz sirdaşıq.Nə sözün var de, bölüşək, nəyimiz varsa bölüşək.

**Qadın:** Sən bu fikirli olmağımı elə qabardırsan ki, eşidən, bilən elə düşünər ki,bizim aramızda nəsə qeyri-səmimi bir iş baş verib. Sən bilirsən ki,mənim bircə dərdim var. O da uşaqlarımı evləndirmək.onları ev-eşik sahibi etməkdir.Vəssalam,başqa heç bir dərdim yoxdur.

**Kişi:** Elə bu?

**Qadın:** Bundan böyük iş var.

**Kişi:** Burda nə var ki,oğlumuz kimi istəyirsə onu da alarıq.

**Qadın:** Kimi alarıq? Bir qonşularına nəzər sal, qohumlarına bax,yada bax,gör kimin evində qızı var. Fikirləşirdim bu böyüklükdə məhəllədə bircə Sultan kişinin yeddi qızı var. Onun da qapısına o qədər elçi gəlib ki, darvazası yağır olub. Kişi də özünü naza qoyub. Kim qapısını döyüb qızını istəyirsə deyir ki,mənim sizin oğlunuza verməli qızım yoxdur. Səhərdən axşama kimi dörd oğluna bir sənə o qədər qulluq edirəm ki,gecə əzalarımın ağrısından yata bilmirəm.

**Kişi:** İndi mən nə etməliyəm. Sən de mən də eləyim.

**Qadın:** Mən niyə deyirəm. Özün fikirləş, o boyda idarənin işinin öhdəsindən gəlirsən bu qartıxmış

oğlanlarını bir yanlıq edə bilmirsən. Hər şeyləri var. Ev eşikləri mərtəbə-mərtəbə, maşınları növbənöv, dil bilirlər bir neçəsini, boyları, buxunları yerində. Bəs bu uşaqlar nə vaxt evlənəcəklər, arvad-uşaq sahibi olacaqlar? Bax, məni incidən budur !

**Kişi:** İndi mən neyləyim.Özləri axtarsınlar. Bir vaxtlar «Arşınmalçılar» olublar. Oğlanlar özlərinə qız axtarmaq üçün ev-ev, küçə-küçə mal satıblar,qızların gur olduqları yerlərə gediblər. İndi şükürlər olsun arşınmalçılığa ehtiyac yoxdur. Ayaqlarının altında son markalı maşınlar axtarsınlar və tapsınlar. Mən onların toylarını Aydakı Bakı restoranında elətdirərəm.

**Qadın:** Hələ yerdəki işimizi görək, ondan sonrasına baxarıq. Ay kişi,deyirəm bəlkə biz də Sultan kişinin qapısını döyək. Bəlkə bir hə deyə!

**Kişi:** İnanmırsan arvad, inaimırsan ki, bu gedişlə o ipə-sapa yata. Zaman varıydı ki,bir kişiyə iki arvad düşürdü. Hələ bəlkə də çox düşürdü. Gör hansı zəmanəyə gəldik ki, oğlumuzu evləndirməyə qız tapa bilmirik.

**Qadın:** Niyə tapa bilmirik hə!...

**Kişi:** Niyə?!

**Qadın:** Daha niyəsi yoxdur ki,gör neçə illərdir şəhərimizdə qız uşağı oğlan uşağından az doğulur. Səbəbini də hamımız yaxşı bilirik.

**Kişi:** Nədir o səbəb?

**Qadın:** Sən yaxşı bilirsən nədir səbəbi. Kişi, yadındadır ananın doqquz qızı olmağı və sənin onların yeganə qardaşı olmağın?

**Kişi:** Hə yadımda, bunun mətləbə nə dəxli var.

**Qadın:** Mətləbə dəxli olmasa heç üstünü də vurmaram ki, anan dalbadal, sən doğulana kimi hər il bir qız doğmuşdu. Adınıda uyğunlaşdırmışdı,necə deyərlər salmışdı qafiyəyə.- Axşam olanda sayıb yığırdı evə, onları baş-ayaq eləyənə qədər sənin canın çıxdı.

Bizim də birinci uşağımız qız oldu. Mən necə də sevinirdim, sən isə dodaqlarını sallayıb oturmuşdun. Oğlan uşağı istəyirdin. İstəyinə çatdın. Heç qırxı çıxmamış uşaq qəfildən öldü. Sənin həmin günkü halın gözlərimin qarşısındadır.Üzündəki kədərə sevincə oxşar nəsə qarışmışdı.

**Kişi:** Sənin nə danışdığındı, arvad.Deməк mən öz uşağımın ölümünə sevinirdim ?!

**Qadın:** Sevinirdin deyə bilmərəm. Ancaq öz içindəkilər üzünə çıxmışdı.Sonra ikinci uşağa hamilə olanda məcbur elədin ki,gedim aparata düşüm. Getdim. Dedilər qızdır. Sənə deyəndə qanın qaraldı. Təkidlə dedin ki,get aborta.Sənə nə deyəydim. Getdim. Və sonrakı uşaqlar da bilirsən necə olub. Onlar da aparatdan sonra, oğlan olduğu bilinəndən sonra dünyaya gəlib.İndi dörd oğlumuz var.Onlar üçün dörd qız isə abort stolunda qalıb. Sənin kimilər bu hadisələrin törədiciləridilər.Bir zamanlar bu mod oldu, aparata sal,nəliyini bil,sonra doğ.Bax bu da bizim faciəmiz.

**Kişi:** Hər şeyi faciə səviyyəsinə qaldırmaq gərək deyil. Hər şey yaxşı olacaq,uşaqlarımız da özlərinə bab qızlarla evlənəcəklər,narahat olma.

**Qadın:**Danışıqda asandır. Bu, təkcə bizim ailənin problemi deyil. Bütün cəmiyyətin problemidir. Yer üzü təkcə kişilərdən ibarət olsaydı bəs onda Həvva nənəmiz Adəm babamızla yer üzünə niyə qoşa gəlib ? Allahın işinə qarışmağımızın hesabına bu gün balalarımızı xoşbəxt edə bilmirik. Çünki həyatın qanunlarını pozmuşuq. Başımızı hər yerə soxuruq. Hər yerə... Gəldi gəlmədi, bacardıq bacarmadıq hər yerə soxuruq başımızı. Ona görə də gəlib bu günə çıxmışıq. İçimizdəki allah xofunu içimizdən çıxarandan sonra yüz minlərlə qız uşağını tələf etmişik. Axırı da bu.İndi oğlumuzu evləndirməyə qız tapmırıq. Birinci və ikinci oğullarımızın oxuduqları sinifdə bir nəfər də olsun qız

uşağı yox idi. Niyə,niyəsini siz kişilərdən xəbər alın. Hamınız oğlan istəyənsiniz. İndi bütün məhəllənin kişiləri Sultanı görəndə bilmirsiniz necə təzim edəsiniz. Nə var, nə var, Sultanın gözəl qızları var, heç ikisi orta məktəbi qurtarmayıb.Bir vaxt onun qızı olanda çoxunuz ona ağız büzübsünüz.

**Kişi:** Yaxşı,ay arvad ucun alıb ucuzluğa getmə. Uşaqların evlənmək məsələsini elə problem eləmisən ki,elə bil dünya dağılacaq. Nə olub axı ?!

**Qadın:** Doğrudanmı,sən bu işin nə qədər çətin olduğunu anlamaq istəmirsən ?

**Kişi:** Sağ ol,arvad,çox sağ ol. Axır ki, məni qanmaz, anlamaz yerinə də qoydun.

**Qadın:** Kişi,gəl söz güləşdirmə. Elə eləyirsən ki,guya bu uşaqların evlənmək problеminin sənə heç bir dəxli yoxdur. Ay tifağı dağılmamış sənin həmişə çox tez-tez işlətdiyin genefond dağılmaq ərəfəsindədir. Saqqalın ağarsa da deyəsən ağlın ağarmaq istəmir ki,istəmir.Bir şey fikirləşməliyik.Yoxsa bu uşaqlar subay kim qocalacaqlar.

**Kişi**( xeyli fikirli halda dayanır.Sonra təbəssüm-qarışıq bir xoşbəxtliklə): Arvad,çarəsini tapmışam.

**Qadın:** Nədir çarəsi,ay kişi.

**Kişi:** Çıxıram məzuniyyətə,gedirk rayonumuza. Baxırıq qohum-qəblənin qız uşaqlarına xoşumuza gələni alırıq oğlanlarımıza. Bununla da problemi həll edirik və genefondumuzu nizamlayırıq. Hə,nə deyirsən, razısan.

**Qadın:** Bax,bu başdan deyirəm,kimin qızını gözaltı eləyirsən elə bircə baldızlarımdan başqa.Onlar mənə qız vaxtı göz verib işıq verməyiblər.

**Kişi:** Baldızlarının cəmi bir qızları var idi,indi onun da öz oğlu var. Başqa qapıları açmalı olacağıq. Gör bir neçə illərdir kəndimizə yolumuz düşmür.Gedək

arvad,gedək kəndimizə, uşaqlarımızı da öz dölümüzə uyğun evləndirək.

**Qadın:** Nə deyirəm,a kişi.Ancaq ürəyimdə xit qalar.Gəlsənə bir Sultan kişinin də ağzını arayaq. Bəlkə bizə yox demədi.

**Kişi:** Məni yüngül saqqal eləmə. Sultan kişi gör nə qədər elçini geri qaytarıb. Qorxuram bizi də onların gününə sala.

**Qadın:** Kim biləcək,bir axşam yeməyindən sonra gedib ağzını arayaq. Verər razılaşarıq,verməsə də bizi öldürməyəcək ki ? Çıxıb gələrik.

**Kişi :** Suyu süzülə-süzülə eləmi ?

**Qadın:** Sən necə fikirləirsən,fikirləş. Ancaq mən birjə uşaqlarımı düşünürəm.Neyləyim,nə təhər edim ki, onlar xoşbəxt olsunlar. Sənin onlar üçün etdiklərin onların xoşbəxtliyi üçün bəs edəcək deyil. Onların hökmən ailələri olmalıdır. Eşidirsən, ailələri olmalıdır. Gəl bir, Sultan kişinin ağzını arayaq.

**Kişi:** Nə deyirəm,arayaq deyirsən,arayaq.Təki biz elə bir işə yarayaq.

**Qadın:** Şeirlə danışırsan. Deyəsən, kefin kökəldi.

**Kişi:** Niyə də olmasın. Axır ki,biz uşaqlarımızı boş-ayaq etməliyik,ya yox. Hazırlaş,arvad! Bu axşam Sultan kişinin qapısını döyməyə gedəcəyik.

**Qadın:** Mən hazır. Gedirik.

(Səhnədən çıxırlar)

## II şəkil

(Sultan kişinin səliqə-səhmanlı evi. Qapı döyülür. Sultan kişi arvadına):

**Qız atası:** Qapının qadın rəzəsi döyülür. Get qapını aç. (O bu sözləri demişdi ki, qapı ikinci dəfə döyülür.Qadın dillənir)

**Qadın:** Bu da kişi rəzəsi.Deməli qapıdakılar iki nəfərdirlər.Həm qadın,həm də kişi.Gedək birlikdə açaq. (Onlar ayağa qalxıb qapıya tərəf gedirlər.Qapını açırlarar.Qonşularla rastlaşırlar): Xoş gəlmisiniz, xoş gəlmisiniz. Buyurun, buyurun içəri. (Onlar səhnəyə daxil olur. Qız atası və anası onlara yer göstərirldər):

-Buyurun, əyləşin.

(Qonşular dil-ağız eliyirlər)

**Kişi:** Təşəkkür edirik qonşu. Siz nə qədər ali cənabsınız.

**Qız atası:** Mən, qəlbinizə dəyməsin, alicənab deyiləm, Sultanam, sadəcə bir azərbaycanlı atayam.

**Kişi:** Bağışlayın mən sizin qəlbinizəmi dəydim.

**Qız atası:** Mənim qəlbim o qədər də yavuxda deyil ki, siz mənim qəlbimə dəyəsiniz.

(Pauza,milçək uçsa səsi eşidilər. Sükutu elçiliyə gəlmiş kişi pozmaq istəyərkən yenə də qız atası danışır. O qədər təkəbbürlü görünür ki, elə bil Sinqapur dövlətinin prezidentidir)

**Qız atası:** Sizdən nə əcəb? Heç indiyə kimi bizim darvazanı gündüz tıqqıldatmazdınız, nə yaxşı günün bu saatında?

**Gələn kişi:** Sizinlə elə bir söhbət etmək istiyirdik.

**Qız atası:** Sizinlə bizim nə söhbətimiz, a qonşu, siz iş-güc sahibisiniz,biz isə gündəlik çörəyimizə işləyirik. Siz hara, biz hara.

**Gələn kişi:** Sultan kişi deyiləsi çox mərhəm bir sözümüz var.Əgər icazə versəniz deyərik.

**Qız atası** (qəfildən): Əgər qız məsələsidirsə, deməyin. Qonşumuzsunuz, gəlmisiniz, gözümüz üstə yeriniz var. O ki, qaldı qızıma elçi düşməyinizə, o fikirinizdən vaz keçin. Mənim sizin oğlanlarınıza verəsi qızlarım yoxdur. Gedin öz ailənizə bab bir qız axtarın. Bizim sizinlə qohumluğumuz tutmaz.

**Gələn qadın:** A qonşu, bu qızları saxlayıb neyləyəcəksən. Ver onlardan birini alaq oğlumuza.

**Qız atası:** Mən sizə dedim ki,gedin öz babınızı tapın. Mənim sizə verəsi qızım yoxdur. Sizdən əvvəl gələnlərə də bu sözləri demişəm. Mənim qızlarımın hələ vaxtı deyil. Vaxtları olanda öz istədikləri bir allah bəndəsinə verəcəyik. O ki, qaldı qızlarımı saxlayıb neyləyəcəyəm özüm bilərəm. İndi gəlmisiniz qonşumuz kimi bir stəkan çayımızı içə bilərsiniz. İstəməsəniz də özünüz bilərsiniz. Vəssalam. Mənim sizinlə söhbətim bitdi. Elə bilməyin ki, mən bu qədər qəddaram. Xeyir. Mən də atayam və istəyirəm ki, mənim övladlarım da xoşbəxt olsunlar. Ancaq sizin övladınızla yox.

**Gələn qadın:** Nə olub mənim oğlanlarıma, ikisi də ali təhsillidi ev-eşikləri, işləri, gül kimi ailələri, altarında maşınları. Onlara nə olub.

**Qız atası:** Mən onların ünvanına nə dedim ki, sadəcə dedim, yenə deyirəm mənim sizə veriləsi qızım yoxdur.Daha niyə dava istəyirsiniz? Xoş gəldiniz. (Qız atası hirslənir. Əlindəki çərəkəni hirslə çevirir) Qəribə işə düşmüşük e,sizin dərdinizdən evimizi sataq. A balam qohum olmaq istəyirsiniz,biz istəmirik. Mən qızlarımı elə bir allah bəndəsinə verəcəyəm ki,o mənim ürəyimcə olsun.

**Gələn qadın:** Bəlkə bizim bir pisimizi eşitmisiniz. Olar da deyin. Bu kişi (əli ilə ərini göstərir) bir kəsin toyuğuna kiş deməyib, bir qarışqanı ayaqlama-

yıb. Özüm də,oğlanlarımı da onun kimi. Özünüz bilərsiniz. Ona ki,qaldı heç bizim də sizdən alası qızımız yoxdur. Biz də gedib öz babımıza axtararıq. (O hirslə çevrilib ərinə): Kişi gəl, sən gəlmirdin, mən səni yüngül saqqal elədim, bağışla. Gedərik öz kəndimizdən alarıq, öz daşımızı öz divarımıza hörərik. O daha yaxşıdır. Yoxsa bu Sultandır nədir. Özünü elə dağ başına çıxarıb ki,elə bil bunun qızları yer üzünə gələn ilk qızlardandı. Kül olsun sənin oduna da,ocağına da. Özünü nə hesab edirsən?

**Gələn kişi:** Arvad,əsəbləşmə. Gəl, gəl gedək kəndimizə. Ordan oğlanlarımıza gözəl qızlar alarıq. Gəl, hirslənmə. Heç sənə hirslənmək yaraşmır. Mən sənə dedim axı!..

(İşıqlar sönür səhnə dönür. Kənd mənzərəsi ilə dekorlaşmış səhnə. Kişi ilə qadın səliqə ilə geyinmiş halda əllərində çanta və diplomat.Səhnəni bir neçə anlığa gəzzişdikdən sonra üzü tamaşaçılara dayanır. Köks ötürür)

**Kişi:** Bu da kəndimiz. Gör neçə illərdir gəlmirəm. Camaatın çoxunu görsəm tanımaram. Elə eşidirik ki, filankəs də dünyasını dəyişdi. Gücümüz bircə «Allah rəhmət eləsin» sözünə çatıb. İndi kimin qapısına gedək. Gör neçə illərdir qapımız bu kənddən olan qohum-qəblənin üzünə bağlıdır. Tir kimi beş bacı oğlum, 10-15 xaloğlum, bibioğlum,əmioğlum hamısı bizim yaşadığımız şəhərdə işləyir, oxuyur. Elə üz göstərmişik ki, biri də bizə yaxın düşmür. Dörd oğlumuzdan biri onları tanımır. Sadaladığım o tir kimi oğlanların içərisində imkanlısı da var, imkansızı da. İndi biz kimin qapısını döyək. Arvad gəl sənə qaynanamın dayısı oğlu gilə gedək. Onlardan indiyə kimi nə Bakıya gələn olub, nə də bizim qapımızı döyən olub. Bundan sonra gələn olsa qapını açarıq üzlərinə.

**Qadın:** Nə deyirəm ki? Deyirsən gedək,gedək. (Onlar səhnədə dekorlara doğru hərəkət edirlər. Üzlərinə gələn qapını döyürlər. İçəridən səs gəlir):

**Səs:** Kimdir ?

**Kişi:** Mənəm rəhmətlik Sənəm xalanın kürəkəniyəm. Sizin dayınız qızı Sənəm arvadı deyirəm.

**İçəridən səs:** Aşıra bilmirəm. Özün kimilərdənsən?

**Kişi:** Rəhmətlik Əbdüləli kişinin oğluyam.

**İçəridən səs:** Hansı Əbdüləlini deyirsən.

**Kişi:** Keşməli Əbdüləlini deyirəm.Sizin evin altından axan çeşməni mənim atam çıxarıb.

**İçəridən səs:** Belə de,tanıdım,səni də tanıdım. Bəs bacılarının qapısını niyə döymürsən ?

**Kişi:** Nə bilim, belə məsləhət bildik ki, bu günlüyə siz də gecələyək.

**İçəridən səs:** Gəlirəm, a bala, gəlirəm.

(Pauza. Qapı açılır,70-75 yaşlarında bir nurani ağsaqqal qapıda görünür.Əl tutub,onlarla görüşür)

**Nurani kişi:** Ay xoş gəlmisiniz. Bağışlayın ki, sizi qapıda gözlətdim. Keçin, keçin içəri. (Kişiyə müraciətlə) A bala, səni şəhərdə görsəydim inan ki, tanımazdım (Kişi də öz növbəsində üzünü yana çevirərək tamaşaçılara).

**Kişi:** Yəqin biz də özümüzü tanımamazlığa vurardıq. (Qocaya tərəf çevrilərək). Sizi necə görmüşdümsə, yadımda necə qalmışdınızsa eləcə də varsınız. Çox şükürlər olsun zaman sizi heç dəyişdirə bilməyib.

**Qoca:** Ancaq sən tamamilə dəyişmisən. Saçlarını ağartmısan, a bala. Bu şəhər niyə belədi. Uşaq gedib qoca qayıdırsınız. Kəndin gedənləri bir-bir gəlirlər, hamısına da fikir verirəm. Elə bir şəhər sıxıb sizin suyunuzu çıxardıb. Rəhmətlik dədən öləndən bu tərəflərə gəlmirsən. İndi nə yaxşı gəlmisən.

**Kişi:** Düz deyirsiniz ağsaqqal.İyirmi beş ildən çoxdur ki,kəndə gələ bilmirik.

**Qoca:** Niyə, kim bizim aramıza qurd yağı sürtüb. Hə, kim. Hansınız gedirsinizsə bir daha geri qayıtmırsınız. Sizdən əvvəlkilər də elə idilər. Kəndimizin oğlanları gedib böyük şəhərlərdən qız alıb gətirirdilər kəndimizin də qızları qarıyırdı. Sonradan nə təhər oldusa, nə elədilərsə kənddə qız doğan olmadı. İndi kəndə qız olan evləri barmaqla göstərirlər.İndi daha o vaxt deyil. Qızlar alınmadı,başqa kəndlərdən və şəhərlərdən gəlin gətirdik. Qızlarımız evlərindəcə qarıdılar. Oğlanların ucbatından analar daha qız doğmaq istəmirlər.Heç bilmirəm bu nə işdir. Deyirlər təzə apparat icad olunub,hamilə qadına baxıb deyirlər ki,sənin qızın olacaq, ya oğlun olacaq. Oğlu olan yenə oğlan istəyirlər,qız görsənən kimi isə onu tələf edirlər. Günahdır bala, günahdır.Adam öldürməklə onun heç bir fərqi yoxdur.

**Kişi:** Dayıoğlu deyirsən yanı oğlu olmaq pis işdir? Sənin yeddi qızın oldu istəməzdin ki,onlardan biri oğlan olub sənin çırağını keçməyə qoymasın, ocağını yandırsın?

**Qoca:** Niyə istəmirdim? İstəyirdim. Allah-təlanın məhəbbəti idi. Qonşuma dalbadal yeddi oğlan,mənə də yeddi qız verdi. Sonrasına baxanda əvvəlki təssüflərimə sıxıntılarıma görə özümü danlayıram. Qızlarım olduqca deyirdim: Şükür məsləhətinə, özü bilən yaxşıdır. Ruzusunu versin. Elə də oldu. Çox ağıllı və ruzulu uşaqlar oldu. Oxudular qarşılarına yaxşı adamlar çıxdı. Ailə həyatı qurdular. Şükürlər olsun yeddi qızım varıydı, yeddi də oğlum oldu. Deyəsən,söhbəti çox uzaqdan gətirdik. Rahatlanın, söhbət qaçmır. (onlar keçib əyləşirlər. Sözə gələn kişi davam edir.)

**Kişi:** Kəndin vəziyyəti nə təhərdi?

**Qoca:** Şükürlər olsun yaxşıyıq. Torpaqlar özümüzə bölünüb. Sulu, dəmiyə torpaqlarımız var, əkirik, biçirik. Mal-davar saxlayırıq.Hər şeyimiz var.Bir una,bir də xırda-xuruşa pul xərcləyirik.Sağ olsun dövlətimizi o xərclərimizi də dövlət ödəyir.Təqaüd alırıq,ildən-ilə təqaüdlərimiz artırılır.Yaxşıyıq,min şükürlər olsun.

**Kişi:** Çox şükür,çox şükür.Olmağı yaxşıdı.Bolluq olsa şəhərə də axın olmaz.

**Qoca:** Nə tutmusunuz bu şəhərdən a bala. Heç olmazsa ildə bircə kərə buraları yada salın.Soruşmaq ayıb olmasın nə yaxşı? Gün hardan doğub. Getdiyin son iyirmi beş ildə kənddə yüzlərlə ölən-itən olub birinin məclisinə gəlməmisən. Toyları da ki heç, demirəm onları.

**Kişi:** Dayıoğlu, dediklərimiz hamısı düzdür. Məni düz qınayırsınız. Gedib-gələ bilmirik. Demirəm ki, uzaqdı.Yox, təyyarə ilə cəmi bircə saatlıq yoldur. İş imkan vermir,iş !..

**Qoca:** Siz imkan tapsanız,iş imkan verər. O qədər yadırğamısınız ki, onu da aşıra bilmirsən ki, mən sənin ananın dayısı oğlu yox,bibisi oğluyam.Nə isə, gileylənmək vaxtı deyil. Siz elə belə boş iş üçün kəndə gəlmərsiniz. Nə yaxşı şeytanın qıçını qırıb kəndə gəlmisiniz. Bax, bu məni yaman maraqlandırır.

**Kişi:** Bilsəydim gəlişimizin məqsədi sizi belə maraqlandırır onu salam əleykümdən qabaq söylərdim. (o bir qədər yuxarı səslə) Dayıoğlu elçiliyə gəlmişik. Elçiliyə.

**Qoca:** Elçiliyə ?

**Kişi:** Bəli elçiliyə.

**Qoca:** Kimə elçili kedirsiniz,bala.

**Kişi:** Kimə olacaq.Oğlanlarımıza.

**Qoca:** Heç kimə ağız açma bala.Bizim kənddən qırağa qız verməzlər. O qədər qız yoxdur ki,biri də artıq qalsın onu sənin oğluna versinlər. Bizim kəndimizdə

gənclər üçün yaxşı şərait yaradılıb. Daha heç kim sizin kimi kəndini-kəssəyini atıb böyük şəhərlərin qoltuğuna sığınmayıb. Hər şeyin təzəsi,təmizi burdadı bala, burda. Kəndimiz bulağın gözüdür, bulağın gözü. Onu biz daha bulanmağa qoymarıq. Əgər qohum-qəblənlə görüşmək istəyirsən, görüş, yox əgər təkcə qız diləyi ilə gəlmisənsə özgə qapılarını döyüb özünün vaxtını itirmə. Başqa məqsədin yoxsa özünü yorma. Bəs, hamınız ancaq oğlan sahibi olmaq xülyası ilə yaşayanda demirdiniz ki, bu sonsuzluğun başqa bir sonsuzluğu da ola bilər.İndi qızlarımdan doğulanlarında əksəriyyəti oğlandır. Siz allahdan əlini üzmüş bəndələrsiniz. İstədiyiniz qədər oğlunuz olsun,ancaq burnunuzdan o yanı görmək istəməyin. Bax, belə olar ha. İndi düşmüsünüz qapı-qapı qız axtarırsınız.Hələ itiklərimizin nə qədər sox olduğunu sonra biləcəksiniz.Qazancımız göz qabağındadır. Özünüzə gəlin axtarırsınız tapa bilmirsiniz. Hələ çox axtararsınız.Təkcə siz yox,oğul ataları və analarının hamısı bu çətinlikdədir.Hardasan, ay zəmanə. Bir zamanlar məhəbbət adam öldürürdü.İndi isə onu büküblər toz keçirməyən bir vərəqə veriblər tarixin arxivinə.Bizim vaxtımızda Leyli və Məcnuna və digər dastanlarımıza ağız büzdülər. Hər şeyi,o cümlədən məhəbbəti də yalan hesab edirdilər. Bu biganəliyin və laqeydliyin acı nəticəsidir indi bizi yaman günə qoyan. Universitet aiditoriyalarının gözəlliyini xatırlayanda burnumun ucu göynəyir. O zamanlar 2000 ilin əvvələri idi. Lap sütül oğlan idim. Necə deyərlər qız qaytaran vaxtım idi. Sevdiyim qızla evləndim və sevə-sevə bir ömür yaşadıq. Keçən il onu itirdim.İndi onsuz tamam yalqızam.Nə olsun ki,nəvələrimiz,nəticələrimiz də var. Onun yerini heç kim verə bilməz. Heç kim.Yeddi qızımız oldu.Bir dəfə də olsun başqa fikirə düşmədik. Qızlarımıza gözəl tərbiyə və təsil verdik, ev-eşik sahibi etdik. Evi bütünlüklə oğlan uşağı olanlardan

xeyli şad və xürrəm yaşadıq. O ilk illərdən əlli ildən artıq bir vaxt keçir.Adamlar arasında ünsiyyət körpüsü sınıb. Onu bərpa etmək üçün nə dəmir-beton məmulatı gərəkdir, nə də digər tikinti məmulatları. Onlar üçün ürək gərəkdir, dayınəvə ürək gərəkdir. İndi hər şeyiniz var bircə ürəkdən başqa.Qəribə işdir e,qadın hamilə olan kimi qaçırsınız aparata ki,baxın görün nəyimiz olacaq.Bu allahın işinə qarışmaqdır bibinəvə.İndi heç kim heç kimin ərizəsini oxumur. Ona görə də allahtəala basıb bizim gözümüzü çıxaracaq, hökmən çıxaracaq. Elə bilirsən çıxarmayacaq, çıxaracaq. Söhbəti uzatmaq istəmirəm. Bu qapılara bax. Hərəsi bir tərəfə açılır. Hamımız qohumuq, özü də qan qohumu. Birimizin tikəmiz o birimizin boğazından keçmir. Buna da çox şükür, böyük şəhərlərə baxmış, heç olmasa biz xeyirdə şərdə bir yerdəyik. Bibinəvə, oğlunuzun neçə yaşı var?

**Kişi:** Birinin 30,o birinin 29 yaşı var.

**Qoca:** Gecikmisiniz. Yenə bəlkə şəhərlilərdən özünüzə yetdik bir şey tapa bilərsiniz.Kəndimizdə heç kimə ağız açmağa çalışmayın. Burda qız orta məktəbi qurtaran kimi gedir, heç bir ildə dədəsinin yanında qalmır.Bura belədir. Nə kənara qız verir,nə kənardan qız alır.

**Kişi:** Bağışla dayıoğlu. Gəldik sizi də narahat elədik.

**Qoca:** Yox,ay bala.Ayıb sözdür.Kəndə gedib gəlməmisiniz,bir az yadlaşmısınız. Belə olmaz. Kəndə qayıdın,evinizin bağlı qalan qapısını açın. Atanızın, ananızın ruhu sizdən inciyib, bir onları ziyarət edin. Pirlərimizə qurban kəsin. Bibinəvə, bu pirləri bilirsən hansı inamlar yaradıblar. Aqil adamlar,bu işi görəndə fikirləşiblər ki, neyləyək ki, bu varlı-karlılar öz mal-dövlətlərindən kasıb-kusuba da bir tikə versinlər. Özlərinə qalsa onlar sürü-sürü mal davarlarından bir tikəni

də xalqa qıymazlar. Onların içlərindəki nəvaxtsa işlətdikləri günahın müqabilində dedikləri qurbanlıqlardan kasıb-kusuba da bir pay çatır. Gəlmisən,sən də bir mal al ata ananın xətrinə kəsdir kəndə paylat, sən də bir az təmizlən.Kənd də görsün ki,onların sən adda bir həmkəndlisi var. Bir qəbiristanı ziyarət elə, əhli-qübula bir quran oxutdur.Dünya təkcə siz düşündükləriniz deyil. Qara mersedeslər və digər maşınlar deyil, bir-birindən gözəl, yaraşıqlı villalar deyil, həm də doğulub boya-başa çatdığın kənd-kəssəkdir. Çıx,kənd içinə çıx ! Qoy camaat səni tanısın.

**Kişi:** Yox,dayoğlu biz artıq qayıdırıq. Belə görürəm ki, artıq bu kənddə mənə və mənimkimilerinə yer yoxdur. Dur, arvad hava qaralmamış çataq təyyarəyə. (Onlar qalxırlar. Qoca ilə xudafizləşib ayrılırlar)

-Sağ salamat qal, dayoğlu!

**Qoca:** Allah amanında bibinəvə! Allah amanında.

(Onlar səhnədən çıxırlar. Səhnə dönür)

## III ş ə k i l

(Qız atasının evi. O çox şux görünür. Arvadına nəsə deyir. O uğunur.Kişi onun gülüb qurtarmağını gözləmədən)

**Qız atası:** Sənə də söz demək olmur ki? O dəqiqə qəşş eləyirsən. Ay qız, bir dayan görək gözlərinin yaşına bax e. Elə bil, bu qədər qız doğub böyüdən heç bu deyilmiş. Ay qız, bir dayan. Bir özünə gəl. Nəyə güldüyünü bilirsən barı?

(Qız anası gözlərinin nəmini qurulaya-qurulaya)

**Qız anası:** Niyə bilmirəm, a kişi. Bilirsən nə yadıma düşmüşdü. Qızlarım olduqca qaynanamın məni ağlatmağı. Yadıma düşmüşdü. İndi gəlsin tamaşaya, görsün onun oğlan doğan qızının gününü. Mənim günümə də bir altdan-üstdən baxsın. Mənə göz verib işıq vermirdi ki, oğlumun züriyyətini kəsmisən.İndi gəlsin görsün züriyyəti kəsilmək nə təhər olur.

**Qız atası:** Belə de! Sən anamın əlindən təmiz yanıqlıymışsan ki? Bay atonnan qız da bu qədər qiymətə minərmiş. Vallah allah xofu olmasaydı bəlkə bizdə də bir vzvodluq oğlan uşağı olardı. Yaxşı arvad, nə deyirsən, biz qızlarımıza gələn elçilərin hamısının ağzından vurub geri qaytarırıq. Bunun axırı necə olacaq.

**Qız anası:** Əvvəlini,axırını deyə bilmərəm indisi yaxşıdır yox, e,əladır. Elçilər evimizin darvazasını çıxarsınlar sən də özünü elə çəkib durmusan ki,heç elə bil qızların olanda xiffətdən əriyən deyilsən. Sən aylarla mənim üzümə baxmazdın, günahkar kimi baxırdın mənə. Guya bu qızları gedib dədəm evimdən gətirirdim. Heç demirdin ki, onlar bir allah qismətidir. İndi elçiləri geri qaytarmaqdan zövq alırsan.Saçında bir-iki ağ tükün varıydı onlar da şövqündən qaralıb. Neyləyəcəksən. Bu işin bir sonu var,ya yoxdu? Qızlarımız da yaşlanır.Daşı tök ətəyindən halal süd əmənlərdən elçi

gələndə ver getsinlər qızları. Saxlayıb-saxlayıb axırda zibilini çıxaracaqsan.

**Qız atası:** Yaxşı,yaxşı dayan görək. Bayaq gözlərin yaşarana kimi gülməyin hara bu sözlər hara. Deyirsən yanı ilin-günün bu vaxtında, qızın qəhətə çıxan vaxtında bizim qızlarımız evdə qalacaq.

**Qız anası:** Qalar, o yana da keçər.Adamları nə qədər təhqir etmək olar.

**Qız atası:** Mən kimi təhqir etmişəm.Nə deyib təhqir etmişəm.

**Qız anası:** Gərək söyüş söyəsən? Deyirsən ki, mənim sizə veriləsi qızım yoxdur. Mən qızlarımı zatı-südü təmiz adamlara verəcəyəm. Guya hamının zatı-südü xarabdı, bircə səndən başqa. Qarşındakına hörmət etməyi bacar, kişi! Əgər bacarmasan bu şux qamətin sına bilər. Qızlar yaşlanır. Gör neçə aydır qapımızı döyən yoxdur. Axrıncı kərə qızımıza elçi gələnləri heç unuda bilmirəm. Çox alicənab adamlara oxşayırdılar. Ancaq sən onları elə qarşılayıb yola saldın ki,mən xəcalət çəkdim, elə indi də xəcalət çəkirəm. Kişi bəsdir daha bu hikkən, qızlarımız da yazıqdır. Sənin baba,mənim nənə olan vaxtımızıdr. Tök bu daşı ətəyindən. Bəsdir özünü naza qoyduğun. O biri qızlarımız bu gün sabah məktəbi bitirəcək.

**Qız atası:** Mən demişəm,yenə də deyirəm mən qızlarımı elə oğlana verəcəyəm ki, o duaynan namaznan tapılsın. Ta bizə elçi gələnlər. Hamısı aparat uşağıdı. Vaxtsız, vədəsiz,nə bilim nəsiz. Sən dediyin adamlar ki, var, sözün düzü mənim də xoşuma gəldilər. Amması orasındadır ki, onların da oğlanları mən deyənlərdəndir.

**Qız anası:** Nə tutmusan e, onlardandı, bunlardandı. Həmin atanın belindən gəlib, həmin ana doğub. Bəsdir sən allah, belə yöndəmsiz sözləri boşla bir tərəfə. Mənim də bu qızların üstündə çox böyük haqqı

sayım var. Elçi gələndə bu dəfə mən də öz sözümü deyəcəyəm. Hökmən deyəcəyəm.

**Qız atası:** Sənin deyəsən ağlın azıb axı?! Mən dura-dura sən danışacaqsan, hə?! Ay qız, ağlını yığ başına. Arvadsan arvad yerində otur. Yoxsa...

**Qız anası:** Nə yoxsa.Yoxsa məni yenə də qız doğduğum üçün ölüncə döyüb,qara tuluq eləyərsən hə. Sonra da qovarsan dədəmgilə hə,hə.O günlərin keçib kişi,o günlərin keçib. Çəkil yerində,yurdunda dur.Bir çətən qız külfətinin başçısısan.Qaxıl otur yerində. Ağır otur,batman gəl.Yoxsa,mənə hədə-qorxu gəlməyinlə sənə heç kim,heç nə verən deyil.Qızlar yaşlanır.Sən zatı-südü halal axtara-axtara bir də baxacaqsan ki, lələ köçüb,yurdu qalıb boş. Qızlar qocalıb.

**Qız atası:** Arvad indi qız var ki,bizim qızları alan olmasın onlarda qarısınlar.Onlar lap əlli yaşlarında belə modda olacaqlar. Onların dərdindən ölənlərin sayı ilbəil artır.Hələ bir az da artacaq.

**Qız anası:** O günü,yəni axrıncı dəfəni deyirəm.Qızlarımız üçün gələnlərin nə eyibləri varıydı? Onları niyə kor-peşiman qapıdan qaytardın.

**Qız atası:** Qapıdan niyə? İçəri keçdilər,xeyli söhbətləşdik və getdilər.

**Qız anası:** Günahları nə idi, elçini beləmi qarşılayarlar. Ayıbdır. Az qalırsan evinin içində gələnlə qurşaq tutasan,onlarla boz-boz dava edirsən. Belə olmaz ki,belə olmaz. Onlar bizimlə qohum olmaq istəyirlər,sən onlarla düşmən kimi davranırsan.

**Qız atası:** Arvad,mən kiminlə nə kimi davrandığımı səndən yaxşı bilirəm. Mənə dərs öyrətmə. Mən qızlarımı elələrinin oğlanlarına verə bilmərəm. Sabah eşidib bilənlər bizə nə deyər. Mən qızlarımı allah bəndəsinə verəcəyəm. Aparat uşağına yox. Vəssalam. Bu barədə danışıq qurtardı. Belə istəmirsən

get özünü as. Bir qırıq çatı,bir də tövlənin tiri. As, sallan, canın dincəlsin,qurtar mənim bu dığdığamdan.

**Qız anası:** Bu hərəkətlərinlə sən məni doğrudan da boğaza yığmısan.

**Qız atası:** Mən də onu deyirəm də boğaza yığıldığın yerdən ipi keçir xirtdəyinə. Canın qurtarsın. Özünə hörmət et,bir can nədir ki,onu da mənə qıymırsan. Bir az ürəkli ol,arvad.

**Qız anası:** (Səhnədən çıxa-çıxa) Ay səni öləsən. İndi sən sən ol, məndə mən görək kimin boynu kəndirlik olacaq. (O şəkilin əvvəlindəki kimi gözü yaşarana qədər gülür.Gülüş eşidilə-eşidilə səhnə bağlanır.Qaranlıqlaşır,səhnə dönür)

## IV şəkil

(I şəkildəki səhnə.Oğlanlarını evləndirmək üçün çalışan və hələlik heç bir iş görə bilməyən qadın dalğın və bir qədər də fikirli halda vərgər edir.Və çevrilərək tamaşaçı zalı ilə üzbəüz dayanaraq)

**Qadın:** Qəribə işə düşmüşük e. Bu nə tarixiydi biz yaşayırıq. Oğlumuzu evləndirməyə qız axtarırıq o da dönüb yağlı əpbəyə. Belə getsə heç nə. (Əl telefonu zəng çalır. Ana telefonu açır.)

**Qadın:** Hə eşidirəm. Mən olmamış kim olacaq. Hardasan indiyə kimi. Evə tez gəl səninlə işim var. Tez gəl, tez. Oğlum, sənə dedim ki,vacib işim var. Gəlirsən, sağ ol, oğlum. Mən bilirəm ki, mənim sözümdən çıxan deyilsən. Gözləyirəm. Maşındasan, lap yaxşı. Bir azdan çatarsan! Hələlik oğlum.Görüşənə kimi. (O telefonu söndürür). Bu nə zəmanə idi gəldik çatdıq. Elə siz də mən gündəsiniz. Bir fərqi var ki, mən dərdimi deyirəm siz demirsiniz. Bir zamanlar ancaq oğlan dünyaya gətirmək istəyində, bəhsə bəhs düşəndə heç kim bu günü fikirləşmirdi. Hamı bir-birinə bəxtəvərlik verirdi ki, bir oğlunda olub. Ancaq heç kim bu işin gələcək aqibətini düşünmürdü. Bu da bəlası. İndi ölkəmizdə deyilənə görə hər yüz doğulandan 90-95-i oğlan uşağıdır. Gələcəkdə bizi daha hansı faciələr gözləyir,bunu da yaşayanlar görəcəklər. Süni yolla oğlan uşağını artırmağımızın ucbatından gəlin üzünə həsrət qalmışıq. (Qapının zəngi çalınır.Qadın qapını açır.Gələn oğludur. Onlar birlikdə səhnəyə gəlirlər)

**I Oğul:** Nə olub, ana! Elə təkidlə məni evə çağırdın ki, dedim yəqin nə isə baş verib.Şükürlər olsun sağ-salamatsan.

**Qadın:** Mənə nə olacaq. Pis adama heç nə olmaz.

**I Oğul:** Özünə niyə elə deyirsən,sən bizim gözəl anamızsan.

**Qadın:** Mən sizin gözəl ananız deyiləm. Mən sizə heç nə edə bilmirəm.

**I Oğul:** Daha nə etməlisən. Bizim nəyimiz yoxdur ki, ana !

**Qadın:** Sizin nəyiniz varsa onlardan hamıda var. Sizin elə şeyiniz yoxdur ki,onun olmağı vacibdir, onun.

**I Oğul:** O nədir elə ?! O hansı vacibdir ki,bizim olanlardan yüksəkdə dursun. Gözəl iş yerimiz,gözəl təhsilimiz, son svilzasiyanın tələbləri baxımından olan dünyagörüşümüz,evimiz eşiyimiz,saatda 300 km hərəkət edən avto maşınımız və sair və ilaxır.Bu yaxınlarda şəxsi təyyarəmiz də gəlir. Bizə daha nə lazımdır ?

**Qadın:** İndi dediyindən belə çıxır ki,hər şeyin var hə ?

**I Oğlan:** Elədir ki,var. Daha nəyə ehtiyacım var. Heç nəyə.

**Qadın:** Bəs,öz ailənin olmasını istəmirsən ?

**I Oğlan:** Öz ailəmin ?

**Qadın:** Hə öz ailənin.

**I Oğlan:** Nə demək istəyirsən,ana ?!

**Qadın:** Nə demək istədiyimi bilmədin ?

**I Oğlan:** Xeyr,bilmədim.

**Qadın:** Nə vaxta qədər belə,tək-tənha yaşayacaqsan? Səndən soruşuram,nə vaxta qədər?

**I Oğlan:** Belə getsə ömrümün sonuna kimi.

Qadın :Niyə bu qənatdəsən,oğlum. Sənin vaxtın artıq keçir.

**i Oğlan:** Ana, bu mövzuda söhbətə belə başlamaq istəmirəm. Hər şey vaxtında olajaq,bu gün həmin işlər alınmırsa demək hələ vaxtı deyil. Zaman hər şeyi yerbəyer eləyir. Anam, gözəl, qayğıkeş anam. Sən nə

qədər də gözəlsən. Ancaq çox qayğılısan, ana. Belə olmaz ki? Demək istəyirsən ki,mənim öz ailəm olsun. Daha sizi yormayım. Əynimi-başımı təmizləmək sənin üçün ağırlıq edir, düşünürəm, səni çox yoruruq ana. Qardaşlarım, atam, mən. Bütün işləri sənin üstünə tökmüşük. Bağışla bizi, ana.

**Qadın:** Üzün ağ olsun, oğlum. Atanın çörəyi halalın olsun, oğlum! Mən sizdən zərrə qədər inciməmişəm. Ancaq bir istəyim var. Mən sənin oğlunu,qızını görmək istəyirəm,özüdə dəftər-qələmsiz, allah verən şirin payımı istəyirəm. Nəvə istəyirəm, oğlum! Yoxsa işləmək məni yormaz. Məni sizin evlənməmək xiffətiniz yorur. Məni bu əzabdan qurtarın.

**I Oğlan:** Ana nə dediklərini mən yaxşı anlayıram. Amma bu işi başa çatdırmaq üçün nə var-dövlət lazımdır,nə də digər qiymətli zadlar. Evlənmək üçün nə lazımdır,ana!

**Qadın :** Əlbəttə ki, qız lazımdır.

**I Oğlan:** Atan oldu rəhmətdə.İndi mənə dediyin o qızı hardan tapım. Bilirsən ki, on bir il oxuduq sinfimizdə qız yoldaşımız olmadı, universitet bitirdik. 5 il ərzində qrupumuzda bir qızımız olmadı. On ilə yaxındır ki,işləyirəm.Yenə də qız işləməyən kollektiv. Ən cavan qadının 45-50 yaşı var. Hamısı da evli-eşikli. Hələ eləsi var ki,2-3 ərə gedib. Qız yoxdur ana! Bu gün bizim şəhərimizdə və bütövlükdə məmləkətimizdə qız qəhətliyidir. Ana belə bir rəvayət var,eşitməmiş olmazsan.

**Qadın:** Hansını deyirsən?

**I Oğlan :** Deyirlər,bir zaman torpaqlarımız işğal olunan zaman düşmən tərəfindən öldürülmüş oğulllarımızın əvəzini vermək üçün analar ancaq oğlan uşaqları gətiriblər yer üzünə. Həmin uşaqların gücü ilə erməni darmadağın olub,öz torpağı olmayan qəvi düşmənlərimizi onlar məhv ediblər. Biz də həmin uşaqların törəmələri deyilikmi, ana. Bəs necə olub

ki,ondan sonra da doğulan uşaqların əksəriyyəti oğlan uşaqlarıdır. Ona görə də subay oğlanların sayı indi qoşunladır.indi evlənmək üçün gərək başqa millətdən qız alam.Sən buna razı olarsanmı,ana ?

**Qadın:** Sən nə danışırsan.Başqa millət nədir ? Başqa millətdən qız almaqdansa ömürlük subay qalmaq daha yaxşıdır.

**I Oğlan:** Mən də o fikirdə olduğumdan evlənməkdən vaz keçirəm.

**Qadın:** Belə asanlıqla geri çəkilmək olmaz.

**I Oğlan:** Ana, təklifin nədir. Mən nə etməliyəm.

**Qadın:** A bala,iclas aparmırıq ki, təklif verim. Mən səni evli görmək istəyirəm.Budur istəyim, başqa heç nə! Qonşu Sultan kişini tanıyırsan.

**I Oğlan:** Xeyr, tanımıram.(Qapının zəngi çalınır)

**Qadın:** Oğlum,qapını aç. (Oğlan durub qapını açır) (Gələn qadının II oğludur.İçəri girən kimi )

**II Oğul:** Ana, yəqin bizi çağırmısan ki, bir az danlayasan.

**Qadın:** Yox,ay bala. Niyə sizi danlamalıyam. Sizin yaxşı gününüzü görmək istəyirəm.Bütün analar kimi mənim də arzum nənə olmaqdır. Mənim buna haqqım da çatır.

**II Oğul:** Bəlkə hamıdan çox. Buyursun qardaşım,o məndən böyükdür. Nümunə göstərsin. Arxasınca da mən gəlirəm.

**Qadın:** Sizin bir-birinizdən yaş fərqiniz çox azdır,heç bir il də deyil. Hansınız evlənmək istəsəniz növbə onundur. Sən necə baxırsan bu işlərə.Gözaltın varmı?

**II Oğul:** Xeyr, ana. Heç bir gözaltım yoxdur. Kimi istəyirsən elçilə,mən razıyam. İndi o vaxt deyil ki, kiminsə qızının qabağını kəsim.Bir də ki,hardaydı o boyda qız ki, mən də birinin qabağını kəsim. Gərək bundan sonra əli tətikdə dayanaq ki, görək kimi nişan

alaq,tətiyi çəkək.Fürsəti əldən verdin qurtardı.Hamı qız ovundadır. Böyük qardaşım nə fikirdədir.

**I Oğul:** Yol kiçiyindir.Öz növbəmi də sənə verirəm. Buyur,keç qabağa,sevindir anamı.

**II Oğul:** Bəs,sən neyniyirsən.Bu haqda fikirin nədir ?

**I Oğul:** Nə olacaq.Heç nə. Öz növbəmi sənə verdim.Qız tap,evlən.Mən də sənin toyunda doyunca oynayım.Sonra da əmi olum. Bax,bu qədər.

**II Oğul:** Qardaş,anamızın həyəcanı bizi bir qədər hərəkətə gətirməlidir. Necə olursa olsun,hardan olursa olsun anamızın arzusunu yerinə yetirməliyik. Səni bilmirəm,mən bu gündən qız axtarmağa başlayıram.Bilirsən, nə vaxtsa gördüyüm «Retro» kinolardan birini xatırladım.Həmin filim «Arşın mal alan» adlanırdı.Tacir Əsgərin xalası deyir ki,

Çadramı salıb başıma,
Üz-gözümü bəzərəm.
Gedib sənə qız axtarıb,
Hər tərəfi gəzərəm.

Deyirsən bizə də tacir Əsgərin xalası kimi bir xala gərək olacaq.

**I Oğul:** İndi o xala kimi yüzü də gəlsə bizi evləndirə bilməz. Qız qəhətliyidi, qardaş. Qız qəhətliyidi, qız çatışmır. II Oğul : İndi biz neyləyək.

**I Oğul:** Mən neyləmək istədiyimi artıq qərarlaşdırdım. Evlənməyəcəyəm. Vəssalam. Qaldı sən və səndən sonra gələn qardaşların. Anan mənə təklif edir ki, qonşumuz Sultan kişinin gözəl qızları var,get onları gör, bəyən, yola gətir, evlən. Mən də anamın mənə elədiyi təklifi sənə edirəm.Buyur, bu meydan, bu da... Allah şeytana lənət eləsin. Millətin probleminə baxın. Oğul evlənməlidir ki,millət yolu yarıyolda qırılmasın.Qız qəhətliyi başlayıb.

**II Oğul:** Qız qəhətliyi indi başlamayıb. Bu çoxdankı işdir ki, indi-indi zərbələri bu millətə dəyir. Adam nə qədər kütbeyin olarmış. Bəs demirsən ki,bu hamısı müsbət və ya mənfi ionlar gələrək sonsuzluq deməkdir. Onlardan elektrik cərəyanı olmaz, bir xalq zülmət içində qalar.

**I Oğul :** Bu allahın işinə qarışmaq olar.

**II Oğul:** Həqiqətən də belədir. Bilirsən bunları nəyə oxşadıram. Bu yaxınlarda İsmayıllı dağlarına yolum düşdü. Valeh oldum. Yazın ən yaxşı vədəsiydi. Çəmənlərdə o qədər gül-çiçək varıydı ki,göz baxdıqca doymaq bilmirdi. Min rəngli bir xalçaya bənzəyirdi. Təbiət özü əkmişdi,gülü-çiçəyi, qanqalı,tikanı,otu,ələfi hamısı birlikdə. Əslində insan taleyinə də,onun həyatına, yaşamasına və ölümünə, bu aradakı məsafəyə nəzarət edən var,onun qarantı var. Ona kənardan müdaxilə həmişə faciə ilə nəticələnir. Sən bilirsən ki, mənim pofessiyam elədir ki,həmişə göy ilə yer arasında əlləşirəm. Özümü bilici kimi göstərmək niyyətindən də uzağam. Ancaq oxuduqlarımızla gördüklərimizi və başımıza gələnləri müqayisə edəndə düşünməyə bilmirsən. Dünya qəribəliklərlə doludur.Bu həmin göylərdir ki, yağışı, dolusu, qarı var. Deyirlər ki,yerlər göylərin sifarişlərini yerinə yetirir.Göydən nə gəlirsə yerlər istədi,istəmədi qəbul edir. Göylər yayın 60 dərəcə istisində Cənubi Afrikaya qar yağdırır. Bu hadisə 50 il qabaq olub. Avqust dediyimiz ayın qızmar günlərində yağan qar Afrika zəncilərini qorxuya salıb ki,bəlkə bu ağlıq onların qara dərilərinə ağ ləkə salar. Bu bizim yaşımızdan xeyli əvvəlin söhbətidir. Ancaq faktdır. Elə həmin vaxt daha nələr baş verməyib. Yer kürəsinin istiləşməsi hesabına şimal dövlətlərinin çoxu suyun altında qalıb. O illərin əzablarından ən böyüyü adamların bir-birinə dirsək göstərməsidir. Bu hesaba nə qədər ölkələr viran qalıb. Ən böyük viranə isə

adamların içində yaranıb,hərisliyin artması ilə mənəviyyat deyilən xəzinə ki,var tamamilə darmadağın olub.

**Qadın:** Oğlum sən filosof kimi danışırsan.Mən səni sanki birinci kərə görürəm. Sən bu dilləri hardan öyrənmisən belə.Sən ki,gündə barmaqla sayılası söz işlədənsən.

**I Oğul:** Ana,qadan alım,qoy qardaşım danışsın. Elə bilirəm ki,nağıl danışır. Necə də şirin danışığı var.

**II Oğul:** Anamın sözünü kəsmə.Qoy danışsın.

**Qadın:** Elə bir sözüm yoxdur, sən danış, doğrudan da çox maraqlı mühakimələrin və analizlərin var. Bu dediklərinin bizim söhbətimizə bir xeyiri dəyəcəksə danış,ürəyindən keçənlərin hamısını danış.

**II Oğul:** Nə danışım,ay ana. Millətimiz bəhsəbəhsə gedən millət olduğundan başımız nələr çəkməyib. Sənin dörd oğlun olduğu üçün ,bütün qohum-qəbalən azara düşüb, nəzirlə-niyazla yox, apparata saldırmaqla səndən çox oğlan uşağı gətiriblər dünyaya, qızları da tələf ediblər. Ona görə də qızları bu böyüklükdə şəhərdə barmaqla göstərirlər. İndi məcbur edirsən ki, evlənin. Kiminlə evlənək.Siz qız tapın biz də alaq.

**Qadın:** Oğlum, ana sənə qurban, bizdən iki tin aralı Sultan kişi var e,onu tanıyırsan ? Onun elə gözəl qızları var ki.

**II Oğul:** İndi neyləyim? Gedim düşüm Sultan kişinin ayaqlarına ki,sənə yalvarıram qızlarını ver bizə. Neyləyək.Siz gedin istəyin, biz siz alan qıza razıyıq. (O qardaşına tərəf çevrilərək) Razısan. (O başı ilə razılığını bildirir) Ə başını yelləmə.Dilinlə de,razısan, ya yox?!

**I Oğul:** Əlbəttə razıyam.Anam nə desə odur.

**Qadın:** Başınıza dönüm, biz Sultan kişidən qızlarını istədik. O daş atıb başını tutdu, dedi ki, sizə veriləsi qızımız yoxdur. Gedin öz babınızı tapın.

**I Oğul:** Yəni demək istəyirdi ki,bizim ailə onlara uyğun deyil? Yəni onlar bütün tərfləri ilə birlikdə bizdən üstündürlər.

**II Oğul:** Yəni demək istəyirdilər ki,bizdən yaxşı oğlana qız verəcəklər,biz o qədər əldə- ayaqda qalmışıq ki,Sultan kişi kimi birisi bizi bəyənmir.

**Qadın:** Nəyə görə dediyini bilmirəm . Amma, bizi bəyənmədi. Bizi adam yerinə qoymadı, desəm, babalını yuyaram. Bizi çox mehribancasına qarşılayıb suyumuz süzülə-süzülə yola saldı. Bilirsiniz, sultan kişi bizi və bütün oğul ana və atalarının başına bu oyunu gətirir? Bilmərsiniz,fikirləşməyin.

**II Oğul:** Əlbəttə bilirik, bu o qədər də çətin sual deyil.Sultan kişi ona görə özünü belə aparır ki, nadir və gözəl qızlar atasıdır. Ona görə də oğlan valideynlərinin onun qapısına gedib gəlməsindən zövq alır. Onları dizin-dizin süründürmək istəyir.

**Qadın:** Elə gözəl qızları var ki? Qadınlığımla onlara baxanda ağzım sulanır. Nə yolla olursa olsun onlardan ikisini sizə almalıyam.

**I Oğul** (anasına): Yaxşı ki, demirsən e, bahasına, ucuzuna baxmayıb ikisini sizə alacağam.Bu necə ola bilər,ana. Qızlar bazara çıxacaq mal deyillər ki,varını-dövlətini verib alasan. İndi qız atalarının başına, ayağına keçmək o qədər asan iş deyil. Statistik məlumata görə indi hər yüz oğlana on qız düşür.Qız çox bahalaşıb.

**II Oğul:** Belə görünür ki,dənizdə yeni neft quyuları kəşf etməkdənsə qız əkib-bejərmək daha sərfəlidir. İndi elə oğullar var ki,yaxşı bir qızı almaq üçün bir neçə göydələn yaşayış evini,bir neçə qaraj son marka maşını verər. Təki evlənə bilsin,təki öz ev-eşiyi olsun. Adamlar billə-bilə özlərinə problem yaradıblar. İndi deyək Sultan kişinin ayaqlarına düşək ki, tök ətəyindən qız daşını onlardan ikisini ver bizə. Nə deyirsən

ana.Sultan kişiyə sözünüz, sovunuz.Sizin adınızdan ona nə deyək.Allaha təvəkkül, bəlkə bizi qəbul etdi.

**I Oğul:** Bizi döyüb yola salmaz ki?

**Qadın:** Niyə döyür,vəhşi zaddı bəyəm.Çox olsa deyəcək ki,mənim sizə veriləsi qızım yoxdur, gedin özünüzə babını tapın. Gedin,allah amanında.Gedin görək sizə nə deyəcək. Keçin yuyunun,elə geyinin ki,o gorbagor oğlunun gözləri qamaşsın.(II oğluna müraciətlə) Sən də göz muncuğunu üstünə tax.Allah sizi bəd nəzərdən saxlasın.Gedin yolunuz uğurlu olsun.Allah Sultan kişinin qəlbinə xof salsın.O qızlar da yazıqdı,elə siz də.O qızlar necə də sizə yaraşan qızlardı.

**II oğul:** Ana,o qədər təriflədin ki,görməmişdən vuruldum. Onları yaxından görmüsən,heç danışmısan. Bəlkə elə bir eyibləri var ki, ataları onların qiymətini qaldırmaq üçün elə eləyir.

**Qadın:** Düzünə qalsa danışdırmamışam. Baxışlarından çox gözəldir. Ya bəxtim deyib,bir bəxtlərinizi sınayın.Bir vaxt bir oğlana on qız düşürdü indi tərsinə olub. Hər şey indi tərsinədir. (Oğlanlar səhnədən çıxır. Səhnə dönür. Qadın gəlib tamaşaçı zalı ilə üzbəüz dayanır) İşə baxın, e!... Cəmiyyətin ən böyük problemi ailə probelmi imiş. Əsilində bu da özümüzlə davadır. Üzdən hər şeyimiz var,əslində isə oğlanlarımızı xoşbəxt etmək üçün olanlar bəs etmir. Cəmi 50 il ərzində nələr olub, kimlər ölüb,kimlər qalıb. Öz əlimizlə özümüzü çıxılmaz vəziyyətə qoymuşuq. Təkcə qızların alması ilə əlaqədar cəmiyyətdə neçə xəstəliklər yaranıb. Açıb ağartmaq olmasa da bu barədə Aytelevizi yasından ətraflı məlumatlar verilir.Bu planetlər arası televiziyalar da bir-birləri ilə birşməyə başlayıblar. Əvvələr televiziyalarda mətbəxt verlişləri, uşaq verlişləri, qadınlar üçün verlişlər verilirdi. İndi televiziyanın düyməsini basmağa qorxuruq. Elə şeylərdən danışırlar ki, adam məəttəl qalmalı olur.Veneradan baxdığım

verlişdə də qadın problemi var idi. Orada da oğlanların evlənməsi üçün qız çatışmır marsda da qızlar əsasən robot cihazlardan ibarətdir. Ona görə də bu planet qızsız planet adlanır. Digər planetlərdən elə qəliz verlişlər verirlər ki, başa düşmək olmur.Bizim məmləkətimizdə «Qız çatışmır,oğlanlar evlənmək üçün qız axtarırlar»xəbərini verəndə diktor o qədər güldü ki, axırda gözləri hədəqəsindən çıxdı, vay gözüm diyədiyə ekrandan çıxdı. Həmin planetin bizim məmləkətdə olan müxbiri şərh edirdi ki,yerdəki içməli su mənbələri qurumaq üzrədir. Ehtiyac su saxlamağın yolları barədə təlimatlar verilirdi. Bu məsləhətləri az-çox anlayan mən bu gözəl qızlar atası Sultan kişini anlaya bilmirəm ki,bilmirəm. Görəsən oğlanldarım indi neyniyirlər.

(Səhnə qaranlıqlaşır. Səhnə işıqlanır )

## V şəkil

(II şəkildəki səhnə. Qız atasının mənzili.O çox şəndir. Əlini-əlinə sürtə-sürtə)

**Qız atası :** Sağ ol, a Sultan kişi,
Var ol, a Sultan kişi.
Bir Allah bəndəsinə
Yar ol, a Sultan kişi.

(Otaqda vər-gər edib, gəlib güzgünün qabağında dayanır. Əlini saçlarında gəzdirir) Şükürlər olsun, zaman öz barmaqlarını hələ saçlarıma sala bilməyib. Oğlan ata və analarının qapımda yesiri çıxıb.Bəh,bəh kef elə Sultan.Yox deməyə elə alışmışam ki,bəzən var deməli sözlərə də yox deyirəm.Dilim öyrəşib,dilim. «Gedin özünüzə bab tapın». Belə mənim sözlərimin qabağına söz deyən yoxdur e. Elə bil göydən paraşütlə düşmüşəm. İndiyədək sözümün qabağına söz deyən bir nəfər olub. Öz dediklərinə görə bizdən iki tin o tərəfə yaşayırlar. Yaxşı ailiyə oxşayırlar.Kişi susub durdu, ancaq mən danışdım. Kişi ilə gələn qadın isə mənim dərsimi yaxşı verdi. Gözəl anaya oxşayırdı indi qapımı döysə qızlardan birini onun oğluna verərdim. (Qapı döyülür. Kişi ucadan) Buyurun! (Qapı açılır. Bir-birindən yaraşıqlı, boy-buxunlu iki cavan oğlan içəri daxil olur. Kişi öz-özünə) Əcəb axşamladıq. Bunlar nə istəyirlər görəsən. (Onlara xoşgəldin eləyir) Xoş gəlmisiniz.

**I Oğlan:** Sağ olun, təşəkkür edirik. (Oğlanların hər ikisi təklif gözləmədən əyləşmək istəyərkən).

**Qız atası:** Mən sizə oturmaq təklif etmədim. Siz bu əndazə və bu geyimlə gərək ki, ədəb qaydalarını biləsiniz. Axı siz, centlimensiniz. Öz görkəminizə və adınıza görə hərəkət etsəniz, pis olmaz.

**II Oğlan :** Baş üstə Sultan əmi. Gəlişimizin səbəbini soruşmayacaqsınızmı ?!

**Qız atası :** Nə soruşum.Yəqin siz də elçiliyə gəlmisiniz.

**II Oğlan :** Yox canım,elçilik nədir,biz tamamilə başqa məsələ üçün gəlmişik.

**Qız atası:** Nə məsələ ?

**II Oğlan:** Biz planetlərarası uçuş mərkəzində işləyirik. Göyün yeddinci qatından çox-çox uzaqda yerləşən Saturn planetindən sizin evinizin xəritəsini, daha doğrusu quruluşunu və bu evdə kimlərin yaşaması barədə məlumat istəyirlər.

**I Oğlan:** Bu həmin qatdır ki,oradan gözə görünməz və yeri bilinməzlə əlaqə 3 yüz işıq ilidir. İndi biz quruluş və xəritə çəkənləri gətirmişik ki,sizin evinizi ölçüb-biçsinlər.

**II Oğlan:** Belə bir məlumatda gəlib ki, Sultan kişi xeyirxah allah adamıdır. Onu incitməyin,onun qulluğunda dayanın. (Cib telefonu zəng çalır.II oğlan telefonu açır.) Bəli, eşidirəm. Sizdən Sultan kişiyə salam deyək. Baş üstə. Onun bütün həyat gizgilərini sizə dedikcə siz də ona təkrar edin.

**I Oğlan:** (Sultan kişiyə) Eşidirsən, Sultan kişi! Səni bütün göy aləmi tanıyır.

**II Oğlan:** Sultan kişi nə vaxt ölüb? O diridi, ölməyib. Özündən soruşum? Soruşmayım. Onu bir il əvvəl bir neçə saatlığa öldürmüşdünüz. İndi soruşum. (O Sultana müraciətlə ) Siz bir il əvvəl ölmüşdünüz?

**Sultan kişi:** Bəli ölmüşdüm.

**II Oğlan:** (Telefon qulağında) Ölümünün səbəbini soruşum.Sultan kişi göydən soruşurlar ki, niyə ölmüşdün.

**Qız atası:** Mən ölməmişdim. Məni iki əl boğmuşdu. Soruşdum ki,məni niyə boğursunuz. Dedilər, günahkarsan. Dedim günahım nədir. Dedilər evində

yeddi ərgən qız saxlayırsan. Onları incidirsən. Bu nə bizə, nə də heç kimə xoş gəlmir. Sən böyük cəzaya layiqsən.

**II Oğlan:** Bəs necə oldu ki,sizi tamamilə öldürmədi.

**Qız atası:** Məni arvadıma bağışladı.Dedi yaxşı,təmiz və səni ürəkdən sevən arvadın var,yeddi qızın var. Onları evdə qarıtma. Halal süd əmmiş olanda ver getsinlər. Bir az da keçsə onlar döldən düşərlər.

**II Oğlan:** Bəs göylərdən gələn səsə niyə göz yumursan. Bilmirsən ki,göylər səni cəzalandırar. Vallah cəzəlandırar.

**Qız atası:** (Qorxu içərisində)Bəs,indi mən neyləyim.

**II Oğlan:** ( Telefondakına) Sultan kişi deyir ki, bəs indi mən neyləyim. (Səs ucadan) Neyləyəcək, dediklərimizə əməl etsin. Halal süd içən axtarırdı,onları da göndərirəm. Əgər sizə inanmırsa telefonu verin sözlərimi özünə deyim. (O telefonu Sultan kişiyə verir) (Bir az qorxa-qorxa):

**Qız atası:** Eşidirəm, qurbanı olduğum.

Səs: (ucadan) Nə eşidirəm,eşidirəm salmısan, sən nə eşidirsən, nə görürsən. Karsan,korsan,indi səni lalda edəcəyəm. A Sultan, sən kimsən ki, o allah bəndələrini ev dustağı eləmisən. Sən öləsən bu dəfə boğazını əlimdən qurtardı yoxdur. (Fikirləşir)

**Qız atası:** İndi mən neyləyim. (kəkələyə-kəkələyə)

**II Oğlan:** Neyləyəcəksən, tanrı yolunda günahlarını yu. Qızlarını istədiklərinə ver,ya da elə tanınmaza, bilinməzə gələn elçilərə. Bir söz öyrənmisən «Gedin özünüzə bab axtarın,siz bizim tayımız deyirsiniz. Soruşan yoxdur ki,ay Sultan kişi,siz kimisiniz, biz kimik. Biz hamımız eyni adamlar deyiiikmi, zatımız, kökümüz,soyumuz,milli nəyimiz varsa hamısı eynidir.

**I Oğlan:** Sultan kişi boğulduğun anı və əlləri necə xatırlayırsan ? Yadında nə qalıb.

**Qız atası:** Necə vardırsa eləcə də qalıb. Əvvəlcə bir səs qızlarımın adlarını çəkə-çəkə mənə nələr demədi. Sonra o səs gələn tərəfdən üstümə iki əl şığadı, əllər o qədər uzun idi ki,indi düşünürəm ki,o əllər nə imiş. Məni elə rahat öldürürdü. Ayılandan sonra fikirləşdim ki, kaş heç boğazımı buraxmayaydı. Kaş elə o əllərdə öləydim. Bir də fikirləşəndə beş gün artıq yaşamağın da möhlət olduğunu duyuram.

**II Oğlan:** Bəs sizə verilmiş bu möhlətdən siz necə istifadə edirsiniz ?

**I Oğlan:** Xasiyyətinizdə nəsə dəyişilibmi ?

**II Oğlan:** Heç nə dəyişilməyib,əksinə bir az da pisliyin artıb.Qapına kim gəlir ağzına döyüb geri qaytarırsan. Bu yaxşı iş deyil.

**I Oğlan:** Qızlarını vermək istəmirsən,vermə.Kim zorla səndən qız ala bilər ki? Heç kim.Bəs sənin bu millətə məxsus kişiliyin harda qalıb. Camaatın başını da kəsməyəcəksən ki?

**II Oğlan:** Bizim bu günümüzdən yüz on il əvvəl olan Alman-Rusiya müharibəsində o vaxtdı kı, SSRİ deyilən dövlətə daxil olan müttəfiq respublikalar da faşizmə qarşı vuruşurdular. Elə bizim üç nəsil əvvəlki babalarımız da. O vaxt harınlaşmışlardan bəziləri müharibədən yayınmaqla arxa cəbhədə baş kəsməklə məşğul olublar. Məsələn, 20 kvadratlıq xalçanı bir pud buğdaya veriblər, camaatın nəyi varsa soyub, talayıblar, imkansız camaat da baxmayıb heç nəyə, təki körpəsini yedirtsin. Əhali çıxılmaz vəziyyətdə olduğu üçün o qansızın qapısına gedibiər.

**Qız atası:** Siz yoxsa məni onunla müqayisə edirsiniz?!

**I Oğlan:** Yox, əşi!Siz niyə onun tayı olursunuz. Siz ölüb-dirildikdən sonra hansı səmtə tərəf dəyişdiniz.

**Qız atası:** Necə yəni,hansı səmtə. Mənim səmtim birdir. Gör neçə illərdir üzü qibləyəyəm. Və qibləm heç vaxt dəyişməz.Sizin dediklərinizə gəlincə tamam sirr içərisində yaşayırıq. Bir şey yadıma düşdü. Bizim əvvəlki,məhəlləmizdə bir dostum varıydı. İkimizində dalbadal qızlarımız olurdu.Onun arvadı dördüncü uşağa hamilə idi. Aparıb aparata saldılar ki,görsünlər o nə deyir,oğlandı ya qız. Aparat göstərib ki, oğlandı. Dostum da yeddi ay sərtamam arvada deyir,ayağını yerə qoyma sinəmdə yeri,o tikəni yemə,bu tikəni ye. Doqquz ayın tamamında onun dördüncü qızı oldu. Onun qan qaralığını bu gündə gözüm önünə gətirəndə ürəyim sancır. Ancaq o qızlar elə oğlanlara qismət oldular ki,adam baxanda ağlına gəlmir. Dostum o dördüncü qızından olan oğlan nəvəsi ilə birlikdə qalır.Necə də xoşbəxtdirlər.

**II Oğlan:** Bəs, siz niyə elə xoşbəxt olmaq istəmirsiniz.

**Qız atası:** Niyə olmaq istəmirəm. İstəyirəm. Amma hələ fikirləşirəm,seçirəm. Bilmirəm ki,qızlarımı kimə verim.

**I Oğlan:** Fikirləşməyin ziyanı yoxdur,fikirləş. Ancaq elə elə ki,qızlar evdə hopoplamasınlar. Onlar da yazıqdır. Günə çıxmağa qoymursan ki,gün görər. Belə olmaz,Sultan kişi. Göylər sizin bu əməllərinizi görür. Bəsdir deyin,qayıdın göylərin dediklərinə. Rəhminizi əsirgəməyin.

**II Oğlan:** Lap unutmuşdum. Göylərdən,deyəsən Venera planetindən sizə bir hədiyyədə var.(O əl çantasından bükülü kiçik qutu çıxarır)Əl telefonudur. Venera istehsalıdır. Sizin konturlarınızı onlara vermişik. Sizinlə əlaqə saxlayacaqlar. Veneranın

zəngini gözləyin.Onun sizə deyəcəkləri var. Dedim özünüz əlaqə yaradarsınız.Özünə, yəni sizə öz sözlərini deyəcəklər. Bu gün olmasa da,sabah hökmən danışıq olacaq. Çalışın Veneranı qəzəbləndirməyin. O biri planetlər arasında körpü planeti rolunu oynayan Venera öz xeyirxahlığı ilə sizə yardım etmək istəyir.

**Qız atası:** (ikinci oğlanın söhbətlərinə elə həssaslıqla qulaq asır ki) O mənə neyləmək istəyir.

**II Oğlan:** Onun sənə bəzi məsləhətləri var.

**Qız atası:** Mənə məsləhətləri var ?

**II Oğlan:** Bəli,sizə məsləhətləri var.

**Qız atası:** Axı,mən onların dilini bilmirəm. Biz nə dilində danışacağıq.

**I Oğlan:** Sən onları başa düşməsən də onlar səni başa düşə bilirlər. Birdəki bizim vasitəmizlə sinxron tərcümələr edilir. Onun dedikləri dəqiqliyi ilə sizə çatdırılacaq. Ondan arxayın olun. O ki, qaldı bu cihazla işləməyə (O cib telefonunun açə-açə)elə bir çətinliyi yoxdur. Bizim cib telefonlarına çox oxşayır. (O telefonun iş prinsipi ilə qız atasını tanış edir)Bax,belə bu koordinatda, bu dalğada,istədiyin vaxt Venera ilə danışa bilərsən. Hələlik biz gedirik.Bu kartları da sizə veririk. Çətinliyə düşən kimi deyərsiniz, həmişə yardımçınız olmağa hazırıq. Hələlik,görüşənə kimi ! (iki qardaş səhnədən çıxırlar. Qız atası səhnədə tək qalır.Bayaqkı səhnədəki təccübünü saxlaya bilmir)

**Qız atası:** A kişilər,yerində qulaqları varıymış buna deyiblər e. Mən deyirəm bəlkə heç kim mənim işlərimdən xəbardar deyil. Sən demə belə deyilmiş.Bir vaxt krosna antenalar varıydı,göyün üzündəki nə qədər olar,olmazı evlərimizə gətirirdi. İndi də deyəsən yerdə nəyimiz varsa göy aləminə qaldırır bu qulaq antenalar. Bir zamanlar bu antenaların quraşdırılması ilə məşğul olmuşam. Ona görə də bu məsələləri az-çox bilirəm. Görək bu Venera bu gözəllik planeti mənə nə deyəcək.

Hələ elçiləri bir-bir başımdan eləyirəm. (O əlini boğazına yaxınlaşdıraraq).Bu nədi elə bil məni boğurlar. Bəd söz danışdım, yəqin ona görə belə oldum. Allahım, özün kömək ol.

**Qeybdən səs:** Çətinliyə düşən kimi Allahı çağırırsan. Ancaq başa düşmürsən ki, o sənin və bütün canlıların ruhunda yaşamaqdadır. Ruhunda təmizlən Sultan kişi.

**Qız atası:** Axı,siz kimsiniz ?

**Səs:** Kimliyimi neynirsən. Əlini boğazından çək. Bu dəqiqə səni boğmaq fikirində olan yoxdur. Hələ sənin ölməyə haqqın yoxdur. Sən yeddi qız köçürəcəksən.Yeddi qız. Hamısı bir-birindən gözəl.

**Qız atası:** Siz qızlarımızın gözəlliyini hardan bilirsiniz? Onlar ki,darvazadan çölə çıxmayıblar.

**Səs:** Bilirik, darvazadan çıxmayıblar. Onları məhz havadan görmüşük. Allah xohbəxt eləsin,gözəl qızlardır.

**Qız atası:** (İstədi desin ki, allah sizinkiləridə xoşbəxt eləsin, dillənmədi) Gözəl günləriniz olsun.

**Səs:** Sənin kimilər imkan versə hər gün daha gözəl olar.

**Qız atası:** Mən neyləmişəm ki?

**Səs:** Daha neyləyəcəksən. Gül kimi qızlarını qoymusan açar altında, gələn elçilərin də burnunun üstündən vurub geri qaytarırsan.Günahkarsan,boynuna al,günahkarsan.

**Qız atası:** Niyə günahkar oluram axı! Qız böyütmüşəm ki, hər yoldan ötən elçi düşsün.

**Səs:** Eşitməmisən ki, deyirlər qız ağacı,qoz ağacıdı,hər gələn bir selbə atar.

**Qız atası:** Sən hardan bilirsən.

**Səs:** Yoxsa,elə bilirsən ki,səndən başqa heç kim məsələ, misal bilmir, a Sultan kişi. Sənin bayatın var e.

Sağ ol, a Sultan kişi,
Var ol, a Sultan kişi.
Bir yol bu sevənlərə
Yar ol, a Sultan kişi.

**Qız atası:** Mən üçüncü misranı elə deməmişəm. Onu siz dəyişdirmisiniz. Mən demişəm ki, «Bir allah bəndəsinə yar ol, a Sultan kişi». Mənimkilər allah bəndəsidir,allah bəndəsi.

**Səs:** Sən elə bilirsən ki,allah bəndəsi təkcə sənsən, a Sultan kişi.

**Qız atası:** Niyə ki,allah bəndəsi çoxdur.Halal zatı, halal südü olanlar da çoxdur.

**Səs:** Boğazında vəziyyət necədir? Daha boğulman yoxdur ki?

**Qız atası:** Xeyir, yoxdur. Mənə möhlət verdilər ki, yaşayım, qızlarımı bir allah bəndələrinə ərə verim. Sonra müqavilənin vaxtı çatanda baxarıq işlərin gedişinə. Möhlət versələr yenə yaşayarıq, möhlət verməsələr də ixtiyar əllərindəir.

**Səs:** Səsində bir qırıqlıq hiss etdim.

**Qız atası:** Düz deyirsiniz. Ölümü bir dəfə görənlər üçün ikinci kərə yaşamaq həm gözəldir,həm çətindir. Bir kərə yaşayıb mənalı yaşamaq daha gözəldir. Nəyinki iki kərə yaşayasan ölümün qorxusu altında can verəsən.

**Səs:** Həqiqətə nə deyəsən. Düzdür mənalı yaşayıb bir kərə yaşamaq daha gözəldir. Sən qızlarının xoşbəxtliyini də bu mənalı ömrünə əlavə etsən gör nə gözəl günlər görmüş olarsan.

(Səhnə yavaş-yavaş qaranlıqlaşır. Səhnə dönür və işıqlanır)

## VI ş ə k i l

(I şəkildəki səhnə. 4 oğul valideyinlərinin otağı)

**Qadın:** Hə, necə keçdi elçiliyiniz.

**I Oğlan:** Necə keçəcək əla.

**II Oğlan:** Ana o yazıq kişini o qədər yaman deyirdiniz ki,biz ondan yamanlıq görmədik.

**I Oğlan:** Əksinə yaxşılıq gördük.

**Qadın:** Yaxşılıq ha,nə yaxşılıq gördünüz. O yaxşılıq sözünə yad kişidir.

**II Oğlan:** Bizim qaynatamıza elə söz demə, ana. Baxarsınız o necə kişi olacaq. Bir də, bizim bu böyüklükdə şəhərimiz də ona bərabər kişi tapılmayacaq.

**I Oğlan:** Görərsiniz. Elə olacaq.

**Qadın:** Yox,əşi? Yəni deyirsiniz elə kişi olacaq ki,onu kişilərə nümunə göstərəcəklər?

**II Oğlan:** Əlbəttə, ana! Həqiqətdə o bizim çox xoşumuza gəldi. O igid adamdır, ana! İlin-günün bu vaxtında...

**I Oğlan:** (O birinin sözünü kəsir) İlin-günün bu vaxtında bir damın altında yeddi qız və bir arvadı elə saxlayıb ki,birinin səsi çıxmır.

**II Oğlan:** Nəinki səsi,heç cınqırları da çıxmır.

**Qadın:** Ay maşallah,belə kişi. Qızın və qadının belə «Defisit» vaxtında ad-san saxlamaq doğrudan da çox çətindir.

**I Oğlan:** Ana,Sultan kişiyə bəraət qazandırırsan, deyəsən.

**Qadın:** Deyəsən. Doğurdan da indiki vaxtda çox çətin işdir. Qız atası olmaq bir vədə, iraq dədələrimizdən, bədbəxtlik sayılırdı. İndi gör nə günə qalmışıq ki, min bir oyunla Sultan kişinin ayaqlarına düşmüşük.

**II Oğlan:** Doğrudan çətin işə düşmüşük. Ona haralardan danışmadıq, göyü endirdik yerə,yeri qaldırdıq göyə. Planetlər arası uçuş mərkəzindən başlamış ən uzaq planetədək onun qarşısında danışdıq. Onu görməyə getməzdən əvvəl bizim bu məhəlləni əhatə edən poliklinikada olduq,onun xəstəlik vərəqələri ilə tanış olduq,öyrəndik ki,keçən il,yəni bir il əvvəl qısa müddətli ölüm keçirib. Bəzi faktlar da öyrəndik.Və onları bir-bir Sultan kişinin üzünə oxuduq. Heyrətləndirdik onu. Mat-məhəttəl qalmışdı. Onu başqa bir planetlə danışdırdıq,qeyibdən gələn səs onu xeyli mütəəssir etdi. Və ona Venera planetinin şəxsi göstərişi olduğunu çatdırdıq və dedik ki,sabah hökmən o sizinlə görüşəcək, əlbəttə telefon vasitəsilə.

**I Oğlan:** Ana, Venera planeti deyəndə səni nəzərdə tutmuşuq. Nömrəsi də budur.(Nömrəni bir vərəqdə ona verirlər) Sabah saat 11 radələrində onunla danışmalısan.

**II Oğlan:** Mövzun göyün yerə iradları,onların cızıqlarından çıxması və sonda qızlar ilə bağlı sorğu – sual, aydındı.

**Qadın:** Aydındı aydın olmağına.Aydın olmayan odur ki,o məni səsimdən tanıya bilər.

**II Oğlan:** Tanıya bilməz.Sən fıransız dilini bilirsən, o dildə danışarsan mən də paralel telefonda sinxron tərcümə edərəm.O olsun Sultan, biz də olaq biz. Görək kim kimə qalib gələcək.

**I Oğlan:** Ana, gələcək qaynatamızı çox danlama, ha.

**Qadın:** Danlama nədir ə, onun saqqalını pinsetlə yolacam. O məni elə əsəbləşdirib ki,hələ acığı canımdan çıxmayıb. Gözləsin zəngimi. Mən də bir az hazırlaşım. Bu gebbeslərin dilini yadırğamağa başlamışam. Bir zamanlar Straqburqda Avropa şurasında işləməyə dəvət almışdım. Atanız qoymadı. Dedi,

qadının öz işi var, bu gün də atanız həmin məntiqlə yaşayır.

**Kişi:** Arvad,deyəsən məni tərifləyirsən.

**Qadın:** Hə,ay kişi,səni tərifləməmiş gorbagor sovet hökümətini tərifləməyəcəyəm ki ?

**Kişi:** Gorbagor niyə deyirsən,gül kimi hökümət idi.Bizi ev-eşik sahibi edən, əlimizə diplom verən ata-analarımız onun yetirmələri idi. Nə olsun ki,biz o dağılandan sonra doğulmuşuq.

**Qadın:** Yaxşı, köhnə palan içi sökməyin.Olan olub,keçən keçib. Sən məni Strasburqda işləməyə qoysaydın allah bilir indi haralarda idim.

**Kişi:** Haralarda idin? Yeni planetlər kəşf edəcəydin.

**Qadın:** Yox, sadəcə millətimizə xidmət edərdim. Onun haqlarını müdafiə edərdim.

**Kişi:** Arvad, sən elə öz haqqını müdafiə et,qalan şey lazım deyil.

**Qadın:** Düz deyirsən mən və mənim kimi qadınlar öz haqqlarimızı müdafiə etsəydik günah işlədib qız uşaqlarımızı doğulmamış ana bətnində tələf etməzdik. İndi dörd oğlun əvəzinə 2 oğlum,2 qızım varıydı. Sənin kimi kişilərin sözünə baxa-baxa cəmiyyətin tarazlığını pozmuşuq. İndi də Sultan kişi kimi bir adamın əsirinə çevrilmişik ki,bəs qurban olum,qadan alım qızını ver bizim oğlumuza. O da qız qəhətliyini görüb minib öz inad atını ki, sizə veriləsi qızım yoxdur.Sənə nə var e,əziyyət, əzab çəkmirsən ki.İkiniz dərsə, üçünüz də işə gedib-gəlirsiniz. Yeməyiniz, içməyiniz hazır, paltarınız təmiz və ütülü,ev-eşiyiniz səliqəli. Daha yorulmuşam. Fiziki gücüm çatmır. Uşaqların evləndirilməsi məsələsini də elə-belə başdan sovdu fikirləşirsən.

**Kişi:** Arvad haqsız danışırsan.Onlardan ötəri açmadığımız qapı qalmadı, gedib rayonumuza, kəndi-

mizə çıxdıq.İndi mən neyləyim ki, qız belə qəhətə çıxıb, neyləyim ki, qız çatışmır.

**Qadın:** Sən və sənin kimi kişilər eləyib. Birinci uşağım qız doğulmuşdu. O öləndə mən necə ağlayırdım, sən necə sevinirdin. İkisi də yadımdadır. Elə bilirsən ki,yadımdan çıxıb. İndi öz bəlanızdır çəkin. Elə mən də sonrakı doğuşlarda sənin sözünə baxdım. Nə qədər qız uşaqlarını tələf etdim. Allahın barmağı yoxdur ki,basıb gözünü çıxarsın. İndi,işdən sonra gəlirsən əlini-qolunu uzadıb istirahət eləyirsən,mən də qarşında qulluqçu kimi işləyirəm. Elə bil məni incidəndə zövq alırsan. Gündən-günə necə də cavanlaşırsan.

**Kişi:** Yaxşı söz içindən söz çıxarma.Allahın köməkliyi ilə hər şey düzələr.

**Qadın:** Üstəlik Sultanın rəhmətini də yada sal.Dua et ki, Sultanla bu danışığımız baş tutsun.

**Kişi:** Hansı danışığımızı nəzərdə tutursan.

**Qadın:** Sənin nədən xəbərin var ki, ondan da xəbərin olsun. Ay tifağı dağılmamış,bayaqdan oturmusan biz uşaqlarla danışırıq heç fikir vermirsən ki,biz nədən danışırıq? Ə, bəlkə elə səni söyürük.

**Kişi:** Söyündə nə olacaq. Ətimi yesəniz də sümüyümü ki, heç kimə atmarsınız.Bunu da dəqiq bilirəm. Onu da bilirəm ki, danışdıqlarının hamısı haqqdır.

**Qadın:** Mən heç vədə haqsız danışmamışam. Başqalarını deyə bilmərəm buna mənim haqqım çatmır. Bu gün gördüyüm haqsız işlərin yumruğu başıma dəyməkdədir. Mən, elə sən də bu gün nəvə oynatmalı vədəmizdi,amma biz neyləyirik. Hələ, cəmilin küçələrindəyik. Oğlumuza qız axtarırıq. Bu axtarış da müşgülə düşüb.

**Kişi:** Axır ki, bir gün bu məsələyə də allahın rizası ilə rəvac verilər. Arvad biz özümüzü oda,közə vurmaqla deyil ki,gərək allah adamın işini düzəldə.

**Qadın:** Allah da deyib ki, səndən hərəkət, məndən bərəkət. Gərək sən asqırasan ki,mən də bir allah şükür deyəm.

**Kişi:** Şükür içində olasan. Gəl söz güləşdirməyək. Uşaqlar özləri düşüblər bu işin üstünə,yəqin ki,düzələr.

**Qadın:** Təki sən deyən olsun. Allah ağzından eşitsin. Bu adamlar öz əlləri ilə özlərini elə bəlaya salıblar ki,göy üzü yerə gələ buraxılmış səhvlərin sonu görünməz. Hələ gör neçə nəsil bu problemlə üzləşəcək. Hər şeyin öz mizan tərəzisi olduğu kimi bu doğum məsələsinin də bir ölçüsü var. O da yeri bilinməz, gözə görünməzin əlindədir.Ancaq biz hər şeyə əl qatdığımız kimi bu toxunulmaz işə də girişdik.Bu bilirsən nəyə bənzəyir kişi ? Səhrada susuzluqdan yanıb külə dönmək ərəfəsində olan yolçunun bir küpə qızıl tapmasına.Küpəni tapan da elə bilir ki,sudur,açanda baxır ki,bir küpə qızıl.Onu yerə endərib qızılı o ki,var təpikləyir. «Mən də elə bilirdim sudur»,-deyir.İndi sizin hamınızın qazandıqları bir oğul toyunun şirinliyinə dəyməz.

**Kişi:** Elədir. Amma neyləyək ki,hələlik bu şirinliyi dada bilmirik.Birdə ki,təkcə biz deyilik ki! Bu gün məmləkətimizdə hər min oğlandan doqquz yüz doxsanı evlənməyib. Məmləkətin sərvəti ilbəil artır.Əvəzində əhalinin sayı azalır.Genefond tamamilə məhv olmaq dərəcəsindədir. Ana problemi ilə üzləşmişik. Fikirləşmirik ki, bu gün doğulan hər bir qız uşağı sabah millətin anasıdır.Biz özümüz özümüzə külü də gözümüzə eləmişik. Günahlardan biri də mən özüməm. İndi doğulmamış qız uşaqlarımızı tələf etməsəydik qapımızı nə qədər açıb örtən varıydı.Hayıf olsun, həm də ayıblar olsun. Gör nələr fikirləşib.kimin istəyinə qarşı çıxmışıq.

(Oğlanlar ata analarının söhbətlərinə qulaq asa-asa özləri səssiz planda bir birləri ilə danışırlar.Nəhayət birinci oğul)

**I Oğul:** (qardaşına müraciətlə) Qardaş gör bir-birinə necə girişiblər.Söhbətlərinə qulaq asıram gah bir birləri ittiham edirlər,gah da bağışlayırlar. ikisini də çox istəyirəm.

**II Oğul:** Mən də, onlarsız yaşamağı təsəvvürümə belə gətirə bilmirəm. Arzularına bax. Bizi evləndirmək. Gör neçə illərdir növbənöv evimiz var. Ancaq «evləndirmək»sözünü tamamlaya bilmirlər ki,bilmirlər.

**I Oğul:** İnşallah bu da olar.Onların da gözü yoldan çəkilər. Allah Sultan kişinin ürəyinə bir xof salsın.O da öz uşaqlarına bir rəhm eləsin.Biz də bu danlaqdan qurtaraq,anamız atamız da nigarançılıqdan.

**II Oğul:** (Anasına müraciətlə) Ana,özün görəcəksən ki, Sultan kişi necə yumuşalacaq. Onu bu nərbalaların elə ofsunlamayıblar ki,o yan,bu yan eləsin. Arxayın ol,ana.Bizim bu sevdamız inşallah baş tutar.

Qadın : İnşallah,kor nə istər iki göz,biri əyri, biri düz. Gecədən xeyli keçib. Durun,gecənin xeyirindənsə gündüzün şəri yaxşıdır.Durun,durun yatın.

(İşıq sönür.Səhnə fırlanır,yenə həmin şəkil.Ana və oğlanları.I oğlan saata baxır.)

**II oğlan:** Hələ vaxtımıza xeyli var.

**II oğlan:** Ana,danışığa hazırsan?

**Qadın:** Hazıram, oğlum. Burda hazırlaşmalı nə var ki? Salamımı verərəm.Bu allah salamıdı.Keyfini xəbər alacam.Veneranın ona münasibətini bildirəcəm və sair,və ilaxır.Sultan kişiyə imtahan vermiyəcəm ki,imtahandan kəsiləm.

**I oğlan:** Ana,əslinə qalanda bizim imtahanımızdı. Bilsə ki, biz ona oyun oynamışıq heç qızları kor olsa belə bizə verməz.Sultan kişi çox sərt adama oxşayır. O deyəsən yer üzündə heç kimdən qorxub

çəkinmir. Onun qorxusu göylərdəndir.Əlac Venera əməliyyatına qalıb.Bu zöhrə ulduzunun gözəlliyi və cazibədarlığı bəlkə onun dilini, ağzını bağlaya. Bizim sevdamıza yox deməyə.

**II oğlan:** Anamın danışığından və bizim tərcüməmizdən də çox şey asılıdır.

**Qadın:** Vaxta nə qədər qalır?

**I Oğlan:** İki dəqiqədən bir qədər az vaxt qalır. Əslində şəbəkəyə qoşulmağın vaxtıdır.

**Qadın:** (Geyiminin cibindən telefon aparatını çıxarır. Onu oğluna verir.II oğlan aparatı nizamlayır.) Anası. Ya allah,özün kömək ol. Görək bu yol bizə nə verəcək.

**II Oğlan:** Ana danışığa başlamağın vaxtıdır. Alo, alo, planetlərarası danışıq məntəqəsindənik. Sultan kişidi? Xoş gördük sizi, xoş gördük sizi. Venera planetini sizin telefona birləşdiririk.Buyurun,buyurun danışın.

**Qadın:** (başa düşməyən dildə danışır)

**II Oğlan:** Sultan kişi.Venera planeti sizi salamlayır, sizə cansağlığı,xoşbəxtlik arzulayır.

**Sultan kişinin səsi:** Mənim adımdan ona salam de.Mən onun səsini səbirsizliklə gözləyirdim.

**II Oğlan:** Venera soruşur ki,necə yaşayırsınız.

**Qız atası:** Niyə pis yaşamırıq. Ondan xəbər al ki,niyə məhz mənimlə,mənim ailəmlə maraqlanır.

**II Oğlan** (anası ilə asta danışır): Bilirsiz nə deyir? Deyir ki, o göylərə hörmət qoyan adamdı. Ona görə də onun xətri göylərin yanında belə əzizdi.

**Qız atası:** Xətri xoş olsun,oğul.Daha nə deyir?

**II oğlan:** Qızlarını xəbər alır. Onları xərcləyib, xərclədiyini soruşur.

**Qız atası:** Əslinə qalanda o Venera dediyiniz planetin səsi mənə lap tanış gəlir.Bir də ona nə dəxli qalıb ki,mən qızlarımı ərə vermişəm,ya yox ?! Kim isə bu işə qarışa bilməz. Deyin ki, mənim 7 qızım varıydı

yeddisini də ərə vermişəm. Daha mənim subay qızım yoxdur.

**Qadın:** (Hirslə)Yalan danışır.Yalan.

**II Oğlan:** Sultan kişi,biz səni xəbərdar etmişdik ki,veneranı hirsləndirmək olmaz. O çox xoşxəsiyyətli planetdir.Onunla rəftarda səhvə yol vermək olmaz.

**Qız atası:** İndi əlimiz yerdən üzülüb ulduzlar da mənim işimə qarışırlar.Qəribə işə düşmüşük e.

**II Oğlan:** Sultan kişi,eşitməmisən deyiblər ki, allah ulduzlarını barışdırsın. Bu qədər qəddarlıq olmaz. Bütün göy aləmi bilir ki, sənin yeddi qızın var,heç birini də ərə verməmisən.Yer adamlarını qapından qovduğun bəs deyilmiş,indi də göylərin qarşısında yalan danışırsan. Sultan kişi,Venera bərk qəzəblənib.O indi sənin haqqında uzaq ulduzlara demək barədə fikirləşməli olacaq.

**Qız atası:** Axı,Venera planeti məndən nə istə yir? (Qadının səsi)

**II Oğlan:** O deyir ki,bu qız uşaqlarının hamısı mənim himayəmdədir.Onların qarşısında günah işlədir. Gör neçə illərdir ki,onlar küçə qapısından çölə belə boylanmırlar. Bu nə ata-balalıqdır.

**Qız atası:** Bunu mən bilərəm. Qızımı ərə verərəm də mən bilərəm,vermərəm də! Mən o Venera dediyiniz səsdən şübhələndim. İndi də bu yolla məni yoldan çıxarmaq istəyirsiniz. Qızlarımın qisməti gələndə özləri gedəcəklər. O ki, qaldı göylərin mənə hədə-qorxu gəlməyinə. Bu hədə qorxu sizin hədə-qorxunuzdur. Ondan göylərin xəbəri yoxdur. Venera dediyiniz o xanıma da deyin ki, mənim onun oğlanlarına veriləsi qızım yoxdur,getsin öz babını tapsın.

(O belə deyib telefonu qapatdı)

**II Oğlan:** Gördünüz necə həssas adam imiş. O dəqiqə tanıdı.Bu deyəsən,qızlarını evdə qarıdacaq.

**I Oğlan:** O daha bizə də inanmaz.

**II Oğlan:** Daha niyə inansın. İnanmalı nə qaldı ki?!

**I oğlan:** Hələ görüləsi işlər qabaqdadır.Hələ bu qız atası ilə bizim söhbətimizin xəmri çox su aparacaq.Allah ya ona verəcək, ya bizə.

**Qadın:** Mən sizə demişdim ki, Sultan kişi çox sərt adamdır. Bildiyini dədəsinə də verməz. Yoxsa ki, atanız bu işə baş qoşub bir də yüngül saqqal olmadı. Nə rola girdiksə xeyri olmadı. Allah,allah bu nə qəliz adamdır. Elə deyir ki,mənim sizə veriləsi qızım yoxdur, gedin tayınızı tapın.Sözün düzünə qalanda o kişi düz deyir, onlar hara,biz hara,amma üzü qara olsun bu zəmanənin ki,gətirib bizim işimizi Sultan kişi kimi bir tərsin əlinə salıb.Allaha təvəkkül.Gözləyək. Görək axırı necə olacaq.

**I Oğlan:** Ana, daha bu işin axırı görünmür. İcazə verin biz də işimizin qulpundan bərk-bərk yapışaq. Bu işin günahkarı təkcə Sultan kişi deyil,sizin və sizdən sonrakıların da bir nəsillik günahları da var.Onun əzabını bu millət hələ nə qədər çəkəcək.

**II Oğlan:** Bir zaman demoqrafik məsələlərdən söhbət düşəndə Azərbaycan müsbət mənada birinci yerdə dururdu. Artıma görə həmişə öndəydi.İndi nə ilə artım olacaq.Daş üstə,su üstə atılan torpağı ya quş dənləyər, ya sel aparar. Qadın anadır. Biz gələcək anasızlıq təhlükəsi ilə üz-üzəyik. Ana, düz danışıram.

**Qadın:** Düz deyirsən,oğlum. Ancaq bu günkü düz danışmaqlar da bizim buraxdığımız səhvləri düzəldə bilməz. Allah əvvəlcə ağlımızı aldı, indi isə canımızı alır. Bir azdan sonra az-çox gözə dəyən qadın cinsindən olanlar da öz günahlarını dəyişəcəklər,görək onda aqibətimiz necə olacaq. Dükan-bazara çıxın, yarmarkalara gedin gözünüzə bir qadın dəyməz. Daha həmin yerlərdə qadın paltarları satmağa da lüzum yoxdur. Qız adı tütüyəyə çevrilib.

**I Oğlan:** Ana, bəsdir bu şeyləri özünə dərd elədin.Gəl bu barədə daha söhbət etməyək.Bu işləri buraxaq taleyin qismətinə.

**Qadın:** (Təlaşla) Qulağıma layla səsi gəlir.

Layla dedim,yatasan.
Qızılgülə batasan.
Qızılgülün içində
Şirin yuxu tapasan.

Necə də layla deməyim gəlir.Nəvə istəyirəm. Nəvə. İstəyirəm sizin nəsliniz davam etsin.Ancaq belə getsə arzum ürəyimdə qalacaq. Allah-təala heç kimin arzusunu ürəyində qoymasın,amin.
(İşıqlar sönür.Səhnə dönür.İşıqlanır)

## VII ş ə k i

Qız atasının evi.

**Qız atası** (kefi kök halda səhnədə gəzişir): A kişilər, bir bunlara baxın e. Mənə oyun çıxarırlar. Ancaq demirlər ki,Sultan kişi ilə zarafat etmək olmaz. Ancaq o gələn oğullar ki,varıydı,onlar da mənim xoşuma gəlmişdilər.Lap onları axtarası olsam belə hardan tapa bilərəm. Hərtərəfli adamlar idi. (O danışığına ara verib tamaşaçı zalı ilə üzbəüz dayanır) Siz elə bilirsiniz mənim xoşum gəlir ki,bu adamları get-gələ salmaqdan? Qızlarımın taleyi məni narahat edir. Ona görə də cığallıq edirəm.Bu adamlara etibarım yoxdur.Etibarsız və inamsız yaşamaq çox çətindir.Ancaq sizə söz verirəm ki,bu etibarsızlığı və inamsızlığı çox qısa vaxtda öz üzərimdən atmağa çalışacağam. O proseslər ki,gedirdi, yəni aparatda doğulacaq uşağın oğlan və qız olduğunu bildikdən sonra oğlanın saxlanıb, qızın tələf edilməsi sözün həqiqi mənasında məni qəzəbləndirirdi.Mənim yeddi qızım dalbadal doğulanda bu nadan qonşularım az qala mənə acı-acı gülürdülər və halıma ağlayırdılar.İndi ağlamaq onların növbəsidir...

...Ancaq mənim görüşümə gələn o oğlanları xatırlayanda ürəyimdən qəribə hislər keçir,qulaqlarıma toy səsi gəlir. Mənə elə gəlir o Venera ilə danışıqlar məsələsi də onların qurmaları idi. Mənə tanış gələn o səs də həmin oğlanların əvvəl bizə elçiliyə gəlmiş analarının səsi idi. Qoy, bir planetlərarası uçuş mərkəzini yığım, onlar oz koordinatlarını mən vermişdilər. (Cibindən bir dəftərçə çıxarıb, nömrələri axtarır) Hə, tapdım. (Nömrələri yığır) (Bir andan sonar salona səs gəlir)

**Səs:** Bəli, eşidirəm.

**Qız atası:** Mənəm, Sultan kişi, bir neçə gün əvvəl mənim evimə gəlmişdiniz. Sonra məni Venera ilə danışdırdınız.

**Səs:** Bəli,bəli. Səsinizdən tanıdım. Nə əmriniz varsa yerinə yetirə bilərik.

**Qız atası:** Qulaqlarıma toy səsi gəlir.

**Səs:** Allah mübarəe eləsin. Qaçım anamı muştuluqlayım.

**Qız atası:** Allah mübarək eləsin.Sən qaç ananı muştuluqla. Mən də öz tədarükümdə olum.(O telefonu söndürür.Tamaşaçılara tərəf çevrilərək) Bu sizə bir şad xəbər.İkinci şad xəbərim də var. Qadınların ana olmazdan əvvəl uşaqlarının cinsi barədə yoxlanışı əleyhinə qəti sərəncam verilib. Qız uşaqlarını ana bətnində tələf etmək qəti qədağan edilib.Siz baxarsınız yer kürrəsi bundan sonra necə də gözəlləşəcək. Qadınsız buy er üzü bir cəhənnəmdir inan. Hamı yer kürəsinə yol gəlir bir qadından.

**Oğlan anası** (səhnəyə gəlir): Bəs kişilər?

**Qız atası:** İkişi də gərəkdir
Hava, günəş, su təkin.
İki sevən könülün
Birlik duyğusu təkin.

(Səhnənin bir tərəfindən 7 qız, bir tərəfindən 7 oğlan yüksək səviyyli geyimlərdə səhnəyə daxil olurlar. Ana onların ikisinin orta xəttində dayanır.Üzünü tamaşaçılara tutaraq deyir)

**Qadın:**

Axır ki,Sultan kişi
Gəldi insafa, gəldi.
Gəlinlər ocağıma
Xoş gəldi, səfa gəldi.

Sevincimdən sözlərim
Döndü şeir sətrinə.
Qarışmayaq gəlin biz
Tanrının işlərinə.

Hər gəlinin öz yolu,
Gedənin öz yolu var.
Tanrı verdiklərinə
Qarışmasın adamlar.

Biz qarışdıq gör nələr
Qəlbimizi qanatdı.
Lap cənnət olsa belə
Qadınsız nə həyatdı ?!

Avqust 12-17.08.2006

# MƏLƏKLƏR VƏ ŞEYTANLAR

(Bir pərdəli min sifətli faciə)

(Səhnə açıqdır. Göy üzünü həmişə yer üzünə açıq olan üzü kimi.Səhnə arxası pərdə bir ilğım içində.Səhnənin önündə hər iki tərəfdən güllü-çiçəkli səbət asılıb. Səbətlərin birinin üzərində «Mələk», digərinin üstündə «Şeytan» yazılıb.Və hər iki səbətə uyğun olaraq səbətlərin altında müasir idarə stol və stulları qoyulub hər ikisinin üstündə də son istehsal olan kompüterlər. Kompüterlərin arxasında bir-birindən yaraşıqlı iki gözəl qız. Dədə-babadan bizdə belə qızlara deyiblər beli üzükdən keçər.Sözə mələklər kompüterinin arxasında əyləşən qız başlayır)

**Mələk:** Həyat gözəldir.Kim nə deyir desin. Həyat bütün ziddiyətləri ilə gözəldir. Doğulan gündən son mənzilinə qədər insanın başına nələr gəlmir. Bir ömürdə nələr görmürük. Həyatın acısı da şirini qədər dadlıdır.Əslində bu dediklərim yeni fəlsəfə deyil. Hamıya məlum gedişlərdir.Hər kəs özü də bilmədən böyük bir ömür yolu keçir.Mən heç kimlə mübahisə etmək fikirində deyiləm. Bu mənim qənaətimdir. Mən insanları sevirəm. Onların yaxşı günlərini gördükcə sevinirəm. Pis günləri məni sarsıdır.

(Şeytanlar kompüterinin arxasında əyləşən qız bırdən ona tərəf baxır,kinayəli halda gülümsünür. Hərdən də dərin fikirə gedir. Kompüterin düyməsini sıxıb ayağa qalxır,kreslosunu kənara çəkir və səhnənin önünə, səbətin altına gəlir. Və üzünü səbətə tutaraq):

**Ş.qız:** Bizi idarə edənlər var. Hər kəs doğulandan öz günləri ilə dünyaya gəlir. Baxın, bu mələk qızın dediklərini mən heç vaxt dilimə gətirə bilmərəm.

Ona görə ki,onun istədiklərini mən heç vaxt istəyə bilmərəm.Yaxşılıq sözü eşidən də ödüm ağzıma gəlir. Mənim və mənimkimilərin öz şakərləri var. İndi mələk qız öz istədiklərini internetdən çıxarsın,mən də öz istədiklərimi. Görək kim daha güclüdür? Mələklər, ya şeytanlar. Mən sözü mələk qıza verirəm. Qoy ilk söz onun olsun. Geyimi də ağ rəngdədir. Deyək ki,lap şahmat taxtasındakı ağ fiqurlar kimi. Başladıq.( Üzünü tamaşaçılara tutur) Yaxşı-yaxşı fikir verin. Sonra əsil qənaətə gələrsiniz və görərsiniz ki,İnternet sayıtımızda mələk çoxdur,ya şeytan. Söz mələk qızındır.

**M.qız:** (Ədəb-ərkanla şeytan qızı sona kimi dinləyir) Qəribədir heç bilmirəm bu şeytan niyə mənə söz verir.Birdə nə fərqi,mən də ona söz verə bilərdim,o məndən irəli düşdü.( Kompüterin arxasına keçir.Açılış düyməsini sıxır.Bir neçə saniyədən sonra salona səs gəlir): Mən Adəm peyğəmbərin saytındanam. Siz məni heç vaxt görməmisiniz.Ancaq elə bir bəşər əhli tapılmaz ki, məni tanımasın. Mən də sizin hamınızı tanıyıram.Sizin hər birinizin üzərində mənim çox böyük haqqı-sayım var.Təsadüfü deyil ki,sizin hər birinizə Adəm övladı deyirlər. Mən həmişə cənnət adamı olmuşam.Bir zaman Həvva deyilən bir xanım da mənimlə birlikdə cənnətdə idi. Cənnət bağlarını hələ bu ilki kimi şaxta vurmamışdı. Cənnət almalarının ətrindən kainat bühuş olmuşdu.Belə söhbət var ki, guya məni Həvvanın günahı üzündən cənnətdən yer üzünə qovublar. Bu yalandır, yanlış bir fikirdir. Mən çox fikirləşmişəm, siz də fikirləşin. Bir yerdə,elə deyək cənnətdə nə qədər yaşamaq olar.Çox da ki,hər şey var,deyək ki,indi sizin fikirləşdiyiniz kimi,hər şey xudmani. Bəzən bu xudmanilik də adamı bezdirir. Fikirləşəndə ki,sabah yenə bu günü təkrarlayacaqsan adamın özünə yazığı gəlir. Mən o vaxt istəsəydim Həvvanı qoymazdım cənnət almalarını yesin. Ancaq özüm onun maraqlarına göz

yumdum. Həvva cənnət almalarını yedi və bizi birlikdə cənnətdən qovdular. Tanrımın qəti fərmanı idi: Qovulsunlar! Və biz cənnətdən əbədilik qovulduq.Və bu fitvaya qətiyyən narahat deyiləm. Gəldik yer üzü deyilən bir məmləkətə.

Mələklər şahzadəsi söhbətin bu yerində düyməni sıxdı. Kompüter sayıtının səhifəsini dəyişdirdi. Yenidən Adəm peyğəmbərin səsi eşidildi.

**Adəm peyğəmbərin səsi:** Gəldik yer üzü deyilən bir məkana. Burada elə bir gözəllik varıydı ki, cənnət onun yanında bir kor qəpiyə dəyməzdi. Göz işlədikcə gözəlliklər,yaşıllıqlar,çaylar, dənizlər, şirin Sulu bulaqlar, həyatın bütün qaynaqları burada cəm idi.Əsil cənnət bura idi.Buraya gəldikdən sonra istər-istəməz Həvvaya vuruldum. Onun ağlına,dərrakəsinə qibtə etdim.Sən demə cənnət deyilən o məkanda biz əsil cəhənnəm görmüşdük. Həvva mənim məmnunluğumdan istifadə edib yer üzündə bütün hakimiyyəti ələ aldı. Və həmin vaxtdan yer üzü deyilən bir cənnətməkanda qadın hökümranlığı başladı.

**M.Şahzadəsi:** Ya Adəm,icazə verin başqa bir sayıtdan gələn səsləri dinləyək.

**Adəmin səsi:** Bütün sayıtları çevirsəniz də mənim səsim gələcək qulaqlarınıza.Sözümü kəsməyin, məni sona kimi dinləyin. Cəmi bir neçə dəqiqədən sonra sözü bütövlükdə sizə verəcəyəm və sizi sona kimi dinləyəcəyəm. Buna mənim səbrim çatar.Necə ki,Həvvanın hərəkətlərindən sarsılmadım. Bir də sizinlə xeyli sonra görüşəcəyik. İlk kərə mənim sayıtımdan istifadə etdiyiniz üçün sizə minnətdaram.(Həmişə çuğulluq etməyə alışan,onun-bunun sözünü kəsən şeytan sayıtının bələdçisi əsil sözünü deməzdən qabaq müasirliyə söykənərək Adəm peyğəmbərin ünvanına bir neçə şirin söz söylədi ki,bu sözlər Adəm peyğəmbərin heç nəyini belə tərpədmədi ):

**Ş.sayıtındakı qız:** Adəm peyğəmbərinin səsini eşitdikdcə adamın ruhu yüngülləşir. İstər mələk olsun,istərsə şeytan biz hamımız bəni-Adəm övladlarıyıq. Bunu etiraf etsək də,etməsək də belədir. Həvvanın cənnət alması yedikdən sonra cənnəti korlaması və buna görə də Adəmin də ona qatılıb cənnətdən qovalanması Həvva üçün xoş bir xatirəyə çevrilməsi də Adəm üçün əslində heç nə dəyişdirməyib. Adəm cənnətdən çıxsada dünya binə olunandan peyğəmbərlik statusu qazanıb. Həvva isə almanı yeyib cənnətdən qovulan bir qadın kimi yaşamaqdadır. Mənim sayıtımda Adəmdən daha çox Hvva haqqında məlumat var. Dünyanın qəribə işləri var. Bəlkə elə Həvva bir zamanlar adına yer kürrəsi dediyimiz bu yerdə yaşayıb. Bəlkə elə bu yerdə Həvva nə isə yeyib onu ulu tanrı göy aləminə sürgün edib. Və gedib göy aləminə Adəmlə rastlaşıb. Həvvaya, bu kimsəsiz qadına qəmxar olub. Onu göy cisimlərinin niyyətlərindən qoruyub. Axırda nə olub.Cənnət almalarını yeyib və tanrının qəzəbinə düçar olur. Tanrı da Adəmi də qoşub ona göndərib,başqa plentə.Yəni yerə,bizim yaşadığımız bu kürənin ilk sakinləri olub Adəmlə Həvva. Gəlin birlikdə Həvva xanımın sayıtından bəzi səsləri dinləyək;

**Həvvanın səsi:** Cənnətdən qovulduğuma peşman deyiləm. Cənnətdəki almalar hər gün mənim üzümə gülürdü. Yedim onları. Cənnətdən qovuldum. Əsil cənnət buradır. Yer kürrəsi. Ancaq bir məsələ məni narahat edir. Gərək Adəmi mənə qoşmaaydılar. O qədər gözəl insanı da mənə tay tutdular. Əslinə qalanda o da yer üzünə gəlişindən məmnundur. Təktənha orada neyləyəcəydi? Gəldik, sevdik, sevildik. Yer üzü boyda bir cənnət yaratdıq.İndi insanlara baxanda sevinjdən gözlərim yaşarır. Kim istəyir xahiş

etsin onu cənnət almalarının yanına göndərsinlər. Yer mənim cənnətimdir.

**Ş.sayıtındakı qız:** Bu səslər Həvvanın ilk sayıtından idi. Sonrakı dövürlərdə internetə daxil edilən sayıtlarındakı giley-güzarı eşidəndə inana bilmirsən ki,Həvva ana bu qədər dəyişilə.

**Həvvanın səsi:** Biz yer üzünə gələndə nə bir şəhər varıydı, nə bir kənd varıydı. Hamısını öz əlimizlə qurduq. Dənizlər keçdik, okeanlar adladıq. Cənubdan Şimala,Şərqdən Qərbə yol saldıq. Sevdik,sevildik. Züriyyətimiz artdı,çoxaldı. Yer üzünün hər tərəfində məskunlaşdıq. Bəni-Adəm övladı tutdu yer kürrəsini. Məni indi danışdıran şeytan kompüterinin aparıcısı olsa da belə mənim insanlara məhəbbətim Adəmə məhəbbtimdi. Ancaq bu günlər onlara baxdıqca qanım qaralır. Yer üzündə yaşamaq yaxşılaşdıqja ona düşmənlər də çoxalır.

(Pauza:musiqili keçid)

Deyilənlərin isbata ehtiyacı yoxdur.

**Kompüterdən səslər:** Dünyanın bütün işlərinə, xeyrinə də, şərinə də şərik olduğumuz üçün bir məmləkətin adamları öz ürək sözlərini kompüter sayıtları vasiləsilə sizə çatdıracaq.

(Səhnənin hər iki tərəfindən adamlar görünür.Son dəbdə geyinmiş qadınlar və kişilər) Sağdan və soldan səhnəyə daxil olurlar. Və özlərini təqdim etməyə başlayırlar. «Mənim adım insandır. Mən bu şəhərin və bütövlükdə bu məmləkətin sahibiyəm. Yəni bu məmləkətin taleyini mənə tapşırıblar. Mənim haqqımda öz bildiklərim də, bilmədiklərim də İnternet sayıtımda vardır. Kim istəsə haqqımda hər şeyi öyrənə bilər».

(Şeytanlar kompütürünün yanında dayanan cavan və həddindən artıq şux görünən birisi dodaqaltı mızıldanır, mikrafon onun səsini yayır):

-Əlbəttə sənin haqqında biz çox şeylər bilirik.Hələ çox şeylər də öyrənəcəyik. Bu qara gözəlin adı ilə hələ çox şeyləri biləcəyik.

(Başqa birisi bir ayaq boyu irəli çıxır və üzünü tamaşaçılara tutur)

-Mən də insanın komandasındanam. Məqsədimiz insanlara kömək etmək,onlara məhəbbətlə yaşamaq, darda qalanlara əl tutmaqdır.

(Özünü bir az irəli salmaq istəyən başqa birisi qara geyimli qızın işlədiyi kompütürə can ata-ata danışır):

-Əcəb əl tutanlardır. Əllərində əlacları olsa damların başını dibindən sıyırarlar.İndi camaat qarşısında gör necə ötkəm-ötkəm danışırlar. (əyilib qızın qulağına deyir)

-Bu danışanın internet sayıtı varmı ? (Qız çiynini çəkir.Axtarmaq lazımdır) Komandaya daxil olmaq hələ o komandanın ideyalarına tam sədaqətlə xidmət etmək demək deyil. Adam var ki,min bir yolla,jiddi –cəhtlə özünü oda-közə vura-vura lazımı bir komandaya daxil olur. Bir müddət sədaqətlə xidmət edir və sonra başlayır öz xislətinə uyğun hərəkət etməyə. Belə adamlar onların da içində var,bizim də. Bizim komanda şeytanlar komandasıdır.Bizə gələnlərin hər biri başa düşməlidir ki,bizim ən düz yolumuz şeytan yoludur. Biz qarşı tərəfin dediklərinin tam əksinəyik.Bizim içərimizdə şeytan donlu mələklərə əbədiyyən yer olmamalıdır. Bizim müqəddəs şüarımız belədir.

(Ağ qızın işlədiyi kompüterin yanındakılardan biri özünü təqdim edir):-Mən də insan komandasındanam. Ancaq düzünü desəm ürəyim şeytan kolmandasının yanındadır.Yaxşə insan rolunu oynmaqdan daha bezikmişəm.Bu yer mənim yerim deyil. Yaxşıların içərisində artıq darıxdım. Bir yol tapıb öz xislət doslarımın yanına qayıdım.

(O bu sözləri dedikcə gözü şeytanları məhəbbətlə süzməkdə idi)

-Bax,dünyanın bütün şirinliyi başımdan tökülür. Çatışmayan heç nəyim yoxdur. Saraylarım,altımda yatırımlarım, son marka maşınlarım,şəhərin müxtəlif yerlərində evlərim və məni sevənlər və mən sevdiklərim. Amma yenə xoşbəxt deyiləm.

(Qara qızın tərəfindəkilərdən digəri danışana elə diqqətlə qulaq asırdı ki,sanki kişi ağzında qızıl xırdalayırdı. O sözünü qurtaran kimi elə bil kişinin yarasının qaysağını qopardılar)

-Daha mən də bu işdən bezikmişəm. Ürəyim istəməyə-istəməyə elə bir işlə məşğulam ki! Vallah, məni anam doğanda xeyirxah işlər üçün doğub. Mərdimazarçılıqla mənim heç vaxt İşim olmayıb.İndi gör nə gündəyəm özüm öz əlimlə özümü bəlaya salmışam. Nəyin bahasına olursa olsun mən öz yerimi tutmalıyam.Verilən tanışlığın müddəti də bitmir ki,bitmir.

(Qara qızı danışana elə tərs-tərs baxdı ki,o susmağa məcbur oldu)

(Pauza,sözə mələklər tərəfindən kompüterdə işləyən ağ geyimli qız başladı.O bir qədər tərəddüddən sonra dedi)

-Cənab baş direktor,sizin çağırışınıza əsasən bunlar gəliblər. Müşavirə zalı, nazirdir. Başlaya bilərsiniz. Sizin göstərişinizlə hər iki İnternet sayıtında çıxış hazırdır.

**Baş direktor:** Çox yaxşı. Ancaq müşavirə zalı bizə lazım olmayacaq.Bizim bu xalqdan gizli heç nəyimiz yoxdur.(Baş direktor köksünü ötürdü.Duranları bir də diqqətlə nəzərdən keçirdi.Bəlkə sizin xalqdan gizli nəyinizsə var.Artıq o vaxt deyil.İndi bizim İnternet sayıtında xüsusi səhifələrimiz var. «Örtülü bazar, dostluğu pozar»misalı bəlkədə indii daha güclü və

daha dolğun səslənir. Artıq hər kəs öz eyibini özü islah etmək barədə fikirləşməlidir.Bax,burada,bu səhnədə qurulmuş bu müasir texnika bir gün biz danışmasaq belə fikirlərimizi qarşımızdakılara deyəjək. Ona görə hələ gec deyil.Olduğumuz kimi. Görünmək vaxtı çatıb.Künjdə bucaqda baş gizləməyin yeri yoxdu.Artıq elə bir zamanda yaşayırıq ki, heç kimi miyanə fikirlərlə çaşdırmaq olmaz.

Mən nə deyirəmsə hamınız mənə baş üstə deyirsiniz. Elə bilirsiniz bu qədər mütilik məni məmnun edir. Xeyir, məmnun etmir. Sizin hamınız,içimizdən asılı olmayaraq,hamınız mənimlə birlikdə işləyirsiniz. Hamımız bir-birimizi yaxşı tanıyırıq. Hamınız rəngli karandaş komplektinə bənzəyirsiniz.Qırmızının bir neçə rəngi,. sarının,yaşılın ,narınjının,mavinin və digər rənglərin hər birinin bir neçə rəngi var. Xalis sizin kimi. Rəngbərəng, ala-bula. Təkcə qara və ağ rəng dəyişilməzdir. İstər inanın,istər inanmayın.Sözümü bir qədər artıq deməyə məcburam.Ona görə ki,hərənizin fikiriniz bir yerdədir. Fikiriniz cəm olsun deyə sizə günlərlə bu yeniliyin arxasında əyləşib(O əliylə kompüteri göstərir) öyrənmək lazım gələcək. Elə düşünməyin ki, hərənizin bir,iki diplomu var ağzınızla quş tuta bilərsiniz. İçərinizdə bu işi bajaranlar da var. Mənim İnternet sayıtıma vırus buraxanlar da sizin içərinizdəndir. (Baş direktor tamaşaçılarla daha yaxın məsafəyə gəlir.Üzünü onlara tutur) Əzizlərim,mən demirəm ki, dünyanı dağıtmışam,o qədər işlər görmüşəm ki,hamı heyran qalır. Yox, gördüklərimiz görmədiklərimizin yanında hələ heç nədir. İndi mənim İnternet sayıtıma virus buraxırlar.

(Qonşu kompüerdə işləyən qız başını aşağı salıb, ciddi-cəhdlə internetlə nəyisə axtarır. Baş direktor söhbətinə davam edir)

-Belə işlər mənə təsir etməz.Mən özümü təqdim edəndə, dedim mən insanam.Və bu adla da yaşayıram.
(Başqa tərəfdən gələn səs):

-Hələ bilmək olmaz necə yaşayacaqsan,insan kimi, yoxsa ?... Dünyanı yığıb ovcuna, indi də deyir ki, bəs insanlardan ötəri ürəyim gedir.Bir buna bax.Sən yanındakıları aldada bilərsən.
(Başqa tərəfdən gələn səs):

-Bu pıçı-pıçı çox evləri yıxıb,hələ nə qədər də evlər yıxacaq.Qoymurlar ki,kişi ağzında qızıl kimi söz xırdalayır sözünü desin. Allah,allah bu adamlar niyə belə olublar.Bu adamlar niyə bir-birlərini istəmirlər. Baxın səhnədə cəmi beş-on nəfərlik üzümüzü çevirən kimi bir-birimizin kölgəsini qılınjlayırıq.Qəribə millətik vallah. .

**Baş direktor:** Hər kəsin bir ideyası var. Mənim də insanlara öz baxışım var. İnsanları sevirəm.Bu sevgi kor-korana deyil,onların işinə,əməlinə görədir. Hərənin qiymətini özünə verəndə həmin gün sevincimdən qəhərlənirəm,kövrəlirəm.
(Şeytan kompüterindən səslər):

-Düz deyir,çox kövrəkdir. Onun uşaq kimi ağladığını görmüşəm. Onun İnternet sayıtının bilmirəm birinci,ya ikinci səhifəsindədir. Ancaq bizim içərimizdən də ona işləyən var. Onun casuslar bizim saytları artıq pozmaq üzrədirlər. Düzdür biz də onun sayt səhifələrində çox əməliyyatlar aparmışıq. Elə bir gün olmaz ki,o səhifələrə yeni vüruslarla təsir etməyək. Okeanın o tayından göndərilən vüruslar isə daha təhlükəlidir. Onlar bir başa çiyindəki mələklərin iş fəaliyyətinə təsir edir.Bizim baş direktorun kövrək insan olduğundan istifadə edənlər onun çiynindəki xeyir,şər mələklərinin yerini dəyişmək istəyirlər. Göndərilən vüruslar bəzən öz təsirini göstərir.

**Baş direktor:** Mənim kövrəlməyim də, bəzən məni boğması da məni sevindirir. Düşünürəm ki,nə yaxşı insanlığımı itirməmişəm ! Nə yaxşı,nə yaxşı. (O bu sözləri deyə-deyə kompüterdə işləyən ağ geyimli qıza yaxınlaşır) İcazənizlə mən öz saytımı özüm tapım. (O kompüter arxasında əyləşib düyməni sıxır,internetə daxil olma əməliyyatına başlayır.O səhifəsini tapan kimi,diqqətlə ona baxır və həyəcanla dillənir). Bu nədir birinci səhifəm tamamilə pozulmuşdur. (O oturduğu yerdən danışmağa başlayır) Nə özüm haqqında,nə fəaliyyətim barəsində,nə də son illərdə gördüyüm işlərdən əsər-əlamət yoxdur. İndi mənim barəmdə kimsə bir şey öyrənmək istəsə gərək hər şeyi sıfırdan başlaya. Doğulduğum tarix belə internetdən çıxarılıb. Bu da sizin mənə məhəbbətiniz. İnamınız,etibarınız. (Hər iki tərəfdən olanlar başlarını aşağı dikiblər)Tutaq ki, mənim həyat tarixçəmin sizə heç bir isti-soyuğu yoxdur.Bəs bizim birlikdə gördüyümüz işlər necə ? Onların da sizə heç bir dəxli yoxdur ?Bir də xəbər alsam hamınız deyəcəksiniz ki,əstəffurullah deyin,necə yəni dəxli yoxdur. Biz sizin gördüyünüz işlərin yolunda canımızı qoyarıq. Biz sizə sədaqətlə qulluq edirik. Biz sizin hesabınıza özümüzü adam hesab edirik. Bəh,bəh, indi bu boş İnternet sayıtı qarşısında nə qədər etiraflar eşitmək olar.

(İnkinci kompüterin yanından səs):

-Direktorumuz qəribə danışır e... Elə bil oturub səhərdən axşama kimi onun sayıt səhifələrini güdəcəyik ki,onu pozmasınlar. Bizim çoxumuzun elə bir texniki savadımızda yoxdur ki, bilək onu necə yazmaq,necə pozmaq olar.

(Sayıt səhifəsinin pozulduğu üçün qanı qaralan baş direktor gələn səsə qarşı çevrildi):

**Baş direktor:** Deyəsən mənim sözümün qarşısında söz güləşdirən var axı. Neynək.(Direktor ayağa

qalxır.Yenə də gəlib tamaşaçılarla üzbəüz dayanır) Məni yandıran o deyil ki,mənim sayt səhifəmi pozublar. Bu ola bilər.Bilərəkdən də. Məni yandıran odur ki, deyirəm mənim İnternet saytım pozulub biriniz qımıldanmırsınız. Gördüklərimiz işlər barədə dünyanın hər yerində məlumat almaq mümkün idi. İndi elə bilki biz yoxuq.Qonşularımız az qala hər bir evdən internetə qoşulurlar. Olmayan tarixləri,zəbt etdikləri torpaqlarımız bərədə elə şirin-şirin yalan uydurub dünyanın qulaqlarına deyirlər ki,adam məhəttəl qalır.Biz neyləyirik olub qalanlarımızı silib təmizləyirik ki,tarixə bizdən heç nə qalmasın.

Baxın mən işlədiyim məmləkətin və ya bu məmləkətdə bir müəssisənin, bir fermer təsərrüfatının başçısıyam,ya elə götürək ən böyük vəzifəlisiyəm.Axır ki,bu məmləkətin vətəndaşıyam. Və canımla,qanımla bu torpağa xidmət etmək istəyirəm.Daha qabağımıza daş hellətmək niyə.Sözün var,birlikdə düşünək, problemlər varsa birlikdə həll edək. Qonşu dediklərimiz hələ keçmiş hökümətin vaxtında nə istehsal edirdisə birinci keyfiyyətinə fikir verirdi. Biz də onu alıb ləzzətlə yeyirdik və onlara tərif deyirdik. Ona görədə Böyük Sovetlər Birliyi vaxtında Moskvada yaşayan ermənilərin mərkəzi komitəyə açılan 33 dövlət telefonları olduğu halda bizim,yəni Azərbaycanlıların belə 2 dövlət telefonu varıydı.İndi heç biri də yoxdur.Heydər Əlirza oğlu Əliyevin və Kərim Kərimovun dövlət telefonlarına indi başqa dillər də cavab verirlər. Bu qonşu dediyimiz ermənilərdən daha çox içimizdəki nadanları sevindirdi. İndi mən durum deyim ki,mənim ünvanıma daş atılıb. Qoy atılsın. Deyir adamın malı bir yana gedir, dini-imanı min yerə. Mən heç də o fikirdə deyiləm ki, mənə sataşanlar özümüzünkülərdi. Yox.qətiyyən bu fikirdə deyiləm.Amma bir onu bilirəm ki, millətimizin fərqlənən adamlarını qoruya bilmirik.Yenə ən yaxşı misal qonşu

dediyimiz,torpağımızı işğal edən erməni. Siz elə fikirləşməyin ki,onları tərif edirəm. Bu saxta adamlar qonşu dövlətlərin sərvətini yağmalayaraq Matedaran kimi nəhəng muzey yaratmışlar. Tariximizi, xalımızı-xalçamızı bir yöndəmsiz İrəvan palazına dəyişmişik. Bir məşhur xalça rəssamımız Lətif Kərimov öz əliylə toxutdurduğu Azərbaycan xalçasını Ermənistan muzeyində görəndə onu infarkt vurdu. Allah rəhmət eləsin.

**Yandan səs:** Bizim içimiz belədir. Yaxşı oğullarımızı öldürürük sonra ağlayıb ona tanrıdan rəhm diləyirik. Amma unuduruq ki,bir dəfə tanrıdan özümüzə, bu dirilərə bir rəhmət diləyək.

**Baş direktor**: Mən ədəbiyyat adamı olmasam da onun nə demək olduğunu yaxşı bilirəm və onun yaxşısını.pisini qiymətləndirməyi bacarıram. Elə xalqlar var ki,onun ədəbiyyatında bizim bir bayatımızın gücü yoxdu.Di gəl ki,özlərini elə təqdim edirlər ki,adam mat qalır. Deyək,yenə qonşumuzu. Bir Sayad Novaları var. Yazdığı 202 şerin 128 Azərbaycan türkcəsindəndir. Dilimizin aliliyinə baxın. Deyirlər Şota Rustaveli də «Pələng dərisi geymiş pəhləvan» dastanında türkcə yazıb.Bunu deməkdə məqsədim o deyil ki,kimisə təbliğ edək,məqsədim odur ki,özümüzü bir az da ətraflı tanıyaq.Biz olanlarımızı qoruyub saxlamaq üçün az iş görürük. Özümüzü təbliğ etməyi bacarmırıq və bəlkə də bunu özümüzə qısqanırıq.

**Duranlardan biri:** Cənab baş direktor əslində sizin dedikləriniz tamamilə doğrudur. Biz ilk növbədə özümüzə qiymət verməliyik.

**Baş direktor** (onun sözünü kəsir): Yaxşı ki, bunu etiraf edirsən. Özümüz özümüzə qiymət verməliyik (Bir az ironiya ilə) Sən necə,özünə qiymət qoya bilirsənmi? Ötən parlament seçkilərini yadına sal. Respublika parlamentinə deputatlığa öz namizədliyini irəli sürmüşdün. Mən sənin imkanlarını qiymətləndirərək

onda səni yanıma çağırdım,və nə dedim.Hə nə dedim,de də, de görüm?!

**Əvvəlcə danışsan:** Siz dediniz ki, ay kişi, özünü yüngülsaqqal eləmə. Vaxtını,vəsaitini havayı yerə xərcləmə. Sənin öz ailə üzvlərinin hamısı belə sənə səs verməyəcək.

**Baş direktor:** Ay sağ ol,atan oldu rəhmətlik.O seçkidə qutudan necə çıxdın. İki cüt,bir tək. Ay kişilər, öz ailəsində səkkiz səs verəni olduğu halda bu namizədə, cəmi beş səs verilmişdi. Söz eşitmədi,öz imkanlarını qiymətləndirmədi. Axır nəticəsi nə oldu. O oldu ki, dost tanış içində biyabır oldu. Soruşuram ki,ay filankəs, sən bu xalqa nə etmisən ki,xalq sənə səs versin. Ayrı cür səslənməsin bir daşı daş üstə qoymamısan, ancaq ürəyindən Sina dağının sahibi olmaq keçir.

**O biri tərəfdə duranlardan biri:** Bəs nə yaxşı bu kişini işlədir görəsən? (Onun sözünü eşidirmiş kimi baş direktor yenidən sözə başladı): İndi məndən xəbər ala bilərsiniz ki, nə yaxşı bəs bax bu adamı öz komandamda işlədirəm? Əgər belə bir sual versəniz, çox haqlı iş görmüş olarsınız. Bu adam öz işini bacarandı,onu da gərək göstərəsən ki,bax bunu belə elə,onu elə. Buyurulmuş işi səliqəli görməyi bacarır. Yazı-pozusu da yaxşıdı. Bir sözlə maşın kimidi.Və hər ağlı kəsən onun İnternet sayıtındakı səhifələrini bir dəqiqənin içərisində poza bilər.(Əvvəl danışan kişi nəsə demək istəyəndə direktor onun sözünü yenə kəsdi): Narahat olma, təkcə sən deyilsən. Yanımızdakıların da əksəriyyəti sənin kimidir.Sən tək deyilsən, bəli. Bizimlə bu gün eyni sırada dayananların içərisində elələri var ki,üç çağırış dalbadal parlament üzvü seçilib. Soruşun onlardan bu on beş il müddətində xalq vəkili kimi heç olmazsa bir seçicinin işinə yarayıbmı ?! Əsla yox! Buna onun heç bir imkanı olmayıb, bəlkə özü

də seçicilərini görəndə fikirləşir ki,onlara nə desin. Baxın biz bir müəssisənin,bir istehsalat kollektivinin üzvləriyik. Bir süfrədən çörək yeyirik. Xeyirimiz, şərimiz də birdir. Ona görə də sizin qarşınızda hər nəyimiz varsa etiraf etməliyik.Bəzən çox qapalı iclaslar keçirmişik.Heç birimizin xəbəri olmayıb ki,nə demişik, nə fikirləşmişik.İndi artıq o zəmanə keçib. Sizin hər birinizin qayğısı bizim qayğımız olmalıdır. Bu dediklərim üz-gözündən biraz sovet təbliğat maşınının məhsullarına bənzəsə də mənim gerçək sözümdür. Əslində mənim bu gün sizinlə bu görüşüm bir təsadüfün nəticəsi olsa da məni qəlbən sevindirir. Müşavirərnizi internet mərkəzimizdə keçirməyimizin bəlkə də sizə müəyyən dərəcədə xeyri dəyə bilər. Biz artıq texnikasız ötüşə bilmərik. Köhnə baqajla nə qədər işləmək olar. Burada elə adam var ki, institutu bitirdikdən sonra bir nimdaş qəzet də oxumayıb, nəyinki öz ixtisasına uyğun kitab və jurnal. Çoxunun beyni quruyub. Nə deyirsən iki söz bilirlər: «Bəli», «Baş üstə» Heç birinin öz fikiri yoxdur.

**Yerdən səslər:** Bir zamanlar tələb belə idi.Biz də belə öyrənmişik.Xasiyyətimizi dəyişməyəcəyik ki ?!

**Başqa bir səs:** Qəribə işə düşmüşük e, «Bəli» deyirik söz eləyirlər, «Xeyir»də deyə bilmirik.Başımıza haranın daşını tökək bilmirik.

**B.direktor:** Öz-özünüzə gileylənməyin.Sözünüz varsa açıq danışın, qoyun eşidənlər sizi əməllicə dinləsin. Gör neçə illərdir beləcə xısın-xısın danışmısınız. Bir kimsə bilməyib ki,nə deyirsiniz. Sözünüz var, söz danışın.Təkcə «bəli» «baş üstə» deməklə iş aşmır axı?! Çoxillik təcrübəmdən belə yəqinləşdirmişəm ki, ən yaxşı iş görüləndir.Yəni görülməyən iş çürük olur. Görülən iş açılmamış kəndir kimidir. Açarsan günə verərsən bir az da bərkiyər, bir az da bərk olar, açmarsan çürüyər, dartarsan qırılar.

**Yandan səs:** İlk baxışda çox şeyi dartmaq mümkün deyil. Ancaq,hər hansı bir şeyi dartmaq lazım gələndə fikirləşməli olursan,fikirin özünü dartanda içindən min bir fikir çıxır. Ona görə də deyiblər ki, yüz fikir bir borcu ödəmir.

**Yandan səs:** Ə,nə tutmusan borc-borc deməkdən, kim öz borcunu yerinə yetirdi biz qaldıq.Adam doğulandan ölənə kimi hamı elə bilir ki,qarşısındakı ona borcludur. Ancaq düşündükcə bu qənaətə gəlirsən ki,biz hamımız bir can borcluyuq. Bu borcu da hər kəs bir yolla qaytarır.Geci-tezi var ancaq.

**Başqa bir səs:** Ə,filosofluq etmə.Kişi ağzında qızıl kimi söz xırdalayır.Bizim hamımız elə bu kişiyə borcluyuq ki,yığıb başına bizə bir tikə çörək verir. Bizim qibləmiz də odu,primiz də. Yoxsa deyək ki,kimə isə borcluyuq.

**Başqa bir səs:** Allahımıza qurban olum.(O üzünü tamaşaçılara tutaraq)Ay qardaşlarım,bacılarım! Bu yaltaqların əlindən növbə tapa bilmirik ki,bir-iki ağız da biz yaltaqlanaq. Ə,bunlar nə təhər adamlardı ? Baş direktorumuz deyir ki,biz, yəni bizim hamımız son on beş iyirmi il ərzində bir vərəq təzə söz oxumamışıq. Bax,bunu da mən deyirəm son on beş-iyirmi il ərzində bizim əlimiz kağız cinsindən puldan başqa bir zada dəyibsə bizim zatı-südümüzə lənət. Xəbərləri televizordan öyrənirik. Vəssalam.

(Baş direktor fikirli görünür. İki kompüter arasında vərgər edir. Gəlib qara geyimli qızın oturduğu kətilin yanında dayananda qız ayağa qalxır.Yerini baş direktora vermək istəyir.O qızın çiyininə toxunur və öz yerində oturmağı göstərir).

**Baş direktor:** Əyləşin sizin işiniz çoxdur.Sizdən bir ricam var. Bunların (əli ilə səhnədikiləri göstərir) haqqında bilgilərinizi mənim sayıtıma köçürərsiniz. (Qara geyimli qız baş üstə deyib yerində əyləşdi). Siz

elə bilməyin ki, mən onlar haqqında sizdən az bilirəm. Yox, məlumatım siz qədər olmasa da xeylidi. Amma texnika gündən-günə dəyişildiyi kimi adamlarda gündən-günə dəyişirlər. Texnikanı kim icad edir. İnsan. Bu gördüklərimizin hər biri icad edilməmiş mürəkkəb texnikadır. Hər birinin qulaqları darı dənliyir. Eşitmək məqamında kar olmağı üstün tutan qulaqları dünyanın ən işlək radiostansiyaları səviyyəsində qəbuledicilik marağına malikdirlər. Kim nə edir, kim hara gedir,kim haradan gəlir. Bunların hərəsini gündə bir kərə görən dünyanın bütün tərəfindən məlumat alır.bunlarda mənim xobbimdi. Bunların içərisində iki qardaş da var,onlarda bir-birindən deyir, əlbəttə yeri düşdükcə. Vəzifənin bir növü xarekteridir.(Baş direktor bir qədər susur) Elə məsələlər var ki,onları demək olmaz,ancaq deməsəm də bir eyhamdan başa düşərsiniz.Siz bu vəzifə adamlarını o qədər də qınamayın,artıq onlar vəzifədən çıxarılmaq qorxusu altında yaşayırlar.Ona görə də bu təhlükəni özlərindən uzaqlaşdırmaq üçün dəridən-qabıqdan çıxırlar.Çoxları da deyir ki, allah mənim ömrümdən kəsib vəzifəmə versin. Belələri yaxşı bilir ki,onların ömürləri vəzifələrinin ömrü qədərdir. (İnternet sayıtından siqinal.Baş direktor iki kompüterarası gəzişir. Öz özünə) Kimi vəzifəyə irəli çəkirsən özü haqqında, ancaq özü, özü haqqında fikirləşir. Neyniyim, oğluma-qızıma gün ağlayım.Varım-dövlətim artsın. Bir adam demir ki,gəlin əl-ələ verək quraq-tikək, yaradaq bizdən sonra yadigarımız qalsın. Sonralar baxanda ürək genişliyi ilə deyək ki,bax bu işləri biz görmüşük,bunlar bizdən yadigardır. (O üzünü tamaşaçılara tutaraq) Sizi mən özüm kimi tanıyıram,siz də məni özünüz kimi tanıyırsınız.Biz nə qədər çalışsaqda bir-birimizi aldada bilmərik.Bəzən adam vəzifədə olmayanda o qədər ehtirasla danışır ki! Nə bilim əgər məni bu vəzifəyə qoysalar belə edərəm,nə bilim nə

işlər görərəm.Elə ki,qismət olur.Dönür olur bunlardan biri.(o əli ilə səhnədəkiləri göstərir) Baxıb görür ki,ötkəm danışanlar nə günə qalır.Bəzən adam dikbaş deyilən adama qəlbində rəğbət bəsləsə də istər-istəməz ona qarşı qəlbinin lap dərin yerində gizlin,həm də xoş olmayan bir hiss olur.Kim olursa olsun özündən qabağa keçənlərə qarşı bir dabanqırma olur. Mənim də dabanımı çox yaralayanlar olub.İndi hamı mənim arxamdan yox, mənim üzümə doğru gəlirlər. Özü də dabanbasma ilə. Mən onların sifətini açıq-aşkar görürəm. Onların çoxu bir-birinə nifrət edir.Bir yaxşını aradan qaldırmaq üçün cüzi bir razılıq görsələr onu yalquzaq kimi parçalayarlar. Çox adamlar bizim belə müşavirələrdən başsız, qulaqsız çıxıb. Çətini bunlara fitva verilənə kimidir. Bunlar öz işlərini yaxşı bilirlər. Bəzən onlar mənə də təsir göstərə bilirlər. Nə azənbillah mən allah deyiləm ki, mən də adəm övladıyam.Adəm övladı isə həm aldadır, həm allanır. Baxın (yenə tamaşaçılara) bircə kərə bu kompüterin yanına gəlməklə məndə mənfi emosiyalar nə qədər də gücləndi. Ancaq onların zərərləşdirilməsi yollarını da mən yaxşı bilirəm. Bunların ilk müalicəsi kimi tək qalmağı və özümə hesabat verməyi üstün tuturam. Mən dünənimdən heç vaxt əl çəkmirəm. Dünənimdən bu günümə gələn yolların hansı körpülərin üzərindən keçdiyini,onun sərt bir yol olduğunu unutmuram.Tanrı qismətini və sizin mənə dəstəyinizi unutmuram.Sizin gücünüzdür məni belə ötkəm saxlayan.Mənə görə belədir ki, tək özünə arxalanmaq, daha doğrusu heç nədən xudpəsənd olmaq, millətinə qürrə satmaq nə vaxtsa səni düzdə qoyacaq. Necə ki, çoxlarını düzdə qoyub. Bayaq mən bu xanım qızdan xahiş etdim ki,(o qara geyimli kompüterçi qıza tərəf dönür) bu adamların yeni İnternet səhifələrini mənim səhifəmə göndərsin.Mən bir məsələyə də diqqətinizi çatdırmaq istəyirəm.Və inanıram ki, gün o gün

olacaq ki,yeni icad ediləcək hansısa bir texnika, elə deyək yeni nəsl kompüterlər insanların bir baxışı ilə onların qəlbindən keçənləri oxuyacaq. Onda insanlar məcbur olub bir-birləri haqqında ancaq xoş niyyətdə olacaqlar, fikirləri gözəlliklə bəzənəcək.Adamların hamısının xoş günlərini istəyirəm. Hə xanım qız söz sizindir. Nəyimiz varsa aşkarla. Qoy camaat görsün ki,nəyimiz var,nəyimiz yoxdur. Bu mələkləri, şeytanlara, şeytan dediklərimizi mələklərə göstərməyimizin vaxtı çatıb. Mən sizi dinləyirəm.

(Kompüterçi qızlar öz işlərinə başlayırlar.Səslər)

**Qara geyimli qız:** Cənab baş direktor mələklər dediyiniz komandanın içərisində sizi istəməyənlərin sayı istəyənlərlə müqayisədə xeyli artıqdır. Adlarını sizin sayıtınıza göndərirəm. İstəsəniz bir-bir adlarını da çəkərəm.

**Direktorun səsi:** Lazım deyil. Növbəti müşavirəyə qədər gizlin qalsın. Bu məxfi sənədlərlə gərək təklikdə tanış olam. (Sonra). Mələklər kompüterində nə var, nə yox.

**Mələklər kompüterində işləyən ağ geyimli qız:** Cənab baş direktor o biri tərəfdən gələn səslər əsasən düzgündür. Şeytanlar kompüterində İnternet sayıtı olanların, yəni buradakıları nəzərdə tuturam, içərisində bizim müəssisəni can-başla istəyənlərlə yanaşı onun əleyhinə işləyənlər də çoxdur. İstəyirsiniz adlarını çəkim.

**Baş direktor dillənir:** Lazım deyil. Sadəcə mənim sayıtıma göndərin.Elə edin ki,həmin faktlarla bərabər yeni vüruslar da göndərməyəsiniz.Ehtiyatlı olun. (Baş direktor durub gəzişir. Bir-bir işçiləri nəzərdən keçirir,sanki birinci kərə görmüş kimi onlara baxır. Ürəyində fikirləşir ki, görəsən bunların hansı naxələfdir. Yadına gələcəkdə insanın ürəyini oxuyan cihaz düşür. Bir az təbəssümlənir). Hər şey yaxşı olacaq.

(Səhnədəkilər bilmir ki, baş direktor niyə belə deyir. Yenə təkrar edir) Hər şey yaxşı olacaq.Yaxşı olacaq hər şey (deyə-deyə səhnədə vərgər etməyə başladı. Səhnədəki vəzifəlilərin halı pəcmürdədir. Kompüterlərdən verilən məlumatlar hər iki tərəfi,həm mələkləri , həm də şeytanları narahat edib. İşçilərin bu halına acıyırmış kimi) Deyəsən narahat olmusunuz. Çox fikir eləməyin. Hər şeyin bir çarəsi var. Kompüterlərə virus da gələ bilər, yanıb-sönən elektirik enerjisindən sayt səhifələriniz pozulada bilər və nəhayət kompüterçi qızlar da.Sizin dostlarınıza çevrilə bilər. Və sair və ilaxır ola bilər.Hər şey ola bilər.Hər şey.

**Səhnədəkilərdən biri** (yanındakına): Dədəmizi yandıracaq.

**O biri:** Dədəmizi yox,mədəmizi yandıracaq.

**O biri:** İçimizdəki gədəmizi yanqdıracaq

**O birisi:** Nə olsa yaxşıya olacaq. Zərbə həmişə yaxşıya dəyir.

**Baş direktor** (qulağı bu yaxşı sözünü çalır.Yenə də diqqətlə səs gələn səmtə çevrilir): Kimdir o yaxşıya cəza verən. Əlbəttə pislər olar.Həyatda hər kəs öz cəzasını almalıdır. Günahkarı heç vədə cəzasız qoymaq olmaz. Bir vaxt ulu öndərimiz Heydər Əliyev deyirdi ki, dövlət iki şeydən sarsıla bilər, günahkar cəzasız qalanda və günahsıza cəza veriləndə. Ona görə də qorxmayın. Günahsıza burda heç bir jəza verilə bilməz. Günahkar da qarşımızda at oynada bilməz. Bizim aramızda onlara yer yoxdur. İkiüzlüyə, yaltağa, riyakara, məkiril adamlara mədəsini dədəsindən çox istəyənlərə, əyyaşlara, nəyindən asılı olmayaraq düşgünlərə bizim aramızda yer yoxdur. Ötən direktor seçkilərində bizə qarşı nə qədər sapotajlar oldu. Buna görə hər kəs öz layiqli qiymətini aldı. İki tərəfə işləyənlərin, üzə bir dala iki olanları, hər iki tərəfə şapan çalanları tanıdıq. Biz o şeyin tərəfdarı deyilik ki, ağa

qara deysinlər biz də onu alqışlayaq. Biz o şeyin tərəfdarıyıq ki,o həqiqətə söykənir və onun son ucu xalqa xidmət edir. Yaşadığımız tarix bizə nələr göstərmədi. İqtidar və müxalifət düşərgələrinə bölündük. Kim itirdi, kim qazandı? Yenə yadıma Adəm atamız, böyük peyğəmbərlərimiz və alma yeyib cənnətdən qovulan Həvva nənəmiz düşdü. Niyə düşdü heç özüm də bilmədim. Qısaca Adəm tanrının nümayəndəsi-iqtidarlı, Həvva isə müxalifətin nümayəndəsi kimi gözlərim önünə gəldi. Cəhənnəmə gedən özünə yoldaş axtarar,deyiblər. Həvva kimi. Onun bir xatası Adəmi də öz yerindən yurdundan elədi.Ancaq Adəm yer üzünə peyğəmbər kimi gəldi. Həvva isə alma yeyib cənnətdən qovulan bir qadından uzağa gedə bilmədi. Ona görə də hərə öz gunahlarının o qadında bişir. Ürəyim doludur. Ona görə də sizinlə belə üzbəüz danışmamaqdan doymuram. Mən sizin qarşınızda bütün nöqsanlarımızı etiraf etməyə hazıram.Nöqsan günah deyil,hamının nöqsanı ola bilər.Və hər kəs onu islah etməyə borcludur. Günah düz danışmaqdır. Düz danışanlara maneçilik eləyənlərdir. Günah nədir? Bu mövzuda böyük əsərlər yazmaq olar. Və bu əsərin müəllifi yer üzündəki insanların hamısıdır. Çünki günah işlətməyən bir kimsə tanımaq mümkün deyil. Düzgün və yalan danışmaqda onun kimi. Bir zaman bizim əxlaq kodeksimizdə yazılmışdı! «Hər bir insan düzlük və doğruçuluq yolunda mübarizə aparmalıdır». Və bu kodeksi öyrənə-öyrənə ətrfafımızdakıları min dəfələrlə aldadırdıq. Mən evdə,həm çöldə. Sonra Qurani kərimdən oxudum ki, «Sənin danışdığın hər şey doğru olmalıdır,ancaq hər doğrunu hər yerdə danışmaq doğru deyil». Hikmətə bax... Hər doğrunu hər yerdə danışmaq doğru deyil.Tamamilə doğrudur və isbatsız qəbul edilən teoremdir.

Bunlara baxın. (Əli ilə səhnədəkiləri göstərir) Bayaq qızlara tapşırıq verdim ki, bunların İnternet saytlarını vərəqləsin. İndi isə deyirəm artıq mənə hər şey məlumdur və onlarla işi olmasın. Hər kəs öz ağlının çörəyini yeyir. Artıq hər kəsə öz ağlının çörəyini vermək məqamı çatıb.

**Yerdən səs:** Bəs, dostbazlıq, qohumbazlıq necə?! Onlar necə olsun. Onlarsız ötüşmək olarmı?

**Başqa səs:** Dostluq da var, qohumluq da var. Və olmalıdır. Hər ikisi olmaldı.Ancaq bazlıqsız. Dostu da irəli çəkmək olar,qohumu da, hələ qohumun da qohumunu. Amma bu xroniki xəstəliyə çevrilməməlidir.

**Başqa bir səs:** Vəzifədəyik diyən dostumuzu, ardaşımızı qohumumuzu yaddan çıxarmalıyıq. Qəribə işdir, vallah. Vəzifə gedəck amma qohum- qəbilə qalacq. Gərək elə edək ki, vəzifədən mitilimizi çölə atanda qohum-qəblə də mitilimizə bir təpik vursun.

**Baş direktor** (səhnənin başqa səmtindən səsi eşidilir): Bəsdir qohumbazlığınız, yeribazlığınız. Mənim bir sualıma cvab verin. Sizin hansınız mənim qohumumsunuz. Deyin, çəkinmədən deyin.

**Yerdən səslər:** Heç birimiz. Müəyyən sahədə işinizi nəzərə almışıq, irəli çəkmişik, işlətmişik. İşə məsuliyyətlə yanaşanları fərqəndirmişik.İşdə axsayanları sıramızdan çıxarmışıq. Sizdə də arxayınlıq yaranmasın ki, işləriniz tamam ideyal səviyyədədir. Parlament seçkiləri zamanı sizin bəzi işləriniz hələ yadımdan çıxmayıb, iqtidarın çörəyini yeyə-yeyə yel otuna dönənlər də vardır. Sizin içərinizdə qələbə bülletenləri hesablanarkən isə bizim əlimizi birinc həmin adamlar sıxdı. İndi hərəniz mısmırığınızı bir yanda sallamayın. Uzun illərdir vəzifədə oturmusunuz elə bilirsiniz ki, alçacq dağları siz yaratmısınız. Və əvəzedilməzsiniz. Əvəz edilməz adam yoxdur.Gəlin bu xalqa xidmət

edək. O bizim öz qiymətimizi özümüzə verəck.Bayaq dediyim kimi hər kəs öz ağlının çörəyini yeyir.

(musiqili pauza)

(Baş direktorun monoloqu səhnədəki vəzifə sahiblərini şok vəziyyətinə salıb. Onlar baş direktorun səsindən diksinərək dikəlirlər)

**Baş direktor:** Bu nədir hamınız ayaq üstə donmusunuz ki! Elə bil cnları yoxdur.Bax,sözüm sizədir .Niyə bu gündəsiniz. Nədən qorxursunuz,kimdən çəkinirsiniz. Hələ bu günə kimi ünvanınıza haqlı,ya haqsız danışanların daşlarını götürüb onlara tərəf atmamısınız. Nə şəklimizi televiziya ekranlarında görən olub, nə səsinizi radioda eşidən olub,nə də qəzetlərdə bir sətir yazınızı oxumuşuq. Niyə, ona görə ki, ayaq yeri saxlayırsınız. Başqa iqtidara xidmət eliyəndə də belə idiniz,özümüzdən arxadakı körpüləri uçura-uçura gəlib bizə qədər çıxmısınız, özümüzdən sonra özümüzü sığortalamaq üçün gördüyünüz işlərə baxın. Tarixə bir göz qoymursunuz ki, sabah kimi isə hakimiyyətə gələndə bu gun yığdıqlarınızı rüşvət verib və deyəsiniz biz sizin yolunuzu çoxdan gözləyirdik, biz həmişə sizinləyik. Açın-açın qulaqlarınızı eşidin. (Səhnədə qeyri adi səs, sanki qulaqlar açılır,başlar havaya çevrilir.Baş direktor davam edir) Siz özünüzü və bir də keçmiş iqtidarları aldada bilərsiniz. Bizim dərs aldığımız kişi və o kişini yetirən xalq bizi başqa cür öyrədib. Biz bəlkə də sizin iqtisadi sapotajlarınıza göz yumarıq, ancaq siyasi sapotajınıza heç vaxt dözmərik. Bizim miyanə adamla işimiz yoxdur. Ya sevginizi istəyirik,ya da nifrətinizi. Bir dəfəlik hər kəs öz yolunu ayırd etməlidir. Nala-mıxa döydüyünüz bəs edər. (Ağ geyimli kompüterçi qızın yanına gəlir): Dediklərimiz yazılır, ya yox.

-Yazılır cənab, baş direktor.

-Çox yaxşı.(Pauza)

-Qoy tarixə qalsın bu günkü müşavirəmiz.
(Sonra baş direktor qara geyimli kompüterçi qıza yaxınlaşır): -Sən də əziyyət çəkib bunların İnternet saytını axtarma. Onlar daha bizə lazım olmayacaq.

Kompüterdən səslər gəlir:

-Onlar daha bizə lazım olmayacaqlar!

-Onlar bizə daha lazım olmayacaqlar.(Bu səslər altında səhnədəkilər (baş direktordan başqa)səhnəni tərk edirlər.Qalır iki kompüterçi qız və baş direktor)

**Baş direktor** ( öz-özünə): Bu qədər işçinin birdən istefaya göndərmək asan iş deyildir. Axır ki, bunlardan yaxamızı qurtardıq. Hərə bir qılıqla yan-yörəmizdən salianmışdı. Allah, allah, bu qədər də vəzifə sahibi olar. Az qala iki adama bir vəzifəli düşür. Kabinet əlindən yarıb istehsalata keçmək mümükün deyil. Kimi işə qoyursan elə həmin günün səhəri fikirləşir ki, mənizil şəraitimi düzəldim, şəhərin yaxşı yerində oğluma-qızıma ev alım, özümə dərbə dirlik edim. Ancaq heç demir ki, bu salonda əyləşənlər də insandır,işin ağırından bunlar tutur, bunlar onun işini qabağa aparır. (O üzünü tamaşaçılara tutaraq) Bu gün sizə matməəttəl qalmışam. Nə yaxşı o adamlar istefaya gedəndə əl çalmadınız? Hə nə yaxşı? Bu suala yerdən, salondan cavab istəyirəm. (Salon susur) (Pauza)

**Baş direktor:** Çətin sualdır, eləmi? Yəqin fikirləşirsiniz ki, o vəzifədən gedəcək, o biri gələcək. Bizə bunun nə xeyiri. Mən sizi inandırıram bunun sizə xeyri dəyəcək, hökmən dəyəcək.

**Yerdən səs:** Ziyanı dəyməsin, xeyrini istəmirik. Xeyrini istəmirik... İstəmirik...

**Baş direktor:** Deyəsən şokdan çıxmısınız. Diliniz açılır. Bundan belə elə kadrlar tapacağıq ki, onlar xalqın istəyincə olsun. (O yana çevrilir, sözünü yana deyir). Bu kadlar ki, var onları seçmək çox çətin işdir. «İnsan çiy süd əmib»onlar həmişə öz təravətini sax-

layır. Adamları tanımaq olmur.Durub indicə burada istefaya gedənlərin yerinə kimisə seçmək istəsək hamı susub duracaq. O deyəcək məni desinlər,bu deyəcək məni desinlər. Ya da qohum-qəblənizin adını çəkəsiniz. Beləliklə bu vəzifələr illərlə boş qalacaq. Qarşımızda görüləsi işlərimiz çoxdur. Gəlin birlikdə düşünək. Kim bu xalqa daha yaxşı xidmət edə bilərsə işi ona tapşıraq. İşin yaxşısını ona verək.Yoxsa hamının əvəzinə işləmək olmur.Ha təklif gözləyirsən bir səs çıxmır. Hamı əmr gözləyir,sərəncam gözləyir. Adamlarla işləyə bilmirlər. Hər gün ünvanımıza qucaq-qucaq şikayət gəlir. Bilmirsən hansına cavab verəsən. Bu günlərdə bir məktub almışam.Böyük vəzifəlilərimizdən birinin müəllimi yazıb. Müəllim on gün öz şagirdi olmuş vəzifə sahibinin qəbuluna gedib, şagirdi onu qəbul etməyib.Bu nə deməkdir. Öz müəlliminə hörmət etməyən şəxs kimə hörmət edər. Lənət belələrinə. Bizim də,elə şəxsən mənim də bəzi günahlarım var.Beləəri ilə işləmək özü xalqa arxa çevirməkdir. Bu başçı qarşısındakı müqəvva adamları o qədər də fərasətsiz hesab etməyin.Onların yatırımları ilə kiçik bir Naxçıvan şəhəri salmaq olar.Elə buradan hüquq mühafizə orqanlarına tapşırıram ki,onlar necə ki,səhnə arxasındadırlar onlarla maraqlansınlar. Onları evlərinə qədər öz xidməti maşınları aparsın. Sonrasına baxarıq. Artıq hər kəsə öz ağlının çörəyini vermə məqamı çatıb. (Baş direktor müşavirənin sonluğunu sanki belə gözləmirmiş kimi məyus, fikirli, dalğın halda gəzinir. O, kompüterçi qızlara yaxınlaşır, bir-bir onlara ayrılıqda nəsə deyir. Ağ geyimli qızın işlədiyi kompüter işə düşür. Səslər. Adəm peyğəmbərin İnternet sayıtından):

-Dünya binə olunandan belədir.Xeyirlə şər, yaxşıyla pis, gejəylə-gündüz vuruşdadır.Bu vuruş bəni Adəmin elə bil boyuna biçilib. Bu vuruşların sonunda ancaq xeyirxahlar qalib gəlirlər. Xeyirxah olun,əldən

tutun,yıxılanı qaldırın,əlsiz-ayaqsıza kömək olun.Onda bin-bərəkətiniz artar,onda gözünüz özünüzə yığılar. Hər şey torpağındır, ruhumuzdan başqa. Ruhumuzu kirlənməyə qoymayın. Onun yeri ucalıqdır.Fani dediyimiz bu dünyada insanlara xidmət etməkdən başqa savab iş yoxdur. Bütün hərislərin arzu və həvəsləri bu dünyanın külləkləri kimi vəfasızdır.İnsana və insanlığa baş əyin. Ondan böyük ibadət yoxdur.

(Qara geyimli qız öz İnternet sayıtını aşırır. Həvva nənənin səsi gəlir): Həvva (səsi) Yer üzünə gələndən peşimançılıq çəkirəm. Cənnətdən qovulandan sonra bir gün görməmişəm. Yerdə əlimə nə keçirsə yeyirəm ki,tanrı bəlkə məni cəzalandırıb yenidən məni cənnətə göndərə, olmur ki,olmur. Hərdən bu fikirə düşürəm ki,intihar edim. Ancaq fikirimdən daşınıram. İnsanlara baxanda sevinirəm. Onların bir-birinə qarşı məhəbbəti məni sevindirir. Cənnətdə tək-tənha qalıb darıxa-darıxa ömür sürməkdənsə anamız yerdə yaşamaq xoşdur. Qoy bir az da çətin olsun. İnsana və insanlığa baş əyin. Ondan böyük ibadət yoxdur.

Baş direktor diqqətlə dinləyir:

-Bəli, hər kəsin bir etiraf anı olur. Adam etiraf edən zaman Kəbə qapılarından keçir. Durulaşır. Gəlin etiraf edək ki, hələ insanlara ruhumuzun tələbləri səviyyəsində xidmət edə bilmirik. (O səhnənin bir az önünə gəlir. Üzünü tamaşaçılara tutaraq):

...Deyirəm başımız üzərindəki bu «Mələk» və «Şeytan» səbətlərini endirək. Kompüter aparatlarını da söndürək.

...Bəh-bəh ! Qəribə sakitlikdir. Hərə öz qəlbinin səsini dinləyə bilirmi?! Yaxşı-yaxşı dinləyin,mələk də, şeytan da bizim içimizdədir.

S O N

24-28 iyun 2004

# «FONTOMAS QADIN»

(dram)

*Fontomas qadın-* 25-30 yaşlarında
*İdarə müdirləri-* müxtəlif yaşlarda
*Sahibkarlar*
*Pullu adamlar*
*Məxfi idarə işçiləri*
*Katibə qız və nişanlısı*

Səhnə açıqdır. Çox şıx geyinmiş,son moda ilə bəzənmiş, boylu-buxunlu bir qadın səhnəyə daxil olur. Səhnədə xeyli gəzişir.Tam sakitlikdir. O gəlib tamaşaçı zalı ilə üzbəüz dayanır. Dərindən köks ötürür. Çevrilib böyür-başına baxır. Ah çəkir və tamaşaçı zalına müraciətlə.

**Fontomas qadın:** Eşitmişəm ki, mənim adıma Fontomas qadın deyirlər.Kim deyir,nə vaxt deyir onu deyə bilmərəm. Ancaq qulağıma çatır ki,mənə belə deyirlər.Mən «Fontomas» kinosunu görmüşəm.Onunla mənim aramda nə kimi əlaqə ola bilər ? Bax,bu da mənim üçün bir sirdir.Nə isə elə sizin gözlərinizin qarşısında axtaracağam mənə verilən adın sirrini. «Fontomas qadın». Əcəb adım var. (Pauza) Telefon zəng çalır. O son markalı cib telefonunu açır.

**Fontomas qadın:** Hə, eşidirəm. Dedim ki, eşidirəm. Lap tutalım ki,sizin dediyiniz qadındır. Nə istəyirsiniz? Mənimlə tanış olmaq istəyirsiniz? Yox əşi?! Mənim nömrəmi sizə kim transfer eləyib elə? Deməsiniz. Neyləyək, deməyin. Elə isə sözünüzün mus-

tafasını deyin.Tanış olmaq. Neynək,gəlin tanış olaq. Harda? Siz harda məsləhət bilirsiniz orda. Gələrəm.İş yerinizi dəqiq deyin, telefonu da. Ayıb deyil. Mənim telefonumu sizə verən deməyib ki, mən nə təhər adamam. Buyurun istədiyiniz vaxt zəng vurun.Yox,maşın lazım deyil, taksi sürücüləri ölməyiblər ki, hökmən gələcəyəm.Hökmən. (Yenidən tamaşaçılara tərəf gəlir onlarla üzbəüz dayanır): Belədir bu kişilər qarınları bir az doyan kimi yadlarına başqa şeylər düşür.Yaxşı indi siz-siz olun,məndə mən. Görək kim itirib kim qazanacaq. Neynək. Bu artıq onuncu zəngdir. Bir balaca özünə əl gəzdirirsən elə bilirlər ki, onnansan. Heç demirlər ki, ondan yox, onbirdənsən. Bir bir bir sıfır yox, iki ədəd şax birdənsən.Yəni əyilməz və sınmaz,vüqarlı birlərdən. (yenə tamaşaçılara) əgər bir saat,saat yarım səbriniz olsa görəcəksiniz ki,mənim telefon nömrəmi bir-birinə ötürən bu pulluların başına nə oyun gətirəcəyəm. Başlayaq. (Səhnə dönür Fontomas qadın bir kabinetin qarşısında dayanıb. Əynində bədəninə yapışmış cins şalvar və ağ güllü yarımqol. Çox cazibədardır. Qapı açılır. İçəridən orta yaşlı, lopa bığlı, saçları nisbətən seyrəlmiş bir kişi çıxır. Onu görən kimi sanki qapının kandarında onu don vurur. Kəkələyə-kəkələyə): Siz, siz filankəs olmalısınız.

**Fontomas qadın:** Tamamilə doğrudur.

**İdarə müdiri:** Elə isə buyurun. Niyə zəhmət çəkib qapıda dayanmısınız.

**Fontomas qadın:** Nəvazişinizə görə təşəkkür edirəm.Siz nə qədər alicənabsınız.

**İdarə müdiri:** Sizin gözəlliyinizin qarşısında hər şey sükut etməlidir. Buyurun, buyurun əyləşin.(O oturur. Qıçını-qıçının üzərinə aşırır. Bu pozada diqqəti daha çox cəlb edir) İdarə müdiri onu şəhvətlə süzür. Ayaqqabısından tutmuş ağ-qara zolaqlı saçlarına kimi. Və heyrətini gizlədə bilmir)

Səni yaradana qurban olum. Deyilən qədər gözəlmişsən. Rast gəldiyim qadınların ən gözəli. (Fontomas qadın bu tərifdən bir azda nazlanır. Sakitcə onun tərifinin ardına qulaq asır):

Sənin gözəlliyinin qarşısında hər şey yalandır. Olanda, olacaqda. Hər şey.Mən səni nə qədər də bəyəndim. Allah,allah bu nəymiş belə? Bunə heç gün dəyməyib ki? Səni yaradana bərəkallah, qız. Bəlkə də sən heç anadan doğulmamısan, sadəcə xəlq olunmusan, vəssalam.

(Fontomas qadın tam əmin oldu ki, bu kişinin ağlını başından aldı. Ona görədə ayağa qalxıb ona tərəf gəlməyə başladı.Bu zaman qadının əl telefonu zəng çaldı. Vals üzərində bir musiqi idi. Telefonu açdı):

**Fontomas qadın:** Vacib İşim var. Parikmaxerdəyəm.İşimi qurtaran kimi sənə zəng vuracağam.Baş üstə,baş üstə. Öpdüm səni. (Telefonu söndürür):

**İdarə müdiri:**Heç sənə yaraşan telefon deyil bu.

**Fontomas qadın:** Neynəyim,ancaq çatdırıram. Təzə istehsal telefonlarla ayaqlaşmaq üçün çox pul qazanmaq gərəkdir. (O bu sözləri deyə-deyə idarə müdirinə yaxınlaşır) Məni nə yaxşı çağırmısınız? Mən düşündüm ki,mənə deyiləsi nəsə varmış.

**İdarə müdiri:** Ola bilir.Əlbəttə ola bilir.Siz mənə yaxınlaşdıqca mən özümü tamamilə ayrı cür hiss edirəm.Son vaxtlar heç belə olmamışdım. Nə mən sizin telefonunuz barədə danışırdım.

**Fontamos qadın:** Telefonun bizim işimizə nə dəxli var?

**İdarə müdiri:** Düz deyirsiniz. Ancaq çox istəyirdim ki, bu gün sizə elə bir telefon bağışlayım ki, buralarda hələ təzə-təzə görünür. (O divar seyfinə tərəf gedib açıq seyfdən bir telefon aparatı gətirir ) Sizin adınıza layiqdir. Üstündə də təzə heç bir dəfə də yığılmamış nömrəsi. (O birdə divar seyfinə yaxınlaşır,

bir dəstə ABŞ dolları götürüb qızın dayandığı kətilin üzərinə qoydu. (Qız gözünün ucu ilə telefona və pula baxa-baxa).

**Fontomas qadın:** Siz çox səxavətlisiniz.Bu qədər hörmətin qabağında indi məndən nəsə istəməli olacaqsınız,deyilmi.

**İdarə müdiri:** Sizə məftun oldum. Bu telefonla mənə zəng vurarsınız.Son modeldi,şəkil çəkməyi,bütün prosesləri.Nə bilim,mənim başım çıxmayan nə qədər iş bilir bu qutu parçası. (şəkil çəkməyi deyəndə Fotomas qadının yadına nəsə düşdü. Telefonu açdı.İşlədicini sıxdı.

**Fontomas qadın:** Bunun elektrik tutumu yoxdur ki? (Belə deyib elektrik qidalandırıcısını xəttə qoşdu. Telefon açıldı.Qəribə musiqisi varıydı. «Küçələrə su səpmişəm»)

**Fontomas qadın:** Siz nə qədər centilimensiniz. Həm də öz kökünə bağlı olan bir centilimen. «Küçələrə su səpmişəm». Mən bu mahnını çox istəyirəm.Həmişə su səpən maşın bizim küçəni sulayanda məni istəyən oğlan yadıma düşür. (O qanrılıb tamaşaçılara,-heç hənanın yeridir) Yenidən idarə müdirinə müraciətlə: Müəllim! Deyirsiniz bunların hamısı mənim üçündür ? Telefonda, bu bir dəstə dollar da,hamısı mənimdir.(O belə deyə-deyə telefonun «zaryatkası»nı yoxlayırdı) Siz nə qədər gözəl adamsınız müəllim.Heç siz məni əməlli tanımırsınız mənə bu qədər bəxşiş verirsiniz. Bəs, tanısanız necə olacaq.

**İdarə müdiri:** Tanısam ayrı cür olacaq, aləm olacaq.Qapıda gördüyün son marka maşınlardan biri, tikdirdiyim yeni mənzillərdən ən yaxşısı və sair və ilaxır. Hamısı sənin olacaq.

**Fontomas qadın:** Əvəzində məndən nə istəyəcəksən bunu da de. Qoy bir az arxayınlayım. Bəlkə

elə diləyiniz var ki, heç sizdən bəxşiş götürməyəcəyəm.

**İdarə müdiri:** Sizdən elə bir diləyim yoxdur. Sadəcə sizin gözəlliyinizə vuruldum. Elə məftun oldum ki, adınızı belə soruşmadım.

**Fontomas qadın:** Hər şeyi birinci gündən öyrənməyə çalışmayın.Mənə aid nə varsa biləcəksiniz özü də artıqlaması ilə. Adımı da, özüm haqqında nə varsa hamısını mesajla sizə göndərəcəyəm.Siz də mənim çox xoşuma gəldiniz.Sizin kimi kişilər də dünyada az-az olar.Siz də öz təmənnanızı mesajla mənə göndərərsiniz. Qoy bir az mesacla bir-birimizə isnişək. (O bir az da idarə müdirinə tərəf gəldi. O da,qadına tərəf gəldi. Fontomas qadının telinə əl gəzdirmək istədi. Elə bu vaxt qəbul otağından zəng gəldi.Zəng bir sıra davam etdi):

**İdarə müdiri:** İt əlindən sümük gəmirmək olmur ki. (O dəstəyi qaldırır.Yox bu gün olmayacaq.Hamıya deyin ki, nasazlamışam. Getsinlər. Elə sən özün də get. Mənim çox vacib işim var. Vəssalam.Telefonun dəstəyini yerə qoyur)

(Artıq bu vaxt fantamas qadın idarə müdirinin şəklini bir neçə pozada çəkmişdi)

**Fontomas qadın:** Artıq gecdir o,icazənizlə mən gedim.

**İdarə müdiri:** Bir az gözləyin, qoyun işçilər getsin, sonra siz gedərsiniz.Hələ sizə deyiləsi o qədər sözüm var ki! Əslində ürəyimdən keçənləri sizə deyə biləcəyimə də inanmıram. Bir o qədər ki,sizin telefonunuzu mənə verən dostuma yaxşı bir hədiyyə alım, üstündə də bir yağlı qonaqlıq verim.Siz mənə qeyri adi dərəcədə təsir etdiniz,adını hələlik bilmədiyim gözəl.

**Fotomas qadın:** İnşallah bilərsiniz.O baxır sizin mesajlarınıza və mənim sizə cavabıma. İndi isə gecdir

mən getməliyəm. Pulunuzuda götürün,telefon hədiyyəniz bəs edər.

**İdarə müdiri:** İnciyərəm,vallahi inciyərəm. Elə bir şey deyil.Sayını bilmirəm. Əgər azsa o seyf sizə qurbandı. Açın,baxın.

**F.qadın:** Ayıbdı,mən pulgir qadın deyiləm. Mənə sizin şirin sözünüz, xaşrəftarınız bəs edər. Məni o qədər gözəl qarşıladınız ki,sizə necə minnətdarlıq edəcəyimi bilmirəm. Sifətinizdən nur tökülür,müəllim ! Mən çox şadam sizin bu dəvətiniz üçün. Yenə gələcəyəm. Nə vaxt çağırsanız gələjəyəm. Günün hansı vaxtı olsa belə gələcəyəm.

**İdarə müdiri:** Getmə gözəl xanım getmə! Mən sizin adınızı belə bilmədim. Belə görürəm ki,dostumun mənə dediyi ad sizin şərti adınızdır.

**Fotomas qadın:** Müəllim narahat olmayın. Sizin başınıza and içirəm ki, hər şey yaxşı olacaq. Adımı da biləcəksən,familiyamı da hələ haqqımda na varsa hamısını. Sizin bütün telefonlarınızın nömrələrini bilmək istərdim. Əgər sirr deyilsə.

**İdarə müdiri:** Yox canım,nə sirr?! Sizə telefonum da qurbandı, canımda. (o bütün telefonlarının nömrələrini fontomas qadına verir. Fontomas qadın əyilib müdirin daz başının düz ortasından öpür. Və «Can-can» deyə otaqdan çıxarkən.)

**Fontomas qadın:** Zəngimi gözləyin. Hökmən zəng edəcəyəm. Hökmən. ( Səhnədən çıxır. Səhnə dönür. Bir anlığa boşluq. Səhnədə tam sakitlikdir. Pərdə səhnəni örtür. Yan qapılardan birindən fontomas qadın səhnənin bölünmüş hissəsinə daxil olur. Və gəlib tamaşaçılarla üzbəüz dayanır.)

**Fontomas qadın:** Gördünüz də. Hələ siz bunların birini görmüsünüz. Gözləyin ardını. O biriləri də görəcəksiniz .

(Səhnə açılır. İkinci şəkil) Başqa bir kabinetin qarşısı. Katibə ilə fontomas qadın mübahisə edir. Fontomas qadın gözündəki qara eynəyi saçına taxaraq.

**Fontomas qadın:** Gözlərin aç, gözlərimin içinə yaxşı-yaxşı bax. Mən sən görənlərdən deyiləm. Müdirinə de ki,məni qəbul etsin. Yoxsa...

**Katibə qız:** Yoxsa, inciyəcəksən. Mənə nə xox gəlirsən. Deyirsən yanı səni müdirin özü çağırtdırıb ?

**Fontomas qadın:** Çağırtdırıb ya yox,onu ikimiz bilərik. Vacib işim var. Elə et ki,sonra həm onun, həm də sənin yerin sərin olmasın .

**Katibə qız:** Manitorda o sizi görür.(lazım olsa çağırar. Demək lazım bilmir.)

**Fontomas qadın** (fikirləşir): Demək lazım bilmir. Mən istəməzdim ki,nişanlın hər şeyi bilsin.

**Katibə qız:** Nə demək istəyirsən. Sənin ağlın qaçıb, nədir?

**Fontomas qadın:** Nə demək istədiyimi görəcəksən. Əgər sakitcə məni müdirin yanına buraxmasan sonrasını sonra razılaşarıq.

**Katibə qız:** Nişanlıma nə deyəcəksən. Sən onu hardan tanıyırsan?

**Fontomas qadın:** Tanıyıram,özü də çox yaxşı tanıyıram. Elə etmə ki, təyin olunmuş toyunu təxirə saldırım. Nə deyirəmsə ona qulaq as.Keç içəri de ki, «Cəsarət» qəzetində müxbir gəlib. Qəbul etmək fikri olmasa özün bil,elə et ki,qəbul etsin. Yoxsa səni ifşa edərəm. Sənin canın bax bu disketdədir. Dünən harada olduğunu, müdirinlə 4 saata yaxın keyf çəkdiyini, nə işlərlə, necə erotik məşğuliyyətlərlə məşğul olduğunu köçürmüşəm bax bu yaddaşa. Özü də üzünü bir neçə nüsxə çıxartdırmışam. İstəsəm birin də nişanlına verərəm. Ona görə də əgər istəyirsən ki, başın ağrımasın, toyun yarımçıq qalmasın dediklərimi et.Qalan

işlə işin yoxdur. Ondan sonra bəlkə səninlə ən yaxın rəfiqə olduq.

**Katibə qız** (bir qədər tərəddüddən sonra): Yaxşı, çalışım ki, sizi qəbul etsin. (o,yerindən qalxıb müdirin otağına tərəf addımlayır. Fontomas qadın səhnədə tək qalır. O,tamaşaçılara tərəf gəlir. Üzünü onlara tərəf tutaraq).

**Fontomas qadın:** İndi görərsiniz bu adamın başına nə oyun gətirəcəm. Başlarını soxublar kolluğa elə bilirlər onları görən, onları eşidən yoxdur. Fakt əlahəzrət faktın böyüklüyü qarşısında onların boynu çox nazikdir. Hələ bir azda nəziləcək. Buna bax,dövlət etibar edib iş tapşırıb,bunlar da işlərini, güclərini ləvin-bəlovin xanımlarla keçirirlər. Bəh.bəh.Kişilər ömür sürürlər. Gözəl kabinetlər, gözəl xanımlar, gözəl maşınlar, dəmdəsgah,hər şey,hər şey,hər şey.Elə bil təkcə bunlar üçündür.

**Katibə qız** (səhnəyə gəlir. Üzünü Fontomas qadına tutaraq. Nifrətini gizlətmədən): Keç, başımızın bəlası. Keç, içəri.

(Fontomas qadın yanlarını ata-ata qapıya yönəlir. İşıqlar sönür.Səhnə dönür və işıqlanır. Rəisin kabineti. 40-45 yaşlarında idarə müdiri):

**İdarə müdiri:** Buyurun,xanım qız.Sizi eşidirəm.

**Fontomas qadın:** Əvvəlcə mənə əyləşmək təklifiniz olajcaq, ya yox.

**İdarə müdiri:** Bağışlayın.Buyurun, əyləşin. Sizi dinləyirəm. Deyir «Cəsarət»qəzetindən gəlmisiniz.

**Fontomas qadın:** Əslinə qalsa mən heç bir qəzetdən-zaddan gəlməmişəm. Mən sadə bir qızam və sadəcə sizin vurğununuzam.

**İdarə müdiri:** Siz nə danışırsınız. Siz hara,mən hara? Siz az qala mənim qızım yaşındasınız.

**Fontomaz qadın:** Bunun heç nəyə dəxli yoxdur,əslində indi mod belədir.Mən nə qədər cavan olsam belə sizin katibənizdən ən azı on yaş böyüyəm.

**İdarə müdiri:** Nə demək istəyirsiniz? Katibəmin yaşının nə dəxli var bizim söhbətimizə?

**Fonotmas qadın:** Bir az fikirləşsəniz bunun sizə dəxli olub olmadığını bilərsiniz. Birdə ki,bu barədə baş sındırmağına dəyməz ki! Söhbəti uzatmaq istəyirsiniz,yoxsa mətləbə keçək.

**İdarə müdiri:** Mətləb nədən ibarətdir. Axı,məndən nə istəyirsiniz?

**Fontomas qadın:**Səndən,nə istəyirəm.Heç nə. İstəyirəm ki,billəm bu katibə qızın nə günahı var ki,onu pis yola çəkirsən.

**İdarə müdiri:** Mən onu pis günə çəkirəm? Neyləyirəm ona.

**Fontomas qadın:** Ona neylədiyini özün yaxşı bilərsən. Özünü bilməməzliyə vurma.Sən bilirsən mən nə deyirəm, mən də bilirəm ki, sən kimsən. Gəl bir-birimizi yormayaq.

**İdarə müdiri:** İstəyin nədir? Mən nə etməliyəm?

**Fontomas qadın:** Əvvəlcə bu disketi (o çantasını açıb disketi ona tərəf uzadır) sal qarşındakı bu kompüterə. Birlikdə baxaq. Sonrasını sonra danışarıq.

**İdarə müdiri:** Bu nə disketdir?

**Fontomas qadın:** Sal baxaq,görəcəksiniz nə disketdir. Yaxşı disketdir. Çoxdan yəqin ki,özünüzü görmürsünüz. Salın baxaq, nə qədər rəsmi dayanmaq olar,bir azda səmimi olaq.

**İdarə müdiri:** Olmaz ki, baxmadan deyəsiniz ki,disketdə nə yazılıb.

**Fontomas qadın:** Demək olar.Ancaq baxmağınız daha yaxşı olar. Baxın,gözəl kadrlardır. Beləcə də indiyə kimi belə səmimi olmamısınız.Baxın,buna sizin də haqqınız var.Siz də insansınız,sizin də ürəyiniz

var.Hələ ürəkdə əlavə pulunuz var. Sizin də keyf çəkməyə ixtiyarınız var.

**İdarə müdiri:** Mən onsuz da bu disketi oxumayacağam.Yaxşı budur ki, özünüz nəliyini deyin.

**Fontomas qadın:** Siz elə istəyirsiniz. Neynək. Olsun sizə bu disketin nə olduğunu deyəcəyəm. Və bu disketidə sizə hədiyyə verirəm.

**İdarə müdiri:** Mənə lazım deyil,saxlayın özünüzə.

**Fontomas qadın:** Mənə də gərək deyil. Çünki onun bir neçə nüsxəsi məndədir. Qoy sizdə də olsun. Katibənizlə erotik görüşünüzdən yadigar saxlayın. İşdən çıxarılandan sonra qoyub baxarsan. Yaxşı yadigardır. Doğurdan heç adamlar bilməzmiş ki,siz bu qədər nəvazişli kişiymişsiniz. Sizdə qadınlara qarşı nə qədər həssaslıq varıymış. Açıb bu disketi baxın özünüzə.

**İdarə müdiri:** Sizin ağlınız çaşıb,nədir.

**Fontomas qadın:** Niyə mənim ağlım çaşsın. Olanları deyirəm. Hələ bu yaxınlarda onun toyunu edəcəkdin. Sonra da rahat-rahat öz əməllərində davam edəcəkdin. Olsun,bu iki nəfərin razılığı ilə olan işdir. Özünüz bilərsiniz. Bu ikilikdə olan məsləhətdir. Yəqin ki,bu işin açılmasını istəməzdiniz. Onu bilin ki,sizin boğazınız mənim əlimdədir. Mən istədiyim vaxt sizin məsələnizi çürüdə bilərəm.

**İdarə müdiri:** (Kəkələyə-kəkələyə) Yaxşı məndən nə istəyirsiniz, açıq deyin, gücüm çatan yerə kimi kömək edə bilərəm.

**Fontomas qadın:** Alın,bu ünvana sabah bu zaman 100 min ABŞ dolları verəcəksiniz. Düz bu zaman. Əks təqdirdə özünüzdən küsmüş olun. Katibənizin nişanlısı sizi hər an öldürə bilər, dövlət vəzifəsindən qovula bilərsiniz, ailənizin, qohumlarınız, əsası isə xalqın içində biabır olarsınız. Mənə belə gəlir

ki,yığdıqlarınızın qabağında 100 min ABŞ dolları bir məbləğ deyil.Hələ bunu avans hesab edərsiniz. Bir kimsəyə söz desəniz özünüzdən küsün. Hə deyirsiniz, razısınız? Keçirirsiniz,ya yox? İki yol yoxdur. Ya hə deyin yaşayın, ya da yox deyin məhv olun. Hansı yolu seçirsiniz? (İdarə müdiri susur. Sükutu yenidən Fontomas qadın pozur.)

**Fontomas qadın:** Hə nə deyirsən,razısan ?! Fikirləşməyə yer və yol yoxdur. Onun hər ikisini siz öz hərəkətlərinizlə bağlamısınız. Çox fikirləşməyin. Yüz fikir bir borcu ödəməz.

**İdarə müdiri** (burnunun ucu ilə) Çox istəyirsiniz. Bir azca düşün.

**Fontomas qadın:** Düşməyə heç bir yer yoxdur. Hələ mən sizə dedim ki,bu ilkin mərhələdir. Hələ sizdən daha çox məbləğ istəniləcək. Ona da hazır olmalısınız.

**İdarə müdiri:** İcazə verin bir az fikirləşim.

**Fotomas qadın:** Dediyim vaxtda pullar gətirilməsə özünüzdən küsün.

**İdarə müdiri:** Məni hədələyirsiniz? Gətirməsəm nə olacaq? Məni öldürəcəksiniz?

**Fontomas qadın:** Yox,səni öldürməyəcəyəm. Elə edəcəyəm ki, ölməkdən betər olacaq. Ölmək yaxşı şeydir. O sizin kimi adamlara da vaxtında gəlməz. Gəlsə eyiblərinizi örtər. O da sizə hayıfdır.İndi görürəm ki, siz şərəfinizdən keçməyə hazırsınız ancaq pulunuzdan keçmək fikirində deyilsiniz. Qarşıdan deputat seçkiləri gəlir. Siz də bir şirkət rəhbəri kimi öz namizədliyinizi verə bilərsiniz. Eşitmişik ki,belə bir fikirinizdə var. Beş kişidən birisən qıyma ki, cammat səni adam yerinə qoymasın. Pul nədir ki,əl çirki. Pulu siz qazanırsınız,pul ki, sizi qazanmır. Ancaq vermək istəmədiyiniz pul sizi itirə bilər. Özünüzü itirməkdənsə pulunuzu itirmək daha yaxşı olar. Elə deyil. Simiclik

etməyin. Hələ üstəlik 20 yaşlı katibənizi, möhürünüzü, maşınınızı, hamısından əvvəl də başınızı itirmiş olarsınız.

**İdarə müdiri:** Gözümə inana bilmirəm. İnana bilmirəm ki,bir qız uşağında bu qədər qəddarlıq və bu qədər hərislik ola.

**Fontomas qadın:** Birinci ağzınızı təmiz saxlayın. Fikirləşməyin ki, doğrudanda siz bu yaşla və bu başla kimdənsə çox böyüksünüz və ağıllısınız. Yox,elə fikirləşməyin. Qarşınızdakını həmişə qiymətləndirməyi bacaranlar irəli gedirlər. Sizin kimilər isə təkcə özlərini düşünənlərdir. Bu özünü düşünməyin də sonu belə olur. Sizinlə söz güləşdirməyin əhəmiyyətsizliyini bilirəm və ona görə də dediyim vaxtda pulları gözləyirəm. Əks-təqdirdə, yenə deyirəm özünüzdən küsün. (Fontomas qadın əlində tutuduğu son markalı Nokia telefonu ilə onun şəklini çəkir) Qoy bu görüşdən yadigar qalsın.

**İdarə müdiri** (təlaşla): Sizin nə etdiyinizdi? Bu nə hərəkətdi. Allah, allah! Qadında hərəkətə bax e. Bunda üzə bax e. Dağıl a dünya. Göydən daş yağacaq.

**Fontomas qadın:** Xoşunuza gəlmir. Özünüzdən bir azca qıvraq adam görəndə daş atıb başınızı tutursunuz. Elə bilirsiniz ki, sizdən bacarıqlı adam yoxdur. Sözünü çevrimək istəmirəm. Dediyim ünvanda dediyim qədəri gözləyirəm. Əks təqdirdə... (Səhnədən çıxır).

**Katibə qız** (səhnəyə daxil olur. Başı havalı halda): İndi mən neyləyəcəyəm. Qulaqlarına çatsa batdım.

**İdarə müdiri:** Sən də bu yandan hay-həşir salma. Daş gəlməmiş başını tutma. Bütün günahlar hamısı səndədir. Mən sənə dedim axı, bu işin bir qəmbərqulusu çıxacaq. Bu da qəmbərqulu, özü də bir qadın licimində.

**Katibə qız:** Barı razı sala bildinmi? Nə istəyir axı.

**İdarə müdiri:** Nə istəyəcək. Höküm edir ki, gərək katibənlə evlənəsən. Onsuz da onun nişanlısına hər şeyi deyəcəyəm. O da nişanı qaytaracaq. Daha sənə də gnekoloq gərək olmayacaq. Nə olsun qızın yerindədir. Alarsan bir müddətdə cavan ruhla yaşayarsan. Heç bilmirəm neyləyim. Başıma haranın daşını töküm.

**Katibə qız:** Başına daş tökməli vaxt deyil. Nə istəyir onu da elə.

**İdarə müdiri:** Belə çıxır ki,onun dediyini eləmək üçün gərək səni alam. Arvad-uşağı boşayam. El içində rusvay olam. Ay başımıza gələnlər. Bir uşağın dediklərinə baxın. Məndən üstəlik nə az, nə çox həm də 100 min ABŞ dolları istəyir.

**Katibə qız:** Müdir,qurban olum nə istəyir ver. Yoxsa bizi biyabır edəcək.

**İdarə müdiri:** Yaxşı,sən də bir dayan görək də. Hər istəyənə pul versəydik o qədər pulu hardan yığa bələrdik.

**Katibə qız:** Sən nə danışırsan,məni biabır etmək fikirindəsən? Məni yolumdan çıxarıb başıma gətirdiyin oyunlar haqqında düşünürsən ya yox ?!

**İdarə müdiri:** Ay qız, mən canımın hayındayam, sən də ötən günləri yaşayırsan.

**Katibə qız:** Ötən günlər sən nəyə deyirsən. Dünənə ötən deyirsən. Hələ qulaqlarıma dediklərinin istiliyi qulaqlarımdan getməyib.Bu qədər adamın içində sənə nə deyim. Bilmirəm, o qadın nə istəyirsə verəcəksən. Verməsən ikmiz də biabır olacağıq. O bizi biabr edəcək, o qız. Heç yaxşı adama oxşamır. Şarlatandır. Vallah şarlatandır. O bizim işimizin üstünü açsa məndə məcbur olub olanları deyəcəyəm.Mən məhv olacağam,ancaq sənə də sağ ol deməyəcəklər.

Ya o kasetlərin hamısını onun əlindən aldır, ya da o nə istəyirsə hamısını ver. Yazığam,bir qələtdi eləmişəm, sənin şirin sözlərinə uymuşam. O qadın bizim axırımıza çıxacaq. Baxarsan.

**İdarə müdiri:** Tələsmə,qoy bir fikirləşək.

**Katibə qız:** Fikirləşməli heç nə qalmayıb. Dünən bizim olduğumuz yerdə yerləşdirilmiş gizlin kamera ilə nə etmişiksə hamısını çəkdirib. Faktdır, ya yox. Faktdır. Nişanlımın yaşadığı və işlədiyi yerə kimi bilir. Bu nə düşmənçilikdir.Kiminlə qərəzkarlığı var, deyə bilmərəm. Ancaq onu bilirəm ki, artıq bizim sonumuz çatıb.

**İdarə müdiri** (soyuqqanlılıqla): Hələ bilmək olmaz kimin sonu çatıb. O verdiyi ünvana puldan əvvəl adamlarımı göndərəcəyəm. Onu təmizləsinlər.

**Katibə qız:** Bu məsələni doğurdanmı bu qədər asan hesab edirsən. O qadın sizin təmizlədiyiniz kişilərdən deyil. O yerin altını da,üstünü də beş barmağı kimi bilir. Siz səhərdən axşama kabinetdəki telefonlarla əlləşirsiniz, ancaq fikirləşmirsiniz ki, telefonun bir neçə dəstəyi ola bilər və var. Və sizi hər an dinləyə və yaza bilərlər. Hə, bəlkə bunlar da səhvdir. Hər hansı bir yanlış hərəkət etsən sən də,sənin gözə görünməz qolubəylərin də yox ola bilər. Ağlını yığ başına nə deyirsə onu ver,o qədər də böyük məbləğ deyil. Əlbəttə sənin var-dövlətinin qabağında özünə iş açma, hələ çox cavansan və ondan da çox pullar yığacaqsan və məndən də çox gözəl qızlar əldə edəcəksən. (Qız susur. Pauza bir neçə dəqiqə davam edir.) Sənin onsuz da başqa işin yoxdur ki? Mənə qədər allah bilir əlindən nə qədər günahsız qızlar keçib. Bir də onda nə günah. Günahların hamısı mənim ki,geyimə,bəzək-düzəyə, qır-qızıla həris qızların öz günahlarıdı. Məni ad günümdə əldə etdi. Çox sadə bir hədiyyə ilə. İndi özüm-özümü heç cür bağışlaya bilmirəm. Şirin dilləri,

həyasız hərəkətləri məni bezdirmişdi. Axır ki, istədiyinə nail oldu. İndi məni özündən asılı vəziyyətə salıb. Nişanlıma öz obyektlərindən birində yaxşı bir iş verib. Altına maşın qoyub. O yazıq da elə bilir ki, bu doğrudan da qayğıkeş bir insandır. Ancaq fikirləşmir ki, o onun arzuladığı və o həsrətlə yaşadığı günü çoxdan oğurlayıb, çoxdan onun əlindən alıb. (O müdirinə tərəf dönərək) sənə necə də güvənir, sənin adını elə şəstlə çəkir ki, heç atasının adını elə çəkmir . Səni necə də çox istəyir. Ancaq fikirləşmir ki, sən onun nişanlı dediyi qızın başına nələr açırsan. Xəbər tutsa ölə bilər.

**İdarə müdiri:** Ondan narahat olma. Onun ölmək anı çoxdan keçib. Altındakı «Mersedes» maşınını minəndən sonra ondan o narahatlıq çıxıb. Şəhərin yaxşı yerində aldığı mənzildən sonra o elə işlə məşğul olmaz. Çox şükürlər olsun şəhərimiz də gündən-günə böyüyür və gözəlləşir. Gözəl qızlar da günbəgün çoxalır. Qara maşınlarda cəlbedicidir, o ki, qaldı «Mersedes»ə, o da gözəldir. Nişanlın səni necə varsan elə də qəbul etməyə hazırdır. O da indiyə kimi bekar qalmayıb ki? Görmürsən günlərlə dalınca gəlmir. Bəhanə edir ki, yoruluram, işdən gec çıxıram, şeyfin tapşırığı var. Bunlar hamısı bəhanədir, gülüm. Bəhanə. O səni artıq əvvəlki kimi sevmir. Sən də indi öz başının çarəsini qılmalısan.

**Katibə qız:** Nə etməliyəm.

**İdarə müdiri:** Bir şey fikirləş. O qadının qaldığı ünvanı ona ver, onu qıcıqlandır. Telefonla səni narahat etdiyini söylə. Başqası ilə səni görüşdürmək istədiyini bildir. Axır ki, onu qıcıqlandır, silah əldə etsin və həmin qızı öldürsün. Qız ölsün, nişanlın tutulsun, bizim də işlərimiz yağ kimi getsin.

**Katibə qız:** Qəribə fikirlər keçir sənin qəlbindən. Demək o getsin qızı aradan götürsün onu da

tutsunlar, sənə gözün üstündə qaşın var deyən olmasın. Sən də keyf eləyəsən onun adına olan qızla.

**İdarə müdiri:** Qızla yox, qadınla.

**Katibə qız:** Lap deyək ki, qızla yox, qadınla. Bunun sənin üçün onsuz da elə bir fərqi yoxdur. Ancaq onu bil ki, həmin qadını aradan götürmək o qədər də asan iş deyil. O qadın sənin kimi yüzlərlə kişini aradan götürər. Sən mənim kimi duyğusal qızlara və qadınlara bata bilərsən. O qadın sənin dərini boğazından çıxaracaq, baxarsan. Onda biz,nişanlım və mən sənin bu murdar əllərindən qurtaracağıq.

**İdarə müdiri:** Demək mənim əllərimə indi murdar deyirsən. Bir vaxt, elə deyək ki, bir sutka bundan qabaq onu öpürdün. Niyə birdən-birə murdar oldu. Bu əllər səni yedizdirib, geyindirib.

**Katibə qız:** Kaş o əllər məni quylayaydı torpağa. İndi sənin bu kifir üzünü görməyəydim. Sən nə qədər alçaq adamsanmış. Demək mənim nişanlıma etdiyin yaxşılıqlar onun yaxşı mütəxəssis olmasına görə yox məni ləkələmək üçün sənə lazım imiş. Axır ki, sənin əsil sifətini gördüm.

**İdarə müdiri:** Hə necədir, mənim əsil sifətim. Xoşuna gəlmir?

**Katibə qız:** Niyə, xoşuma gəlir. Axır ki, bir gün səni tanımalıydım, ya yox! Tanıdım. Sabahın necə olacaq. Burada belə düşünmədən işdən gedirəm. Səndən qan qoxsu gəlir. Sən mənim gözlərimdə indi adamdan çox cəllada oxşayırsan. Əllərində qanı görürəm, o sənin gözlərinə də sıçrayır. Bir güzgüdə özünüzə baxın. Nə qədər qəddarlaşmış sifətiniz var. Mən gedirəm. Mənim namusuma toxundunuz. İkinci qızınızla yaşıdam. Bu fəlakət mənim başıma gəldi. Heç kimə arzulamıram. Heç sənin kimi bir namərdin qızına da arzulamıram.(Gəlib tamaşaçılara üz tutur ): Mən bu yaramazın yanından gedirəm. Gedim onu tapım, deyim

olanları. Ona demərəm ki, məni bağışlasın. O bağışlasa belə mən özümü bağışlamaram. (Səhnə qaranlıqlaşır. Fırlanır. Katibə qız nişanlısı ilə).

**Oğlan:** Günün bu vədəsində xeyir ola. İşdə deyilsən?

**Katibə qız:** İşdən çıxdım.

**Oğlan:** Nə təhər yanı işdən çıxdım. Bu günlüyə, yoxsa?!

**Katibə qız:** Birdəfəlik. Tamam çıxdım.

**Oğlan:** Niyə? Səbəbi nədir. Sənin başın xarab olub. Elə bir kişinin yanından işdən çıxmaq olar?

**Katibə qız:** Doğrudan o elə gözəl bir kişidir ki, onun yanından işdən çıxmaq olmaz.

**Oğlan:** Əlbəttə. Elə gözəl kişidir.

**Katibə:** Xətrini elə çox istəyirsən?

**Oğlan:** Lap çox. Elə isə mənimlə yaşıd bacın var apar qoy yanına. O da sənin altını-üstünü doldursun. Daha məndən ona katibə çıxmaz.

**Oğlan:** Nə olub axı. Elə danışırsan ki, elə bil onun sənə çox böyük pisliyi keçib.

**Katibə qız:** Onun mənə yox, sənə pisliyi keçib.

**Oğlan:** Mənə nə pisliyi keçəcək. Məni ev-eşik sahibi eləyib, altımda «Mersedes» maşın, bağ evi tikdirirəm, toyumun bütün xərcini öz üzərinə götürüb. Sənə öz qızı kimi baxır.

**Katibə qız:** Sənə elə gəlir. Ancaq ona elə gəlmir. O mənə qızı kimi yox, məşuqəsi kimi baxır. Sənə də ona görə bu qədər hörmət edir ki, sənin nişanlından onun umacağı var.

**Oğlan:** Sənin nə danışdığındı qız, başın xarab olub nədir? Gül kimi kişinin adına dediyinə bax. Kişinin adını böyüdürsən.

**Katibə qız:** Kişi tapmısan, elə sən də onun kimi xoşqeyrət kişisən. Nə olur olsun sənin karyerana toxunmasınlar. Mən gözləyirdim ki, o bəd xəbəri eşi-

dəndə məni öldürəcəksən. Heç sənin tükündə ürpənmədi. Sən heç kişi deyilmişsən ki? Sənin kimi kişinin arvadı olunca elə oğraşların məşuqəsi olmaq daha yaxşıdır.

**Oğlan:** Kəs səsini dedim, bizi biabır etmə. Kişinin adına, sanına bax, buna bax. O sənə neyləyib. Çörək ev, mal-mülk sahibi olmusan.

**Katibə qız:** O mənə daha neyləməliydi. O mənə o şeyi eləyib ki, sən onu, lənət şeytana, bu əclafa gərək hər şeyi adıynan deyəsən ki, başa düşə. Bunun gözünü də firavan həyat tutub. (Ona boğma salır) Boyunu yerə soxum. Sən onu öldürməliykən, onu tərifləyirsən. Allah, allah bu nə qədər biqeyrət adam imiş. O sənin də başına mənim başıma gətirdiyini gətirəndən sonra o adama oxşamazı tanıyacaqsan. Tüpürüm sənin qeyrətinə. Get o, o sən də sən. Çürük əqidənizlə və pulgirliyinizlə bir-birinizə çox oxşayırsınız. Al bu da sənin üzüyün. (O, üzüyü barmağından çıxarıb onun üzünə çırpır və səhnədən çıxır.

(İdarə müdirinin iş yeri. III şəkil. Katibə qızın nişanlısı ilə müdir şirin-şirin söhbətləşirlər. Onlar çox fikirli görünürlər.)

**İdarə müdiri:** Sənə dediklərimi yaxşı-yaxşı fikirləş. Bizim hər şeyimiz bu günkü əməliyyatımızdan çox asılıdır. Ya o getməlidir, bu səhnədən, ya biz getməliyik. (Telefon zəng çalır. İdarə müdiri dəstəyi qaldırır.)
- Bəli. Eşidirəm. Kimdir danışan. Kimliyini bu saatlarda soruşmamış biləydim? Nə üçün? Ağzını təmiz saxla. Yoxsa səni. Mənə hədə gəlirsən? Neynək! Görərik kim kimi sakitləşdirəcək. Ay qız az mənə xux gəl. Elə, nə eliyirsən elə, təki məni azad burax. (O hirslə telefonun dəstəyini yerinə qoyur).

-Bir buna baxın. Filan vaxt filan yerə 100 min ABŞ dolları gətirməsəm məni yer üzündən siləcək. Neynək?! (Çevrilib katibə qızın keşmiş nişanlısına):

-Necə bilirsən, bu qız bizə nə isə edə bilər, yoxsa bizdən sadəcə pul çəkmək istəyir?

**Oğlan:** Nə deyim , vallah. indi adamlara o qədər də etibar yoxdur. Yenə işimizi ehtiyatlı tutmalıyıq.

**İdarə müdiri:** Nə təklifin var. Biz nə edə bilərik ki, bu qalmaqaldan birdəfəlik qurtaraq.

**Oğlan:** Yenə siz bilərsiniz. Siz nə desəniz biz ona hazırıq.

**İdarə müdiri:** Elə isə birlikdə fikirləşək. Vaxtımız çox azdır. Çox az. İndi elə etməliyik ki, bu işdən hüquq mühafizə işçiləri xəbər tutanacan hər şey yat-yut olsun. Hansı silahla yaxşı davrana bilirsən.

**Oğlan:** Axırıncı dəfə atəş açdığımız silah çox əlimə yatır. Yenə yəqin kiminsə gicgahı qaşınır. O gicgahı qaşımaq mənim borcum olsun.

**İdarə müdiri:** O birilərinə də gizli kanallarla xəbər verin. Qoy hamı bu günkü durumumuzu bilsin. Hərə başını bir yerdə gizləməsin. Mənə nota verən o qadın kiminsə adından danışır. Zalım qızının arxasında elə bil böyük bir dövlətin ordusu dayanıb.

**Oğlan:** Heç fikir eləməyin. Onun da öhdəsindən gələn tapılar. O ordunun da qarşısına çıxan tapılar.

**İdarə müdiri:** Mən sənin kimi oğullara arxalanıram. Nə üçün bizim pulumuzu it-qurd yeməlidir. Qarşıdan sənin toyun gəlir. Gərək sənə elə bir toy çırpdıram ki, qulaqları bu yekəlikdə şəhərin qulaqlarını batıra.

**Oğlan** ( sakitcə): Daha mənim toyum olmayacaq. O, nişan üzüyümü qaytardı. Sizin də ünvanınıza pis sözlər dedi. Mən isə.

**İdarə müdiri:** Sən nə dedin.

**Oğlan:** Mən onun dediklərinə inanmadım. Siz mənə atalıq eləmisiniz. Siz mənə düzgün yol göstərmisiniz. Siz mənə çörək vermisiniz. İndi olmuşam beş kişidən biri. Hamı kimi yox. Beş kişidən biri. (Telefon zəngi).

**İdarə müdiri:** Hə, mənəm. Nə fikirləşirsən. Fikirlərimi də sənə deməliyəm. Gözlə dediyiniz müddətdə istədiyiniz yanınızda olacaq. (O dəstəyi qoyur). A kişilər, it əlindən sümük gəmirmək olmur ki? Kim gəlir pul istəyir. Reket əlindən hara gedək. Heç özümdə bilmirəm.

**Oğlan:** Narahat olmayın. Son tapşırıqlarınızı dinləmək istəyirəm.

**İdarə müdiri:** Tapşırıq yenə də eynidir. Bu səhnədə sonna kimi ya o qalmalıdır, ya biz və bizimkilər.

**Oğlan:** Aydındır. Allahın köməkliyi ilə biz qalarıq. Biz qadının öhdəsindən gəlməyəcəyiksə onda bizi qara torpaq yesin.

**İdarə müdiri** (siyirmədən qırmızı məxmər parçaya bükülmüş silahı ona verir): Ovun qanlı olsun. Allah amanında.

**Oğlan:** Sağ ol ustad. O biri söhbəti saxlayaq əsas işdən sonraya.

**İdarə müdiri:** (Başa düşmürmüş kimi). Hansı işi deyirsən?

**Oğlan:** Mənim nişanlım məsələsini. Axı biz ayrıldıq.

**İdarə müdiri:** Narahat olma ondan da yaxşısını sənə alacağam.

**Oğlan:** Yəqin siz istifadə etdikdən sonra. (Səhnədən çıxmaq istərkən cib telefonuna zəng gəlir): Eşidirəm. Hə mənəm nə deyirsən. Yanımda? Yox,yox. (bir az da astadan) təkəm.tək. De, sözünü de. Nədən qorxursan. Yaxşı,yaxşı sonra zəng vuraram. İşim var,

çox vacibdir. Ana (o qəsdən) ana sözünü işlətdi və ucadan dedi bir azdan zəng vuracağam.

**İdarə müdiri:** (maraqlanır ) Kim idi.

**Oğlan:** Anamıydı,deyir atan yaxşı deyil, çalış evə tez gəl.

**İdarə müdiri:** Nəyidi elə.

**Oğlan:** Bir dəfə miokard infarkt olub. Hər an qorxu içərisində yaşayır.

**İdarə müdiri:** Allah şəfasını versin.

**Oğlan:** Allah sizə də cansağlığı versin. Amin.

**İdarə müdiri:** Vaxt itirmək olmaz. Çantanı götür.

**Oğlan** (çantanı götürüb səhnədən çıxarkən yenə zəng səslənir. Oğlan açır.Astaca): Ana dedim ki,vacib İşim var. Gələcəm. Hökmən gələcəm. Baş üstə gedəcəm. Rəisimin əmri var,işçilərin hamısını bir yerə toplamalıyıq. Oldu,anacan oldu. (Danışan oğlanın keçmiş nişanlısı idi. Səhnənin bir tərəfi):

**Katibə qız:** O yazıq adamdı,onu necə də dəlicəsinə sevirdim. O məni məhv elədi,onu isə müdirimiz məhv etdi. İnsanda nə qədər nəfs olar. Ürəyim dözmədi yenə ona zəng vurmağı, o gələcək hadisə barədə ona xəbər verməyi lazım bildim. Özümə borc bildim. Kaş dediyim kimi eləyə. (Telefon zəngi qız telefonu açır) Hə eşidirəm. (Hər ikisi görünür. Hərəsi səhnənin bir tərəfində)

**Qız:** Başa düşdün nə dedim. Sən ona inanma o alçıaq adamdı. O səni ölümə göndərir.

**Oğlan:** Sən nə danışırsan,biz eyni işə tərəfdaşıq. Biz öz sərvətimizi hər barmaq sirkələyənə versəydik onda nə qalardı bizə.

**Qız:** Getmə deyirəm. O bir tələdir.Səni öldürtmək istəyir ki, mən,sən və onun arasında baş verə biləcək hər hansı bir bədbəxtlikdən yaxasını kənara çəksin. İnanma ona. O alçaq adamdır,o maskalanmış canavardır. O səni məhv edəcək. O məni məhv

etdi,ancaq onu məhv etmək üçün,qisas almaqdan ötrü yaşayacağam. Sən istəyirsən get,mən sənə dediklərimi dedim. (Oğlan duran tərəfin işığı sönür. Qız tək qalır.tamaşaçılara):-İnsanlar onsuz da yalanlarla yaşayırlar. Yaxşı,ya pis əməllərinin hamısında yalan əsas qüvvədir.Sanki aldatmadan,yalan danışmadan yaşamaq mümkün deyil. Mən gözümü açanda artıq bu idarədə iştəyirdim. Hər gün mənə həyat haqqında qısa və uzun nağıllar danışan müdirimiz mənim hesabıma məni istəyən oğlanı iş adamı elədi. O çox səbirli, təmkinli, astagəl adam idi. Özünü elə aparırdı ki,elə bil sonradan nişanlım olan oğlanı heç mənə görə qabağa çəkməyib,əvvəlcədən can-ciyəri idi.Adamlar ilə elə rəftar eləyirdi ki,deyərdin onlara canını verər. Amma son ucunda adamların başını boynunun·dalından kəsərdi, heç uf da deməzdi,hələ bir nəfər onun haqqında dediyi sözlərə baxın :- O səni öldürər,qırx gün başının üzərində dayanıb ağlayar,bir kimsə bilməz ki,o sənin qatilindir. Bax,o belə bir adamdır. Gör allah-təala varı-dövləti kimə verib,yağı yağ üstə töküb, yarmanı da yavan qoyub. Ay səni belə dünya. Məni necə aldatdı. Heç özüm də bilmədim. Məkrli və riyakar sözləri, adamlar qarşısında bəzən sınıq görkəmi, təklikdə aslana çevrilən sərt hərəkətləri məni məhv etdi. Deyiləsi adam deyil,dövlət belələrinə necə inanır, bax bu məəttəl qalmalı işdir. Axır ki,mən səhnədən gedirəm. Bu salondakı və tamaşadakı qızlara və qadınlara üzümü tutaraq deyirəm. Kişilərin yağlı dillərinə inanmayın,onların yağlı dilləri ilan dili kimi zəhərli, arı xortumu kimi şirindir. Onlar zəhərlərini də,ballarını da qadınlara xərcləyirlər. Aldanılmamaq üçün sevginizi qoruyun,onu ucuz qiymətə satanlarla əl tutmayın. Onlar özlərini nə qədər alicənab göstərirlərsə də belə yenə çirkab içindədirlər. Siz sağ-salamat qalın

baxın bu həyatın tamaşasına mən isə gedirəm öz dərdlərimlə baş-başa qalmağa.

(Səhnə qaranlıqdır. IV şəkil. Atəş səsləri gəlir. Sakitlik yaranır.Səhnə işıqlanır.Tamamilə bom-boş olan bir sükut. Oğlan sürünə-sürünə səhnəyə daxil olur. Qolundan yaralıdır.Şəkil idarə müdirinin otağındakı şəkildir.Oğlan sızıldaya-sızıldaya danışır):

**Oğlan:** Evimi yıxdı,allah evini yıxmış. Gördün başıma nələr gəldi. İt də getdi,ip də. Diplomat,içi dolu zirzibili əlimizdən aldılar. Bu, bizə çox baha başa gələcək. Yolda baxıram ki,üstümdə olan bütün sənədlərim, şəxsiyyət vərəqəm,sürücülük vəsiqəm,nəyim varsa hadisə yerində düşüb. Bəs, bu müdirdən niyə xəbər yoxdur,bizə nə zəng vurur,nə arayıb-axtarır. Telefonu da elə qapanıb ki,elə bil zalım oğlunun heç telefonu-zadı olmayıb. Allah bunun bəlasını versin. Nəfsinin ucbatından bizim hamımızı bəlaya saldı. Görək sonu necə olur. (Sükut. idarə müdiri səhnəyə daxil olur. O oğlanı görər-görməz):

**İdarə müdiri:** Ə kişi qırığı,gəlmisən? De görək nə var,nə yox. Əməliyyat necə keçdi?

**Oğlan:** Heç nə alınmadı, şef ! Biz onu öldürmək əvəzinə o bizi gülləbaran elədi. Elə bil əvvəlcədən hər şeyi bilirmiş.

**İdarə müdiri:** Yəqin sənin o ləçər nişanlı dediyin xəbər verib.

**Oğlan:** O nə bilirdi ki, belə bir hadisə gözlənilir. O işdən çıxandan sonra bu işlər baş verib,ondan sonra biz tapşırıq almışıq.

**İdarə müdiri:** Ə bura bax,sən tapşırıq alandan sonra otaqdan çıxarkən sənə kim zəng vurmuşdu.

**Oğlan:** Anam, zəng etmişdi,anam.

**İdarə müdiri:** Ə yalan danışma,axı sən mənə söz vermişdin ki,heç vədə məni aldatmayacaqsan.

Gözlərinin içinə qədər yalan danışırsan. Məni aldatmağa başlamısan. Demək bu adətin çoxdan varıymış. Onda elə yaxşı eyləyib sənin nişanlını... (sözü yarımçıq qalır. Oğlan lomba ilə onun üzünə tüpürür)

**Oğlan:** Biqeyrət,danışdığın bu sözün cəzası öz əlinlə əzizlədiyin bu güllələrdən biridir. Sənin kimi,elə mənim kimi də olanlara bu dünyada yer yoxdur. Alçaq. Tüpürüm sənə də,sənin puluna da,sifətinə.(o döş cibindən çıxardığı silahla düz onun alnından vurur.)

- Mənə də ölüm yaraşmasa da yaraşdıracam.(o silahı gijgahına dirəyib tətiyi çəkir). Can verə-verə:- Görəsən, nişanlım məni bağışlayacaqmı ?! İnanmıram, inanmıram məni bağışlayacağına.

(Səhnə qaranlıqlaşır. İşıqlar yanır səhnə dönür. Fontomas qadın otaqda vər-gər edir):

**Fontomas qadın:** Qəribə xəbərdir. Böyük bir sahibkar, milyardlar sahibi öz kabinetində güllələnib. Bu hadisənin bizim dünənki əməliyyatla əlaqəsi olmaya?(Telefon zəng çalır. O dəstəyi qaldırır): -Axşamın xeyir. Hə, eşitdim. Nə məsələdir. Sən nə danışırsan.Mən heç onun adını da bilmirdim. Allah rəhmət eləsin.Simic adama oxşayırdı.İndi qoy var-dövlətini yesinlər,goruna sösünlər.Əgər sakitcə o pulları versəydi başı da belə qovğada olmazdı. Axmaq imiş,hələ bilmirlə ki,mənimlə zarafat etmək olmaz,mən ciddi qızam,ciddi, zarafatı sevmirəm. Bu güllə nə bilir zarafat nədir. Tətiyi çəkdin,qurtardı. Necə ki,dünən mən çəkdim tətiyi, sonra da onun adamlarından kimsə tətiyi onun başına çaxıb. Halal olsun ona anasının südü.Belə nadanlara nə qədər çox güllə dəysə ölüm bir o qədər çox sevinər. Bu camaatın canı o qədər qurtarar. Nə qədər göydələnlər tikdirib satdırıb,nə qədər də tikdirir və tikdirəcəydi. Ay qız, eşidirsən. Başım danışmağa elə qarışıb ki, soruşmuram. O tək ölüb,yoxsa yenə öldürülən var. Bir nəfər də onun otağında özünü

öldürüb? Kim ölüb? Hələ bilinmir. Onlar eyni adamlardı. Hər şey pul üstündə olub,bizə verilərək o məbləğ üstündə. Yox bu gün işləmək istəmirəm. Elə yorulmuşam ki? Vallah naz eləmirəm. Naz mənim harama yaraşır. Kişi kimi bir şeyəm. Kişi kimi. Ona görə də bu bəzi kişilər ki,var onları qulaqlaya bilirəm. Allah kəssin mənim bu gözəlliyimi. Bir şey ki, mən ondan qadın kimi istifadə edə bilmirəm. İnan elə istəyirdim ki, mən də bir evin xanımı olum,uşaqlarım olsun,mətbəxtdə o qədər işləyim ki,yorulum,ərim işdən qayıdanda onun zənginə özüm qapını açım,sarılım onun boynuna,onun yorğunluğunu özümün xoş rəftarımla güllələyim. Nə isə. Yorulmuşam. İcazə verin,bir az dincəlim. Sonra zəngləşərik. Təzə nömrəni yazım de,yadımda qalar. Hər şeyi vərəqə yazsaq onda heç biz biz deyilik ki ! Sağ ol! Hər şey qaydasındadır. (o telefonun dəstəyini üstünə qoyur.Tamaşaçılarla üz-üzə dayanır):-Fikirləşirsiniz ki,bu qadında bu qədər qəddarlıq hardandır eləmi? Bu sualı sizin sifətinizdən oxuyuram. Mən də bir zaman o katibə qız kimi bir müdirin katibəsi olmuşam. Sonra o katibə qızın başına gələnlər mənim də başıma gətirildi. Müdir məni öz qadını kimi saxlamağa başladı. Məni zorla özününkü etdi. İndi and içmişəm ki,məni və mənim kimi yelbeyin qızları yolundan çıxaran idarə müdirlərini və pulu ilə qürrələnən kişiləri bir günə salan ki,dədələrinin toyu yadlarına düşə. Qoyalar onlar olsunlar,biz də biz. (keçib kresloda oturur. Soyumuş kofedən içə-içə. Çox fikirli və pəcmürdədir): -Belə-belə işlər.Görək bu işlərin sonu nə ilə qurtaracaq. Evimizi dəyişməyin vaxtı çatıb.Bir gün onsuz da yerimiz bilinəcək.Onsuz da düşməni olduğumuz kişiləri meydandan çıxarmaq çox çətindir. Çünki onlara və pula istəkdə olan qadınlar gündən-günə çoxalmaqdadır. Ürəyim soyuyana qədər gedəcəyəm bu işə. Sonrası nə ola-ola.İndi mənim

günümə salınan qızları görəndə az qalıram həmin qızları da,həmin kişiləri də qıyma-qıyma doğrayım.Bu günün modasına və dəmir-dümürünə uyaraq özlərini bədbəxt edən həmin qızlar düşünsünlər ki,onlar gələcəkdə ya tamamilə ana ola bilməyəcəklər,ya dünyaya gətirdikləri övladlar qüsurlu doğulacaq. Var-dövlət, moda, zinət hər şey, hər şey ötüb keçəcək. Qalacaq şərəfdir,namusdur. Onu biz itirmişik pullu kişilərin sayəsində,heç olmazsa qızlarımızı onların ümüdlərinə qoymayaq. (Əl telefonu zəng çalır.O telefonu açır):- Bəli eşidirəm. Kimsiniz. Hə mənəm. Haqqınızda eşitmişəm.Allah qoysa görüşüb yaxından tanış olarıq.Sağlıq olsun. Nə zaman? Elə bu gün? Yox! Bu gün çox vacib işlərim var,anamı xəstəxanaya aparacam. Maşın göndərəsiniz? Yox, canım. Siz nə qədər də alicənabsınız nə qədər lütfükarsınız. Səsinizdəki ötkəmlikdən görürəm ki, siz özünüzdən nə qədər də razısınız. Əlbəttə sizin buna haqqınız çatır. Mən sizin səsinizdən çox şey duyuram. Sevdiyiniz rəngə qədər, musiqi duyumunuza qədər, klassik musiqiyə aludəçiliyinizə qədər. Ən çox sevdiyiniz musiqi Bethovenin «Elza üçün» prelüdünün olduğunu belə bilirəm. Siz gözəl ailə başçısı,gözəl ər,gözəl oğulsunuz.Nə deyirsə sizin haqqınızda gərək qarşısına bir gözəl sözü yazasınınz. Komplement deyil həqiqətdir. Sağ olun. Mənim haqqımda dediklərinizə görə. Yüz dəfə eşitməkdənsə bir kərə görmək yaxşıdır.Məni öpürsünüz? Siz nə qədər riskli centlimentsiniz. Bu hörmət qarşılıqlıdır. Görüşənə kimi . Mən də sizi. (Sükut. O səhnədə gəzişir) Görərik kim kimi öpür, o günü gülləyə gələndən betərdir,zalımdır, pulu da ki, süpürüb yığır. Sənin başına bir oyun gətirim ki,o biri sənin yanında cənnətlik olsun. İt uşağı kasıba satdıq mal kimi baxırlar. Qadın onlar üçün bir əyləncə ,bir oyuncaq. Kiminlə istəsən ürəyin istəyən kimi rəftar edə bilərsən.

Təki pulun-paran olsun.(o bir qədər susur. Soyumuş kofedən bir qurtum içir) Olur,hər şey olur. Bir onu bilirəm ki,hər şey öz yerini tutacaq. Yerini bilməyənlərə də gərək biz yerini göstərək. Nə isə. (O cib telefonunu açıb nömrələri yığır və danışmağa başlayır):

- Səsiniz mənə elə xoş gəldi ki,səsinizi bir də eşitmək istədim.Fikrimi dəyişdim.Hə,bu gün sizinlə görüşmək qərarındayam.Nə zaman? Saat 10-dan sonra? Dəqiq olsun. Mən çox dəqiq adamam. Saat 11-in yarısında sizin sərəncamınızdayam. Elə edin ki, sözümüz tutsun.

(Pauza. Səhnə dönür. Rəisin qəbul otağı. Köməkçi fontomas qadına . O necə də cazibədardır. Köməkçi onun gəlişini xəbər alır):

**Köməkçi:** Gecənin·bu vaxtı nə yaxşı.

**F.Qadın:** Rəisin çağırıb.

**Köməkçi:** Rəisim çağırıb ?

**F.Qadın:** Bəli, cavan oğlan rəisin çağırıb.

**Köməkçi:** Bəs mənə heç nə deməyib axı.

**F.Qadın:** Ə, bura bax mənimlə söz güləşdirmə. Yekə kişidi, bunun işinə, peşəsinə bax. Onun-bunun telefonlarına cavab vermək, onun-bunun ətəyini dəsmallamaq. Ə, kişisən özünə iş-güc tap. Götür telefonu cavab verəcək. De ki, gözləyənin var. Özü də özünüz çağırtdırmısınız.(Köməkçi adını xbər alır) Adımın sənə heç bir isti,soyuğu dəyməz. Haray bu başdan işinlə məşğul ol. (Köməkçi daxili telefonun dəstəyini qaldırır. İçəridən səs gəlir. O dəstəyi asır):

**Köməkçi:** Sizi manitorda görür. Bu dəqiqə sizi qəbul edəcək.(Bu zaman qapı açılır. Rəis orta qapıda F.Qadınla üz-üzə dayanır. Üzünü köməkçisinə tutaraq):

**Rəis:** Mən yerimdə yoxam. Evdən soruşsalar baş idarədə,baş idarədən soruşsalar indicə çıxdı, de.

**Köməkçi:** Həmişəki kimi.

**Rəis:** Danışdığı sözə bax. Həmişəki kimi. Guya mən hər gün qonaq qəbul edirəm.Ay məni qınayanlar. Bu boyda-buxunda kişidir ağlı yoxdur ki,yoxdur. Buyurun,buyurun.(O fontomas qadına yol göstərir) Onlar birlikdə otağa daxil olurlar(səhnə fırlanır. Rəisin otağı. Sən,avropasayağı təmirli,yüksək komfortu kabinet. Kabinetin baş divarında ölkə başçısının portreti. Yan-yörəsində digər dövlət rəmzləri. Kabinet qədər gözəl və boylu-buxunlu rəis. Fontomas qadın marağını gizləmir):

**F.Qadın:** Gözəl zövqünüz var.

**Rəis:** Sağ olun,təşəkkür edirəm. Siz nə qədər də dəqiqsiniz.

**F.Qadın:** Mən də öz növbəmdə təşəkkür edirəm. Dəqiqlik yaxşı işdir. Ancaq mənim gəlişim barəsində köməkçinizə heç nə deməmisiniz.

**Rəis:** Dedim ki,bəlkə gəlməzsiniz.

**Fontomas qadın:** Siz hamını eyni arşında ölçməyin. Görünür çoxları sizi aldadıb. Və siz də onların əvəzinə məndən əvəz çıxırsınız.Neynək. (Gülümsəyir) Borclu-borclunun sağlığını istər.

**Rəis:** Rica edirəm,bağışlayın.Hər şey ürəyincə olacaq. İcazə verin ilk baxışdan sizə vurulduğumu boynuma alım. Siz doğrudan da mənə deyiləndən də çox gözəlsiniz. Sizi xəlq eləyən xaliqə qurban olum. Belə bir şeir misrası da qalıb yadımda. Şair deyib ki, «Qız xaliqin öləydi səni xəlq eləyəndə».Ancaq mən elə demərəm. Və deyirəm ki, səni xəlq eləyən xaliqə qurban olum. Sən doğrudanmı bir insanmısan ? Ya mələksən?!

(Qadın onun sözünü kəsir):

**Fontomas qadın:** Siz bütün qadınları belə tərifləyirsiniz? Yoxsa bu sözləri təkcə məni tərifləmək üçün öyrənmisiniz. Siz də mənim çox xoşuma gəldiniz.Bu söz qanmaz köməkçinin ağzı nə təhərdi?

**Rəis :** Necə yanı nə təhərdi? Ağızdı də.

**Fotomas qadın:** Bilirəm ağızdı. Boşboğazdı. Yoxsa ağzı qıfıllıdı.

**Rəis:** Narahatçılıq yoxdur. O bizim öz adamımızdı. Öl desəm ölər,qal desəm qalar. (O qadına yaxınlaşır) Nə qədər gözəl saçlarınız var,gözlərinizin rəngindədir.Bu günə kimi nə qədər qadın görmüşəmsə onlar ən gözəli, ən yaraşıqlısı sizsiniz. Bu günkü gecəni mənə verdiyiniz üçün siz bütün tariflərə və hədiyyələrə layiqsiniz.

**Fontomas qadın:** Təriflərinizi qəbul edim. Hədiyyələr hələlik bir müəmmadır,eləmi.

**Rəis:** Hələlik elə görünür.Ancaq onun aşkar olacağı ana elə bir zaman qalmayıb. Hələlik hədiyyə bir sürpriz olaraq qalsın (Rəis qadının saçlarını tumarlayır. Onun saçlarını iyləyir): Bəh,bəh elə bir çəmənliyin gül-çiçəyi qədər bəlkədə ondan ətri var.Xoş halına sənin ətrinə bühuş olanların.

**Fontomas qadın:** Bu gün o sizindir.Və həmişəlik olmağıda sizdən asılıdır. (o çevrilib rəisin üzünə baxır) Mən hiss etdim ki,sizin gözlərinizdəki şəfqət mənim boynumu,açıq çiyinlərimi yandırdı.Gözləriniz niyə belə oldu.

**Rəis :** Nə təhər?

**Fotomas qadın:** Elə bil dəmsiniz,sərxoş oldunuz elə bil. Siz ki,indi ayıq idiniz.

**Rəis:** Mən də özümü elə hiss edirəm.Elə bil içimə od doldurublar. Yanıram.(O bir az da F.qadına yaxınlaşır. Onu öpmək istəyir.)

**Fontomas qadın:** Gələn olar.

**Rəis:** Narahat olma. Mən yerimdə yoxam. Heç kim məni axtarmaz. Gecənin bu vaxtında.(Səhnə qaranlıqlaşır. Sonra yavaş-yavaş işıqlanır. Rəis çox məmnundur.) Rəisin səsi gəlir. Sən bütün tariflərə layiq imişsən. (Bu zaman F.qadının telefonu zəng çalır. O

ətəyini düzəldə-düzəldə səhnədəki otağa gəlib telefonu götürür və geri qayıdır.

**Fontomas qadın:** Bu dəqiqə. Bu dəqiqə mən sənə zəng vuraram,mesajı qəbul etməyə hazır ol. Hazırsan,gəldi(O içəri daxil olur.Hələ də xumarda olan idarə rəisinin çılpaq şəklini çəkir. Rəis onu görən kimi yarıqışqırıq halda.)

**Rəis:** Sən neyləyirsən. Ağlın qaçıb,nədir?

**Fontomas qadın:** Çox,hay küy salma. Olan oldu,keçən keçdi. Artıq o başda hər şey yazıldı. Sənin çılpaq şəklin də, qışqırığın da,hələ üstəlik söyüşlərin də. Bu mənim sənə sürprizim,indi sən mənə nə sürpriz edəcəydin buyur.

**Rəis:** (Geyinə-geyinə) Daha mənim nəyim qaldı ki?

**Fontomas qadın:** Sizə neyləmişəm ki?

**Rəis:** Daha neyləyəcəksən? Bundan da betər eləməli şeyi.

**Fontomas qadın:** Sənin mənə elədiyindən nə təhərdi? (rəis susur ) Siz elə bilirsiniz ki,hamı siz deyəndi. Ay sən öləsən. Artıq bir hərəkət etsən özünü ölmüş bil.

**Rəis:** Yox,canım daha nə artıq hərəkət. Biabır oldum. Arvad-uşağın yanında biabır oldum. Mənə nə deyəcəklər,bircə o qaldı ki,cəmdəyimə tüpürsünlər. Ay səni mənim rücahıma çıxaranın dədəsi itilə yatsın. Ay onun tifaqı dağılsın.Sən hansı cəhənnəmdən gəldin.

**Fontomas qadın:** Ağzını yaxşı saxla,elə eləmə ki,torpağını torba ilə daşıtdırım. İndi sənin boğazın mənim əlimdədir.Düzdür sən indi məni burada öldürtdürə də bilərsən. Amma onu bil ki,mənim harada olduğumu səndən də məndən də yaxşı bilənrlər var. Sakitcə geyin otur öz postunda (Rəis gəlib diyircəkli kresiosunda əyləşir. Başını aşağı dikib)

**Fontomas qadın:** Bu kişi sənə belə işləməyi tapşırıb.(rəis diksinir)

**Rəis:** Hansı kişini deyirsən.

**Fontomas qadın:** Bu başının üstünə vurduğun kişini deyirəm.Onun çörəyi sizi tutsun.Hər şeyiniz yerli yerindədir. Gündə də bir qadın dəyişirsiniz.Nə qoruq var sizə,nə də qadağa.

**Rəis:** Xanım qız, siz nə haqla mənimlə elə danışırsınız. Məndən istəyiniz nədir.Deyin imkanım daxilində sizə hər şey etməyə hazıram. Neçə min dollar deyirsiniz verim. Ən yaxşı yerdə sizə ev alım,son marka maşın alım. Nə deyirsiniz? Təki mənimlə işiniz olmasın. Heç biz düzəməlli tanış da olmadıq. Sizin birdən-birə mənə qarşı belə hərəkət etməyiniz qəribəmə gəlir. Əvvəlcədən tanışlığımız yoxdur ki, deyəm sizə pisliyim keçib.

**Fontomas qadın:** Sənin mənə nə yaxşılığın,nə pisliyin keçə bilər. Səsin niyə elə astadan çıxır. Ona görə ki,suçlusan. Bayaqdan elə guruldayırdın ki,elə bilirdin yer,göy səninkidir. Heç bir dəfə fikirləşmisən ki,sabah nə ola bilər. Bu günkü çalçağırın sabah ayrı səmtə çevrilə bilər. Heç o kəsilən qulaqlara baxmırsan. Neçə illərdir kəsiləni də var,lap təzə kəsiləni də. O qulaqların qanı hələ nə qədər axacaq,bir allah bilir. Düz işə qol qoyanlar isə, nə isə.

**Rəis:** Məndən istəyin nədirsə yerinə yetirin. Ancaq məndən əl çək. Mən sən deyən adamlardan deyiləm. Sən bilirsən ki,mənim şirkətim ancaq çoxmərtəbəli binalar tikməklə məşğul olur. İstəyirsən o binalardan bir neçəsində sənə bir neçə mərtəbəni verə bilərəm. Üstəlik hansı marka desən maşın ala bilərəm. Dünyanın daş-qaşı ilə bəzəyərəm səni.

**Fontomas qadın** (ona kinayə ilə): Elə əli açıqsansa bircə dəfə qaçqın düşmüş rayonunun çadır şəhərciyinə gedəydin, o çırın-çılpaq qaçqınlara baş

çəkəydin, onların uşaqlarını geyindirəydin.İndi işin bərkə düşən kimi rüşvət təklif edirsən. Elə bilirsən sənin bu yazıq görkəminə yazığım gələcək. Xeyr, burdan «Bakı Soveti» metrosuna qədər ayaqlarımın altına qızıl səpsən də xeyri yoxdur. Sən hökmən gedəcəksən. Hökmən.

**Rəis:** (Təlaşla) Hara gedəcəm ?

**Fontomas qadın:** Hara olacaq cəhənnəmə, gora. Bu var-dövlətin içində, camaatın başını kəsə-kəsə yaşadığın bəsdir. İndiget,gör jəhənnəmdə nə var, nə yox ? Ordakılar səndən kəm kişilər deyillər ki?

**Rəis:** Çəkdiyin və göndərdiyin kadrlar üçün var-dövlətimin yarısını verərəm.

**Fontomas qadın:** Yox, əşi. Bəlkə mən hamısını istədim. Hamısına dururam. Sabah bu vaxt nə yoxuna razıyam,ya yox sizə deyərəm. Sizin bütün telefonlarınız mənim əlimdədir. Zəhmət çəkib telefon nömrələrinizi dəyişmək barədə düşünməyin. Sənin bilmədiyin bir çox koordinatlar var ki, onu da biz bilirik, cənab rəis. Dən yeyən quş dimdiyindən tələyə düşər, cənab rəis (istehza). Mən də sizin zənginizi gözləyəcəyəm. Yaxşı-yaxşı fikirləşin. Hər şeyi bütövlükdə sizin həyatınız bu bir sutkalıq fikirlərinizdən asılıdır. Dediyimiz dedik olsa onda canını qurtararsan. Çao. (Fontomas qadın sağ əlini havada yellədə-yellədə səhnədən çıxır)

**Rəis** ( qanı qaradı. Bıçaq vursan qanı çıxmaz) A kişilər hardan ilişdim bu toğu-lənətə.Min dəfə özümə demişəm ki, tanımadığın adamla işin olmasın.Bu da mənim özümə düşmənçiliyim.İndi gəl dişinlə-dırnağınla yığdıqlarını bir küçə qızına ver, nə var, nə var ki?... Kül olsun mənim bu altmış razmerlik başıma ki,içində ağlı yox imiş. (Açılan qapının səsinə köməkçi otağa daxil olur)

**Köməkçi:** Cənab rəis,nəyə görəsə sizi qanı qara görürəm. Nə məsələdi.Mən həmişə sizə deyirəm

axı,bu qadın xeylağına etibar yoxdur,onları tək qəbul etməyin, onların çoxu şər-şəmatadır. İndi sizin görkəminizə baxıram.(Rəis onun sözünü kəsərək):

**Rəis:** Sən də arvadlar kimi qiybət qırma. Məni tək burax.Tək qalmaq istəyirəm.

**Köməkçi:** Bəlkə maşını çağırım sizi evə aparsın.

**Rəis:** Ay kişi,sənə nə deyirlə onu da elə. Məni tək burax!

**Köməkçi:** Baş üstə, cənab rəis!

**Rəis:** Kül olsun sənin cənab rəisinin başına. (Öz-özünə). Gör kimlərə bel bağlayıb, kimlərin qarşısında qayış açırıq. Bu da mənə və mənimkimilərinə azdı.Cibimiz boş olanda heç belə şeyləri düşünməzdik, elə ki,əlimiz cibimizdə pula dəyir yeni sevdaya,indi modda olan «Raznabraziyaya». Müxtəlif rəngli,müxtəlif çeşidli bu qadınlar şəhərin ən zəngin kişilərinin dərilərini soymaqda davam edirlər.Bizim dərilərimiz onların o zərif əllərinə və uzun dırnaqlarına halal olsun. Bir azdan şəhərimizin kişiləri o qadınların qarşısında əsil müflis görkəmində sıralanacaqlar. Hələ suyun şırıltısına qulaq asaq,görək axırı necə olur.(Səhnə qaranlıqlaşır. Pauza.Qısa fasilədən sonra işıqlar yanır. Yenə həmin şəkil. Rəisin iş otağı. Rəisin keyfi pozğundur. Xeyli sükutdan sonra)

**Rəis:** Bu da işlərin sonu. Buna baxın,bir qadın bizi məhşər ayağına çəkir. Ya tamamilə biabır olmalıyam, ya da var-dövlətimdən olmalıyam. Belə bir misal da var. Əgər mal-dövlətini itirmisənsə demək sən heç nə itirməmisən. Əgər sağlamlığını itirmisənsə demək həyatının yarısını itirmisən. Əgər şərəfini itirmisənsə demək hər şeyini itirmisən. Mən hər şeyimi itirmək istəmirəm.Cəhənnəm olsun o pullar,o daş-qaşlar,o ləl-cəvahirlər. Mənə öz ailəmin,uşaqlarımın təmiz adı lazımdı. Şirkəti bütün texniki və iqtisadi

göstəricilərilə birlikdə o qadına və onun daxil olduğu bandit qrupbasına verməyə hazıram. (Telefon zəngi. Rəis mizin üstündən yanaşı dayanmış beş ədəd əl telefonundan birini götürür. Təəccüblə) Bu nömrəni mən heç kimə verməmişdim axı. (Telefonu qapadır o biri telefonlar ardıcıl zəng vurduqca, bir-bir qapadır. Zənglər,zənglər) Lənət şeytana, növbəti zəngə cavab verəcəm. (zəng) Bəli, eşidirəm. Sizsizmi.Niyə pis deyiləm. Hələ bir keyfimi də xəbər alırsınız. Keyfiniz yaxşı olsun xanım qız. Şəkillərim yaxşı çıxıb? Gətirin, gətirin satın mənə. Başqası mənim çılmaq şəklimi neynir ki?! Bəlkə başqasınada lazım oldu. Neynək kim istəsə ona da verərsiniz. Qoy onlarda feyziyab olsunlar. (o gülür. Bu gülüşdən daha çox ağlamağa bənzəyir). Hə razılaşıram. Şirkətimi bütövlükdə sizə hədiyyə verirəm. Vəkilinizi göndərin.

**Səs:** Vəkil lazım deyil. Bəs nə təhər edək. Mən sizin heç kim nömrəsini bilməyən telefonunuza bütün kodları yerləşdirmişəm. Həmin hesabla hesablaşa bilərsiniz. Siz çox ağıllı adamsınız. Şərəfinizi, namusunuzu qoruyursunuz. Sağ olun. Cavab zənginizi gözləyirəm.

**Rəis** (telefonu yerə qoyur) Mat-məhəttəl qalmalıdı. İndiyə kimi görünməyən bir işdi.A kişilər bu boyu-buxunu ilə zabutasına bax.Vallah Respublikanın ən böyük adamı adamınan belə danışmaz ki, bu qız danışır.İt aparan olsun ona verəcəyim şirkətin elə bir malı-mülkü də qalmayıb daha. (Telefonlardan birini götürüb nömrələri yığır). Alo, bəli, mənəm. Dediklərinizə razıyam. Telefonu söndürür. İşıq sönür.

(Fontomas qadının evi. V şəkil. O çox şıx görünür. Müasir dəbdə geyimdə. Güzgü qarşısında özünə baxır):

**Fontomas qadın:** Pis deyiləm əslində. Kişi olsaydım mən də ilk baxışdan vurulardım. Bütün əzalar yerbəyerində, üstəlik də işvəm, nazım da istiotum, duzum da öz yerində. (özü-özünə):-Yaxşı, yaxşı özünü görmək və güzgüdə öymək vaxtı deyil bizi yeni əməliyyatlar gözləyir.Gündən-günə şefimiz məni daha çox qiymətləndirir. Yaxşı adamdı. Qıymaz ki,bir imkansızın ayağına daş dəysin. Heç imkanlınında,əgər o dövlətinə,xalqına namusla xidmət edirsə. Bir nəfərlə görüşməliyəm. Görün nə qədər qudurub ki,dövlətin əsas vəzifələrindən birini tuta-tuta müxalifətə qulluq edir.-Mitinqlər keçirilməsini mahiyyələşdirir, dövlətimizi istəməyənlərlə dostluq edir,onlardan qrant və dəstək alır. İndi sizin gözləriniz qarşısında onunla görüşəcəyəm. Siz də yaxşı-yaxşı baxın o nadürüstün əməllərinə. ( açıq qapıya doğru hərəkət edir. Səhnə onunla birlikdə dönür. Deyilən kabinet və həmin kabinetin ağası telefonla danışır):

**III Rəis:** Siz kimsiniz?! Hə,hə bildim,bildim. Sizin haqqınızda mənə çox şey deyiblər. Siz nə qədər cazibədarsınız. Hardan bilirəm ? Mənə deyilənlərdən və danışığınızdan. Elə indi. Gözləyirəm,gəlin. Sizin qarşınızda kim dura bilər. Sizin kimi xanıma həmişə yaşıl işıqdır.Nə vaxt ürəyiniz istəsə qapımız üzünüzə açıqdır.Bəli. Kim deyir.Deyirlər ki,mən heç kimi qəbul etmirəm ?! Bu ağ yalandır. Adamlar ayrı siz ayrı. Nə qədər məlahətli səsiniz var. Krılov kimdir. Təmsil nədir. Nə qarğa. Ay kişinin qızı sənin səsindən hələ bu günə kimi eşitməmişəm. Mənə nə təmsil oxuyursan.Gəl söhbəti üzbəsurata saxlayaq.

(Yenə səhnə hərəkət edir. Yenə həmin şəkil. III rəislə fontomas qadın)

**III Rəis :** Təsəvvür etdiyimdən də gözəlsiniz çox gözəlsiniz.

**Fontomas qadın:** Komplimentinizə görə sağ olun.

**III Rəis:** Bu bir həqiqətdir,kompliment deyil, doğrudan da gözəlsiniz.Nə yaxşı ki,dünyada hələ sizin kimi gözəllər var.

**Fontomas qadın:** Adamı,lap utandırırsınız. Yaxşı olar ki,söhbətimizin canına gələk.Siz məni,məhz məni görmək istəmirsiniz.

**III Rəis :** Vallah,sizi o qədər təriflədilər ki,ürəyim uçundu, dedim görüm nə təhər qızsınız ki,tərifləyənin tərifi ağzına sığmır.

**Fontomas qadın:** Və indi gördünüz ki,həmin tərifə dəyməzmiş, eləmi?

**III Rəis:** Sizin nə danışdığınızdı? Yoxsa istəyirsiniz ki, sizin tərifinizi bir az da davam etdirim. Sadəcə onu deyə bilərəm ki,sizdən yoxmuş.

**Fontomas qadın:** Elə sizdən də. Mənim də təsəvvürümə gəlməzdi ki, siz bu qədər alicənabsınız, qadınlara bu qədər qiymət qoyansınız. Bu qabiliyyət və ürək hər kişidə olmaz. Siz onların ən qəşəngi və ən cəsarətlisiniz.

**III Rəis:** Cəsarətli olduğumu hardan bildiniz. Axı, mən hələ sizinlə təzə tanış olmuşam.

**Fontomas qadın:** Təzə tanış olsaqda elə bilirəm ki, on illərin tanışıyam. ilk görüşdə mənə bu qədər isinişmək hər oğulun işi deyil. (Telefon zəng çalır. Rəis dəstəyi qaldırır)

**III Rəis:** Eşidirəm,eşidirəm. Necə? Təyyarə gecikir? Niyə? Niyəsini bilən yoxdur? Onda yazıqlar öləcəklər.(Dəstəyi yerinə qoyur)

**Fontomas qadın:** Kim öləcək? Niyə öləcək?

**III Rəis:** Delfinləri deyirəm. Axırıncı oğlum üçün Meksika körfəzindən gətizdirirəm,təyyarə də gecikir.

İndi uşaq ağlayıb özünü öldürür ki,delfinlərim köhnə suda öləcəklər.(əl telefonunu götürüb nömrələri yığır): Təyyarə Meksikadan çıxıb,ya yox?! Telefon zəngi çatmır? Tez-tez əlaqə saxlayın. Mənə təcili xəbər çatdırın. Hə,xətdən çıxmayın.

**Fontomas qadın:** Bu necə olan işdir,cavan oğlan Xəzərin suyundan delfinlərə vermək olmaz.

**III Rəis:** Olmaz,xanım qız olmaz. Gərək delfinlərin «Radnoy» suyundan olsun. Onda delfinlər daha rahat yaşayırlar. Həyətimiz elə bil zooparkdır. Kiçik oğlum həvəskarıdı.Bütün heyvanları yığıb bağa. Özü də səhərdən-axşama kimi delfinlərlə oynayır.

**Fontomas qadın:** Meksika körfəzindən su neçəyə düşür üstünüzə. Baha olar. Allah,allah.

**III Rəis:** Baha,ya ucuz. Uşağın ürəyini sıxmayacağıq ki? Qurbandı oğluma bütün var-dövlətim. (Telefon zəngi): Eşidirəm. Ay xeyir xəbər olasan. Azalıb çatsın. Lap yaxşı .Əlaqə saxla,maşınları göndər hava limanına lap əla. Həmişə ayıq-sayıq.(Qadına tərəf çevrilir): Bağışlayın, siz allah.Bu delfinlərin su məsələsi məni lap narahat edir. Bircə gəlib çıxsaydı, bu uşaqda səsini kəsərdi.

**Fontomas qadın:** Doğrudan siz nə qədər xeyirxah və alicənabsınız.Bir delfinin kirlənmiş hovuzunun suyunu dəyişdirmək üçün yüzminlərlə dollar xərcləyirsiniz. Qəribə işlər varıymış.

**III Rəis :** Heyrətlənməyin xanım qız,yüzminlərlə nədir ki, lap milyonları xərcləyərəm ki, təki oğlum narahat olmasın.Təki onun istəyicən olsun hər şey.

**Fontomas qadın:** Cənab rəis !

**III Rəis** ( qadının sözünü kəsərək): Siz mənə sadəcə adımla müraciət edin. Sadəcə adımla.

**Fontomas qadın:** Sadəcə adımızla.Siz bütün uşaqları belə sevirsiniz,yoxsa təkcə öz övladlarınızı?

**III Rəis:** Sizə düzünü deyəcəyəm. O vaxt ki, televiziyada çıxış edirik onda dünyanın bütün uşaqlarını, cinsindən, irqindən asılı olmayaraq uşaqların hamısını bağrımıza basırıq. Qəzetdəki, çıxşlarımızda da onun kimi. Ancaq aşkarlıqda bu məsələni diqqətə gətirəndə öz uşaqlarımız önə çıxır. Kim durub desə ki,qonşu uşağını özününkündən çox istəyir yalan danışır. Siz hələ çox cavansınız gələcəkdə görəcəksiniz ki, öz uşağı ilə özgə uşağı nə deməkdir. Bu qədər çalışırıq,bu qədər çabalayırıq,nədən yana, o delfinlər üçün ağlayan oğlumdan yana,xoşbəxt görmək istədiyim qızımdan yana.Yoxsa mənə nə düşüb ki,səhərdən axşama. Ona bəli,buna baş üstə deyim.

**Fontomas qadın:** Siz hər hansı bir partiyanın üzvüsünüz yoxsa bitərəfsiniz?

**III Rəis:** Bitərəf nədir,gözəl xanım. İndi bitərəf yaşamaqmı olar? Mən partiya üzvüyəm, özü də iqtidar partiyasının üzvüyəm. Həm də onun siyasi şurasının üzvüyəm. Partiya liderlərindən biriyəm.(Telefon zəng çalır.Rəis telefonun dəstəyini qaldırır): Eşidirəm. (həyacanlanır) Nə danışırsan.Ə, nə gic-gic danışırsan. Necə yəni su gətirən təyyarənin yük lyuku açılıb. Sulara nə olub. Hara düşüb. Sabirabadda qaçqın şəhərciyinə. Ə sənin nə danışdığındı? Kim dedi bu bəd xəbəri? Ay o təyyarə sürənlərin atalarına lənət. Öyrən gör su doldurulmuş kisələr parlamayıb ki? Sənə nə deyirəm onu da elə. Bəs təzə gətiriləcək delfinlər necə? Onlar yaşayır? Təcili hava limanına gedin. Onlaprı gətirin bağa.Vay başıma gələn,bu uşağa nə deyəcəyik.

**Fontomas qadın:** Cənab rəis, belə tünd işiniz varıydı deyəydiniz gəlmədə. Belə olmaz ki...Bir delfin qədər yoxuq.

**III Rəis:** Əstafullah de.Delfinlərin öz yeri, sizin öz yeriniz. Sizin kimi bir gözəl xanım,heç delfinlərlə müqayisə etmək olarmı? Əsla yox. Sadəcə işin bu

vaxtına düşdü ilkimiz. Səbriniz olsun hər şey yaxşı olacaq.

**Fontomas qadın:** Nə yaxşı olacaq?

**III Rəis:** Nə yaxşı olmalıdı,əlbəttə ki,görüşümüzü deyirəm.

**Fontomas qadın:** Deyəsən, bizim görüşümüz baş tutan məsələyə oxşamır. Niyəsini xəbər almayın, çünki biz ayrı-ayrı adamlarıq. Mən nə həvəslə sizin görüşünüzə gəlmişəm,siz də bir saatdı sudan, təyyarədən, delfindən danışırsınız. Qəribə adamsınız vallah. Azərbaycanın Qarabağ hissəsi qədər də əlimizdən alınsa heç alnınızı qırışdırmarsınız. Çadır şəhərciklərində minlərlə uşaq gündəlik qayğılar üçün ağlayır, heç sizin vecinizə də deyil. Amma sizin oğlunuz ağlamasın deyə dünyanın o başından delfinlər və delfinlərin sizin dilinizlə desəm «Radnoy» dənizindən və ya okeanından su gətizdirmək kimi ağır bir işi yerinə yetirirsiniz.(Bir qədər sükut). Heç o çadır şəhərciyində olubsunuz?! (III Rəis gözlərini döyür) Sualıma cavab vermək istəmirsiniz.

**III Rəis:** Nə cavab verəcəyəm. Siz məni sorğu suala tutmaq üçün gəlmisinz, yoxsa...

**Fontomas qadın:** Hər ikisi üçün. Lazımsa ikinci sualımı verə bilərəm.

**III Rəis:** Buyurun əgər çox vacibsə sualınızı verə bilərsiniz. Siz daha çox siyasət adamına bənzəyirsiniz. Hansı partiyanın təəssübkeşisiniz.

**Fontomas qadın:** Mən heç bir partiyanın nə üzvüyəm,nə də təəssübkeşiyəm. Mən sadə bir vətəndaş, sizin kimi kişilərin qarşısında bir gecəqondusuyam. Ona görə də bu gecə sizin qonağınızam. Yaxşısı budur ki,siyasətlə bu gecənizi zəhərləməyək, dadını qaçırmayaq. Onsuz da sizin işiniz başınızdan aşır.

**III Rəis:** Siz nə qədər də qayğıkeşsiniz. Mən də o fikirdəyəm ki,gecəmizi korlamayaq. Sizin professiyanız nədir?

**Fontomas qadın:** Anlaya bilmədim. Mən ilk kərədir ki,belə sual eşidirəm.

**III Rəis:** Narahatçılığa əsas yoxdur. Hansı institutu bitirməyinizi xəbər alıram.

**Fontomas qadın:** İqtisadiyyatçıyam.

**III Rəis:** (özü-özünə) Deməк belə, iqtisadiyyatçısınz. Demək siz iqtisadiyyatı, gəlir-çıxarı yaxşı bilirsiniz?

**Fontomas qadın:** Yaxşı da demək olmaz,pis də. Kökümüzü sudan çıxarırıq. Elə belə. İqtisadiyyat bu günün pofessiyasıdır. Kim ki,gəlir-çıxarını yaxşı bilmirsə o batdı, həm işdə, həm ailədə batdı.

**III Rəis:** Sizin iqtisadi siyasətə münasibətiniz necədir? Necə bilirsiniz iqtisadiyyat siyasəti boğa bilər, ya siyasət iqtisadiyyatı? Hansı hansını? Bu sualı çevrəmdəkilərin çoxuna vermişəm. Ancaq heç birindən qənaətləndirici cavab almamışam. Sizə görə bu güc hansı tərəfindən,iqtisadiyyatın,ya siyasətin.

**Fontomas qadın:** Bu sual əslində çətin olduğu qədər də maraqlı sualdı. Belə bir müqayisə etmək istərdim. Ağılla ürəyin müqayisəsini aparaq. Əgər başda olan ağıl sinədə olan duyğular dəyirmanı ürəyin qulaqlarını burmasa bilirsiniz nələr baş verə bilər. Təsadüfü deyil ki, ürək iki qulaqcıq və iki mədəcikdən ibarətdir. Baxın ürəkdə mədəcik. Qulaqcıqdan keçən qan mədəcikdə toxtamamış yenidən sağa-sola qan vurur və o da baş beyini qidalandırır.Gərək imkan yaratmayasan ki, nəyin varsa mədənə xidmət edə. Elə etmək lazımdır ki, ürəyin sistola, diasdası pozulmasın, yəni bir tərəfi iqtisadiyyat barədə düşünəndə,digər tərəfi mənəviyyat barədə düşünsün. Qisası iqtisadiyyat görünəndi, yəni naturadı, siyasət isə görünməyən

naturadı. Onu özümüz yaradırıq.Yəni nəyə isə oxşadırıq. Məsələn sizin daha çox yaxın olduğunuz və daxilən xidmət etdiyiniz narıncı rəng kimi. Məsələn, siz dövlət vəzifəsinin ən yağlı yerində oturmusunuz,var-dövlət başınızdan aşır, bu sizin iqtisadi durumunuzdur. O gündən günə çoxalır. Pulunuz çoxaldıqca da fikirləriniz parçalanır. Hazırda xidmət etdiyiniz partiyada və onun liderində kölgəli tərəf axtarırsınız. Onların pulu mənimsəyib narıncı tərəfə xərcləyirsiniz. Pulunuzu bir növü siyasiləşdirirsiniz.Sizin gözləriniz daha yuxarı posta zillənir.Bax, budur iqtisadi siyasət.

**III Rəis** (heyranlıqla): Bəh,bəh sən qəribə savadlı qızıymışsan. Halal olsun sənə....

**Fontomas qadın** (onun sözünü kəsərək): Nə halal olsun mənə.

**III Rəis:** Anandan əmdiyin süd deyirəm.Həm gözəl olasan, həm də bu qədər mühakimə yürütməyi bacarasan. Hər kəsə qismət olan iş deyil. Sənin mühakiməndə hər şeyi yerli-yerində anladım,ancaq bircə şeydən başqa. Bu narıncı rəng nə məsələdir ? Bax,bu rəng məsələsi məni bir az çaşdırır. Siz bu rəngi xatırlatmaqla nəyi yada salmaq istəyirsən.

**Fontomas qadın:** Heç, elə belə. Sadəcə iqtisadi-siyasət barədə danışdım axırı gəlib çıxdı rəngə. Mənə elə gəlir ki, hər şeyin rəngi olduğu kimi iqtisadiyyatın da, siyasətində öz rəngləri var.

**III Rəis :** Bir o qalmışdı onları da rəngləyək.

**Fontomas qadın:** İnanmırsınız onların da öz rəngləri var? İnanmayın.

**III Rəis:** Məsələn onların konkret rəngləri hansıdır.

**Fontomas qadın:** Onların konkret rəngi olmaz. Onlar da insanlar kimidir. İnsanlar neçə gündə bir rəngə çalırlarsa iqtisadiyyat və siyasət də elədir. Ağdan tutmuş ən tünd rəng hesab edilən qara rəngə

kimi hamısını onlara aid etmək olar. Hərə öz rəngi nə uyğun olaraq onları görür.

**III Rəis:** Mənim də dünyada bir sevdiyim rəng var. O da qara rəngdir.Özümdən tutmuş qapıdakı maşınıma qədər hamısı qara rəngdədir.

**Fontomas qadın:** Ancaq hər kəsin öz rəngi olmaqla yanaşı həm də digər hər hansı bir rəngdə rəğbəti olur. Məsələn mənim sevgim firuzəyidi,yaşıl rəngi isə dəstəkləyirəm. Bəs,sizin. Eşitmişəm ki, siz narıncı rəngi daha çox dəstəkləyir və sevirsiniz. Hətta, bunu da deyirlər ki, sizin qarderobunuzda müxtəlif rəngli qalstuklar var, qəbul edəcəyiniz adamın partiya təəssübkeşliyinə uyğun olaraq qalstukunuzu dəyişirsiniz.

**III Rəis:** Xanım qız,siz deyəcək hansı simə toxunduğunuzu yaxşı bilmirsiniz. Sizin toxunduğunuz sarı sim mənim ki, deyil. Deyəsən biz tamam siyasiləşirik.

**Fontomas qadın:** Hələ tamamilə demək olmaz.Bir qədərdən sonra bəlkə də siyasiləşdik. Çünki, biz artıq qütbüləşirik.

**III Rəis:** Ay qız,gözəl və yaraşıqlı xanım, deyəsən buraya nə üçün gəldiyini unutmusan axı?!

**Fontomas qadın:** Xeyir, unutmamışam. Sözümüz sözdür. Bu qədər sözün bizim sözümüzün arasına soxulmasına gəlincən o da sizin günahınızdır. Mən sizin otağınıza girəndən delfinlərdən, Meksika körfəzindən gətirilən su olan, ağlağan oğlunuzdan danışmağa başladınız. Mənim bir neçə dəfə replika verməyimi belə əhəmiyyətsiz hesab etdiniz. İndi də deyirsiniz ki, digər söhbətləri yekunlaşdıraq. Mən də bu fikirdəyəm. Nə qədər ki,bu büllur çılçıraqlar yanır o bizim nə qədər qaranlıq yerləriniz var işıqlandıracaq. Deyin işıqları söndürsünlər.

**III Rəis :** İşıqları söndürün.

(İşıqlar söndürülür.Hər tərəf zülmət gecənin qara xofunda darıxmaqda)

**Qaranlıqdan səs:**Telefonları söndürün.

**Səs:** Hə,bəs sən.

**Səs:** İşıq sönən kimi necə də səmimi olduq. Artıq sizlə yox,sənlə danışmağa başladıq.

**Səs:** Bu qaranlıq mənə bir rahatlıq gətirdi.

**Səs:** Mənə də.

**Qadın səsi:** Deyirlər siz dövlətdən çırpışqırıb müxalifətə verirsiniz,onları gücləndirmək istəyirsiniz. Bunun doğru olduğuna çoxları o cümlədən mən inanmıram. Əgər belədirsə bu sizin nəyinizə gərəkdir. Onsuz da sizin çox böyük və həm də çox gəlir verən vəzifəniz var. Tutalım ki,sizin kömək etdiyiniz adamlar hakimiyyətə gəldi,onlar sizə postu tapşıracaqlar ki, indikindən baş və indikindən pulu olsun.

**Kişi səsi:** Heç hənanın yeridi. Bu sualı verəcəydinsə işıqları niyə söndürürdük.

**Qadın səsi:** Ona görə sənə bu sözləri qaranlıqda deyirəm ki, birinci üzümə baxanda xəcalət çəkməyəsən, nə qədər olsada yenə yaşlı adamsan, ikincisi tamaşa zalında oturanlardan sənin aqibətində olanlar bir-birini görüb xəcalət çəkməsinlər. (Pauza). Deyirlər narıncı inqilab etmək üçün varını-yoxunu verməyə hazırsan. Tutaq ki,narıncı inqilab oldu,yenə deyirəm gələnlər sənə nə verəcək.

**Kişi səsi:** Əslində heç nə verməyəcək. Bəlkə əlimdəkini də aldı. Ancaq neyləyim ki, mənim şakərim də ev yıxmaqdır. Adamlara pislik edəndə ləzzət alıram.

**Qadın səsi:** Ürəyinizdən nə keçir deyin,onsuz da gecə qara,cücə qaradır. Dərə xəlvət,tülkü bəydir.

**Kişi səsi:** Deyəsən yavaş-yavaş həddinizi aşırsınız axı. (O hirslə qışqırır) İşıqları yandırın: (Onun səsinə əhəmiyyət verilmir).

**Qadın səsi:** Özünüzü yormayın. İşıqları söndürməyi mən xahiş etmişdim. Yandırmağı da mən xahiş edəcəyəm.(o sualla mürajiət edir) Darıxdınız? Sizi çox həyəcanda saxlamaq istəmirəm. Mən sözümü bitirdim. Məni dinləyirsiniz.

**Səs:** Hər şey qaydasındadır.

**Qadının səsi:** Onda xahiş edirəm işıqları yandırın. (İşıqlar yanır. Səhnə işıqlar sönənə qədərki səhnə. III Rəisin otağı,o qanı qara halda dayanıb. Arxası qadına tərəfdir. O hikkə ilə dönərək qadına):

**III Rəis:** Bu nə deməkdir. Səni kim öyrədib göndərib bura?

**Fontomas qadın:** Bunu siz yaxşı bilirsiniz. Kimin məni sizin yanınıza göndərdiyini məndən niyə soruşursunuz. Niyə ondan soruşmurdunuz ki,a bala mənim yanıma göndərdiyiniz adam kimdir? Nə işin sahibidir. Siz kişilər o qədər şor gözsünüz ki, gördüyünüzdən göz kirası istəyirsiniz.Hamıya axrıncı qadınq kimi baxırsınız. Demirsiniz ki,o da anadır,o da bir kişinin qızıdır. Pulunuz varsa ,elə bilirsiniz nə desəniz o da olmalıdır. Sizin kimilər isə daha qorxuludur. Siz nəfsinizə bütün ölkəni satarsınız. Nəyisə sizin aqibətiniz də bura qədərmiş. Sizlik daha elə bir iş qalmayıb, indi bütün rəngləri bir rəngdə,qaraya da narıncı rəngdə görməyiniz özünüzdən asılıdır, cənab rəis.(ironiya ilə) (O səhnədən çıxa-çıxa üzü tamaşaçılara) Bunlardan sizin içərinizdə də görürəm, onları da təmizləmək vaxtıdır.

İşıqlar sönür səhnə dönür.

(Fontomas qadının evi. VI şəkil O çox dalğındır.Gəlib pəncərə qarşısında dayanır.Xeyli fasilədən sonra üzü tamaşaçı zalına doğru gəlir. Onlarla üzbəüz)

**Fontomas qadın:** Dünənini görməyənlər bu günlərinə baxıb elə əndazədən çıxıblar ki,tanımaq belə

olmur. Bir yağlı tikəyə ömrü boyu həsrətlə baxanlar keçid dövrünün boşluqlarında istifadə edərək milyaderlər oldular. İndi də adlarını sahibkar qoyublar, soyurlar bu millətin dərisini. Düzdür belə bir misal var ki,bal tutan barmaq yalar. Barmaq yalamaq ayrı,lodanı doldurmaq,barmağı bütövlükdə yemək ayrı. Biz alışmışıq ki, insan insana dost,yoldaş və qardaşdır prinsipi ilə işləyək.Ancaq bunlar hər şeyə,hər kəsə özlərindən çox-çox aşağı baxırlar,necə deyərlər yuxarıdan aşağı. Əslində o prinsiplə yaşadığımız cəmiyyətin eybəcərliklərindən biri də bərabərlik pirinsipi idi. Nə elə olaydı,nə belə. ( Öz-özünə sual verirmiş kimi) Bərabərlik dediyimiz dövründə o qədər süni bərabərlik yaratdılar,üzr istəyirəm hırnan zırın fərqi qalmadı. Bu fərq qalmayandan sonra dağıldı o köhnə tikili və keçdik bazar iqtisadiyyatı dövrünə. Qoruq, qadağa zəncirləri dağıdıldı,adamlara sərbəstlik verildi. Bu sərbəstlik də ağlı olanlar qaz vurub qazan doldurdular,ağlı kəmlər isə başladılar onların gəlir-çıxarını hesablamağa. İnanın elə işlər baş verib ki, eşitsəniz qulaqlarınızı tutub qaçarsınınz. O, qədər acı-acı gülərsiniz ki, gözlərinizin acı suyu qurtarar. Adlı-sanlı bir ailə tanıyıram. Elə siz də həmin ailəni yaxşı tanıyırsınız.Adını demirəm. Ehtiyac ucundan şəhərin mərkəzindəki evini kirayə verib köçüb «Günəşli» massivində təmirsiz filansız bir evə. Nə var, nə var yaşayış çətinləşib. Qoy yadıma düşmüşkən onu da deyim. Bir zaman Bakının sahil boyu küçələrindəki binalarda yaşayanların əksəriyyəti ermənilər və digər qeyri-azərbaycanlı idilər. Hakimiyyətə gələn o vaxtkı qarmaqarışıqlıq yaradanlar mərkəzdəki evlərin zəbt edilməsinə nail oldular. İndi kim kimin yerində dayanıb,bir onu allah bilir. Bunlar hamısı bir faktdır.Və fakt bir də odur ki, bu günkü var-dövlət sahibləri dünənki bürokratlardan heç nələri ilə fərqlənmirlər.

Onlar da xalqa zot verirdilər,bunlar da. Nə fərqi onların bunlardan, bunların onlardan. (Bir qədər susur). Bu həyatda məni artıq bezdirib. Fikirləşəndə nə iş görürəm hövsələm qaçır. Kimin əlindəsə kiməsə qarşı alət olmaq nə qədər pi sbir iş imiş. (Bir qədər danışmır) Siz elə bilməyin ki, kiməsə canım yanır. Yox! Bu bəzi qudurmuşlar ki,var onların qanını içərəm,bir dəfə uf demərəm.Mənə inanın. Elə bilməyin ki, bu işdə təkcə kişilərə qarşı belə qəddaram. Xeyr? Mən həm də qadınlara, yəni özümüzə qarşı eləyəm.Bizi kimsə zorla əldə edə bilməz,olsa da həmin adamlar filimlərdəki kimi görünər.Hərislik sözü bizim boyumuza biçilib. Əlbəttə,hamısı haqqında danışmaq istəməzdim. Haqqında danışmaq istədiklərim də bir zamanlar kişilər tərfindən hərtərəfli istismar olunanlardır. Onları bu qədər həris edənlər də kişilərdir. Gəlin birlikdə birinin qonağı olaq.

(Səhnə dönür.Səhnə qaranlıqlaşıb işiqlanır.Son moda ilə geyinmiş boylu-buxunlu,çox yaraşıqlı bir qadın fontomas qadınla birlikdə. Elə ürəkdən gülürlər ki, mənzil sahibi qadının az qalır ürəyi keçsin.O gülüşünü güclə yığışdırır.Sözə fontomas qadın başlayır)

**Fontomas qadın:** Dünya vecinə deyil,Araz aşığındandı, Kür topuğundan. Elə bil ki, dünyada nə dərdi var, nə qəmi. Əslində isə göründüyü kimi deyil, tamam ayrı cürədir.

**Mənzildəki qadın:** Kimiynən danışırsan, gözəlim. Öz-özünə çox danışma, nəyin var sənin. Elə fikirli görünürsən ki!

**Fontomas qadın:** Nəyləməliyəm bəlkə çalım oynayım. Harama baxım sevinim,nəyimə baxım sevinim, hə. Hər şeyim var, ancaq heç nəyim yoxdur. Şəhərin mərkəzindən tutmuş yana-yörəsinə qədər ondan artıq mənzilim var,hamısının da içi dolu,özü də hər şey öz boyuna buxununa uyğun,yüksək konfortla. Ancaq

mən də çox istəyərdim ki,elə birc evim olsun,ancq hər şey ürəyimc olsun. Lap heç evim-eşiyim olmasın. Təki məni kişi kimi sevən olsun. Tək ona məxsus olum. Gözüm təkc oonun gözünə baxsın uşaqlarım olsun,onlar dəcl olsunlar,çox dəcl. Səhərdən axşama kimi günüm mətbəxtdə və vanna otağında keçsin. Bir dəfə özümü ənliksiz, kirşansız, boyaqsız, pedikürsuz, manikürsüz görmək istəyirəm. Bu mütrüb həyat bizi elə günə salıb ki, hər şeyin ləzzətini qaçırmışıq. Pula pul demirik,qızıla qızıl.

**Mənzildəki qadın:** Baho ho! Bu qızın qudurmuşluğuna baxın e... Daha pulu, qızılı bəyənmir. İndi ürəyi kasıb bir kişi istəyir ki, təki ondan uşaqları olsun,sakit bir ailəsi olsun. Huşunu başına yığ,qızım. Heç czığından çıxma. Bu dünya sənin fikirləşdiyin kimi deyil. Dur, iynəni hazırla, vaxtım çatır. Bir buna baxın. Deyəsən axı, gözəlliyinə və cavanlığına güvənirsən. Onlar səni yolundan eləməsin. Səni elə günə salaram ki,üzünə it də baxmaz. Yeri işində ol. Elə bilmə ki,bu yoldan qayıdan kimi hamı sənə can deyəcək,hamının dilindəki,o söyüşlər və qəlblərindəki qəddarlıq azalacaq. Səhvsən qızım,səhvsən. Hər şeyi öz qəlbinlə ölçmə,sən fikirləşdiklərinin çoxu baş-ayaqdır. Sənin, keçmiş mənim və bizim kimilərin taleyi öz əllərində deyil. İndi biz təzə başlayaq ki,billur olmaq istəyirik,daha kirli işlərdən qurtardıq,səhv düşmüş olarıq. Bizim nəfsimiz kimi,nəfəsimiz də korlanıb. Müqəddəsliyimiz itib. Kişilər bizə artıq əyləncə kimi baxırlar. Bir neçə dəqiqəlik ehtiras yuvası kimi baxırlar. Neyləməli? Bu da bizim aqibətimizdir. Çox af-uf eləməkdənsə dur hazırlaş,sifarişçin var,özü də çox yağlı tikədir. Gedib ona maral oxuma,onu elə oxşa,onu elə ələ gətir ki,səndən başqa heç bir qadını gözü görməsin. İndi keçmişindən qisas almağın vaxtı deyil. Bir öz yaşayışına da bax,qohum-qəblənin də yaşayışına.

**Fontomas qadın:** (onun sözünü kəsir): -Sizin dediyinizdən nə çıxır. Siz elə fikirləşirsiniz ki,mən və mənimkilər ömürlərinin ən gözəl çağlarını onun- bunun eyş-işrətində keçirəcəyik əvəzində sən xanım qız da dürmək-dürmək pulların sahibləri olacaqsan. Mən artıq bezikmişəm. Adi səviyyədən hamı kimi yaşamaq istəyirəm. Bəsdir onun-bunun qabağında alçaldığım.

**Mənzilindəki qadın:** Qəribə diplomat olmusan. Elə bilirsən ki, biz bu sözləri deməyi bacarmırıq. Bacarırıq balası,bacarırıq. Özünü çox yorma,bizim içimizdə qurudulmağa müşkül olan bataqlıq kimidir. Başını sal aşağı göyərən qamışlara və quruldayan qurbağalara fikir ver. Başını çox işlətmə.Özü də bəsdir mənə bu namus, qeyrətdən,abır-həyadan dərs verdiyin. Mən bu dərsləri çox görmüşəm və artıq onlara inanmıram. Başını sal aşağı,hara deyirlər ora,haydı irəli.Gözləyənin var. Səni «Kecget» küçəsinin 2-ci tinində qara rəngli «Mersedes-600» gözləyəcək.Sənin görüş vaxtında. Hazırsan?!

**Fontomas qadın** (yarıkönül dillənir): Aydındar. «Prikaz naçalnika zakon» oldu, yoldaş komandir. (öz-özünə bir az da gülə-gülə)qəribə iş yerimiz var artıq bu əsil kişilər məni bağışlasınlar, kişilərin hərəkətləri məni bezdirib. O ehtirasların əsiri olan kişilərdən əvvəlcə qisas alırdım,həm canlarını,həm mallarını,həm də abırlarını əllərindən alırdım. Artıq onlardan zəhləm qaçır. Bir neçə züsusi tapşırıqlarım var,onları da yekunlaşdırım,gerisinə baxarıq. Yaxşı (o çox sərt hərəkətlə) mən getdim. Zəng vur,telefonumu ver ona. Qoy məni arasın. (O səhnədən çıxır, telefon səsi. Səhnə dönür. Səhnə qaranlıqlaşır. Bir qədər pauza olur. Səhnə işıqlanır. Fontomas qadın fikirli və dalğındır. Yenidən telefon zəngi. O əl telefonunu açır): Bəli. mənəm. Danışdığımız yerdəyəm. Sizi gözləyirəm. Gələrsiniz görərsiniz. Yox. canım. Bu nə ədalətsizlikdir. Yox,yox. mən

elə demədim. Siz necə də səxavətlisiniz,sözləri daha yaxşı yaraşır. Elə deyəcəydim. Səbriniz olsun. O sizdə yoxdur? Elə edin ki,olsun. Çünki səbirsiz yaşamaq indi mümkün deyil. Mən də o qədər səbirli deyiləm. Gözləyirəm gəlin. O nətər misal oldu. Birdə deyin xahiş edirəm. Söhbət dananı qurda verər. Nə qəribə misaldır. Görüşəndə görərsən ki, əsil qəribəlik nədir. (Bu sözləri deyəndə telefonu qapatmışdı.) İndi səin yanından iki dənə o misaldan çıxarım, gör və başa düş ki,söhbət, özüdə bizim şirin söhbətimiz danaları neçə kərə qurda verəcək. Gözləyək (qapı döyülür): Buyurun. (içəri çox da yaraşıqlı olmayan,müasir dəbdə geyinmiş 35-40 yaşlarında bir cavan kişi daxil olur.(İçəri girər-girməz əllərini göyə qaldıraraq nəfəsini çəkə-çəkə söhbətə başlayır )

**Gələn kişi:** Allah, allah! Bu doğurdan da deyilənlər qədər yox,deyilənlərdən çox başıymış. Qız ətrinə bihuş oldum.Qız Cozenin əslidir, probnusu deyil. Sənin zövqünə qurban olum qız. Sən nəymişsən. (qız ilk baxışdan ovsuladığı ovuna ayaqdan başa,başdan ayağa nəzər sala-sala,öz-özünə bir az da ucadan tamaşaçıların eşidəcəyi tərzdə):

**Fontomas qadın:** A kişilər,görün ölən günahkardı, ya öldürən. Bu qadın leylacısıdır ki ? Onu bir az sıxım,siz də baxın onun kişi halına. Bəlkə də bir çoxları onun timsalında özünü gördü,bəlkə ağıllandı. Nə isə ona yaxınlaşıram. Görək necə olur. (O nəvazişli addımlarla,əsil naz-naz yerişi ilə ona yaxınlaşır. Əl verib görüşür, onu öpür.Kişinin həyəcandan əlləri əsir. Kəkələyə-kəkələyə):

**Gələn kişi:** Rəbbim mən yuxu görürəm,nədir. (O qızın əllərini iki əli ilə tutaraq sinəsinə qoyur) Bir bax.bir bax.Sevincdən az qalır ki, ürəyim yerindən çıxsın. Səni yaradana qurban olum.səni nə yaradıb. Bilmirəm sənə hansı şirin sözü deyim ki.sənə layiq

olsun. Onları saf-çürük eləyincə günlər keçər,yaxşısı budur ki,elə bu qonur gözlərinə baxım doyunca.Siz nə qədər də gözəlsiniz,gözəl xanım.

**Fontomas qadın:** O qədər də tərifləməyin. Özümdə təriflənəcək heç nə görmürəm. Sadəcə sizin gözlərinizə elə görünürəm. Mən adicə bir qadınam.

**Gələn kişi:** Xeyr,siz adi qadın deyilsiniz.Siz elə bir cazibədar xanımsınız ki, sizdən heç bir yerdə yoxdur. Nə yerdə var,nə göydə mənə inanın.

**Fontomas qadın:** Siz hardan belə qənaətə gəlmisiniz ki,məndən yoxdur.Bəlkə də nadir nüsxəyəm ki,düşmüşəm bu yer üzünə və bu gün də çıxmışam sizin kimi bir qadın sərrafının qarşısına. Siz doğurdan da qadın nə olduğunu bilirsiniz və ağzınızın dadını da hələ itirməmisiniz. Eşq olsun sizin kimi kişilərə.

**Gələn kişi:** (qadına bir azda yaxınlaşır. Saçlarına toxunur, əyilib qonur saçlarından öpür,onun saçlarını iyləyir): Ətrindən bihuş oldum, gözəl. Ay dünya malına qurşananlar gəlin görün məni,görün ki,o dünənki dilənçi mən hansı xoş günləri yaşayıram. Əhsən səni yaradan xaliqə. (O qadını öpmək istəyir).

**Fontomas qadın:** (astadan): Ayıbdır görərlər, hər tərəf işıqdır.Heç olmazsa işıqlardan bir az kənara çəkilək. (O səhnədən kənara çəkilə-çəkilə) Bu kişi o birilərinə heç də bənzəmir. Bunun hərəkətləri kişidən daha çox qadına bənzəyir. Yadıma hormonlar barədəki bir həqiqət düşür. Məsələn, endorfen enkefalin hormonları qadınlarda o qədər oyaqdır ki,adi halda belə gülmə,şənlənmə və digər mərkəzləri qıcıqlandırır. Ona görə də qadınlar daha çox şənlik sevirlər və şəndirlər. Bu hormonlar qadınlarda isə stimul olmalıdır ki,bu hormonlar ifraz olunsun. Buna görə də kişilər içkiyə və siqaretə belə aludə olurlar. Onlar da olmasa onların alt dodaqlarını yerdən qaldırmaq olmaz. Bu kişilərdə də deyəsən endorfin enkafalin hormonları öz-özünə ifraz

olunur. Yoxsa bu qədər həyasız olmazdı ki? Lap qır saqqıza oxşayır.İndi onun yanından ondan bir dənə də çıxarım,atasının toyu yadına düşsün. (O çevrilib arxasınca gələn kişiyə): -Bərk yorulmuşam. Bir şey hazırlatdır. Əvvəlcə duş qəbul edək,sonrasına baxarıq.

**Mənzilindəki kişi:** Baş üstə,xanım,baş üstə. Nəyim varsa sənə qurbaq, evim-eşiyim, bacım-qardaşım, dağım-daşım, dənizim-çayım,günüm-ayım hamısı sənə qurban. O qonur gözlərinə qurban. O büllur sifətinə qurban.

**Fontomas qadın:** (yana)Demir o büllur nifrətinə qurban. Bu necə kişidir ilahi!

**Mənzildəki kişi** (davam edir): Sərv qamətinə qurban. Səni mənə tuş eləyənə də qurban olum,sənə də. (O qadını səhnənin görünməyən yeirinə çəkə-çəkə) Ay səni doğan anaya,əkən ataya da qurban olum. Gör dünyada məhz vapriymış,allah, allah!

**Fontomas qadın** (yenə də sözünü yana deyir): Sənin kimi səhvət əsiri nə bilir allah nədir. Sən indi mənim qulumsan, allahın bir bəndəsinin. Allah sənin kimiləri qulluğa belə qəbul etməz,ay yazıq.

**Mənzildəki kişi:** Deyəsən mənə nəsə deməк istəyirsiniz, hə?!

**Fontomas qadın:** Yox, yox! Canım sənə nə deməliyəm. Ən şirin sözləri sən mənə deyirsən.

**Mənzildəki kişi:** Sən ondan şirinlərinə də layiqsən.Sən əmr et,qulluğunda dayanım.

**Fontomas qadın:** Beləlәri bir gecəlik ləzzətləri üçün işğal olunmamış 80 faiz torpaqlarımızı bir güllə atmadan belə düşmənə verərlər. Etirasların əsiri olan şəxslərə dövlət postlarını necə tapşırıblar görəsən ?! Nə isə bu arvad düşgünü, qıcıqsız qıcıqlanan,özündən endorfini kişi qırığı görək nə aləm qoparacaq. (İşıqlar sönür).

**Kişinin səsi:** Necə də zil qaranlıqdır. Bəs sən harada qaldın? Mən heç nə görmürəm.

**Fontomas qadın:** Ancaq mən səni görürəm. Sən bu görkəmində necə də meymuna oxşayırsan.

**Kişinin səsi:** Nəyə?!

**Fontomas qadın:** Meymuna.

**Kişinin səsi:** Siz məni təhqir edirsiniz?

**Fontomas qadın:** Niyə ki? Sən heç aynada çılpaq şəkilinə baxmamısan?

**Kişinin səsi:** Yox,baxmamışam.

**Fontomas qadın:** Gərək baxaydın.Baxsaydın görərdin ki,mən nə qədər düz danışanam.

**Kişinin səsi:** Nəyi düz danışansan.

**Fontomas qadın:** Onu düz danışanam ki, sən doğrudan da meymuna oxşayırsan.Fu, onun bədəni necə də meymun tükü ilə örtülüb.

**Kişinin səsi:** Siz yalan danışırsınız.Siz məni görə bilmərsiniz. Çünki,mən sizi görə bilmirəm.

**Fontomas qadın:** Bu belə də olmalıdır.Siz məni heç vaxt görə bilmərsiniz.Çünki siz korsunuz,üstəlik də bura qaranlıqdır.

**Kişinin səsi:** Mən niyə kor oluram.Siz axı məni gördünüz, gördünüz ki,mən kor deyiləm.

**Fontomas qadın:** Mən sizin kor olmadığınızı hardan biləydim. Gözünüz olmağına gözünüz varıydı. Amma onun görüb,görmədiyini mən hardan biləydim ?

**Kişi səsi:** Mən ki,sizi dünyanın ən gözəl sözləri ilə vəst etdim. Əgər gözüm yaxşı görməsəydi səni necə görə bilərdim.

**Fontomas qadın:** Yaxşı elə görə bilirsənsə de, indi mən nə haldayam.

**Kişi səsi:** Necə deyim (o ürəkdən gülür) mən necə deyim ki,sən nə vəziyyətdəsən. Onu necə deyim ki?!

**Fontomas qadın** (tamaşaçılara xitabən): Görürsünüz də bu endorfinli kişini, ənliyi kirşanı özündən olan kişini. Özünün şulum olduğunu billə-bilə elə bilir ki, hamı onun kimi düşükdür. Özü lüm-lüt,ona bülbüldür. Elə bilir ki,lənət sənə dəli şeytan. Bir deyir dəli şeytana de, bu işıqları yandırsın ,bu mütrüfün meymun bədənini hamı görsün. Lənət şeytana.

**Kişi səsi:** Ay qız, sənin nə danışdığındı. Başına hava gəlib?! Deyəsən sən bura kim tərəfindən və nə üçün gəldiyini unutmusan axı! Hayıf ki,səni görə bilmirəm,yoxsa səni cıbırıq eləyirdim. Mürtədin qızı,mürtəd. Sən bir bunun əməlinə bax. Məni biabr etmək istəyir.

**Fontomas qadın** (astadan): Paltarlarını geyin. Hələ neçə ki,biabır olmamısan ver seyfin açarlarını. Səni arvad-uşaqlarına keçirəm. Nə qədər olmasan da adının qarşısında mənim millətimin adı var. Azərbaycanlısan. Hayıf bu addan sənə düşən paya. Ə, filan-filan şüdə elə bilirsən ki, sənin kabinetinə girən qadınların hamısı sən fikirləşənlərdəndir. Ay toşmərək qurumsaq. Çəkil yolumdan. Qal bu qaranlıq içində sənin kimilərə işıq hayıfdır. (O səhnənin arxasından tamaşaçı zalına çıxır . Pauza): İndi seyfində nə qədər qiymətli nəyi varsa yığacağam bu boş çantaya (o əlindəki iri çantanı göstərir): Bu meymuna oxşar bulağın başında oturub deyir ki, səni bulağa susuz aparıb susuz gətirərəm. Bu da sənə çatası haqq. Bu çantadakılar da əlil və kimsəsiz ailələrə çatdıracağam.Adını da qoyarıq xeyriyyə tədbiri (öz-özünə danışırmış kimi): Qoy o qaranlıq cüllütü də endorfinini ifraz edə-edə qaranlıqda qalsın. ( tamaşaçılarnan üzbəüz dayanır.Bir xeyli fikirli durur. Dərindən ah çəkir və onlara müraciətlə): Bəlkə siz də onları tanıyırsınız.Bəlkə sizin də içərinizdə elələri vardır.Və hökmən vardır. Ad çəkmək istəmirik. Çünki ad çəkməyə bizim cəsarətimiz çatmır.

Söhbəti uzatmaq istəmirəm. Bizim «Generalnı direktorumuz»la haqq-hesab vaxtı çatıb. Ya allah ona verəcək,ya mənə. Bəsdir belə mundar işlərlə məşğul olduğunuz. Özü milyardların içində üzür.Bizim də adımıza min ad deyirlər. O ki, qaldı bu gün o tösmərəkdən qopardığımı onu ayrı yerə xərcləyəcəyəm. Daha o primaddonnanın dediyi ilə oturub-durduğumuz bəs edər. Mən və mənimkimilər nələr itirmişik. Nə üçün, kim üçün,nədən ötəri.İndi bizim «Generalnı direktorumuz»a baxanda özümü gələcəkdə olsa-olsa onun yerində görürəm. Biabırçılıqdır.Gör bizim perspektivimiz bizə nə deyir.Otuzu haqladım. Bundan sonra bir otuz da yaşaya biləcəyəmmi? Bunu bir allah bilər. Bir də ki,yaşayıb yaşamamağın nə əhəmiyyəti var. Bir dəfə yaşamalı həyatı kül elədim,küləyə verdim. Mənim kimilərin hamısı. Gözəlliyimizdən tora düşdük,sonra da o tor bizi sıxdı,sıxdı şirin suyumuzu çıxardı,qaldı ajı suyumuz indi də o şirin suyun yerinə o qədər ənlik kirişan sürtürük, şpaklovka edirik ki, düzəlmir ki, düzəlmir, o şirinlik özümüzə qayıtmır. Sən demiyəsən bizə verilən o yüksək hədiyyələr, ayaqlarımızın altındakı qiymətli maşınlar, tikdirdiyiniz saraylar bir uçuq daxmaya və o daxmanın içində dünyaya göz açan və sənə «ana» deyən bir cocuğun varlığına dəyməzmiş. Hər şeyimi itirdim. Artıq danışmağın.af-uf eləməyin vaxtı keçib, hər şey gecdir. Gərək elə yaşayasan ki, itirməli olan şeylərə gecikəsən. Mən hər şeyə gecikdim. Həyatı başa düşəndə artıq mənə məxsus xoşbəxtlik qatarı getmişdi. Mən indi gecikmiş bir sərnişin timsalında perronda tək dayanıb ağlayıram. Həm də mən tək deyiləm. Müxtəlif dayanacaqlardan, müxtəlif səmtlərə gedən sürət qatarlarının arxasınca həsrətlə boylanan mənim kimi ümüdsiz sərnişinlər nə çox. Çox, lap çoxdur. Bu zamanın eybəcərliklərindən

biri olsa da günahı zamanda yox, özümüzdə axtarmalıyıq.

... İndi mən zamanın yol ayrıcında dayanmışam. Bu ayrılan yolların birində məni həsrətlə gözləyirlər. Orda da özümü yox qazancımı gözləyirlər. Qalan yollar ki,var heç birində gözləyənim yoxdur və mənim həmin yollarla gedəsi üzüm yoxdur. Çünki o yollardan mənə qucaq açan bütün əzizlərimi və doğmalarımı itirmişəm. Mənim kimilərin hamısı. Görüşdüyüm kişilərin çoxu mənim adımı belə bilməyiblər,heç mən də onların adını bilməmişəm. Vacib olmayıb. Kim məni ikinci kərə arzulayıbsa sadəcə şefimizə deyib ki,mənə şirin o fontomas qadın lazımdır. Görəsən ilk dəfə mənə bu adı kim verib. Məni də bu gündən səhnədə görə bilməyəcəksiniz. Gedərək onu sizə deyim ki,siz gördükləriniz səhnələr gördüklərimizin mindən biridir. Özünüzü,ətrafınızı həm özünüzdən,həm də bizdən qoruyun. Vəssalam! Sağ olun, sağlıqla qalın.

2006

# KİTABIN İÇİNDƏKİLƏR

Bu, mən görən şəhər deyil..........................................7
Ağ ölümün ölümü.............................................................15
Ağrının acısı.......................................................................75
Sahilsiz çaylar...................................................................123
Qara qutu və yeddi qapı....................................................156
Yaxşı qonşu, hardasan.......................................................206
Qız üstə dava.....................................................................258
Mələklər və şeytanlar..........................................................308
Fontomas qadın..................................................................333

(Elman Həbib)
Elman Həbib oğlu Hacıyev
**Bu, mən görən şəhər deyil**
*Bakı, Şirvannəşr, 2006*

*Kompüter icraçısı* ***Nazilə Cəlilli***
*İstehsalat müdiri* ***Nərmin İsabəyli***
*Sex müdiri* ***Günel Cəfərli***
*Çapçı* ***Rüxsarə Hüseynli***
*Ofset üzrə çapçı* ***Fariq Tofiqoğlu***

*Çapa imzalanıb* ***03.11.2006***
*Formatı* ***60 x 84 1/16***
*Fiziki çap vərəqi* ***24,5***
*Sayı* ***300***